Ácht || zehntel *n* (6) on səkkizdəbir.
áchtzig *num* səksən; **die ~er Jahre** səksəninci illər.
Áchtziger *m* (6) səksənyaşlı; **er ist ein ~** o, doxsan yaşa keçib.
ächzen *vi* ufuldamaq, zarımaq, nıqqıldamaq.
Áchtzigstel *n* (6) səksəndəbir.
Ácker I *m* (6*) tarla, əkin yeri; **den ~ bestellen** tarlanı becərmək; ◊ **das ist nicht auf eigenem ~ gewaschsen** bu iş onun əlindən gəlməz, bu iş başqasının əli ilə edilib.
Ácker II *m* akr, yer ölçüsü.
Áckerbau *m oh. pl* əkinçilik, rəncbərlik; **~ treiben** əkinçiliklə məşğul olmaq.
Áckerbau || gerät *n* kənd təsərrüfatı aləti, əkinçilik aləti; **~kunde** *f oh. pl* aqronomluq.
áckerbau || kundig *a* əkinçilikdən məlumatlı; əkinçilik işini bilən.
Áckerbau || wirtschaft *f* əkinçilik təsərrüfatı; **~wissenschaft** aqronomluq.
Ácker || erde *f oh. pl* əkin yeri; **~knecht** *m* muzdur; **~land** *n* şum, şum yeri.
áckern *vt* və *vi* **1.** şumlamaq; **2.** *məc.* səylə işləmək, əlləşmək.
Ácker(s)mann *m pl* **~leute** əkinçi; kəndli.
Áckerung *f* (10) şumlama.
ad acta işə aid; **~ legen** işə tikmək, əlavə etmək.
Ádams || apfel *m anat.* xirtdək; hülqum.
adapti eren *vt* uyğunlaşdırmaq; işləmək (*mətnin üzərində*), tətbiq etmək.
adäquát *a* **adekvat**; tam uyğun, eyni.
addi eren *vt riyaz.* toplamaq.
Áddition *f* (10) *riyaz.* toplama, üstə gəlmə.
adé *int* salamat qal!, əlvida!
Ádel *m* **~s,** *oh. pl* **1.** zadəganlıq, aristokratiya; **2.** *məc.* alicənablıq.
ád(e)lig *a* zadəgan.
Ádel || stand *m oh, pl* zadəgan təbəqəsi / zümrəsi.
Áder *f* (11) **1.** damar; vena; arteriya; *j-n* **zur ~ lassen** kiməsə qan vurmaq; **2.** damar; *məc.* istedad, qabiliyyət; **er hat eine musikalische ~** *məc.* onda musiqi istedadı var.
adieu! [a'dØ:] *int* əlvida!; **~ sagen** vidalaşmaq, xudahafizləşmək.
Ádjektiv *n* (2) *qram.* sifət.
Adjutánt *m* (8) *hərb.* adyutant, yavər.
Ádler || blick *m məc.* qartal baxışı; **~horst** *m* qartal yuvası; **~weibchen** *n* dişi qartal.
Ádlige *m, f* (9*) zadəgan.
Administration *f* (10) idarə; müdiriyyət.
administratív I *a* inzibati; **II** *adv.* inzibati qaydada, inzibati yolla.
administratíeren *vt* idarə etmək, inzibatçılıq etmək.
Admirál *m* (1) admiral.
Admiralität *f* (10) **1.** admirallıq; **2.** donanmada ən yüksək heyət.
adoptíeren *vt* **1.** uşaqlığa (övladlığa) götürmək; **2.** *məc.* mənimsəmək.
Adoptíerung *f* (10), **Adoption** *f* (10) övladlığa götürmə.
Adoptív || eltern *pl* götürmə valideyn **~ kind** *n* götürmə uşaq.
Adressánt *m* (8), **~in** *f* (12) məktub göndərən.
Adressát *m* (8), **~in** *f* (12) adresat, məktubu alan şəxs.
Adress || buch *n* ünvan kitabı.
Adrésse *f* (11) ünvan; **an seine ~** onun ünvanına; **per ~** aşağıdakı ünvana...; **an die falsche ~ kommen [geraten]** *məc.* səhv müraciət etmək.
adressíeren *vt* ünvana göndərmək (yollamaq).

adrétt *a* **1.** cəld, zirək, diribaş; **2.** *məc.* sevimli, qanışirin; təmiz (*xarici görünüş haqqında*).
adriátisch *a* adriatik... (*sif.*), **Adriátliisches Meer** Adriatik dənizi.
Adverb [at'vɛrp] *n* **~s, ~ien** *qram.* zərf.
adverbiál [-vɛr-] *a* zərf kimi işlənən.
Adverbium [-'vɛr-] *n* **-s, -bia** zərf.
Advokát [-vo-] *m* (8) vəkil.
Aeronáut [â·e.ro·'naot] *m* (8) aeronavt.
Aeroplán *m* (1) təyyarə.
Affäre [a'fɛ:rə] *f* (11) **1.** fırıldaq, kələk; hadisə (*xoşagəlməz*); **sich aus der ~ siehen** özünü xatadan [bəladan] qurtarmaq, çətin vəziyyətdən çıxmaq; **2.** *hüq.* proses.
Áffe *m* (9) **1.** meymun; **2.** *hərb.* arxa çantası; ◊ **einen ~n (sitzen) haben** *dan.* bir az içmək/vurmaq; **einen ~n an** j-m **gefressen haben** *dan.* kiməsə valeh olmaq, vurulmaq.
affektiert *a* əzilib-büzülən, naz-qəmzəli, süni, mübaliğəli.
äffen *vt* satışmaq, acıqlandırmaq.
áffen || artig *a* meymunabənzər; **mit ~er Geschicklichkeit** son dərəcə cəldliklə.
Áffen || komödе *f* (10) *məc.* axmaq bir komediya; **~liebe** *f* həddindən artıq sevmə (*uşağı*).
Äffin *f* (12) dişi meymun.
Áffirmation *f* (10) təsdiq.
Affi x *n* (3*) **1.** artırma, əlavə; **2.** *qram.* affiks, şəkilçi.
affrös *a* pis, alçaq, iyrənc, mənfur.
Áfrika *n coğr.* Afrika.
afrikánisch *a* afrikalı, Afrikaya məxsus.
Áfter *m* **~s,** - *anat.* gödən; oturacaq.
Agént *m* (8) **1.** agent; **2.** casus; **3.** (*elmi terminologiyada*) amil, səbəb.
agglutinierend *a:* **~e Sprachen** aqlütinativ/iltisaqi dillər.
Aggressión *f* (10) aqressiya, təcavüz.
aggressi v *a* aqressiv, təcavüzkar.
Aggressivität [-vi·'tɛ:t] *f oh. pl* qəsbkarlıq, təcavüzkarlıq.
Agitatinós || schrift *f* təşviqat kitabçası.
agiti eren *vi* və *vt* təşviqat aparmaq.
Agoni e *f* (10) canvermə.
agrár *a* aqrar.
Agrárier *m* (6) **1.** iri mülkədar; **2.** iri mülkədar partiyasının üzvü.
agrárisch *a* aqrar.
Agrár || krise *f.* **~krisis** *f.* aqrar böhran; **~land** *n* aqrar ölkə; **~revolution** aqrar inqilab; **~verhältnisse** *pl* aqrar münasibətlər.
Agrikultúr *f oh. pl* əkinçilik.
Agronóm *m* (8) aqronom.
Agronomíe *f* (10) aqronomluq.
agronómisch *a* aqronom.
Ägýpten *n* (-s) *coğr.* Misir.
ägýptisch *a* Misir... (*sif.*).
ah! *int* a!, ah!
Áhle *f* (11) biz (*alət*).
Ahn *m* (8) əcdad, dədə-baba, ulu baba.
Áhne *f* (11) böyük nənə, babanın və yaxud nənənin anası.
áhneln *vi* (*j-m*) oxşamaq (*kiməsə*).
áhnen *vt* qabaqcadan hiss etmək, sümüyünə (ürəyinə) dammaq; duymaq; **mir ahnt etw,** ürəyimə damıb.
Áhn || frau *f* ulu nənə; **~herr** *m* ulu baba, əcdad.
ähnlich *a* **1.** oxşar; **er ist seinem Vater ~** o, atasına oxşayır; **und ~es** (*qısal.* u. ä.) və ilaxır (*və i.a.*); *j-m* **~ sehen / sein** kiməsə oxşamaq; **das sieht dir ~** bunu səndən gözləmək olar; **2.** *riyaz.* oxşar.
Ähnlichkeit *f* (10) **1.** oxşarlıq, bənzərlik, **2.** *riyaz.* oxşarlıq.
Áhnung *f* (10) **1.** əvvəlcədən ürəyə damma, hiss etmə; duyma; **2.** təsəvvür etmə, məfhum; **er hat keine blasse ~ davon** onun bundan bir qınnaq xəbəri yoxdur; **Haben Sie eine ~!** Siz nə başa düşürsünüz!
áhnungs || los *a* bixəbər.
ahnungs // voll *a* duymuş, ürəyinə dammış.
Áhorn *m* (1) ağcaqayın.
Áhre *f* (11) sünbül; **in die ~n schießen** sünbül bağlamaq; sünbüllənmək.
Áhren || bund *n* dərz; **~schnitt** *m* biçin.
Akademie [a·ka·de.'mi:] *f* **~, -mien** akademiya; **die ~ der Wissenschaften** Elmlər Akademiyası.
Akademiker *m* (6) **1.** akademik; **2.** alitəhsilli adam; ali məktəb müəllimi; ali məktəbdə oxuyan; **3.** rəssam (*klassik məktəbin nümayəndəsi*).
akadémisch *a* akademik; elmi; **~e Bildung** ali təhsil; **eine ~e Würde erlangen** elmi

ad almaq; **ein ~er Grad** elmi dərəcə; **~e Jugend** tələbələr, ali məktəb gəncləri.
Akázie *f* akasiya.
akklimatisíeren I *vt* iqlimə (mühitə) uyğunlaşdırmaq (alışdırmaq); **II sich ~** iqlimə (mühitə) uyğunlaşmaq.
Akkórd *m* (1) **1.** *mus.* akkord, ahəngdarlıq; **2.** razılaşma, götürə iş; **auf ~ arbeiten, in ~ stehen** işəmuzd çalışmaq.
Akkórd || arbeit *f* işəmuzd iş.
akkrediti eren *vt* vəkil etmək; təyin etmək (*səfiri*).
Akkumulatión *f* (10) akkumulyasiya, yığılma, toplanma.
akkurát *a* diqqətli, səliqəli, doğru, dürüst, düzgün.
Ákkusativ *m* (1) *qram.* təsirlik hal.
Akrobát *m* (2), **~ in** *f* (12) akrobat.
Akt *m* (1) **1.** akt, iş, hərəkət; **2.** *tea.* pərdə; **feierlicher ~** şənlik, şadlıq; **3.** *incəsən.* çılpaq bədən təsviri; **~ stehen** canlı poza almaq (*rəssam qarşısında*).
Ákte *f* (11) **1.** dövlət aktı, sənədi; **2.** *pl* iş kağızları; **zu den ~n nehmen** protokola yazmaq; etw. **zu den ~n legen** işə əlavə etmək; *mac.* arxivə vermək; ◊ **über** etw. (*A*) **die ~e schließen** bir işə son qoymaq.
Ákten || deckel *m* iş qovluğu; **~mappe** *f* portfel.
ákten || mäßig *a* sənədli, sənədə uyğun.
Ákten || mensch *m* bürokrat; **~stück** *n* sənəd, rəsmi iş kağızı; **~tasche** *f* portfel.
Áktie *f* (11) səhm.
Áktien || gesellschaft *f* (*qısal.* AG) səhmdar cəmiyyət.
Aktión *f* (10) **1.** hərəkət, iş, fəaliyyət; **in ~ treten** fəaliyyətə başlamaq; **~ und Reaktion** hərəkət və əks hərəkət; **2.** kompaniya.
aktiv *a* **1.** aktiv, fəal; **~es Wahlrecht** aktiv seçki hüququ; **sich ~ betätigen** fəal iştirak etmək; **er ist sehr ~** o çox fəaldır; **2.** *hərb.* həqiqi hərbi qulluqda olan, kadrda olan; **~er Dienst** həqiqi ordu xidməti; **3. ~e Kohle** *kim.* aktivləşdirilmiş kömür.
Aktiv *n* (2) **1.** aktiv, bir müəssisənin ən fəal üzvləri; **2.** *qram.* məlum növ.
Aktíva [-va] yalnız *pl iqt.* aktivlər, nağd pul; **~ und Passiva** nağd pullar və yatırımlar.
Aktivität [-vi'tɛ:t] *f oh. pl* fəallıq, fəaliyyət.
aktuèll *a* aktual, mühüm; kəsərli; lazımlı.
akút *a* **1.** *tib.* şiddətli, kəskin; **2.** *məc.* təcili, təxirə salına bilməyən.
Akzént *m* (1) **1.** aksent, tələffüz tərzi; **2.** *dilç.* vurğu.
akzentuieren *vt* **1.** vurğu işarəsi qoymaq; **2.** vurğulamaq, nəzərə çarpdırmaq.
Akzentuierung *f* (10) **1.** vurğu qoyma; **2.** vurğulama, nəzərə çarpdırma.
Alabáster *m* **~s,** *oh. pl* alebastr; yandırılmış və döyülmüş ağ gips, kirəc.
Alárm *m* (1) təhlükə; **~ blassen [schlagen]** həyəcan bildirmək, təhlükə siqnalı çalmaq; **blinder ~** saxta həyəcan; *hərb.* məşq məqsədi ilə verilən təhlükə siqnalı.
Alárm || anlage *f*, **~apparat** həyəcan siqnalı qurğusu; **~bereitschaft** *f* (10) *hərb.* döyüşə hazır vəziyyət.
alarmieren *vt* həyəcan siqnalı ilə qaldırmaq (*hərbi hissəni*), həyəcan qaldırmaq; **die Feuerwehr ~** yanğın barədə komanda vermək.
alarmierend *a* həyəcanlı, təhlükəli.
Alárm || schuß *m hərb.* atəş siqnalı; **~signal** *n* həyəcan, təhlükə siqnalı (*fit*).
Alb I *f* (10) dağ otlağı, otlaq.
Alb II *m* bax: **Alp.**
Albáner *m* (6), **~in** *f* (12) alban, albaniyalı (*kişi, qadın*).
Albánien *n coğr.* Albaniya.
álbern I *a* mənasız, cəfəng, axmaq; **~ sein** dəcəllik etmək; gic-gic zarafat etmək; **~es Zeug** boş, mənasız şey; **II** *vi* (h) gic-gic zarafat etmək.
Álbernheit *f* (10) mənasızlıq, cəfəngiyat; axmaqlıq.
Álbum *n,* **-s, -s** və **-ben** albom.
Álge *f* (11) yosun.
Álgebra *f oh. pl* cəbr.
Algérien *n coğr.* Əlcəzair.
álias həmçinin; yaxud; ondan başqa; özü də.
Alkálien *pl kim.* qələvi, metalın sulu oksidi.
alkálisch *a kim.* qələvi.
Álkohol *m* (1) *kim.* alkoqol, spirt.
álkohol || frei *a* alkoqolsuz, spirtsiz; **~haltig** *a* alkoqollu, spirtli.
Alkorán *m oh. pl* Quran.
all *a* **1. (~e, ~es, ~e)** hamısı, hamı; **vor ~em, vor ~en Dingen** hər şeydən öncə; **~e beide**

hər ikisi; **~es Gute!** salamat qalın!; **in ~er Eile** tələsik; **in ~er Stille** səssiz-səmirsiz, xəlvətcə; **das ist ~ es** var-yox budur; **~es eingerechnet** hər şeyi hesaba alaraq; **~es in ~em** cəmi; **in ~er Frühe** səhər tezdən; xoruz banlamamış; **mit ~er Gewalt** var qüvvə ilə; **aus ~em dem, aus ~e diesem** bunların hamısından; **über ~es** hər şeydən artıq; **bei ~em dem, bei ~e diesem** buna baxmayaraq; **Mädchen für ~es** hər işi görən qulluqçu; gəzəyən qız; **~e Rechte vorbehalten** başqası tərəfindən nəşri qadağandır (*alman kitablarının titul vərəqinin arxasında olan yazı*); **2.** hər kəs, hər hansı; **auf ~e Fälle** hər ehtimala qarşı, ehtiyatdan, ehtiyat üçün; **~e acht Tage** hər həftə; **~e Tage** hər gün; **~er Art** cürbəcür; **~e Welt** hər kəs, hamı; **3. wer ~es** kim olur olsun; **was ~es** nə olur olsun; **wo ~es** harada olurolsun; **das ist nicht ~e Welt wieviel** kim bilir, bu nə qədərdir; **wer in ~er Welt ...** axı kim; **wer in ~er Welt konnte es wissen!** bunu kim bilərdi ki!; **nicht um ~es in der Welt** heç bir vəchlə, heç vaxt; **~er Anfang ist schwer** hər şeyin başlanğıcı çətindir.
All *n, -s, oh. pl* kainat, aləm, bütün dünya.
allábendlich, allábends *adv* hər axşam.
áll || bekannt *a* məşhuri-cahan.
áll || beliebt *a* sevimli, hamının sevdiyi.
áll || dá *adv* orada, həmin yerdə.
álle *adv;* **~ sein [werden]** qurtarmaq, tükənmək; **das Geld ist ~** pul xərclənib qurtarmışdır.
álledém: bei ~ bütün bunlara baxmayaraq; **trotz ~** heç nəyə baxmayaraq; hər şeyin əksinə.
Allée *f* (11) alleya, xiyaban.
allegórisch *a* kinayəli, alleqorik.
alléin I *a* tək, yalqız; **er ist ~** o təkdir; **II** *adv* tək; **~, ohne Hilfe** tək, köməksiz; **III** *cj* ancaq, amma, halbuki; **ich höre, was du sagst, ~ ich kann dem nicht zustimmen** dediyini eşidirəm, ancaq mən bununla razılaşa bilmərəm; **einzig und ~** ancaq, yalnız; **nicht ~, sondern auch** nəinki..., həmçinin...
Alléin || herrschaft *f* mütləqiyyət.
alléin || herrschend *a* mütləqiyyətə əsaslanan; vahid hökm sürən.
Alléin || herrscher *m* hökmdar, padşah, mütləqiyyətçi.
alléinig *a* tək, vahid; yalqız; yeganə.
Alléin || sein *n* **-s,** *oh. pl* təklik, tənhalıq, yalqızlıq, ayrılıq.
alléin || stehend *a* tək; yalqız; subay.
álle || mal *adv* həmişə, hər dəfə; **ein für ~** həmişəlik, birdəfəlik.
állen || fálls *adv* deyəsən, bəlkə də, hər halda, məgər.
állent || hálben *adv* hər yerdə, hər tərəfdə.
áller || ärt *a* hər cür, hər növ; **~äußerst** *a* kənardakı, qıraqdakı; **das ist das ~ äußerste** bu ifratçılıqdır.
áller || dings *adv* əlbəttə, doğrudur, hərçənd, həqiqətdə; **ist das wahr? – Allerdings!** bu doğrudur? – Bəli, əlbəttə!
áller || érst *adv* ən əvvəl; **zu ~** hər şeydən əvvəl.
áller || hánd *a* hər cür, müxtəlif; **~ Waren** müxtəlif mallar; **das ist ~** qəribədir!, əcəb oyundur!, əcəb işdir!
állerlèi *a inv* hər cür, cürbəcür.
Állerlèi *n* **-s, -s** hər cür, müxtəlif; hər cür şey.
aller || liébst *a* gözəl, füsunkar; **am ~ liebsten möchte ich** ...mən daha həvəslə ... istərdim.
aller || méist *adv* hər şeydən çox, əksər; **die ~meisten Menschen** əksər insanlar; **~mindestens** *adv* heç olmasa, ən azı.
aller || nächst *a* ən yaxın.
áller || órten, ~orts *adv* hər yerdə olan.
áller || seits *adv* hər tərəfdən.
Aller || wélts || kerl *m* universal adam, hər işi bacaran adam, əlindən hər iş gələn.
allerwénigst *a* ən kiçik, ən balaca, ən xırda, ən azı; **am ~en** ən kiçik, lap balaca, ən azı.
álles *a* hamısı; **~ strömte dem Stadtinnern zu** hamı şəhərin mərkəzinə yönəldi; **~ über** hər şeydən üstün; **nicht um ~ in der Welt** heç vaxt, heç bir vəchlə; heç cür; dünyanın bütün nazı-neməti də olsa.
álle || sámt *adv* hamısı birlikdə.
Alles || bésser || wisser *m* **Álleswisser** *m* ollamə (*özünü hər şeyi bilən kimi göstərən adam*), çoxbilmiş.
álle || zéit *adv* hər vaxt, həmişə.

állgegenwärtig *a* hər yerdə mövcud olan, hər yerdə hazır; *məc.* harada aş, orada baş.
all || gemein I *a* ümumi; **~es Wahlrecht** *siy.* ümumi seçki hüququ; **II** *adv* ümumiyyətlə; **er ist ~ beliebt** o hamının sevimlisidir; **im ~en** ümumiyyətlə; **ganz ~** adətən, ümumiyyətlə.
all *zəm.* (10) bütün, hamı; **~ sein** *məc.* bitmək, qurtarmaq; **~ werden** *məc.* bitmək, qurtarmaq; **~ machen** *məc.* bitirmək, qurtarmaq; **~ sein** *məc.* yox olmaq, itmək; **~ werden** *məc.* yox olmaq, itmək; **~ machen** *məc.* yox etmək, itirmək

Nazirliyi; **3.** telefon stansiyası; **4.** inzibati vahidlik; **des ~es entheben** vəzifədən kənarlaşdırmaq; **ein ~ bekleiden** vəzifə tutmaq.

ámtlich *a* rəsmi.

Ámt || mann *m* mahal rəisi; kəndxuda.

Ámts || bezirk *m* inzibati rayon.

Amulétt *n* (2) dua; gözmuncuğu, tilsim.

amüsánt *a* əyləndirici, məzəli, gülməli.

amüsieren I *vt* əyləndirmək; **II sich ~ 1.** əylənmək; **2.** gülmək, zarafatcasına ələ salmaq.

an I *prp.* üzərində, yanında, yaxınlığında, haqqında; *harada? sualına cavab olaraq (D); haraya? sualına cavab olaraq (A) tələb edir;* **Jewlach liegt am Kür** Yevlax Kür üstündə yerləşir (*harada?*); **ich fahre an das Meer** mən dəniz kənarına (*haraya?*) gedirəm; **~ der Hand führen** əlindən tutub aparmaq; **~ etw. denken** bir şey haqqında düşünmək; **II** *adv* **1.: von jetzt ~** indidən; **von morgen ~** sabahdan etibarən; **2.** yaxın, təxminən; **die Schule hat ~ 1000 Schüler** məktəbin 1000-ə yaxın şagirdi var; **es [die Reihe] ist ~ mir** növbə

Án || beginn *m* **-(e)s**, *oh. pl* başlanğıc; **von ~** lap əvvəldən.

ánbéi *adv* **1.** bununla bərabər, əlavə olaraq; **2.** yanında; yanaşı.

án || beißen 1 *vt* dişləmək, dişləyib qopartmaq; **II** *vi məc.* tələyə düşmək, tora düşmək; **er hat angebissen** o, tora düşüb.

án || belangen *vt:* **was mich anbelangt...** mənə gəlincə.

Án || betracht *m* (e)s, *oh. pl:* **in ~ (G) dieses Umstandes** bu vəziyyəti nəzərə alaraq, bu vəziyyəti nəzərdə tutaraq.

án || betreffen *vt:* **was ihn [mich] anbetrifft...** ona [mənə] gəlincə (qalsa)...

án || bieten I *vt* **1.** təklif etmək; qonaq eləmək; qonaq qabağına qoymaq; **2.: ein Gefecht ~** *hərb.* döyüşə başlamaq; **II sich ~** (*zu+D* yaxud (*inf+zu*) özünü aralığa soxmaq, üz vurmaq.

án || binden I *vt* bağlamaq; **II** *vi* (*mit D*) bağlanmaq (*kimə*sə), əl çəkməmək; sataşmaq, dalaşmaq.

án || blasen *vt* üfürmək; *tex.* işə salmaq, alışdırmaq (*domna sobasını*).

An || blick *m* (1) **1.** baxış; **beim**

án || brüllen *vt* üstünə bağırmaq; kobudcasına qışqırmaq.

án || brummen *vt* deyinmək, donquldanmaq.

Án || dacht *f* (10) **1.** pərəstiş, ehtiram, dərin hörmət; **2.** dua, ibadət.

án || dächtig, ándachts || voll *a* hörmətcil, ehtiramlı.

án || dauern *vi* davam etmək, uzun çəkmək, təxirə salınmaq.

án || dauernd *adv* davam edən, uzun.

Án || denken *n* (7) *oh. pl* yadigar xatirə (*an A bir kəsin, bir şeyin*); **in gutem ~ behalten** yaxşılıqla yada salmaq.

ánd(e)re *a:* der (die, das) **~, die ~ n** başqa, o biri; ikinci; qalan; **einer nach dem [um den] ~n** bir-birinin dalınca; **nichts ~s als...** -dan, -dən başqa şey deyil; **unter ~m** yeri gəlmişkən; j-n **eines ~n belehren** kimisə qulaqburması vermək, kiminsə başına ağıl qoymaq; **sich eines ~n besinnen** fikrini dəyişmək; **einen Tag um den ~n** günbəgün; **sie sind einer wie der ~** onlar bir-birinə taydır; **ein Wort gab das ~** söz sözü çəkib gətirdi; **das ist etwas ~s**

ánders || wie *adv* başqa yolla; **~wó** *adv* (*haradasa*) başqa yerdə; **~wohin** *adv* (*haraya sa*) başqa yerə.

ándert || hálb *a inv* bir yarım.

ánderthálb || fach *a* biryarımlıq; **~jährig** *a* ilyarımlıq; **~jährlich** *adv* ilyarımda.

Ánderung *f* (10) dəyişiklik.

án || deuten *vt* göstərmək, işarə etmək (*nəyəsə*).

Ándeutung *f* (10) göstəriş; işarə.

ándeutungs || weise *adv* eyhamla, işarələrlə.

án || donnern *vt* kiminsə üstünə qışqırmaq; **wie angedonnert** *məc.* mat qalmış, donub qalmış.

Án || drang *m* **-(e)s** *oh. pl* **1.** basqın; basabas, təzyiq, axın; **ein mächtiger ~ von Menschen** camaatın güclü axını; **2.** artma (*qan*).

án || drängen *vi* (*an, gegen A*) sıxışdırmaq, təzyiq etmək (*nəyəsə, kiməsə*).

ándrer || seits *adv* bax: **ánderseits.**

án || dringen *vi* **1.** (*auf A*) hücum çəkmək (*kiməsə*); **2.** artmaq, çoxalmaq (*suy*); **3.** *tib.* vurmaq, yeritmək (*qan*).

Án || er || bieten *n* (7) təklif.
án || er || kannt tanınmış, məlum; **allgmein ~** hamıya məlum.
ánerkannter || maßen *adv* necə ki qəbul edilmişdir, qəbul olunduğu kimi; necə ki məlumdur, məlum olduğu kimi.
án || er || kennen *vt* **1.** təsdiq etmək; qəbul etmək; **2.** qiymətləndirmək.
án || er || kennend I *a* tərifli, tərifələyiq; **II** *adv* tərifləmə, hörmətlə, ehtiramla.
ánerkennens || wert *a* tərifələyiq.
Án || er || kennung *f* (10) təsdiqləmə; tərif; qəbul etmə; **in ~ der Leistungen** xidmətinə görə.
án || fachen *vt* üfürüb alışdırmaq (*alov*); *məc.* qızışdırmaq (*acıq, düşmənçilik, nifrət*).
án || fahren I *vt* **1.** gətirmək (*miniklə*); **2.** *məc.* kiminsə üstünə bağırmaq; **II** *vi* (s) **1.** üstünə çıxmaq, toxunmaq (*miniklə*); **das Auto fuhr gegen den Straßenbahnwagen an** avtomobil tramvayla toqquşdu; **2.** yaxınlaşmaq, yanaşmaq (*miniklə*).
Án || fahrt *f* **1.** gəlmə, gəliş (*miniklə*); **2.** yaxınlaşma yeri; körpü.
Án || fall *m* **1.** *tib.* tutma, xəstəliyin şiddətlənməsi vaxtı; **2.** uçqun, uçulma (*dağ, süxur*); şaxta; **3.** *hərb.* basqın; **4.: ~ einer Erbschaft** *hüq.* varisliyin alınması.
án || fallen I *vt* basqın etmək, hücum çəkmək, üzərinə düşmək, üstünə tullanmaq; **II** *vi* (s) *hüq.* varis olmaq, payına düşmək.
án || fällig *a* tez dərk edən, meyilli; tez tutan (*xəstəliyi*).
Án || fälligkeit *f* (10) düçar; düçar olma.
Án || fang *m* (1*) **1.** başlanğıc, əvvəl; **am ~ (e), im ~ (e), zu ~** əvvəlcə; **~ Mai** mayın əvvəlində; **gleich [ganz] von ~ an** lap əvvəldən; **den ~ machen** başlamaq; **einen ~ nehmen** başlanğıcını almaq (*nədənsə*); **~ einer Kolonne** *hərb.* kolonnanın, dəstənin başı; **Aller ~ ist schwer** ata. söz. Hər şeyin əvvəli çətindir; **2.** *pl* yaradılma, yaranma; ilk dövr.
Án || fänger *m* (6) **1.** başlayan adam, bir işə təzə başlayan; xam, təcrübəsiz; **2.** başçı, təşəbbüsçü.
án || fänglich I *a* ilk; **II** *adv* əvvəlcə.
án || fangs *adv* əvvəlcə; **~ März** martın əvvəllərində.
Ánfangs || buchstabe *m* baş hərf; **~gründe** *pl* ünsürlər, əsaslar (*hər hansı bir elmin*); **~stadium** *n* ilk mərhələ; **~unterricht** *m* ibtidai təhsil.
án || fassen *vt* tutmaq, qamarlamaq; **eine Sache richtig [beim rechten Ende] ~** *məc.* işi düz başlamaq, qəti hərəkət etmək.
án || fechtbar *a* mübahisəli.
án || fechten *vt* **1.** mübahisə etmək; əleyhinə çıxmaq; **2.** narahat etmək; **was ficht dich an?** səni narahat edən nədir?; **3.** *hüq.* kiminsə əleyhinə şikayət vermək.
án || fertigen *vt* hazırlamaq.
Án || fertigung *f* (10) hazırlama, istehsal.
án || feuchten *vt* islatmaq, su vurmaq.
án || feuern *vt* **1.** yandırmaq (*soba*); **2.** *məc.* oyanmaq; həyəcanlanmaq.
án || flehen *vt* (*um A*) yalvarmaq, ləlimək (*nəyisə*).
án || fletschen *vt* dişlərini qıcamaq (*kiməsə, nəyəsə*).
án || fliegen I *vi* (s) uçub gəlmək, uçub yanaşmaq; **II** *vt* **1. das Flugzeug wird Baku ~** təyyarə Bakıda yerə enəcək; **2.** *hərb., av.* hücum etmək, hücum çəkmək.
Án || flug *m* (1*) **1.** uçub gəlmə; **2.** çalma (*rəng*); **~ von Röte auf den Wangen** yanaqların qırmızıya çalması; **3.** *av.* yaxınlaşma (*təyyarə*); **4.** *məc.* coşma.
án || fordern *vt* tələb etmək.
Án || ford(e)rung *f* (10) tələb, iddia.
Án || frage *f* (11) sorğu; **eine ~ stellen** soruşmaq.
án || fragen *vt* (*bei j-m nach D* yaxud *um A*) soruşmaq, xəbər tutmaq (*kimdənsə, nə haqdasa*); **um Rat ~** məsləhət üçün gəl-

4. *mətb.* mötərizə içərisinə almaq; **5.** *məc.* aldatmaq; **er hat mich angeführt** o məni aldadıb.
Án || führer *m*, **~in** *f* başçı (*kişi, qadın*).
Án || führung *f* **1.** başçılıq, rəhbərlik; **2.** sitat gətirmə, sitat, dəlil.
Ánführungs || zeichen *n* dırnaq işarəsi.
án || füllen *vt* (*mit D*) doldurmaq, içini doldurmaq (*nə ilə*).
Án || gabe *f* (11) **1.** göstəriş; *hüq.* ifadə; **nach seiner ~** onun dediyinə görə; **2.** *pl* məlumat, dəlil; **3.** xəbərçilik, şeytançılıq.
án || gähnen *vt* kiminsə üstünə əsnəmək.
án || gängig *a* mümkün; **es ist nicht ~** bu mümkün deyil.
án || geben *vt* **1.** göstərmək; xəbər vermək; **2.** məlumat vermək, şeytanlamaq; **3.:** *mus.* **den Ton ~** ton vermək (*həmç. məc. mənada*).
Án || geber *m* (6), **~in** *f* (12) **1.** xəbərçi, xəbər verən (*kişi, qadın*); casus; **2.** *toxuc.* naxış yığan.
án || geblich I *a* xəyali, uydurma; **II** *adv* guya ki; **~ wohnte er in Berlin** dediyinə görə Berlində yaşayırdı.
án || ge || boren *a* anadangəlmə, təbii.
Án || ge || bot *n* (2) təklif; **ein ~ machen** təklif etmək **~ und Nachfrage** *iqt.* təklif və tələb.
án || ge || bracht *a* məqsədəuyğun, məqamında, yararlı; **es ist nicht ~, davon zu sprechen** bu haqda danışmağın yeri deyil.
án || ge || brannt: yanıq; bir az yanmış; **hier riecht es ~** buradan yanıq iyi gəlir.
án || ge || bunden bağlı; ◊ **er ist kurz ~** onun danışığı kəskindir, qabadır.
Án || ge || denken *n* (7) xatirə, yadigar; **behalte (n Sie) mich in gutem ~!** məni yaxşılıqla yad et (edin)!
án || ge || führt *a* yuxarıda göstərilmiş, yuxarıda adı çəkilmiş; **am ~en Orte** (*ixtis.* a.a.o.) göstərilmiş yerdə, qeyd edilmiş
án || gehen I *vt* **1.** xahiş etmək, xahiş məqsədi ilə müraciət etmək; **j-n um Hilfe ~** yardım üçün müraciət etmək; **um Geld ~** pul istəmək; **2.** aid olmaq, dəxli olmaq; **was geht mich das an?** bunun mənə nə dəxli?; **alle, die es angeht** bu işlə maraqlanan bütün adamlar; **II** *vi* (s) **1.** başlanmaq; **die Stunde geht an** dərs başlanır; **2.** korlanmağa başlamaq; çürüməyə başlamaq; **3.** kök salmaq, tutmaq (*peyvənd*); **das wird nicht ~** bu iş getməz, bu iş baş tutmaz; **es geht an** bu mümkündür; babatdır.
án || gehend *a* başlanan, başlayan; **ein ~er Gelehrter** gənc alim; **bei ~er Nacht** gecə başlarkən, gecə düşərkən.
án || ge || hören *vi* (*D*) aid olmaq (*nəyəsə*); **einer Ideologie ~** müəyyən ideologiyaya qulluq etmək.
án || ge || hörig *a* aid olan.
Án || ge || hörige *m, f* (9*) qohum (*kişi, qadın*); *pl* qohumlar, evdəkilər; **~r eines States** hansısa dövlətin vətəndaşı; **~ einer Partei** hansısa partiyanın üzvü.
Án || ge || klagte *m, f* (9*) müqəssir, müttəhim.
Ángel *f* (11) **1.** çəftə; **zwischen Tür und ~** son anda, getməzdən əvvəl; **die Welt aus den ~n haben** bütün dünyanı tərpətmək, çevirmək; **2.** tilov.
án || ge || legen: maraqlı, əhəmiyyətli; **sich** (*D*) etw. **~ sein lassen** qayğısına (qeydinə) qalmaq.
An || ge || legenheit *f* (10) iş; **in welcher ~?** hansı işə görə?; **bei dieser ~** bu münasibətlə.
an || ge || legentlich I *a* çox [bərk] çalışqan, cəhd edən, inadlı; **aufs [auf das] ~ste** lap inadla, güc-bəla ilə; **II** *adv* çox, artıq dərəcədə, inadla; **sich ~ nach j-m erkundigen** kiminsə haqqında nəyisə bilməyə çalışmaq/cəhd etmək.

Ángel || punkt *m* **1.** ox; *məc.* ağırlıq nöqtəsi; **2.** *astr.* qütb; **(Haupt-und) ~ punkt einer Frage** məsələnin mahiyyəti, əsası.

ángel || sächsisch *a* anqlosaks, anqlosakson.

án || ge || messen *a* uyğun, müvafiq, münasib; yararlı; **~e Frist** kifayət qədər möhlət; **für ~ halten** lazım (yararlı) bilmək.

án || ge || nehm *a* xoş, xoşagələn.

án || ge || nommen: qəbul olunmuş; **~!** yaxşı!, qəbul olundu!; **ein ~es Kind** götürmə uşaq; **II** *adv:* **~, daß** tutaq ki, fərz edək ki...

Ánger *m* (6) çəmənlik, otlaq.

án || ge || regt *a* həyəcanlı, canlı.

Án || ge || schuldigte *m, f* (9*) təqsirkar, müqəssir, cavabdeh, cavab verən.

án || ge || sehen *a* hörmətli, adlı-sanlı.

án || ge || sessen *a* oturaq, yerli.

Án || ge || sicht *n* (2) üz, sifət (*ən çox poeziyada və ədbi dildə*); *məc.* **von ~ zu ~** *məc.* üz-üzə (*təhlükə ilə*); **von ~ kennen** üzdən tanımaq; **im ~ des Todes** ölümlə üz-üzə.

án || ge || sichts *adv* və *prp* ... görə; göz qarşısında, **~ dieses Umstandes** bu vəziyyətə görə.

Án || ge || stellte *m, f* (9*) qulluqçu (*kişi, qadın*).

án || ge || strengt *a* gərgin, yorucu; **~e Arbeit** gərgin iş.

án || ge || tan: es ist nicht danach ~ iş belə deyil ki...; **es j-m ~ haben** bir kəsi cəzb etmək, heyran etmək.

án || ge || wandt *a* tətbiq edilmiş; tətbiqi, təcrübi; **~e Wissenschaften** tətbiqi elmlər.

án || ge || wöhnen *vt* öyrətmək, alışdırmaq, vərdiş etdirmək; **sich ~** *(D) etw.* alışmaq (*nəyəsə*).

Án || ge || wohnheit *f* (10) adət, vərdiş.

án || gleichen *vt* bərabərləşdirmək, özünə oxşatmaq.

Án || gleichung *f* (10) bərabərləşdirmə, oxşarlıq; assimilyasiya.

án || gliedern *vt* birləşdirmək, qoşmaq, üzv qəbul etmək (*cəmiyyətə və s.*); *hərb.* tərkibə daxil etmək.

án || glimmen *vi* (s) alovsuz yanmaq, közərmək.

án || glotzen *vt dan.* gözlərini döyüb baxmaq; dönətləmək.

án || grauen *vi* ağarmaq, çallaşmaq (*saç*).

án || greifbar *a* hücum üçün açıq olan; *məc.* diş batan.

án || greifen I *vt* **1.** əl vurmaq, götürmək; toxunmaq, qamarlamaq; **2.: eine Sache ~** işə başlamaq; **3.** yormaq, üzmək, taqətdən salmaq; **die Krankheit greift mich an** xəstəlik məni üzür; **4.** hücum etmək; **5.** hücuma keçmək; **j-s Ehre ~** kiminsə namusuna toxunmaq; **er mußte den Vorrat ~** o, yığdığını xərcləməli oldu; **das Übel bei der Wurzel ~** pis işi kökündən kəsmək; **II sich ~** yorulmaq, üzülmək.

án || greifend *part.* **1.** hücum xarakterli, basqılı; hücum edən; **2.** yorucu.

Án || greifer *m* (6), **~in** *f* (12) basqıçı; hücum edən; *siy.* aqressor.

án || grenzen *vi* sınırlanmaq, həmsərhəd olmaq.

án || grenzend *a* **1.** qonşu, sınırdaş; **2.** *məc.* sıx əlaqədar, bir-birinə çox yaxın.

Án || griff *m* (1) **1.** hücum; **zum ~ vorgehen [übergehen]** hücuma keçmək; **2.** başlama; girişmə; etw. **in ~ nehmen** ciddi yapışmaq.

Ángriffs || befehl *m* (1) hücum əmri.

ángriffs || weise *adv* həmlə-həmlə.

án || grinsen *vt dan.* dişlərini ağartmaq, hırıldamaq.

Ángst *f* (3) (*vor D*) qorxu; **vor ~** qorxudan; **j-m ~ einjagen [machen]** kimisə qorxuya salmaq, qorxutmaq; **~ haben** *vor D* qorxmaq; **~ bekommen** qorxuya düşmək; **er bekam es mit der ~ zu tun** onu vahimə basdı.

Ángst || gefühl *n* qorxu hissi.

Ángst || hase *m* ağciyər, qorxaq.

ángstigen I *vt* qorxutmaq; **II sich ~** (*wegen G, um A*) qorxmaq, təşvişə düşmək; **ich ängstige mich um ihn** ondan narahatam.

ängstlich *a* qorxaq, qorxacaq; üröksiz, cəsarətsiz; **~es Gemüt** qorxaq xasiyyət.

Ángst || meier *m* qorxaq.

ángst || voll *a* qorxmuş, hürkmüş.

án || gucken *vt* baxmaq.

án || haben *vt* əynində olmaq; **sie hat ein neues Kleid an** o, təzə paltar geyib; **j-m** etw. **~ wollen** kimləsə kin saxlamaq; kimləsə qərəzi olmaq; **er kann mir nichts ~** o mənə heç nə ilə zərər verə bilməz.

án || haften *vi* yapışmaq, yapışıb üstündə qalmaq.

Ánhalt *m,* **(e)s, ~(e) 1.** istinad; **2.** fasilə.

án || halten I *vt* **1.** saxlamaq, dayandırmaq; *j-n ~* həbs etmək; **2.** (*zu D*) vadar etmək; alışdırmaq; **zur Ordnung ~** qaydaya alışdırmaq; **II** *vi* **1.** dayanmaq; **2.** qalmaq; davam etmək, **das Wetter wird ~** hava belə qalacaq; **3. um ein Mädchen ~** elçi göndərmək; **um eine Stelle ~** işə düzəlmək üçün çalışmaq; **II sich** (*an D*) **~** yapışmaq; tutmaq (*nədənsə*); **halte dich an Geländern** məhəccərdən yapış.

án || haltend *adv* uzanan, sürəkli, uzunsürən; **~es Fieber** *tib.* kəsməyən qızdırma (isitmə).

Án || hang *m* (1*) **1.** əlavə; **2.** həmfikir olan şəxslər, tərəfdarlar; pərəstiş edənlər; ◊ **ohne ~** tək, kimsəsiz, ailəsiz.

án || hängen *vt* **1.** asmaq; **den Hörer ~** dəstəyi asmaq; **2.** əlavə etmək, qatmaq; *məc.* yalandan demək, artırmaq; **er hat ihr dieses Vergehen angehängt** o bu əməli ona yaxıb; **3.** *məth.* sətirbaşı yığmaq; ~ bir-birinin dalınca, sətirbaşı buraxmadan (*yığmaq*); **II sich ~** (*an A*) zəhləsini aparmaq (*kiminsə*).

An || hänger *m* (6) **~in** *f* (12) **1.** tərəfdar, tərəfdar qadın; **2.** paltarasan; **3.** qoşulan vaqon; **4.** *məth.* etiket kağızı.

an || hänglich *a məc.* sadiq, sədaqətli.

Án || hänglichkeit *f oh. pl* bağlılıq, sadiqlik.

Án || hängsel *n* (6) **1.** əlavə, üstəlik, pərsəng; brelok; **2.** *dan.* quyruqbulayan.

án || heben I *vt* başlamaq; **II** *vi* başlanmaq; **ein großer Lärm hob an** böyük səs-küy qalxdı.

án || heften *vt* bərkitmək, bağlamaq, sırımaq; *dəft.* işə tikmək.

ánhéim || stellen *vt* sərəncamına vermək; öhdəsinə buraxmaq; **ich stelle es dir anheim** bu işi sənin sərəncamına verirəm.

án || heizen *vt* qalamaq, yandırmaq.

Án || höhe *f* yüksəklik, təpəlik.

án || hören *vt* dinləmək.

Án || kauf *m* (1) alma, bazarlıq, tədarük.

án || kaufen I *vt* satın almaq, tədarük etmək; **II sich ~: sich irgendwo ~** bir yerdə mülk almaq.

Án... *m* (6) lövbər, löngər; **~ werfen, vor ~ gehen, sich vor ~ legen** lövbər atmaq (salmaq); **vor ~ liegen** lövbərdə durmaq; **die ~ lichten** lövbəri qaldırmaq, yola düşmək.

án || ketten *vt* zəncirləmək, bağlamaq.

Án || klage *f* təqsirləndirmə; ittiham.

Ánklage || akt *m* ittiham aktı; **~bank** *f* müttəhim kürsüsü.

án || klagen *vt* (*G* və *wegen G*) təqsirləndirmək (*nədəsə*); **vor Gericht ~** məhkəməyə şikayət etmək.

Án || kläger *m* (6), **~in** *f* (12), ittihamçı (*kişi, qadın*); **öffentlicher ~** ictimai ittihamçı, prokuror.

án || klammern I *vt* bəndlə bərkitmək; **II sich ~** ilişmək, yapışmaq.

Án || klang *m* **1.** həmahənglik; həmavazlıq; səs uyğunluğu, akkord, **2.** əks-səda; *məc.* oxşarlıq; **~ finden** *məc.* rəğbətlə qarşılanmaq.

án || kleben I *vt* yapışdırmaq; **II** *vi* yapışmaq.

án || kleiden I *vt* geydirmək, geyindirmək; **II sich ~** geyinmək.

Ánkleide || raum *m,* **~zimmer** *n* **1.** soyunmageyinmə otağı, qarderob; **2.** artistlərin tualet otağı (*teatrda*).

án || klingeln *vt* zəng etmək; telefona çağırmaq.

án || klopfen I *vi* döymək (*qapını*); **bei j-m ~** 1) kiməsə gedib döymək, gedib görmək; 2)baş çəkmək; **2.** vəziyyəti, mühiti öyrənmək; **II** *vt:* vurmaq.

án || knipsen *vt:* **das Licht ~** işığı yandırmaq.

án || knöpfen *vt* tikmək (*düymə*).

án || knüpfen I *vt* **1.** bağlamaq; **2.** *məc* başlamaq [açmaq]; **ein Gesprach,** söhbət açmaq, **eine Bekanntschaft ~** tanışlıq yaratmaq.

án || kommen I *vi* (s) **1.** gəlib çatmaq; daxil olmaq; **rechtzeitig / zeitig ~** vaxtında gəlib çatmaq; **2.** yanaşmaq; **3.** işə qəbul olunmaq; qəbul olunmaq; ◊ **es kommt darauf an!** şəraitdən asılı olaraq!; **darauf kommt es (eben) an** iş elə ondadır ki; **es kommt ihm sehr darauf an** bu onun üçün çox önəmlidir; **darauf kommt es nicht an!** iş bundan asılı deyil; **da ist er gut angekommen** *məc.* o, payını aldı; **es auf** etw. (*A*)

-lassen nəyisə təhlükə altına almaq; **II** *vt:* **die Lust kam ihn an** onun həvəsi gəldi; **die Furcht kommt mich an** məni vahimə basır.

Án || kömmling *m* (1) gəlmə (*adam*); yeni gəlmiş adam.

án || kündigen *vt* əvvəlcədən xəbər vermək; elan etmək.

Án || kündigung *f* məlumat, xəbər.

Án || kunft *f oh. pl* daxil olma, gəlib çatma.

án || kurbeln *vt mex.* işə salmaq, hərəkətə gətirmək; buraxmaq (*motoru*); **die Wirschaft ~** *məc.* təsərrüfatı bərpa etmək; təsərrüfatı inkişaf etdirmək; **ein Geschäft ~** *məc.* iş açmaq.

án || lächeln *vt* kimə gülümsəmək.

án || lachen *vt* kiminsə üzünə gülmək.

Án || lage *f* **1.** *tex.* qurğu; tikinti; **2.** bağ salma; **3.** zavod; **4.** *iqt.* yatırım qoyuluşu; **5.** *oh. pl* anadangəlmə istedad; **er hat ~ zur Musik** onda musiqi istedadı var; **6.** *dəft.* əlavə (*məktublara*); **7.** süni salınmış park, bağça; ümumi bağ; **8.** plan.

Án || kapital *n iqt.* əsas sərmayə.

án || langen I *vi* (s) gəlmək, gəlib çıxmaq; **II** *vt, vimp* aid olmaq, dəxli olmaq; **was diese Sache an -(be)langt ...** bu işə gəlincə ..., bu məsələyə gəlincə...

An || laß *m* (1*) bəhanə; səbəb; hadisə; **aus ~** ... səbəbdən; **bei (diesem) ~** bununla əlaqədar olaraq; **ohne allen ~** heç bir əsası olmadan.

án || lassen I *vt* **1.** əynindən çıxarmamaq (*paltarı*); götürməmək (*papağı*); **2.** *tex.* işə salmaq (*motoru*); **blau ~** zağ vermək, zağlamaq; **3.** *ovç.* qısqırtmaq, ovun üstünə buraxmaq (*iti*); **II sich ~: sich gut ~** işi yaxşı (*saz*) getmək.

án || läßlich *adv* və *prv (G)...* səbəbə görə; ...nə görə; **~ des Jahrestages der Unabhängigkeit** bağımsızlığın ildönümü ilə bağlı / əlaqədar.

Án || lauf *m* (1*) yüyürmə, qaçma.

án || laufen I *vt:* **das Schiff hat den Hafen angelaufen** gəmi limana daxil oldu; **II** *vi* (s) **1.** yüyürüb gəlmək; qaçmaq; **angelaufen kommen** qaçıb gəlmək; **2.** tutunlaşmaq, donuqlaşmaq (*metal*); tərləmək (*şüşə*).

Án || laut *m* əvvəldə gələn səs; **im ~** sözün (hecanın) əvvəlində.

án || lauten *vi* (*mit D*) *dilç.* (*hər hansı bir səslə*) başlamaq; **mit "a" ~** "a" səsi ilə başlamaq.

án || legen I *vt* **1.** yanına qoymaq, dayamaq; örtmək (*qapını*); **2.** özül (bünövrə) qoymaq (*şəhər, fabrik*); çəkmək (*yol, kanal*); salmaq (*bağ*); bir şey əldə etmək; **er legt sich ein Radio an** o özünə radio quraşdırıb; **3.** taxmaq; **II** *vi* yan almaq, sahilə çatmaq; **der Dampfer legte an** gəmi körpüyə yan aldı.

Ánlege || platz *m,* **~stelle** *f* körpü, gəminin yan aldığı yer.

Án || legung *f* (10) özül qoyma, bünövrə qoyma.

án || lehnen (sich) söykənmək.

Ánleihe *f* istiqraz, borc.

án || leiten *vt* rəhbərlik etmək; öyüd-nəsihət vermək.

Án || leitung *f* (10) rəhbərlik.

án || lernen *vt* (*zu D*) öyrətmək (*nəyəsə*); **das Kind zur Ordnung ~** uşağı intizama öyrətmək.

án || liegen *vi* yapışmaq; kip olmaq (*paltar*).

Án || liegen *n* (7) xahiş; **ein ~ vorbringen** təkidlə xahiş etmək.

án || liegend I *a* bitişik olan; qonşu, yanaşı; yapışan (*paltar*); **II** *adv* bununla bərabər, əlavə.

án || locken *vt* aldadıb çağırmaq, tovlayıb gətirmək, cəlb etmək.

án || lockend *a* cazibəli, cazibədar, cəlbedici; aldadıcı.

Án || lockung *f* (10) cəlbetmə; cəlb.

án || löten *vt* lehimləmək.

án || machen *vt* qayırmaq, bərkitmək; **Feuer ~** od qalamaq; **Licht ~** işığı yandırmaq.

Án || marsch *m hərb.* irəliləmə, hücum; **im ~ sein** irəliləmək, hücum etmək.

án || maßen I *vt* iddia etmək (*heç bir əsas olmadan*); öz üzərinə götürmək; **II sich ~** üroklonmək, cürətlənmək.

án || maßend *a* cəsarətli; özünü öyən.

án || melden I *vt* elan etmək, xəbər vermək; **II sich ~** yazılmaq, qeydiyyata düşmək; qeyd olunmaq.

Án || meldung *f* **1.** elan, məlumat, bildiriş; **2.** qeyd edilmə, qeyd etmə; yazılma, qeyd edilmə.

án || merken *vt* qeyd etmək; görmək; **er läßt sich nichts ~** o özünü o yola qoymur.

án || merkenswert *a* fikir verməli, diqqətəlayiq.

Án || merkung *f* (10) qeyd.

án || messen *vt* ölçmək, əyninə ölçmək.

án || muntern *vt* (*zu etw.*) ilhamlandırmaq; ruhlandırmaq.

án || murren *vt* kiminsə üstünə donquldamaq.

Án || mut *f oh. pl* zəriflik; gözəllik; qəşənglik.

án || muten *vt:* **das mutet mich (nicht) an** bu xoşuma gəl[m]ir; **das mutet mich eigenartig an** bu mənə çox qəribə gəlir.

án || mutig *a* zərif, xoşagələn, cazibəli.

án || nageln *vt* mıxlamaq.

án || nähen *vt* tikmək.

án || nähern I *vt* yaxınlaşdırmaq; **II sich ~** (*D*) yaxınlaşmaq; *riyaz.* bir nöqtədə kəsişmək.

án || nähernd I *a* təxmini, təqribi; **II** *adv* təxminən, təqribən.

Án || näherung *f* (10) **1.** yaxınlaşma; *məc.* dostlaşma; **2.** *riyaz.* uyğunlaşma.

Án || nahme *f* (11) **1.** qəbul etmə, alma, təhvil alma; **die ~ der Ware** malın təhvil alınması; **2.** güman, ehtimal.

Annálen 1. salnamə; **2.** *məc.* tarix; xronika.

án || nehmbar *a* əlverişli.

án || nehmen I *vt* **1.** qəbul etmək, işə götürmək; **2.** güman etmək, zənn etmək; hesab etmək; **wie man in diplomatischen Kreisen annimmt** diplomatik dairələrdə güman edildiyi kimi; **II sich ~** (G) qayğısına qalmaq (*kiminsə, nəyinsə*).

Án || nehmlichkeit *f* (10) rahatlıq, qolaylıq, xoşa gəlmə.

annektiéren *vt* anneksiya etmək, zorla birləşdirmək (*özgə sahəni*), qəsb etmək, zəbt etmək.

ánno, Ánno ...ildə; **~ dazumal** çoxdan, uzaq keçmişdə; **pro ~** ildə.

Annonce [a'nɔ̃:sə] (11) elan; reklam.

annoncieren [anɔ̃'si:rən] *vt* elan etmək.

annullieren *vt* ləğv etmək.

anomál *a* qeyri-normal, düzgün olmayan.

anoným *a* adsız, imzasız.

án || ordnen *vt* **1.** yerbəyer etmək; quraşdırmaq, qurmaq; **2.** əmr etmək, göstəriş vermək.

Án || ordnung *f* **1.** yerbəyer etmə; yerləşmə, yerləşdirmə; **2.** sərəncam, əmr; göstəriş; **-en treffen** sərəncam vermək, göstəriş vermək.

án || organisch *a* qeyri-üzvi.

anormal *a* qeyri-normal.

án || passen I *vt* **1.** əyninə ölçmək (*paltarı*); **2.** uyğunlaşdırmaq; **II sich ~** (*D*) uyğunlaşmaq, öyrəşmək, vərdiş etmək; **er paßt sich leicht den Verhältnissen an** o, şəraitə tez uyğunlaşır.

Án || passung *f* (10) **1.** əyninə geyib ölçmə; **2.** uyğunlaşma; **3.** *tex.* quraşdırma; **4.** *biol.* uyuşma (*həmç. məc.*)

án || peitschen *vt* qırmanclamaq; qamçılamaq.

án || pfeifen *vt* j-m ~ kimisə fitə basmaq.

án || pflanzen I *vt* əkmək, basdırmaq; **II sich ~** yerləşmək.

Án || pflanzung *f* (10) **1.** əkmə; zəmi, tarla; **2.** meşə salma; **3.** koloniya, məskən salma.

án || pochen *vi* döymək, taqqıldatmaq; **an die Tür ~** qapını döymək; döyünmək (*ürək*).

Án || prall *m* (1) zərbə, ağır təkan.

án || prallen *vi* (s) (*an, gegen A*) dəymək; toxunmaq, toqquşmaq (*nəyəsə, nə iləsə*); **an die Wand ~** divara dəymək.

án || prangern *vt* damğalamaq; biabır etmək.

án || preisen *vt* tərifini göylərə qaldırmaq.

Án || probe *f* geyib baxma; əyninə ölçmə.

án || proben *vt,* **án || probieren** *vt* geyib ölçmək; əyninə ölçmək.

án || raten *vt* məsləhət görmək; tövsiyə etmək.

án || rechnen *vt* hesaba almaq, hesablamaq; **als Verdienst ~, j-m** etw. **hoch ~** nəyisə kiminsə hünəri saymaq.

Án || recht *n* hüquq, ixtiyar (*auf A*).

Án || rede *f* **1.** müraciət (*an A*); **2.** təbrik.

án || reden *vt* dindirmək; **j-n um** etw. (*A*) **~** kimdənsə nəsə diləmək (istəmək).

án || regen *vt* oyatmaq; qıcıqlandırmaq; **eine Frage ~** məsələ qaldırmaq; **er ist sehr angeregt** onun kefi sazdır.

án || regend *a* həyəcanlandırıcı; maraqlı, cəlbedici.
Án || regung *f* (10) arzu, niyyət; təkan; təşəbbüs; həyəcanlanma; **~ zu** etw. (*D*) **geben** nəyəsə təkan vermək; **in ~ bringen** təklif etmək; **auf ~** (*G / von D*) (*kiminsə*) təklifinə görə.
Án || reiz *m* (1) arzu, niyyət; stimul, həvəsləndirmə; **den ~ geben** həvəsləndirmək, şirnikdirmək.
án || reizen *vt* (*zu D*) qıcıqlandırmaq, təhrik etmək; oyatmaq; həvəsləndirmək.
án || rennen I *vi* (s) **[angerannt kommen]** qaçaraq gəlmək; **II** *vt / vi* (s) (*an, gegen A*) yüyürərkən toxunmaq, dəymək.
án || richten *vt* **1.** hazırlamaq (*yemək*); **2.** səbəb olmaq; ziyan vurmaq (yetirmək); **was hast du angerichtet?** nə qaynatmısan (qarışdırmısan)?
án || rollen I *vt* diyirlətmək, gillətmək; **II** *vi* (s) **1.** diyirlənmək, gillənmək; **2.** yaxınlaşmaq (*qatar və s.*)
án || rüchig *a* şübhəli; hörmətsiz, haqqında pis söz deyilən.
án || rücken I *vt* yaxınlaşdırmaq, irəliyə çəkmək; **II** *vi* (s) yaxınlaşmaq, irəliləmək; *hərb.* hücum etmək.
Án || ruf *m* (1) **1.** haylama, çağırma, səs; **2.** çağırış (*telefonla*).
án || rufen *vt* **1.** səsləmək, haylamaq; *j-n* **um Hilfe ~** kimisə köməyə çağırmaq; **2. zum Zeugen ~** şahidliyə dəvət etmək.
Ánruf || signal *n* çağırış siqnalı.
Ánrufung *f* (10) **1.** çağırış, müraciət; **2.** dəvət, çağırma (*telefonla*).
án || rühmen *vt* çox tərifləmək, reklamlaşdırmaq.
án || rühren *vt* **1.** tərpətmək, toxunmaq; **2.** qatmaq (*xörəyə*); **3.** *tex.* əritmək (*rəng*); **den Teig mit Ei ~** xəmiri yumurta ilə yoğurmaq; **eine Farbe ~** rəng düzəltmək.
ans = an das: bis ~ Ende axıra qədər.
án || säen *vt k.t.* əkmək, səpmək.
án || sagen I *vt* **1.** elan etmək; **2.** bildirmək, xəbər vermək (*radio*); **II sich ~** öz gəlişi haqda xəbər vermək.
Án || sager *m* (6) **1.** konfransye; **2.** *rad.* diktor.
án || sammeln I *vt* yığmaq, toplamaq; **II sich ~** yığılmaq, toplanmaq.
án || sässig *a* oturaq; **ist er hier ~?** o buralıdır?
Án || sässigkeit *f oh. pl* oturaq həyat, oturaqlıq.
Án || satz *m* **1.** calaq; əlavə; **2.** *mus.* ağızlıq, müştük (*nəfəsli musiqi alətində*); **3.** *tex.* qarmaq; **4.** köpük, kəf; ərp; **5.** çöküntü; **6.: ~ zu einer Aufgabe** *riyaz.* tənlik qurma; **7.: ~ von Blättern** *bot.* yarpaqların əsası / oturacağı; **8.** *idm.* yüyürmə (*hoppanmaq üçün*); **auf den ersten ~** *məc.* lap başdan, ilk dəfədən.
Ánsatz || rohr *n dilç.* nəfəs borusunun üst hissəsində yerləşən danışıq orqanları (*qırtlaq, əsnək, ağız və burun boşluqları*).
án || schaffen *vt* almaq, əldə etmək.
án || schauen *vt* kiməsə baxmaq.
án || schaulich *a* əyani.
Án || schauung *f* (10) **1.** baxış, görüş, nöqteyinəzər; **politische ~en** siyasi görüşlər; **2.** *fəls.* müşahidə, seyr.
Ánschauungs || material *n*, **~mittel** *n* əyani vəsait; **~unterricht** *m* əyani dərs (*təlim*).
Án || schein *m* -(e) s, *oh. pl* görünüş; **allem ~ nach** göründüyü kimi.
án || scheinend I *a* yalan, saxta; **II** *adv* ehtimal (ki), görünür (ki), yəqin (ki).
án || schicken (sich) işə başlamaq; bir işi görməyə hazırlaşmaq, yığışmaq; **er schickte sich an zu gehen** o, getməyə yığışırdı.
Án || schlag *m* **1.** zərbə; (*gegen A*); zərblə toxunma; **einen weichen ~ haben** astadan (yavaşdan) toxunmaq; **2.** afişa, bildiriş; **3.** *hərb.* nişan alma; **im ~ liegen / sein** nişana yatmaq, uzanaraq nişana almaq; **4.** plan; **5.** sui-qəsd; **einen ~ auf j-n, auf** etw. (A) **machen** kiməsə, nəyəsə qəsd etmək; **heimlicher ~** gizli qəsd; **6.** smeta, gəlir-çıxar cədvəli; **in ~ bringen [kommen]** smetaya salmaq; qəbul etmək; **die Kosten in ~ bringen** xərci artırmaq; **einen ~ schmieden** xəyanətkar fikirdə olmaq.
án || schagen I *vt* **1.** mıxlamaq, çalmaq, yapışdırmaq; **ein Plakat ~** plakat asmaq; **2.** *mus.* vurmaq, döymək; toxunmaq; **die Glocke ~** zəngi vurmaq; **eine Saite ~** simə toxunmaq; **die Taste ~** dili tərpətmək (*piano, qarmon*); **einen Ton ~** ton vermək;

was hast du für einen Ton angeschlagen? *məc.* hansı tonda danışırsan?; **er weiß den richtigen Ton anzuschlagen** o bilir necə danışmaq lazımdır; **3. Feuer ~** odlandırmaq (*çaxmaq daşı ilə*); **4.** təxmini hesablamaq; **sein Leben nicht hoch ~** canının qədrini bilməmək; **zu hoch ~** həddindən artıq qiymətləndirmək, qiymətini şişirtmək; **zu niedrig / gering ~** qiymət verməmək, lazımi qədər qiymətləndirməmək; **5. ein Gewehr ~** *hərb.* silahı ələ almaq; **II** *vi* (h, s) (*an A*) **1.** dəymək, toxunmaq; **2.** cingildəmək; **3.** hürmək, hürməyə başlamaq (*it*); **der Hund schlug an** it hürdü; **4.** təsiri olmaq; xeyrinə olmaq; **bei ihm schlägt alles an** hər şey onun xeyrinə gedir.
Ánschlag || säule *f* afişa sütunu.
án || schlendern *vi* (s) laqeyd addımlarla yaxınlaşmaq.
án || schließen I *vt* (*an A*) bağlamaq, birləşdirmək (*nəyəsə*); **II sich ~** (*D / an A*) birləşmək, qoşulmaq (*nəyəsə, kiməsə*); **er schloß sich einer / an eine Gesellschaft an** o, hansısa bir cəmiyyətə qoşuldu; **III** *vi* **1.** azca örtülmək (*qapı*); **2.** dar gəlmək, kip olmaq (*paltar*).
án || schlingen *vt* **1.** bağlamaq, bərkitmək (*düyünlə*); **2.** *tib.* liqatura qoymaq.
Án || schluß *m* **1.** sıx əlaqə; **~ haben** yanaşmaq; **2.** *d.y.* uyğunlaşdırma; uyğunlaşdırılma (*qatar cədvəlini*); **3.** əlavə; **4. im/an ~** ...istinad edərək; ...əlaqədar olaraq; **5.** tanışlıq, bələdlik; **~ suchen** tanışlıq axtarmaq; **6.** birləşdirmə, qoşulma; girmə, daxil olma (*təşkilata, ittifaqa*); **7.** *tex., elek.* qoşma, birləşdirmə (*bəndi*); **~ haben [bekommen]** birləşdirilmək (*telefonla*); **8.** *dilç.* **fester ~** bərk bağlılıq; **loser ~** boş bağlılıq.
án || schmiegen (sich) **1.** (*an A*) *dan.* mehribanlıq etmək, qılığına girmək; sıxılmaq, qısılmaq (*kiməsə*); **2.** *məc.* yapışmaq (*paltar*).
án || schneiden *vt* **1.** kəsmək, çərtmək (*üzdən*); **eine Frage ~** *məc.* məsələ qaldırmaq; **2.** *tex.* **eine Schraube ~** yiv açmaq.
án || schnüffeln *vt* imsiləmək, iyləmək.
án || schrauben *vt* vintlə bağlamaq.
án || schreiben *vt* yazmaq; qeyd etmək; əlavə etmək; **er ist bei mir gut [schlecht] angeschrieben** *məc.* o özünü mənə yaxşı [pis] tanıdıb (göstərib).
Án || schrift *f* **1.** ünvan (*məktublarda*); **2.** yazı (*kitabların üstündə*); sərlövhə, başlıq.
án || schuldegen *vt* (*G*) ittiham etmək; təqsirləndirmək (*nədənsə*).
án || schüren *vt* **1.** qarışdırmaq, qurdalamaq (*ocaqda odunu*); üfürmək, üfürüb alışdırmaq (*alovu*); **2.** *məc.* təhrik etmək, qızışdırmaq.
án || schwärzen *vt* **1.** qaraltmaq, qara rəngə boyamaq; **2.** *məc.* böhtan atmaq, ləkələmək.
án || schwellen *vi* (s) şişmək, köpmək; qabarmaq
án || schwemmen *vt* **1.** axıdıbgətirmək (*qum*); **2.** axıtmaq (*taxta-şalban*).
án || schwindeln *vt* **1.** aldatmaq, kələk gəlmək; **2.** *məc.* **j-m** etw. ~ kiməsə nəyisə sırımaq (*fırıldaqla*).
án || sehen I *vt* **1.** kiməsə, nəyəsə baxmaq; tamaşa etmək; **j-n groß ~** kiməsə təəccüblə baxmaq; **jn über die Schulter [Achsel] ~** kiməsə xor baxmaq; etw. **durch eine andere Brille ~** nəyəsə başqa gözlə baxmaq; **2.: ~ für/als** (*A*) kiməsə oxşatmaq; **einen Floh für einen Elefanten ~** *məsəl.* milçəkdən fil düzəltmək; **3.:** etw. **mit~** nəyinsə şahidi olmaq; **j-m** etw. ~ kimdəsə nəsə sezmək, hiss etmək; **man sieht es dir an** bu sənin üzündən görünür; **II** *vi.* **sieh mal an!** *məc.* bir buna bax!, bir bura bax!
Án || sehen *n* -s, *oh. pl* **1.** görünüş, zahir, görkəm; **von ~, dem ~ nach** görkəmindən; **sich ein ~ geben** ciddi görkəm almaq; **2.** baxma, gözdən keçirmə; **Vom ~ wird man nicht satt** ≡ *ata. söz.* Göz baxmaqla qarın doymaz; **3.** hörmət; nüfuz; **in hohem ~ stehen** nüfuz sahibi olmaq; **j-n um sein ~ bringen** kimisə hörmətdən (etibardan) nüfuzdan salmaq; **ohne ~ der Person** şəxsiyyətə baxmadan.
án || sehnlich *a* **1.** görkəmli, hörmətli, adlısanlı; **2.** əhəmiyyətli, iri, böyük (*məbləğ*).
án || setzen I *vt* **1.** yanaşdırmaq; taxmaq; **einen Hebel ~** linq taxmaq; **das Glas ~**

stəkanı ağıza aparmaq (yaxınlaşdırmaq); **2.** calamaq, əlavə etmək, başına calayıb uzatmaq; **3.** təyin etmək, müəyyən etmək (*müddət, vaxt, qiymət*); başlamaq; *hərb.* **einen Angriff ~** hücuma keçmək; **die Feder ~** yazmağa başlamaq; **4.: Fleisch ~** kökəlmək; **Sprößlinge ~** *bot.* tumurcuqlanmaq, cücərmək; **Speck ~** piy bağlamaq; **einen Polizeihund ~** iti axtarışa buraxmaq; *av.* **zum Landen ~** yerə enmək (*təyyarə*); **II** *vi* **1.** *bot.* tutmaq, çiçək açmaq; **2.** *kim.* çökmək; **3.** çalışmaq, sınamaq; cəhd etmək; **zum Sprunge ~** qaçışmaq; **er setzt es darauf an** o məhz buna işarə edir; o bunu demək istəyir; **III sich ~** yatmaq (*toz*), oturmaq.

Án || sicht *f* (10) **1.** (*über A*) nöqteyi-nəzər; baxış, fikir, rəy (*nə haqdasa*); **meine ~ über die Erziehungsfrage** tərbiyə məsələsində fikrim; **ich bin der ~ daß ...** mən bu fikirdəyəm ki, ...; **meiner ~ nach** fikrimcə; **er hat verkehrte Ansichten** onun yanlış fikirləri var; **2.** görünüş, mənzərə; **3.** baxma, baxılma, gözdən keçirmə.

án || sichtig *a:* **~ werden** (G) görmək (*nəyi isə*); *hərb.* **der Posten wurde des Feindes ~** qarovulçu düşməni gördü.

Ánsichts || karte *f* açıqca, açaq.

án || siedeln *vt* **sich ~** yerləşdirmək, məskunlaşdırmaq; **sich ~** köçüb oturmaq; məskunlaşmaq.

Án || sied(e)lung *f* **1.** məskunlaşma; **2.** yaşayış məntəqəsi, qəsəbə, koloniya.

Án || siedler *m,* **-in** *f* mühacir, gəlmə, koloniyada yaşayan.

án || spannen *vt* **1.** dartmaq (*simi, ipi*); **2.** gərginləşdirmək (*qüvvələri*); **3.** qoşmaq (*qoşqu heyvanı*); **4.** *məc.* işlə yükləmək.

Án || spannen *n oh. pl,* **An || spannung** *f* **1.** gərginlik; **2.** qoşma (*qoşqu heyvanı*); **mit ~ aller Kräfte** bütün qüvvələri səfərbər edərək.

án || spielen I *vt* çalmağa başlamaq; *mus.* kökləmək (*çalğı alətini*); **II** *vi* (*auf A*) cyham vurmaq (*nəyəsə*).

Án || spielung *f* (10) işarə, kinayə, cyham; him; **das ist eine ~ auf mich** bu mənə işarədir.

án || spornen *vt* **1.** mahmızlamaq (*atı*); bizləmək; **2.** *məc.* həvəsləndirmək, şirnikdirmək.

Án || sprache *f* müraciət, xitab; salamlama nitqi; **eine ~ halten [richten]** (*an j-n*) üzünü kiməsə tutub danışmaq.

án || sprechen I *vt* **1.** dindirmək; **2.** (*um A*) müraciət etmək, xahiş etmək (*nəsə*); **er hat mich um eine Arbeit angesprochen** o məndən işə düzəlməsini xahiş etdi; **3. j-n ~** *məc.* kiminsə xoşuna gəlmək, ürəyinə yatmaq; **4.: etw. ~ als...** *məc.* ... kimi baxmaq; **II** *vi:* **bei j-m ~** kiməsə baş çəkmək.

án || sprechend *a* cazibədar, xoşagəlimli.

án || spritzen *vt* çiləmək, səpmək, sıçratmaq.

Án || spruch *m* (1*) iddia, tələb, hüquq, ixtiyar; **~ erheben [machen]** iddia etmək; iddiasında olmaq, iddia irəli sürmək; **j-n in ~ nehmen** kimisə məşğul etmək, əyləndirmək; **die ganze Zeit in ~ nehmen** bütün vaxtı almaq; **zu sehr in ~ genommen sein** həddindən artıq məşğul olmaq; işi başından aşmaq.

ánspruchs || los *a* tələbkar olmayan; iddiasız, təvazökar, sadə.

ánspruchs || voll *a* tələbkar; iddialı.

án || stacheln *vt* təhrik etmək, qızışdırmaq.

Án || stalt *f* **1.** müəssisə, idarə; **2.** *pl.* tədbir, ölçü; hazırlıq; **~ machen** hazırlaşmaq, ölçü götürmək; **~ zur Reise treffen** yol tədarükü görmək; **ohne ~en** heç bir hazırlıq görmədən.

Án || stand *m,* -(e)s; *oh. pl* **1.** ədəb, ləyaqət; **2.** *ovç.* marıtlama; **3.** təxirə salma; **ohne ~** sözsüz, danışıqsız.

án || ständig *a* ədəbli, ləyaqətli, tərbiyəli, namuslu, vicdanlı.

ánstands || halber *adv* ədəb xatirinə.

ánstands || los I *a* cəld, təcili, təxirsiz; **II** *adv* sözsüz, danışıqsız.

án || starren *vt* gözlərini zilləyib/bərəldib baxmaq.

anstátt I *prp* (*D*) əvəzində, yerinə; **~ meiner** mənim əvəzimə; **ich gehe ~ deiner** mən sənin əvəzinə gedirəm; **II** *cj inf-dən əvvəl* **~ zu, ~ daß ...** əvəzinə, **~ sich zu freuen, wurde er böse** o sevinmək əvəzinə hirslədi.

án || stauen I *vt:* **das Wasser ~** suyun qabağını almaq; **II sich ~** yığılmaq (*su*); topanmaq.

án || staunen II *vt* məftunluqla baxmaq; heyrətə gəlmək, təəccüblənmək.

án || stecken *vt* **1.** sancmaq; **2.** yandırmaq (*işıq*); **3.** *tib.* yoluxdurmaq; **angesteckt werden** (*durch A / von D*) xəstəliyə tutulmaq; **Schnupfen steckt an** zökəm yoluxucudur.

án || steckend *a* **1.** *tib.* yoluxan, yoluxucu; **2.** *məc.* sirayətedici, başqalarına keçən.

Ánsteckungs || krankheit *f* yoluxucu xəstəlik; **~stoff** *m* virus.

án || stehen (an || stehn) *vi* (s,h) **1.** yaxında olmaq; **2.: etw. ~ lassen** təxirə salmaq; **diese Sache kann noch einiger Zeit ~** bu işi bir (*neçə vaxt*) qədər təxirə salmaq olar; **nicht ~** yaddan çıxartmaq, nəzərdən qaçırtmaq; **3.** (*nach D*) növbəsində durmaq; **4.** yaraşmaq; layiq olmaq.

án || stellen I *vt* **1.** söykəmək; **2.** işə götürmək; **angestellt sein** qulluqda olmaq; **3.** düzəltmək, hazırlamaq, qurmaq; etw. **so ~, daß** ... işi elə qurmaq ki ...; **was hast du da bloß angestellt?** yenə burada nə iş açmısan?; **wie hast du das bloß angestellt?** sən buna necə nail oldun?; **Betrachtungen ~** (*über A*) fikirləşmək, götür-qoy etmək; **einen Vergleich ~** müqayisə etmək; **ein Verhör [eine Untersuchung] ~** istintaq [təhqiqat] aparmaq; **4.** *məc.* etmək, vadar etmək; **II sich ~ 1.** hiylə işlətmək, riyakarlıq etmək; **er stellt sich an, als ob (als wenn)** ... o özünü elə aparır (göstərir) ki, guya...; **2.** (*nach D*) növbəyə durmaq.

Án || stellung *f* **1.** təyin etmə, işə götürmə; **2.** yer, vəzifə.

Ánstellungs || vertrag *m* əmək müqaviləsi.

án || stieren *vt* lənətləmək.

án || stiften *vt* **1.** səbəb olmaq, bais olmaq; **da hast du** etw. **Schönes angestiftet!** *kin.* əcəb iş törətdin!, əcəb oyun çıxartmısan!; **2.** qızışdırmaq.

Án || stifter *m,* **-in** *f* qızışdıran, təhrik edən, bais (şəxs).

án || stimmen *vt* oxumağa başlamaq; səs vermək; çalmaq (*musiqi alətində*); **ein Lied ~** mahnı oxumaq; **immer wieder das alte Lied ~** *məc.* elə hey köhnə havanı çalmaq.

Án || stoß *m* (1*) **1.** təkan, zərbə; **2.** bəhanə, səbəb; **den (ersten) ~ geben** (*zu D*) vadar etmək, həvəs oyatmaq; **3.** maneə, əngəl, çətinlik; **ein Stein des ~es** *məc.* maneə, əngəl, çətinlik; **4.: ~ geben / erregen** narazılığa səbəb olmaq; **~ nehmen** pərt edilmək.

án || stoßen I *vt* itələmək, irəli çəkmək; **auf j-s Wohl ~** kiminsə sağlığına içmək; **II** *vi* **1.** (*s*) (*an A*) dəymək, toqquşmaq (*nə ilə*sə); **ich bin an den Tisch angestoßen** masaya dəyib əzildim; (*nəyə görə*sə) pərt etmək; **2.** (h) kəkələmək; dili dolaşmaq; **mit der Zunge ~** dili topuq çalmaq; **3.** yanaşdırmaq; **4. bei j-m ~** kiminsə narazılığına səbəb olmaq; utandırmaq.

án || stoßend *a* qonşu, qapı-qapıya.

án || stößig *a* ədəbsiz, nalayiq, yaramaz.

án || streben I *vt* (h) can atmaq, səy etmək, çalışmaq; **II** *vi* (*gegen A*) qarşı durmaq, müqavimət göstərmək, zidd getmək (*nəyə sə*).

án || streichen I *vt* **1.** rəngləmək, boyamaq; **2.** altından xətt çəkmək, qeyd etmək; **das werde ich dir ~!** *məc.* bunu sənə göstərərəm!; **II sich ~** *dan.* üz-gözünü boyamaq; bəzənmək; qrimlənmək.

án || strengen I *vt* **1.** gərmək, gərginləşdirmək; yormaq, əldən salmaq; **2.: eine Klage ~** *hüq.* iddia irəli sürmək; **II sich ~** çalışmaq, əlləşmək.

án || strengend *a* yorucu, üzücü, əziyyətli.

Án || strengung *f* (10) gərginlik, səy.

Án || strich *m* rəngləmə, boyama; görünüş; çalarlılıq, rəngə çalma; **die Sache bekommt einen anderen ~** iş başqa rəng alır; **einer Sache einen günstigen ~ geben** *məc.* işin yaxşı tərəfini göstərmək.

án || stürmen I *vi* (s) çaparaq gəlmək; **II** *vt* (*kiminsə, nəyinsə*) üstünə atılmaq, tullanmaq; hücum etmək, həmlə etmək.

Án || suchen *n* **-s,** *oh. pl* xahiş, ərizə.

Ántagonismus *m* -, -men antaqonizm (*barışmaz ziddiyyət*), düşmənçilik, ədavət, əks-təsir, müqavimət.

ántagonistisch *a* qarşı, zidd.

án || tappen *vi* (h, s) [*yaxud* **angetappt kommen**] ehtiyatla yaxınlaşmaq; *dan.* ağır addımlarla yaxınlaşmaq.

án || tasten *vt* **1.** yavaşca toxunmaq, əl vurmaq; **2.** qəsd etmək, *məc.* toxunmaq; **die Ehre eines anderen Menschen ~** başqasının namusuna toxunmaq.

Án || teil *m* **1.** hissə, pay; **2.** *oh. pl* rəğbət, rəhm; acıma; **~ nehmen / zeigen** (*an D*) iştirak etmək (*nadənsə*).

Ánteil || nahme *f oh. pl* iştirak; rəğbət; acıma.

ánteils || voll I *a* mərhəmətli; acıyan; **II** *adv* mərhəmətlə.

Ántenne *f rad.* antena.

ánti || faschistisch *a* antifaşist.

ánti || imperialistisch *a* antiimperialist.

ántik *a* qədim, antik.

Antike *f oh. pl* **1.** qədim dünya; **2.** qədim dünya mədəniyyəti, incəsənəti; **3.** ən qədim şey, qədimdənqalma şey.

Antilópe *f* (11) *zool.* antilop.

Antipatie *f* (11) xoşa gəlməmə, nifrət, antipatiya.

ántiquárisch I *a* **1.** qədim, köhnə; **2.** az tapılan, bukinist (*köhnə kitabların alınıb-satılması*); **II** *adv* **ein Buch ~ kaufen** bukinistdən kitab almaq.

Antiquität *f* (10) qədim şey, qədimdən qalma şey; köhnəlik.

Ántlitz *n* (2) *ədəb.* sifət, üz, sima, surət.

Antoným *n* (2) antonim (*əks məna ifadə edən söz*).

án || traben *vi* (s) [*yaxud* **angetrabt kommen**] löhrəm yerişlə yaxınlaşmaq (yanına); yüyürmək.

Án || trag *m* (1*) **1.** təklif; **2.** xahiş, ərizə; **einen ~ stellen / einbringen** təklif irəli sürmək.

án || tragen I *vi* **1.** təklif vermək, təklif irəli sürmək; **2.** gətirmək, vermək; **II sich ~** öz xidmətini təklif etmək.

án || treffen *vt* görmək, rast gəlmək; **auf / bei frischer Tat ~** cinayət başında tutmaq.

án || treiben I *vt* **1.** qovub gətirmək, qovmaq; **2.** *tex.* hərəkətə gətirmək (*maşını*); **3.** *məc.* **heyvəsləndirmək, şirniklendirmək; die Not treibt ihn dazu an ehtiyac onu bu işə vadar edir; II** *vi* (s) *yaxud* [**angetrieben kommen**] üzüb gəlmək, üzüb çatmaq.

án || treten I *vt* başlamaq, təşəbbüs göstərmək; **eine Reise ~** səyahətə getmək (çıxmaq); **den Urlaub ~** məzuniyyətə getmək çıxmaq; **II** *vi* (s) **1.** kiminsə yerində (yerinə) durmaq; **2.** *hərb.* sıraya düzlənmək; yürüşə keçmək; **~!** düzlən!; **3.** (*gegen j-n*) *idm.* yarışda çıxış etmək (*kiminsə əleyhinə*); **4.** işə başlamaq; **das kannst du nicht mit ~** *məc.* sənin bu işə gücün çatmaz.

Án || trieb *m* (1) **1.** arzu, niyyət, məqsəd, meyil; stimul; **aus eignem [freiem] ~e** öz arzusu ilə, könüllü; **2.** *fiz.* təkan, səbəb; **3.** *tex.* ötürücü; hərəkət qüvvəsi, dartıcı qüvvə.

Ántriebs || scheibe *f mex.* ötürücü çarx.

Án || tritt *m oh. pl* **1.** başlanğıc; debüt; **2.** girmə (*vəzifəyə*); giriş; **3.** pillə.

Ántritts || vorlesung *f* giriş mühazirə.

án || tun *vt* **1.** səbəb olmaq; **sich** (*D*) **Zwang ~** özünü məcbur etmək; **sich (D) ein Leid(s) ~** özünü öldürmək; **ich habe ihm manches angetan** mən onun qarşısında çox günahkaram; **2.** geymək (*paltar*); **3. es j-m ~** *məc.* kimisə heyran etmək.

Ántwort *f* (10) cavab; **abschlägige / verneinende ~** rədd cavabı; **Rede und ~ stehen** cavabdeh olmaq; **er bleibt keine ~ schuldig, er ist um keine ~ verlegen** o, hazırcavabdır; o, söz üçün məəttəl qalmaz/qalan deyil; ≡ **Wie die Frage, so die ~** Hərcayı sualın gərcayı da cavabı olar.

ántworten *vi* cavab vermək; **auf den Ruf ~** çağırışa hay vermək.

ántwortlich *adv* ... cavab olaraq.

ánulken *vt dan.* ələ salmaq; başını bişirmək.

án || ver || trauen I *vt* inanmaq; tapşırmaq; **II sich ~: sich (j-m) ~** inanmaq, etibar etmək (*kimisə*), açıq olmaq (*kimisə*).

Án || wachs *m* artma.

án || wachsen *vi* (s) **1.** (*an A*) bitişmək (*nəyəsə*): **die Zunge war ihm wie angewachsen** elə bil, dili qurumuşdu; **die Zunge ist ihm nicht angewachsen** o, dilden pərgardır; **2.** artmaq; qalxmaq; yayılmaq; **das Fieber wächst an** qızdırma qalxır; **3.: das Pferd ist angewachsen** at çəng olub.

Án || wachsen *n* bitişmə; göyərmə.

Ánwalt *m* (1, 1*) vəkil, müdafiəçi, advokat.

Ánwaltschaft *f* (10) **1.** vəkillik, advokatlıq; **2.** vəkil adı (*rütbəsi*).

án || wandeln I *vi* (s) [*yaxud* **angewandelt kommen**] yavaş-yavaş yaxınlaşmaq; **II** *vt məc.* bürümək; **Schreck wandelte ihn an** onu dəhşət bürüdü; **was wandelt dich an?** sənə nə olub?

Án || wand(e)lung *f* (10) tutma.

án || wärmen *vt* qızdırmaq.

Án || wärter *m* (6) namizəd; (*auf A, zu D*); **~ des Todes** *dan.* ömrü az qalmış; ölüm bəkçisi.

Án || wartschaft *f* (13) namizədlik; boş (tutulmamış) yeri gözləyənlər.

án || wehen *vt* **1.** əsmək, yellətmək; **2.** gətirmək (*qar yığınını*); **er kommt angeweht** o, gözlənilmədən gəldi; **3.** üfürmək (*nəyisə*).

án || weisen *vt* **1.** göstərmək, işarə etmək; **2.** nəsihət vermək; öyrətmək; təlimat vermək; **3.** təyin etmək; sərəncam vermək; **einen Platz ~** yer ayırmaq; **4.** göndərmək (*pul*), barat etmək; **eine Summe ~** pul buraxmaq, kredit açmaq; **5.: ich bin darauf angewiesen ...** mən məcburam; **sie sind aufeinander angewiesen** onların qarşılıqlı köməyə ehtiyacı var; onlar bir-birindən asılıdır.

Án || weisung *f* (10) **1.** göstəriş; öyrətmə, təlimat; **die ~ ging ab** göstəriş verilib; **2.** barat, pul göndərmə; çek, order.

Ánweisungs || schein *m* order; **~zettel** *m* çek (*kassaya*).

án || welken *vi* (s) solmaq.

án || wendbar *a* tətbiq edilə bilən, kara gələn.

án || wenden *vt* tətbiq etmək, işlətmək, istifadə etmək; **Sorgfalt ~** səylə yanaşmaq; **Geld zu etw.** (*D*) **~** nəyəsə pul sərf etmək, xərcləmək; etw. **auf sich** (*A*) **~** nəyisə özünə götürmək; **auf die Praxis angewandt** təcrübədə tətbiq edilən.

Ánwendung *f* (10) **tətbiq etmə, işlətmə; unter ~ (von D) tətbiq edərək; das findet hier keine ~** bu, burada tətbiq edilə bilməz.

án || werben I *vt* üzv və ya işçi qüvvəsi cəlb etmək; **II** *vi* (*um A*) can atmaq.

ánwesend *a* olan, mövcud olan; **~ sein** mövcud olmaq, iştirak etmək.

Ánwesende *m*, (9*) iştirakçı; iştirak edən.

án || widern *vt* nifrət oyatmaq; **das widert mich an** bu, ürəyimi bulandırır; mən bundan iyrənirəm.

án || wiehern *vt* kişnəmək, kişnəməyə başlamaq.

án || wimmern I *vt* ağlaya-ağlaya müraciət etmək; **II** *vi* (s): **angewimmert kommen** ağlaya-ağlaya yaxınlaşmaq.

Ánwitterung *f* (10) **1.** duyğu; **2.** *tex.* filiz tozu ilə basma.

Ánwuchs *m* **1.** artma, artım; **2.** bala vermə; **3.** körpə heyvanlar; **4.** *tib.* şiş; **5.** cavan ağaclar; **6.** *geol.* müasir çöküntülər.

Ánwurf *m* **1.** mala; **2.** tullama; **3.** *məc.* böhtan, təqsirləndirmə.

ánwüten *vi:* (*gegen A*) qəzəblə, hiddətlə atılmaq (*kiminsə, nəyinsə üstünə*).

Ánzahl *f oh. pl* say, miqdar; **große ~** çoxlu; **geringe ~** bir neçə.

ánzahlen *vt* beh vermək; hesabı ödəmək.

Ánzahlung *f* beh, qabaqcadan verilən pul.

án || zapfen *vt* **1.** yığmaq (*çəlləyi*); çəllək bağlamaq; **2.** çıxıntı vasitəsi ilə birləşdirmək; **3.:** *j-n* **(gehörig) ~** *məc.* 1) aldadıb xeyli pul almaq; 2) kimdənsə söz almaq.

Ánzeichen *n* (7) **1.** əlamət, işarə, nişanə; **2.** *hüq.* sübut, dəlil.

Án || zeige *f* (11) **1.** xəbərdarlıq, məlumat, bildiriş; **2.** elan; **3.** göstəriş, xəbərçilik, şikayət; raport; **~ erstatten / machen von etw.,** etw. **zur ~ bringen** nə haqdasa xəbər vermək; **4.** *tic.* bildiriş vərəqəsi, avizo.

án || zeigen *vt* **1.** bildirmək, məlumat vermək; **2.** elan etmək, xəbər vermək, **den Empfang ~** alğını təsdiq etmək; **3.** faş etmək; şeytanlamaq; **einen Dieb ~** oğrunu ifşa etmək; **4.: das zeigt nichts Gutes an** bundan yaxşı şey gözləmək olmaz; **es für angezeigt halten** nəyisə münasib hesab etmək.

Án || zeiger *m* (6), **~in** *f* (12) **1.** elan verən; **2. xəbərçi; 3. göstərici; 4. xəbərlər** (*məcmuə adı*); **5.** *elek.* indikator; **6.** *hərb.* siqnalçı, yol (*istiqamət*) göstərən.

án || zetteln *vt* **1.** *toxuc.* üstünü sarımaq; **2.** *məc.* qəsdən törətmək, səbəb olmaq

einen Streit [Krieg] ~ davaya [müharibəyə] səbəb olmaq.

Ánzett(e)lung *f* (10) **1.** hiylə, fənd, fırıldaq; pis niyyət; **2.** *toxuc.* üstünü sarıma.

án || ziehen I *vt* **1.** dartmaq, çəkmək (*cilovu və s.*); **2.** *tex.* bağlayıb bərkitmək (*qaykanı*); **3. Kleider ~** ayaqqabı geymək; **4.** *məc.* cəzb etmək, 5.: **ein Gesetz ~** qanuna əsaslanmaq; **6.** yola düzəlmək; hərəkətə gətirmək; **II** *vi* **1.** (s) yavaş-yavaş yaxınlaşmaq; **2.** (h) *şahm.* birinci gedişi etmək; **3.** artmaq (*qiymət*); **die Pferde siehen nicht an** atlar yerindən tərpənmir; **III sich ~** geyinmək.

ánziehend *a* çəkən, cəzb edən, cəlb edən.

Ánziehung *f* (10) **1.** çəkmə; **2.** cazibə, məlahət.

Ánziehungs || kraft *f* **1.** *fiz.* cazibə qüvvəsi; **2.** *məc.* cəlbetmə, cazibəlik.

ánzüchten *vt* böyütmək, bəsləmək, yetişdirmək.

Án || zug *m* (1°) **1.** geyim, kostyum; *hərb.* libas; **2.** *oh. pl* yaxınlıq; **im ~ sein** yaxınlaşmaq; **ein Gewitter ist im ~** tufan yaxınlaşır; **3.** *şahm.* ağların birinci gedişi.

Ánzüglichkeit *f* (10) işarə, acı söz.

án || zünden *vt* yandırmaq, alışdırmaq (*siqareti*).

án || zweifeln *vi* şübhələnmək.

apárt I *a* **1.** ayrı; xüsusi; **etwas ~legen** nəyisə ayırıb bir yana qoymaq; **2.** cazibəli (*qadın*); nəfis; **II** *adv* xüsusən, ayrıca.

Apathie *f oh. pl* süstlük, hissizlik.

apáthisch *a* laqeyd, süst.

Aperçu [-'sy:] *n* -s, -s, xülasə, icmal.

aperiódisch *a* aperiodik.

Apex *m* -, *pl* Ápizes **1.** zirvə; **2.** *astr.* Günəşin istiqamət nöqtəsi.

Ápfel *m* (6°) alma; ◊ **verbotener ~** yasaq alma, yasaqlanmış şey; **ein saurer ~** *kin.* pis (acı) hadisə; **Der ~ fällt nicht weit vom Stamm** *ata. söz* Alma budağından alça düşməz; **in den sauren ~ beißen** məcburiyyət qarşısında itaət etmək.

Ápfel || baum *m* alma ağacı.

Ápfelsine *f* (11) portağal.

Apfel || strudel *m* alma piroqu; **~wein** *m* alma şirəsi; alma şərabı.

Áphorismus *m* -, **-men** aforizm (*qısa, dərin mənalı ifadə*).

Apogäum *n*, **-s, -äen 1.** ən yüksək nöqtə; **2.** *astr.* apogey.

Apostróph *m* (1) *qram.* apostrof.

apostrophieren *vt* **I** apostrof qoymaq; **II 1.** töhmət vermək, **2.** bəlağətlə danışmaq (*kinayə*).

Apothéke *f* aptek.

Apothéker || preise *pl isteh.* yüksək qiymət.

apparátiv *a* avadanlığa məxsus olan.

Appéll *m* (1) **1.** çağırış, müraciətnamə (*an A*); **2.** toplanma, adbaad yoxlama; sıraya (cərgəyə) düzlənmə; **den ~ abhalten** adbaad yoxlamaq; **zum ~!** cərgəyə düzlən! **3.** apelyasiya, utiraz.

Appetit *m* (1) iştaha; **guten ~!** iştahan(ız) yeyin olsun!, nuş olsun!; **~ machen** iştaha açmaq, iştaha oyatmaq, iştahlandırmaq; **das verschlägt mir den ~** bu, mənim iştahamı kəsir, **~haben** (*auf A, nach D*) *məc.* həvəsi (arzusu) olmaq; **den ~(be) nehmen** *məc.* həvəsdən salmaq.

appetítlich *a* iştahlı; *məc.* cəlbedici.

applaudieren *vi* əl çalmaq; alqışlamaq.

Appláus *m* əlçalma; alqışlar.

Applikátion *f oh. pl* **1.** tətbiq etmə; **2.** qızıl (gümüş) suyuna çəkilmə; **3.** *məc.* səy, can yandırma.

Appositión *f* (10) *qram.* əlavə; appozisiya.

Approbatión *f* (50) **1.** bəyənmə; **2.** sınağa buraxılma (*hakim, vəkil* və s.).

approximativ *a* təxmini.

Aprikóse *f* ərik, qayısı.

April *m* -(s), -e; aprel; ◊ **in den ~ schicken** zarafat edərək aldatmaq (*1 aprelda*).

April || wetter *n məc.* dəyişkən hava.

apropos [-'po:] *adv* yeri gəlmişkən, vaxtı gəlmişkən, məqamında.

Ára *f, pl* **Áren** era.

Áraber *m* (6), **~in** *f* **1.** ərəb (*kişi, qadın*); **2.** ərəb atı.

Árabien *n* Ərəbistan.

arábisch *a* ərəb.

Arál || see *m* Aral gölü.

Arár *n* dövlət xəzinəsi.

Arbeit *f* (10) **1.** iş, əmək, peşə; **in ~ sein** işdə olmaq; işləmək; **~ leisten** iş görmək; **bei *j-m* in ~ stehen** kiminsə yanında işləmək;

die ~ einstellen 1) işi dayandırmaq; 2) tətilə başlamaq; **auf ~ gehen** bir yerdə işləmək; **die ~ schwänzen** proqul etmək; **işdən boyun qaçırmaq; sich an die ~ machen** işə başlamaq (girişmək); etw. **in ~ nehmen** iş götürmək; etw. **in der ~ haben** bir işin üzərində çalışmaq; **keine ~ haben** işsiz qalmaq; **2.** *oh. pl* əmək, əmək prinsipi; **körperliche ~** fiziki əmək, **geistige ~** zehni əmək; **3.:** **eingelegte ~** *tex.* şirmayı işi.

árbeiten I *vi* **1.** işləmək, çalışmaq, iş görmək; **2.** (*an D*) məşğul olmaq, işləmək, zəhmət çəkmək (*nəyinsə üzərində*); **3.** işləmək (*maşın*); **4.** qıcqırmaq (*pivə, çaxır*); **5.** gəlmək, acımaq (*xəmir*); **6.** j-m **in die Hand ~** kiminsə xeyrinə iş görmək; **j-m entgegen ~** kiminsə əleyhinə olmaq; **7. die See arbeitet** dəniz sakit deyil; **gegen Wind und Wellen ~** külək və dalğalara qarşı hərəkət etmək; **II** *vt* etmək, hazırlamaq, hasil etmək; işlətmək, **III** *wimp.* **es arbeitet sich leicht, wenn ...** iş asan gedər, əgər ...

Arbeiter *m* (6) fəhlə, işçi; **ungelernter ~** qara fəhlə; **jugendlicher ~** yeniyetmə fəhlə; **wissenschaftlicher ~** elmi işçi.

Arbeiter || abteilung *f* fəhlə dəstəsi; **~genossenschaft** *f* fəhlə kooperasiyası; **~haushalt** *m* **1.** fəhlə ailəsinin büdcəsi; **2.** fəhlə ailəsinin (*ev*) təsərrüfatı.

Arbeiterin *f* (12) fəhlə, işçi (*qadın*).

Arbeiter || jugend *f oh. pl* fəhlə gənclər; **~klasse** *f oh. pl* fəhlə sinfi, proletariat; **~partei** *f* fəhlə partiyası; **~at** *m* fəhlə deputatları Soveti; **~schaft f** *oh. pl* fəhlələr, fəhlə sinfi; **~schicht** *f* fəhlə təbəqəsi; **~schutzgesetzgebung** *f* əməyin mühafizəsi haqqında qanun; **~verband** *m*, **~verein** *m* fəhlə ittifaqı, fəhlə cəmiyyəti, **~versicherung** *f* fəhlə sığortası; **~viertel** *n* fəhlə məhəlləsi, **~vorstadt** *f* şəhəryanı fəhlə qəsəbəsi; **~wehr** *f* fəhlələrin özünü müdafiəsi; **~zirkel** *m* fəhlə dərnəyi.

Árbeit || geber *m* (6), **~in** (12) işverən, sahibkar (*kişi, qadın*); **~nehmer** *m* (6) işalan, işgötürən.

árbeitsam *a* çalışqan, işlək, əməksevər.

Árbeits || amt *n* əmək birjası; **~anfnahme** *f* işə başlama; **~begeisterung** *f* əmək coşqunluğu; **~buch** *n* əmək kitabçası; **~einstellug** *f* işin dayandırılması; tətil; **~einteilung** *f oh. pl* əmək bölgüsü; **~erfahrung** *f* iş təcrübəsi.

árbeits || fähig *a* əməkqabiliyyətli.

Árbeits || fähigkeit *f* iş qabiliyyəti; **~feld** *n* fəaliyyət sahəsi; **~fertigkeit** *f* əmək vərdişi; **~freude** *f*, **~freudigkeit** *f* əmək sevinci; **~gang** *m* işin gedişi; **~gelegenheit** *f* iş imkanı, **~gegenstand** *m* əmək aləti; **~genossenschaft** *f* fəhlə arteli; **~gerät** *n* iş aləti; **~gericht** *n* əmək məhkəməsi, **~gerüst** *n tik.* taxtabənd, dəzgah (*tikintinin ətrafında*); **~kittel** *m* iş köynəyi; **~kleidung** *f* iş paltarı, **~kraft** *f* işçi qüvvəsi; **~kräfte** *pl* fəhlələr, işçilər, **~leistung** *f* **1.** əmək məhsuldarlığı, hasilətmə; **2.** iş, **~lohn** *m* əməkhaqqı.

árbeits || los *a* işsiz; **~es Einkommen** zəhmətlə qazanılmayan gəlir.

Árbeits || lose *m, f* (9°) işsiz (*kişi, qadın*).

Árbeitslosen || unterstützung *f* işsizlərə verilən yardım; **~versicherung** *f* işsizlərin sığortası.

Árbeits || losigkeit *f oh. pl* işsizlik; **~mann** *m* işçi; **~markt** *m* əmək bazarı; **~mittel** *n* əmək vasitəsi; **~nachweis** *m* əmək birjası; **~ordnung** *f* daxili intizam qaydaları (*idarədə*), **~pause** *f* işarəsi fasilə (*yemək üçün*), **~raum** *m* iş otağı.

árbeits || scheu *a* işdən qorxan; tənbəl.

Árbeits || scheue *m, f* (9) **1.** nəmrə-nazik; **2.** tənbəl, avara, əlini işə vurmayan.

Árbeits || schutz *m* əmək mühafizəsi; **~tag** *m* **1.** *iqt.* iş günü, əmək günü; **2.** *pl* adi iş günü; **~stätte** *f* iş yeri; **~stimmung** *f* iş həvəsi, işə meyil; **~teilung** *f* əmək bölgüsü, **~übertragung** *f* enerjinin verilişi.

árbeits || unfähig *a* əmək qabiliyyətini itirmiş

Árbeits || unfähigkeit *f oh. pl* əmək qabiliyyətini itirmə, iş bacarığı olmama; **~versäumnis** *f* işə çıxmama, iş buraxma, **~vorgang** *m* işin gedişi, iş prosesi.

árbeits || willig *a* işgüzar, işləməyə hazır olan.

Árbeits || zimmer *n* iş otağı, kabinet.

Archaismus *m* -, -men arxaizm, köhnəlmiş ifadə.

Archäolog(e) *m* (8, 9) arxeoloq.
Archäologie *f oh. pl* arxeologiya.
Archipél *m* -s, -e arxipelaq.
architektónisch *a* arxitektonik, memarlığa məxsus.
Architektúr *f* (10) arxitektura, memarlıq.
Aréna *f, pl* -nen **1.** meydan; sahə; **2.** *məc.* sahə, meydan (*elmdə*).
arg I *a* **1.** pis, yaramaz, acıqlı; **2.** kobud, böyük; **nichts Arges denken** pis niyyətdə olmamaq; **ein ~er Fehler** böyük səhv; **in ~e Verlegenheit kommen** böyük çətinliklər çəkmək; **im ~en liegen** pis vəziyyətdə olmaq; **II** *adv* hirslə, acı-acı; artıq; **das ist zu ~** bu həddən artıqdır; *j-m* **~ mitspielen** pis zarafat etmək (*kimləsə*); **es wird so ~, daß ...** iş o yerə çatıb ki...; **er treibt es zu ~** o, ağ eləyir; o, şitini-şorunu çıxardır.
Árg *n* -s, *oh. pl* pis iş; **ohne ~** səmimi.
Árgentinien *n* (-s) *coğr.* Argentina.
Árgentiner *m* (6), **~in** *f* (12) argentinalı (*kişi, qadın*).
Argĕr *m oh. pl* **1.** acıq, hirs, pislik; **aus ~** (*über A*) acıqdan; **zum ~** ... acığına; **seinen ~ an j-m auslassen** acığını (hirsini) kiminsə üstünə tökmək; **2.** pis (xoşagəlməz) hadisə; **viel ~ haben** başı bəlalar çəkmək.
ärgerlich *a* **1.** acıqlı, hirsli; **~ sein** hirslənmək; **2.** xoşagəlməz, təəssüflü.
ärgern I *vt* acıqlandırmaq, hirsləndirmək; **es ärgert ihn** onun acığı tutur; **II sich ~** (*über A*) acıqlanmaq, hirslənmək (*nəyəsə, kimsəyə*).
Ärgernis *n* (3*) **1.** acıq, hirs; ovqatı təlxlik; **~ erregen** narazılıq oyatmaq; **~ an etw.** (*A*) **nehmen** çox hirslənmək (*nədənsə*); **2.** biabırçılıq.
Árg || list *f oh. pl* xainlik, məkr, hiylə.
arg || listig *a* məkrli, hiyləgər; **~los** *a* **1.** inamcıl; **2.** kinsiz.
Argumént *n* **1.** dəlil, sübut; **2.** *riyaz.* sərbəst dəyişən.
Árgus || augen *pl* **1.** gözüaçıq; **2.** *məc.* sayıq (çox diqqətli) gözətçi; **mit ~ ansehen** gözdən qaçırmamaq.
Árg || wille *m -ns, oh. pl* qərəz, pis niyyət.
Árg || wohn *m -, oh. pl* şübhə; **~ schöpfen / fassen** şübhələnmək; **in ~ stehen** şübhə altında olmaq.
árgwöhnisch *a* vəsvəsi, bədgüman; şübhəli.
Árie *f* (11) *mus.* ariya.
Árier *m* (6) ari (*Hind-Avropa dillərində danışan xalqlara verilən qeyri-elmi şərti ad*).
árisch *a* ari.
Arithmétik *f oh. pl* hesab.
arithmétisch *a* hesab, **~es Mittel** *riyaz.* orta arifmetik qiymət.
Árktis *f oh. pl coğr.* Arktika.
árktisch *a* arktik.
arm *a* **1.** (*an A*) kasıb, yoxsul; **~ werden** kasıblamaq; **~ sein** (*an D*) ehtiyacı olmaq; **2.** yazıq, zavallı; **~ an Geist** ağıldankəm; **~e Seele, ~er Teufel [Schlucker]** *dan.* yazıq, fağır; **~es Kind** yazıqcığaz; **3.:** **~e Ritter** *pl* qızardılmış çörək tikələri.
Arm *m* **1.** qol; **in den ~en** qucaqda; *j-m* **in die ~e fliegen** kiminsə qucağına atılmaq; **~ in ~** ələ-ələ; **unter dem ~** qoltuq altında; **mit offenen ~en** sevinclə, nəvazişlə; *j-m* (*D*) **unter die Arme greifen** kiminsə qolundan tutmaq (*kömək*), **mit offenen Armen empfangen** sevinclə qarşılamaq (qəbul etmək); **die ~e frei haben** *məc.* istədiyi kimi hərəkət etmək; **so weit reicht sein ~ nicht!** buna onun gücü çatmaz!; **die Beine unter die ~e nehmen** *dan.* əkilmək; qaçıb aradan çıxmaq; **ein ~ voll** bir qucaq; **2.** qol (*çay*); **3.** qoltuq (*qoltuqlu stul*); **4.** *tex.* çiyin.
Árm || band *n* qolbaq, bilərzik; **~band || uhr** *f* qol saatı.
Árm || bauer *m* yoxsul kəndli.
Arm || beuge *f* dirsək; **~binde** *f* sarıq, sarğı (*qolda*); **~brust** *f* qundaqlı ox-yay (*qədim silah*).
árm || dick *a* qol yoğunluğunda.
Ármee *f* ordu, qoşun.
Ármée || befehl *m* ordu üzrə əmr; **~befehlshaber** *m*, **~führer** *m*, **~kommandant** *m* qoşunbaşı; ordu komandanı; *m*, **~oberkommando** *n hərb.* ordu qərargahı.
Ármel *m* (6) qol (*paltarda*); ◊ **das läßt sich nicht aus dem ~ schütteln** bu asan iş deyil.
Ármel || kanal *m* Lamanş; **~zeichen** *n* qol nişanı.

Ármen || anstalt *f* **~haus** *n*, **~heim** *n* əlillər evi.
Arménien *n* Ermənistan.
Arménier *m* (6), **~in** *f* (12) erməni (*kişi, qadın*).
arménisch *a* erməni.
Ármen || pflege *f* **~wesen** *n* yoxsulları himayə.
Árm || feile *f* dördkünc savand.
armieren *vt* **1.** silahlandırmaq; **2.** avadanlıqla təchiz etmək; **armierter Balken [Träger]** *tik.* döyülmüş (*möhkəmlənmiş*) tir.
Árm || lehne *f* qoltuq (*kürsüdə, kresloda*).
ärmlich *a* yoxsul, kasıb, fağır; az, cüzi.
Ärmlichkeit *f oh. pl* kasıblıq, yoxsulluq, miskinlik.
ármlos *a* əlsiz.
ármselig *a* yoxsul, kasıb, fağır.
Árm || sessel *m* kreslo, qoltuqlu stul.
Ármut *f oh. pl* **1.** yoxsulluq, kasıblıq, səfalət; **2.** kasıbçılıq.
Aroma *n* -s, -s və -ta ətr, təyinat.
aromátisch *a* ətirli.
arrangieren [arãʒi:rən] *vt* **1.** qurmaq, düzəltmək; **2.** *mus.* uyğunlaşdırmaq, aranjema etmək (*bir musiqi aləti və ya musiqi səsi üçün yazılmış əsəri başqa musiqi alətinə və ya səsə uyğunlaşdırmaq*).
Arrést *m* (1) **1.** həbs etmə; **im ~** həbsdə; **2.** sekvestr; yasaqlama.
Arrestánt *m* (6), **~in** *f* (12) dustaq (*kişi, qadın*).
Arrést || zelle *f* dustaq otağı; biradamlıq dustaq otağı.
arretieren *vt* həbsə almaq, həbs etmək.
Arretierung *f* (10) **1.** həbs; **2.** müsadirə; **3.** *tex.* tormoz qurğusu.
arrogánt *a* lovğa, dikbaş, təkəbbürlü.
Arrogánz *f oh. pl* təkəbbür.
Arsch *m* (1*) **1.** *vulq.* dal, sağrı; **2.** *tik.* sütunun təməli (əsası).
Arsén, Arsénik *n oh. pl kim.* arsen.
Art *f* (10) **1.** cins; növ; nəsil; **wenn sie der ~ sind, wie ...** qayıq onlar da bunlar kimidirsə; **von der ~** bu cür, bu tipli; **2.** üsul, qayda; **auf diese ~ (und Weise)** bu üsulla; **auf jede ~ und Weise** hər cür, hansı üsulla olursa olsun; **auf eigene [nach seiner] ~** özü bilən kimi, istədiyi kimi; **das ist gar keine ~ (und Weise)** bu yaramaz; bu, heç cür olmaz; **aus der ~ schlagen** nəsli pozulmaq, cırlaşmaq.
árten *vi* (s) **1.** (*nach j-m*) oxşamaq; **die Menschen sind schon so geartet** insanlar başqalaşıblar; **2.:** **gut ~** inkişaf etmək, yaxşı tutmaq.
árten || reich *a zool.* çoxnövlü, müxtəlifnövlü.
Artérienverkalkung *f tib.* ateroskleroz.
arteriös *a* arterial.
artésisch *a* artezian.
ártfremd *a* hetorogen.
ártgemäß *adv* növünə uyğun.
ártgleich *a* homogen.
ártig *a* ədəbli, nəzakətli; sözəbaxan; xoş.
=ártig *mürəkkəb sifət və zərflərdə müəyyən xassənin varlığını bildirir*; **bös ~** acıqlı, hirsli; pis, yaman; **gleich ~** uyğar; **schangen ~** ilanvari.
Ártigkeit *f* (10) **1.** ədəb, nəzakət; **2.** *pl* iltifat, nəvaziş, mehribanlıq.
Artikel *m* (6) **1.** məqalə (*qəzet*); **2.** mal, əşya; **3.** maddə, bənd (*müqavilə, qanun*); **4.** *qram.* artikl.
Artikulatión *f* (10) **1.** ayrılma, bölünmə; **2.** *oh. pl dil.* tələffüz; **3.** məxrəc, artikulyasiya.
artikuliert *a* aydın, yaxşı tələffüz edilən.
Artillerie *f* artilleriya.
Artillerie || abteilung *f* topçu divizionu.
Artillerie || schießplatz *m* topçu atəş meydançası; poliqon (*hərbi təlim və təcrübə meydanı*).
Arznéi *f* (10) dərman.
arznéien I *vi* dərman qəbul etmək; **II** *vt* dərman yazmaq.
arznéilich *a* dərmanlı.
Árzt *m* (1*) həkim.
Ärztin *f* (12) həkim qadın.
ärztlich *a* həkimə məxsus, tibi; **unter ~er Aufsicht** həkimin nəzarəti altında; **in ~er Behandlung stehen / sein** müalicə olunmaq.
ásch || blónd *a* kül rəngində (*saç*).
Ásche *f oh. pl* kül; **in (Schutt und) ~ legen** külə döndərmək; özülocon yandırmaq; **zu ~ werden** yanıb kül olmaq.

Áschen || becher *m* külqabı; **~brödel** *n* "Küllücə" eyniadlı nağılın qəhrəmanının adı; ata-anasının gözündən düşmüş qız; **~lauge** *f* kül tortası; **~puttel** *n* bax: **Áschenbrödel.**
ásch || fáhl, ~farben, ~farbig, ~gráu *a* kül rəngli.
Áschen || wolke *f* kül tozu.
ásen *vi* otlamaq, yemlənmək.
Aserbaidshán *n coğr.* Azərbaycan.
Aserbaidsháner *m* (6) **~in** *f* azərbaycanlı.
aserbaidshánish *a* azərbaycanca.
Asien *n* (s) *coğr.* Asiya.
Asphált *m* asfalt.
asphaltieren *vt* asfaltla örtmək, asfaltlamaq; asfalt döşəmək.
asphaltiert *a* asfaltlanmış.
Asphált || presse bulvar mətbuatı, satqın mətbuat.
Aspiratión *f oh. pl dilç.* nəfəslənmə.
aspiriert *a* nəfəsli.
Assimilatión *f* (10) **1.** assimilyasiya; uyuşma; **2.** *bot.* mənimsə(n)mə.
assimilatórisch *a* assimilyasiya.
assimilierbar *a* assimilyasiya edilə bilən, assimilyasiya edilən.
assimilierend *a* assimilyasiya edən.
assimilieren I *vt* mənimsəmək, oxşatmaq, dəyişmək; assimilyasiya etmək; **II sich ~** özünü oxşatmaq; qarışmaq, assimilyasiya olmaq.
Assisen *pl* andlılar məhkəməsi (*Fransa və İsveçrədə*).
assistieren *vt* assistentlik etmək, kömək etmək.
assortieren *vt* çeşidləmək.
Assortiment *n* (2) **1.** çeşid; **2.** anbar.
Assoziatión *f* (10) birlik, ittifaq; şirkət, cəmiyyət.
assozieren I *vt* assosiasiya yaratmaq; **II sich ~** (*mit D*) bir şirkətə üzv olmaq.
Ast *m* (1*) **1.** budaq, qol; **2. ~ der Flugbahn** trayektoriya xətti; **absteigender ~** trayektoriyanın enmə xətti.
ásten, ästen *vi* şaxələnmək; qol-budaq atmaq.
Áster *f* (11) astra çiçəyi.
Ästhétik *f oh. pl* estetika.
ästig *a* qollu-budaqlı.

Ástrachan I *n* -s Həştərxan (*şəhər*).
Ástrachan *n* -s, -s Buxara dərisi, quzu dərisi.
astrál *a* ulduzlara aid.
astrológisch *a* münəccim, astrologiya (*sif.*).
Astronáut *m* kosmonavt.
Astronomie *f oh. pl* astronomiya.
Äsung *f* (10) *ovç.* yemləmə (*vəhşi quşları və heyvanları*).
Asýl *n hüq.* (2) sığınacaq; **~ für Obdachlose** yataq evi (*yoxsullar üçün*).
Asýl || recht *n oh. pl* sığınacaq hüququ (*siyasi mühacirlərin*).
Atelier [-'ljе:] *n* -s, -s atelye, emalatxana.
Átem *m* **~s,** *oh. pl* nəfəs; **kurzer ~** təngnəfəslik; **~ holen / schöpfen** nəfəs almaq; **außer ~ kommen** boğulmaq, tövşümək; **laß mich zu ~ kommen** qoy özümə gəlim; **mit verhaltenem ~** çox böyük həvəslə; **in einem ~** birnəfəsə; **das benimmt / versetzt einem den ~** bu, adamın nəfəsini kəsir.
Átem || beklemmung *f*, **~beschwerde** *f* təngnəfəslik; **~filter** *m hərb.* əleyhqaz süzgəci; **~holen** *n* dincəlmə, tənəffüs.
átemlos *a* təngnəfəs.
Átem || not *f* təngnəfəslik, tövşümə; **~pause** *f* fasilə.
átemraubend, *a* nəfəsi kəsərək.
Átem || zug *m* nəfəsalma; dərin nəfəs; **bis zum letzten ~** son nəfəsədək; **mit einem ~** birnəfəsə.
átheistisch *a* ateist (*sif.*).
Áthéne *f əfs.* Afina.
Áther *m oh. pl* efir.
äthérisch *a* efirli.
Áthiópier *m* (6), **~in** *f* (12) efiopialı, həbəş, həbəşistanlı (*kişi, qadın*).
Athlét *m* (8), **~in** *f* (12) pəhləvan; qüvvətli adam.
Atlántik *m coğr.* Atlantik okeanı.
atlántisch *a coğr.* Atlantik.
Átlas I *m* -, *oh. pl* **1.** *əfs.* Atlas, Atlant (*yer üzünü çiynində qaldıran nəhəng*); **2.** *anat.* atlant, birinci boyun fəqərəsi.
Átlas II *m* - və -ses, *pl* -se və **Atlanten** coğrafiya atlası.
Átlas III *m* -, -ses, *pl* -se atlaz (*parça*); satin.
átlas || weich *a* atlaz kimi yumşaq.

átmen I *vi* nəfəs almaq; *məc.* yaşamaq; **II** *vt* və **sich ~: reine Luft ~** təmiz hava udmaq, **es atmet sich leicht** adam yüngül nəfəs alır.
Átmosphär *f* (11) **1.** atmosfer; **2.** mühit.
atmosphärisch *a* atmosfer.
Átmung *f* (10) nəfəsalma, nəfəsvermə, nəfəs.
Átmungs || beschwerden *pl* təngnəfəslik; **~organe** *pl*, **~werkzeuge** *pl* nəfəs orqanları.
Atóm *n* (2) atom; **markierte ~e** *fiz.* nişanlanmış atomlar; **nicht ein ~** heç bir qırıntı da yox.
Atóm || anbeter *m istehz.* "atomçular", atompərəstlər.
atomár *a* atom; **~e Waffen** atom silahları.
atómbetrieben *a* atom enerjisi vasitəsi ilə hərəkətə gələn.
Atóm || bombe *f* atom bombası; **Atóm || energie** *f* atom enerjisi; **~forschung** *f* atomun (*atom nüvəsinin*) öyrənilməsi; **~gewicht** *n* atom çəkisi.
Atomístik *f oh. pl* atomistika, atom haqqında nəzəriyyə.
atomístisch *a* atomistik.
Atóm || kern *m* atom nüvəsi.
Atómkern || zertrümmerung atom nüvəsinin parçalanması.
Atóm || kraft *f* atom enerjisi.
Atóm || kraftwerk *n* atom elektrik stansiyası; **~krieg** *m* atom müharibəsi; **~meiler** *m* atom qazanı, atom reaktoru; **~säule** *f* bax: **Atómmeiler**; **~symbol** *n* kimyəvi elementin formulası; **~waffe** *f* atom silahı; **Áchtung der ~waffe** atom silahının qadağan edilməsi; **~wissenschaftler** *m* atom alimi.
Atrozität *f* (10) amansızlıq; quldarlıq.
Ätsch! *int dan.* Haqq oldu! (*sınğa sevinməni bildirən nida*).
ätschen *vt* lağa qoymaq, araya qoymaq.
Attácke *f* (11) **1.** həmlə, hücum; **~ im Schwarm** *hərb.* porakəndə (səpələnmiş) hücum; **2.** *tib. məc.* xəstəliyin şiddətlənmə vaxtı, ürəkkeçmə.
Attentát *n* (2) (*auf A*) sui-qəsd; **ein ~ verüben / begehen** (*kimə*) sui-qəsd etmək.
Attést *n* (2), **Attestát** *n* (2) attestat; (*über A*) şəhadətnamə.
attestieren *vt* attestasiyadan keçirmək; şəhadət vermək.
Attraktión *f* (10) **1.** cazibə, cəlb etmə; **2.** xoşa gəlmə; **3.** attraksion (*sirkdə*); **4.** *dilç.* uyuşma.
Attráppe *f* (11) **1.** tələ; **2.** butaforiya (*vitrində*).
Attribút *n* (2) **1.** xassə, əlamət; **2.** *qram.* təyin.
attributiv I *a* atributiv; təyin; **II** *adv* təyin rolunda.
átzen *vt ovç.* ov (*çöl*) quşunu yemləmək.
ätzen *vt* kimyəvi üsulla təmizləmək; oymaq; yandırmaq (*yaranı*); yemək (*turşu*).
ätzend *a* aşındırıcı, yeyici, yandırıcı, qələvi; **~er Hohn** acı istehza; rişxənd.
Ätzung *f* (10) kimyəvi üsulla təmizləmə, yandırma.
au! *int* ay!, vay!
auch *cj* həmçinin, da, də, və; **ich ~** mən də; **ich kenne ihn ~** mən onu da tanıyıram; **wenn ~** hərçənd; **nicht nur ..., sondern ~** ...təkcə ...yox, həm də...; **sowoh ... als ~** ...həm ..., həm də; **was ~** nə olur olsun; **~ nur annähernd** təxmini olsa da; **~ das noch!** elə bu çatmırdı!
Audiénz *f* (10) qəbul, audiensiya.
Auditórium *n* **-s, -rien 1.** auditoriya; **2.** dinləyənlər.
Áue *f* (11) çəmən, biçənək, otlaq; dərə, vadi.
Áuer || hahn *m* meşə xoruzu; **~ochs** *m* zebr, ibtidai öküz.
auf I *prp* üst; **1.** "harada" sualına cavab verdikdə (*D*) halını tələb edir və "üstündə; də/də" kimi tərcümə olunur; **die Lampe steht ~ dem Tisch** çıraq masanın üstündədir; **~ der Reise** yolda; **~ diesem Weg** bu yolla, beləliklə; **~ der Universität** universitetdə; ◊ **~ der Stelle** dərhal, yerindəcə; **2.** haraya sualına cavab verdikdə (*A*) tələb edir; **ich lege die Lampe ~ den Tisch** çırağı masanın üstünə qoyuram; **3.** "somt, istiqamət" bildirir; **~ ... zu** doğru; **er lief ~ das Haus zu** o, evə doğru qaçdı; **~ die Post gehen** poçta getmək; **4.** çeşidli münasibətlər bildirir; **~ die Bitte ...** (*G*) kiminsə xahişinə görə; **~ den ersten Blick** ilk baxışdan; **~ azerbaidshanicsch**

azərbaycanca; ~ **diese Weise** bu üsulla, bu cür; ~ **jeden Fall** hər halda; ~ **Wunsch** arzuya, xahişə görə; **sich** ~ etw. **verstehen** bir şeydən başı çıxmaq; **sich** ~ etw. **freuen** qabaqcadan sevinmək; ~ **ein Jahr** bir ilə; ~**s beste** olduqca yaxşı; **bis** ~ **dich** səndən başqa; **ein Viertel** ~ **eins** birə onbeş dəqiqə işləmiş; ~ **Wiedersehen** xudahafiz!, sağ olun!; ~ **ihr Wohl!** sizin sağlığınıza!; **das liegt** ~ **der Hand** bu aydındır; **das hat nichts** ~ **sich** eybi yoxdur; ~**s neue** yenidən; ~ **einmal** birdən; **II** *adv* yuxarıya, oraya; **von ... ~** dan / dən; **von klein** ~ uşaqlıqdan; ~ **und ab** dala-qabağa, irəli-geri, yuxarı-aşağı; ~ **sein 1.** ayaq üstdə olmaq; **2.** açıq olmaq; **ich fand ihn** ~ mən gələndə o, ayaq üstdə idi (*yerindən durmuşdu*); **die Tür ist** ~ qapı açıqdır; **III** *cj* ~ **daß...** ötrü; **IV** *int:* ~**!** qalx!

auf-*präf* 1) yuxarıya doğru hərəkəti; 2) bir şeyin üstünə qoyulmasını; 3) açılmanı bildirir.

áuf || ackern *vt* şumlamaq.

áuf || arbeiten I *vt* **1.** işi qurtarmaq; **2.** yamamaq (*paltarı*); **II sich** ~ güclə qalxmaq.

madı; **2.** yummamaq; açıq saxlamaq; **die Augen** ~ gözlərini yummamaq.

Áuf || besserung *f* (10) yaxşılaşdırma; artırılma, əlavə (*əmək haqqına*).

áuf || bewahren *vt* saxlamaq, qorumaq, qoruyub saxlamaq.

Áuf || bewahrung *f* (10) saxlama, saxlanılma, qoruma; **in** ~ **geben** saxlamağa vermək.

áuf || bieten *vt* **1.** qüvvəsini toplamaq; **2.** toplamaq (*camaatı*); **3.** çağırmaq (*əsgərliyə*); **4.** adlarını oxumaq (*kəbin kəsiləndə*); **alles** ~ bütün qüvvəni toplamaq.

áuf || binden *vt* **1.** açmaq; **2.** sarıyıb bağlamaq; **3.** *məc.* vadar etmək, boynuna qoymaq; *j-m* (*D*) **einen Bären** ~ *dan.* yalan söyləmək, **er läßt sich nichts** ~ *dan.* onu aldatmaq olmaz.

áuf || blähen I *vt* **1.** üfürmək, üfürüb qaldırmaq; **2.** şişirtmək (*qiymətləri*); **II sich** ~ **1.** şişmək; **2.** *məc.* lovğalanmaq.

áuf || blasen *vt* **1.** hava ilə doldurmaq (*topu*); **2.** çalmaq (*nəfəsli çalğı alətini*).

áuf || blättern *vt* vərəqləmək (*kitabı*).

áuf || bleiben *vi* (s) **1.** ayıq qalmaq, yatmamaq, yuxusuz qalmaq; **2.** açıq q

ləndirmək; **5.** nəsə ixtira etmək; bir şey haqqında məsləhət vermək.

Áuf || bruch *m* (1) *oh. pl* **1.** sındırma, qırma; **2.** yola düşmə; getmə (*qonaq*); *hərb.* irəliyə hərəkət etmə; **3.** *k.t.* herik şumu.

áuf || brücken *vt* körpü qurmaq.

áuf || brühen *vt* dəmləmək (*çay*); qaynatmaq (*su*).

áuf || brummen *vt dan.* **j-m eine Strafe** ~ kimisə cərimələmək.

áuf || bügeln *vt* ütüləmək.

áuf || bürden *vt:* **j-m** etw. ~ yükləmək.

áuf || dämmen *vt* bənd tikmək.

áuß bax: **damit, daß.**

áuf || decken *vt* **1.** üstünü açmaq; **2.** açmaq; **ein Geheimnis** ~ sirr açmaq; **3.** süfrə açmaq (salmaq); **ein Tischtuch** ~ süfrə salmaq.

áuf || drängen I *vt* etdirmək, məcbur etmək; **II sich** ~ boğaza keçmək.

áuf || drehen *vt* **1.** açmaq (*kranı*); bura-bura açmaq; **das Licht** ~ işıq yandırmaq; **2.** *dəniz.* kanatı eşib açmaq; **3.** qurmaq (*saatı, patefonu* və s.).

áuf || dringlich ə qəhlə aparan, əl çəkməyən

sich (*D*) **keinen Zwang** ~ *məc.* özünü sərbəst aparmaq.

áuf || erstehen *vi* (s) *din.* dirilmək.

áuf || erwachen *vi* (s) oyanmaq; *məc.* dirilmək.

áuf || erziehen *vt* tərbiyələndirmək, tərbiyə vermək; bəsləmək.

áuf || essen *vt* yemək, yeyib qurtarmaq.

áuf || fahren I *vt: hərb.* mövqe tutmaq; **Geschütze** ~ **lassen** *hərb.* topları atəşə hazırlamaq; topçu mövqeyini tutmaq; **II** *vi* (s) **1.** basmaq (*miniklə*); yola düşmək; yaxınlaşmaq; *dəniz.* saya oturmaq; **2.** atılıb qalxmaq; **vor Schreck** ~ qorxudan dik atılmaq; **vor Zorn** ~ hirslənmək.

áuf || fahrend *part* hirsli, hirslənən.

Áuf || fahrt *f* miniklə yaxınlaşma; qalxma (*liftlə*); daxil olma (*miniklə*).

áuf || fallen *vi* (s) **1.** (*auf*) yıxılmaq, düşmək (*bir şeyin üstünə*); **2.** *məc.* gözə çarpmaq; (*D*) təəccübləndirmək.

áuf || fallend, áuf || fällig I *a* qəribə, gözə çarpan; ~**e Ähnlichkeit** nəzərə çarpacaq oxşarlıq; **II** *adv:* **sich** ~ **benehmen** özünü

áuf || fliegen *vi* (s) **1.** uçub qalxmaq; aralanmaq, açılmaq (*qapı*); **2.** *məc.* baş tutmamaq; üstü açılmaq; **die Versammlung ist aufgeflogen** iclas baş tutmadı.

Áuf || flug *m* **1.** *av.* uçuş, yuxarıya doğru uçuş; **2.** coşma.

áuf || forden *vt* (*zu D*) dəvət etmək; çağırmaq; **zum Tee ~** çaya qonaq etmək.

Áuf || forderung *f* dəvət; tələb, çağırış kağızı.

áuf || forsten *vt* meşə salmaq.

áuf || fressen *vt* yeyib axırına çıxmaq (*heyvanlarda*).

áuf || frischen *vt* təzələmək, yeniləşdirmək; canlandırmaq; **Erinnepungen ~** keçmiş xatirələri yada salmaq, keçmişləri xatırlamaq.

áuf || führen I *vt* **1.** tikmək, qurmaq (*divar, bina*); **2.** *tea.* tamaşaya qoymaq, ifa etmək (*səhnədə*); **ein Stück ~** pyesi tamaşaya qoymaq; **3.** qarovulları dəyişmək; **II sich ~** özünü aparmaq.

Áuf || führung *f* (10) **1.** tikmə, qurma; **2.** tamaşaya qoyma (*pyes*); **3.** əxlaq, özünü aparma.

áuf || füllen *vt* tamamlamaq, artırmaq; doldurmaq.

Áuf || gabe *f* **1.** tapşırıq; dərs; məsələ; vəzifə; **ich habe es mir zur ~ gemacht** qarşıma məqsəd qoymuşam; **2.** rədd etmə; tərk etmə (*yeri*); **3.** təqdim etmə (*məktub* və s.); **4.** təqdim etmə yeri (*məktub, b*

Áuf || gebot *n* **1.** elan; **2.** *hərb.* çağırış; **3.** dəstə (*polis*); **4. unter [mit] ~ aller Kräfte** var qüvvə ilə.

áuf || gebracht *a* hirsli, həyəcanlı; **~ sein** həyəcanlı olmaq; **~ werden** həyəcanlanmaq; **er ist immer gleich ~** o çox əsəbidir.

áuf || gedunsen *a* şişkin, şişmiş.

áuf || geh(e)n *vi* (s) **1.** çıxmaq, qalxmaq; **die Sonne geht auf** gün çıxır; **2.** açılmaq; aralanmaq; **die Tür geht auf** qapı açılır; **ihm gehen die Augen auf ~** *məc.* onun gözləri açılır; işin nə yerdə olduğunu anlayır; **3.** xərclənmək, işlənmək (*pul, mal* və s.); **4.** *tib.* deşilmək (*çiban*); **5.** *bot.* tumurcuqlanmaq; **6.** açılmaq (*bağ*); sökülmək (*tikiş*); **7.** *riyaz.* tam/kəsirsiz bölünmək; **8.: in** etw. **~** nəyinsə içindəərimək

áuf || geklärt *a* oxumuş, bilikli; (*über A*) nədənsə xəbərdar, məlumatlı.

Áuf || geld *n* (5) *məc.* beh; üstə gəlmə, faiz.

áuf || gelegt *a* **1.** *məc.* həvəsli, meyilli (*zu D*); **er ist heute gut ~** bu gün onun kefi kökdür; **2.** açıq, aydın, aşkar; **das ist ein ~er Schwindel** bu aşkarca başaldatmadır.

áuf || gelöst *a* ərinmiş; ləğv edilmiş; **er war völlig in Wehmut ~** o, qüssəyə qərq olmuşdu; **~e Ordnung** *hərb.* açılmış sıra.

áuf || geräumt *a* şən.

áuf || geregt *a* həyəcanlı.

áuf || geschossen: hoch ~ uzunboy.

áuf || haben *vt* **1.** başında geyim olmaq; **den Hut ~** papaqlı olmaq; **nichts ~** başı açıq olmaq; **2.** açıq saxlamaq; **3.** tapşırığı olmaq; **ich habe viel auf** mənim çoxlu dərsim (*tapşırığım*) var.

áuf || halsen *vt* (*j-m*) zorla boynuna qoymaq, zorla qəbul etdirmək.

áuf || halten I *vt* **1.** saxlamaq, dayandırmaq; həbs etmək; **2.** saxlamaq, yubandırmaq; **j-n mit einem Gespräch ~** kimisə söhbətə tutmaq; **dieser Prozeß ist nicht aufzuhalten** bu işi dayandırmaq qeyri-mümkündür; **3.** açıq saxlamaq; **II sich ~ 1.** yubanmaq, ləngimək; qalmaq, bir yerdə olmaq; mövcud olmaq (*heyvanlar haqqında*); **sich im Freien ~** açıq havada olmaq; **sich unterwegs ~** yarı yolda dayanmaq; **2.** (*bei D*) (*hansısa*) məsələ üzərində dayanmaq; **sich mit Kleinigkeiten ~** boş (*lazımsız*) işlərlə məşğul olmaq; **3.** (*über A*) hiddətlənmək; tənqid etmək; **sie halten sich über dein Benehmen auf** onlar sənin davranışını pisləyirlər/tənqid edirlər.

áuf || hängen I *vt* **1.** asmaq; hər tərəfə asmaq; **2.** *məc.* boynuna qoymaq; **er laßt sich** (*D*) **alles ~** o, hər şeyə inanır; **II sich ~** özünü asmaq.

Áuf || hänger *m* (6) paltarasan.

áuf || hauen *vt* yarmaq, yarıb sındırmaq; ağacları qırıb yol açmaq.

Bruch ~ kəsri ixtisar etmək; **II sich ~** *riyaz.* islah olunmaq.

Áuf || heben *n* -s, *oh. pl* **1.** qaldırma, yüksəlmə; **2.** ləğv; **3.** saxlama, qoruma; ◊ **viel ~s machen** (*von D*) səs-küy qaldırmaq.

Áuf || hebung *f* (10) **1.** qaldırma, qaldırılma; **2.** ləğv etmə; **3.** *riyaz.* ixtisar, islah; **4.** *hərb.* tutma (*qarovulçunu*).

áuf || heitern I *vt* şənləndirmək; **II sich ~** şadlanmaq; açılmaq (*hava*); **der Himmel heitert sich auf** hava açılır.

áuf || hetzen *vt* təhrik etmək, salışdırmaq.

áuf || heulen *vi* vıyıldamaq.

áuf || holen *vt* **1.** çatmaq, yetişmək (*qaçaraq*); **2.** *dəniz.* lövbər qaldırmaq.

áuf || horchen *vi* qulaq asmaq, qulaq vermək.

áuf || hören *vi* dinmək, dayanmaq; tərgitmək; ◊ **da hört doch alles auf!** belə şey olmaz!

áuf || klappen I *vt* açmaq (*qapaq, kitab, qapı*); **II** *vi* (s) səs-küylə açılmaq.

áuf || klären I *vt* **1.** aydınlaşdırmaq; **2.** maarifləndirmək; **3.** (*über A*) izah etmək, başa salmaq; **4.** *kim.* saflaşdırmaq; **5.** *hərb.* kəşfiyyat aparmaq; **II sich ~** bəlli olmaq; aydınlaşmaq; açılmaq (*hava*); **es hat sich aufgeklärt 1.** məsələ aydın oldu; **2.** hava açıldı.

Áuf || klärer *m* (6) **1.** maarifçi, maarifpərvər; **2.** *hərb.* kəşfiyyatçı.

áuf || lachen *vi* gülmək; **hell ~** ucadan gülmək.
áuf || laden *vt* yükləmək.
Áuf || lage *f* **1.** nəşr, çap; tiraj (*kitab*); **2.** vergi; **3.** iş norması.
áuf || lassen *vt* **1.** açıq qoymaq (*qapı, pəncərə* və s.); düymələməmək (*geyim*); **2. den Hut ~** papağı başından götürməmək; **3.: eine Grube ~** *məd.* qazma işi atmaq; **4.** şər buraxmaq.
áuf || lauern *vi* (*D*) qarovul çəkmək; güdmək; **ihm ~** onun qarovulunu çəkmək.
Áuf || lauf *m* (1) **1.** yığışma, toplaşma (*insan*); **2.** çaxnaşma, qiyam; **3.** sufle (*çalınmış yumurta ağı ilə şəkərdən hazırlanan yüngül bişi*).
áuf || leben *vi* (s) **1.** canlanmaq, dirilmək; **2.** *məc.* canlanmaq; **3.** şiddətlənmək (*firtına*); qızışmaq (*mübahisə*).
áuf || legen I *vt* **1.** qoymaq, basmaq; **ein Tischtuch ~** masanın üstünə süfrə salmaq; **ein Pflaster ~** plastır/məlhəm yapışdırmaq; **Farbe / Schminke ~** üz-gözünü boyamaq; **2.** *məc.* tapşırmaq; kiminsə boynuna nəsə qoymaq; **eine Strafe ~** cəza vermək; **3.** *iqt.* yerləşdirmək (*istiqraz*); **4. ein Buch (neu) ~** kitab buraxmaq (*yeni nəşrdə*); qoymaq (*malı vitrinə*); **5. ein Faß Bier ~** pivə çəlləyini açmaq; **II sich ~** dirsəklənmək.
áuf || lehnen (sich) 1. söykənmək; **2.** *məc.* üsyan etmək.
áuf || lesen *vt* seçmək.
áuf || leuchten *vi* (s, h) alışmaq, alovlanmaq (*işıq*).
áuf || liegen I *vi* (s) göz qabağında olmaq; veyillənmək; **II** *vi* **sich** (*D*) **den Rücken ~** uzanmaqdan kürəyini keyləşdirmək; **was liegt auf?** (*qumarda*) hansı kartınız açıqdır?
áuf || lockern *vt* **1.** yumşaltmaq (*torpağı*); **2.** *məc.* boşlı-başına buraxmaq.
áuf || lodern *vi* (s) alışmaq, alovlanmaq, od tutmaq.
áuf || lösen *vt* **1.** açmaq, **2.** həll etmək; *kim.* əritmək; **3.** *riyaz.* əskiltmək; **4.** ləğv etmək (*cəmiyyəti, iclası* və s.); **sich in Tränen ~** göz yaşı tökmək.
Áuf || lösung 1. açma (*düyün*); **2.** həll olunma; **3.** *tea.* son; **4.** *kim.* məhlul; əridilmə; **5.** *oh. pl* ləğv etmə (*iclas*); **gänzliche ~** ölüm.
áuf || machen I *vt* **1.** açmaq; **2.** *məc.* nəyinsə çölünü düzəltmək; **II sich ~ 1.** açılmaq; **2.** yola hazırlaşmaq, yığışmaq; **sich auf und davonmachen** qoyub qaçmaq.
Áuf || machung *f* (10) qaydaya salma, rəsmi şəklə salma; xarici görünüş; bəzəmə; *tic.* qablaşdırma; **in sensationeller ~** gurultulu sərlövhə altında.
Áuf || marsch *m* **1.** *hərb.* açılma; yürüş (*qoşun*); **~ zum Gefecht** *hərb.* döyüşə yürüş; **2.** nümayiş, kütləvi çıxış (*şəhərdə*).
áuf || marschieren *vi* (s) **1.** sıraya düzülmək; döyüşə yürüş etmək; **2.** nümayişə çıxmaq.
áuf || merken *vi* **1.** diqqətlə qulaq asmaq; **2.** qeyd etmək.
áuf || merksam I *a* diqqətli; **j-n auf etw. ~ machen** kiminsə diqqətini nəyəsə cəlb etmək; **II** *adv* diqqətlə.
Áuf || merksamkeit *f* (10) **1.** *oh. pl* diqqət, diqqətlilik; **~ erregen** diqqət oyatmaq; **die ~ auf etw. lenken** diqqət yetirmək; **2.** iltifat göstərmək.
áuf || muntern *vt* **1.** ruhlandırmaq, ürəkləndirmək; **2.** oyatmaq.
Áuf || nahme *f* (11) **1.** qəbul; **2.** aid etmə; daxil etmə; **3.** mənimsəmə; **4.** *iqt.* borc alma; **5.** fotoşəkil; planlama; **flüchtige ~** gözəyarı planlama; **6.** tertib; yazma (*protokol* və s.); **7.** uğur, şöhrət, hamı tərəfindən tanınma; **8.** yenidən başlama (*iş*); **9.** çəkiliş (*studiyada*); **11.** yazma, yazılış (*qrammofon valına, yaxud maqnitofon lentinə*); **10.** hərbi hissənin geriyə çəkilməsinə yardım.
Áufnahme || apparat *m* çəkiliş aparatı, kamera (*film*).
Áufnahme || fähigkeit *f oh. pl* **1.** qavrama qabiliyyəti; **2.** tutum, həcm.
áuf || nehmen *vt* **1.** qəbul etmək, qarşılamaq, qavramaq; **Gäste ~** qonaqları qarşılamaq; **2.: in sich ~** tutmaq, həcmi almaq; **3.** şəklini almaq (çəkmək); çəkmək (*plana*); **4.** protokol yazmaq; **in das Protokoll ~** protokola salmaq; **5.** başlamaq; **den Kampf ~** döyüşü başlamaq; **6.: die Verbindung ~** *hərb., siy.* əlaqəyə girmək;

die Spur ~ izə düşmək; **7. es mit j-m ~** güclərini sınamaq.
áuf || nötigen *vt* məcbur etmək, vadar etmək.
áuf || opfern *vt* qurban vermək; **sich ~** özünü qurban vermək.
Áuf || opferung *f* fədakarlıq.
áuf || passen I *f vi* **1.** diqqətli olmaq, sayıq olmaq; **paß(t) auf!**, diqqət!, bax(ın)!; **2. nəzarət etmək; güdmək; paß auf deinen kleinen Bruder auf** balaca qardaşına göz ol; **II** *vt tex.* quraşdırmaq, yanaşdırmaq.
áuf || pflanzen I *vt* taxmaq (*süngünü*); sancmaq, dikəltmək (*bayraq*); **II sich ~** dik durmaq.
áuf || putzen I *vt* bəzəmək, geyindirmək, geyindirib-kecindirmək; **II sich ~** bəzənmək.
áuf || raffen I *vt* tutmaq, yapışmaq (*nədənsə*); **II sich ~ 1.** durmaq, dik qalxmaq; **2.** *məc.* qüvvə tovlamaq; **er hat sich zu einem Enschluß aufgerafft** o qərara gəlməyə özündə qüvvə tapdı.
áuf || räumen I *vt* yığışdırmaq, qaydaya salmaq (*evi*); **II** *vi* **1.** (*mit D*) kiminsə, nəyinsə axırına çıxmaq; **2.** tüğyan etmək (*epidemiyaya*).
áuf || recht *a* düz, dik, şax, şaquli; **ein ~er Mann** *məc.* düz adam; **~er Gang** şax yeriş; **eine ~e Haltung** şax duruş; **den Kopf ~ halten** başını dik tutmaq, ruhdan düşməmək.
áufrecht || erhalten I *vt* qüvvədə saxlamaq.
áuf || regen I *vt* həyəcanlandırmaq, acıqlandırmaq; **II sich ~** həyəcanlanmaq.
Áuf || regung *f* (10) həyəcan, ehtiras.
áuf || reiben I *vt* **1.** sürtmək, ovmaq; **2.** *məc.* yox etmək, məhv etmək, yer üzündən silmək; **II sich ~** düşmək, üzülmək.
áuf || reibend *a* **1.** yorucu, üzücü; **2.** *məc.* məhvedici.
áuf || reihen *vt* **1.** düzmək; **2.** sıraya qoymaq.
áuf || reißen I *vt* **1.** cırmaq, parçalamaq; **2.** açmaq; **die Tür ~** qapını açmaq; **die Augen ~** gözlərini bərəltmək; **den Mund ~** ağzını açmaq; hayıl-mayıl olmaq; **3.** irinlətmək (*yaranı*); **4.** sökmək (*küçənin döşəməsini*); **5.** cızmaq (*plan*); **6.** şırım açmaq (*şüt*); **II** *vi* (s) qırılmaq, çatlamaq; **III sich ~ 1.** taybatay açılmaq; **2.** yuxarı dartılmaq; **3.** *məc.* özünü ələ almaq.
áuf || reizen *vt* təhrik etmək, qızışdırmaq.
áuf || richten I *vt* qaldırmaq; qurmaq; tikmək; **wieder ~** bərpa etmək; *məc.* ruhlandırmaq; **II sich ~** qalxmaq, dik durmaq; *məc.* ruhlanmaq.
áuf || richtig *a* açıq, həqiqi, düzgün; **~ gesagt (gestanden, gesprochen)** sözün düzü.
Áuf || riß *m* (1) plan; eskiz.
áuf || rollen *vt* **1.** açmaq (*dürmək, dürməklənmiş əşya*); **2.** dürməkləmək; **3.** çırmamaq, çırmalamaq (*qol*); **eine Frage ~** məsələni çözmək.
áuf || rücken I *vi* (s) irəliləmək; **II** *vt* irəli sürmək, irəli çəkmək.
Áuf || ruf *m* (1) müraciətnamə, ümumi çağırış; adbaad çağırıb yoxlama; **der ~ ist an alle gerichtet** müraciətnamə hamıya aiddir.
áuf || rufen *vt* **1.** çağırmaq (*yarışa*); **2.** önə çağırmaq (*şagirdi*); adbaad çağırmaq.
Áuf || ruhr *m* (1) **1.** hiddət, qəzəb; **2.** qiyam, üsyan; **in ~ bringen** həyəcanlandırmaq; hiddətləndirmək; **in ~ geraten** həyəcanlanmaq; hiddətlənmək.
Áuf || rührer *m* (6), **~in** *f* (12) qiyamçı (*kişi, qadın*).
áuf || rüsten I *vi hərb.* silahlandırmaq, silahlanmaq; **II** *vt tex.* montaj etmək, quraşdırmaq.
Áuf || rüstung *f* **1.** *hərb.* silahlandırma; **2.** montaj, quraşdırma.
áuf || rütteln *vt* silkələmək, çırpmaq (*həmç. məc.*).
áufs = auf das *superlativ* ilə; **~ beste, ~ schönste** ən yaxşı halda; **~ höchste** ən yüksək dərəcədə; **~ neue** yenidən; **~ Geratewohl** təvəkkül, bəxtəbəxt, kor-koranə.
áuf || sagen *vt* **I** əzbər demək; **ein Gedicht ~** şeiri əzbər demək; **II** imtina etmək, rədd cavabı vermək.
áuf || sässig *a* inadcıl, höcət, tors.
Áuf || satz *m* **1.** osər, məqalə, yazı işi; **2.** *tex.* halqa, bənd; **3.** yemək ləvazimatı (komplekti); **4.** sütun başlığı; **5.** *hərb.* nişangah.
áuf || saugen *vt* hopdurmaq, sormaq.

áuf || schauen *vi* yuxarıya baxmaq; gözlərini qaldırmaq; **zu j-m ~** *məc.* bir kəsə hörmət bəsləmək.
áuf || scheuchen *vt* hürkütmək.
áuf || schieben *vt* başqa vaxta keçirmək, təxirə salmaq.
Áuf || schlag *m* (1*) **1.** paltarın və ya ayaqqabının içəri qatlanan hissəsi; qolçaq, qolağzı; **2.** *tic.* üstünə gəlmə (*qiymət*); **3.** *hərb.* mərminin partlaması (*zərbədən*); **4.** *bot.* cücərti.
áuf || schlagen I *vt* **1.** şaqqıltı ilə qırmaq (sındırmaq) (*qoz, yumurta*); **2.** vurmaq; **den Pferden Hufeisen ~** atın ayağına nal vurmaq, atları nallamaq; **3.** açmaq; **das Buch ~** kitabı açmaq; **die Augen ~** gözlərini açmaq; **4.** qaldırmaq; **den Kragen ~** yaxalığını qaldırmaq; **5.** qurmaq, salmaq (*düşərgə*); **seinen Wohnsitz ~** məskən salmaq; **6.** çırmalamaq (*qol*); **7.** *tic.* qaldırmaq (*qiymət*); **II** *vi* (s) **1.** bülənd olmaq (*alov*); **2.** yıxılaraq toxunmaq, şappıltı ilə yıxılmaq.
áuf || schließen I *vt* **1.** açmaq (*qapı* və s.); *məc.* izah etmək; **2.** *kim.* əritmək; **II sich ~** açılmaq (*bitki*), çiçək açmaq, sıxlaşmaq.
Áuf || schluß *m* (1*) aydınlaşdırma, izahat; **~ geben** (*über A*) izah etmək (*nəyisə*).
áuf || schneiden I *vt* **1.** kəsmək, kəsib bölmək; **2.** *tib.* yarmaq; **II** *vi* (*gehörig, tüchtig*) **~** *dan.* öyünmək, lovğalanmaq, özünü tərifləmək.
Áuf || schneider *m* (6), **~in** *f* (12) özündən müştəbeh.
Áuf || schnitt *m* (1) **1.** kəsik; **2.** dilim, fal, tikə, parça (*pendir, kolbasa*); **kalter ~** soyuq qəlyanaltı.
áuf || schreiben *vt* yazmaq, qeyd etmək.
áuf || schreien *vi* qəfildən qışqırmaq (çığırmaq); **vor Schmerz ~** ağrıdan qışqırmaq.
Áuf || schrift *f* yazı; təbriknamə; sərlövhə.
Áuf || schub *m* (1) təxirə salma, başqa vaxta köçürmə; möhlət; **ohne ~** təxirə salınmadan; **die Sache duldet keinen ~** işi təxirə salmaq olmaz.
áuf || schütten *vt* tökmək, töküb doldurmaq.
áuf || schwellen I *vt* üfürmək, üfürüb şişirtmək; **II** *vi* (s) şişmək.
áuf || schwimmen *vi* (s) suyun üzünə çıxmaq.
áuf || schwingen (sich) 1. burulub yuxarı qalxmaq; **sich zu** etw. **~** nəyəsə nail olmaq, nəsə əldə etmək; **2.** qət etmək; **sich zu einer Tat ~** iş görməyi qət etmək.
Áuf || schwung *m* (1*) yüksəliş; yaxşılaşma; **einen ~ nehmen** inkişaf etmək, işi gətirmək.
áuf || sehen *vi* **1.** yuxarıya baxmaq; **zu j-m ~** *məc.* kiminsə üstün olduğunu anlamaq; **2.** (*über A*) nəzarət etmək.
Áuf || sehen *n* ~s, *oh. pl* sensasiya; hay-küy; **~ erregen [machen, verursachen]** hay-küyə səbəb olmaq; diqqət oyatmaq.
áufsehen || erregend *a* hay-küy yaradan, təsiredici.
Áuf || seher *m* (6), **~in** *f* (12) (*über A*) nəzarətçi, gözətçi (*kişi, qadın*).
áuf || sein *vi* (s) **1.** ayaq üstə olmaq; yatmamaq; **bist du noch auf?** sən hələ yatmamısan? **2.** açıq olmaq (*qapı* və s.).
áuf || setzen *vt* **1.** taxmaq, oturtmaq; **2.** qoymaq; **das Essen ~** yeməyi ocağın üstünə qoymaq; **3.** düzəltmək, tərtib etmək; **4.** tikmək (*mərtəbəni*); **5.** *av.* yerə oturtmaq (*təyyarəni*); ◊ **ein Gesicht ~** üz-gözünü turşutmaq.
áuf || seufzen *vi* köksünü ötürmək.
Áuf || sicht *f oh. pl* (*über A*) nəzarət, yoxlama; **ohne ~** nəzarətsiz, özbaşına; **die ~ haben [führen]** nəzarət etmək.
áuf || sitzen *vi* (s) **1.** ayıq qalmaq, yatmamaq, yuxusuz qalmaq; **2.** *idm. hərb.* ata minmək; **hinten ~** kiminsə tərkində oturmaq (*atda, motosikldə*); **3.** *dəniz.* dayaz yerə çatmaq; **4.** pis vəziyyətə salmaq; **er läßt mich aber schön ~!** o məni lap ələ salıb!; *j-n* **~ lassen** görüşə gəlməmək; sözünü yerinə yetirməmək.
áuf || spannen *vt* dartmaq, çəkmək; **den Schirm ~** çətiri açmaq; ◊ **andere Seiten ~** başqa cür danışmaq, səsinin tonunu dəyişmək.
áuf || sparen *vt* yığmaq, yığıb saxlamaq.
áuf || speichern *vt* anbara yığmaq, toplamaq.
áuf || sperren *vt* açmaq (*taybatay*); *dan.* **den Mund ~** hayıl-mayıl olmaq; **die Augen ~** gözlərini bərəltmək; **er hat Augen und Ohren [Mund und Nase] ausgeperrt** *məc.* təəccübdən ağzı açıla qalmışdı.

áuf || spielen I *vt* və *vi* çalmaq, **einen Walzer ~** vals çalmaq; **zum Tanz ~** rəqs üçün çalmaq; **wart, dir werde ich ~!** dayan, gör başına nə oyun açıram (gətirirəm)! **II sich ~** özünü kiməsə oxşatmaq; **er spielt sich als Held auf** o özünü qəhrəmana oxşadır.
áuf || spießen *vt* nizələmək, vurub deşmək; payaya keçirmək.
áuf || springen *vi* (s) **1.** yerindən sıçramaq; **2.** açılmaq; **3.** çatlamaq; **die Lippen springen vor Kälte auf** soyuqdan dodaq çatlayır.
Áuf || sprung *m* sıçrayış.
áuf || spüren *vt* izləyib tapmaq, hiss etmək, duymaq.
Áuf || stand *m* (1*) üsyan, qiyam; **bewaffneter ~** silahlı üsyan; **einen ~ machen** üsyan qaldırmaq.
áuf || ständisch *a* qiyamçı, üsyançı.
áuf || stapeln *vt* yığmaq, qalaqlamaq.
áuf || stehen *vi* **1.** (s) durmaq; ayağa qalxmaq; *məc.* üsyan etmək, üsyan qaldırmaq; **2.** (h, s) açıq qalmaq (olmaq).
áuf || steigen *vi* (s) **1.** qalxmaq; törətmək; **die Sonne steigt auf** günəş qalxır; **ein Verdacht steigt in mir auf** məndə şübhə oyanır; **2.** *av.* uçub qalxmaq (*təyyarə*).
áuf || stellen I *vt* **1.** qurmaq, düzəltmək; yerbəyer qoymaq; *hərb.* sıraya düzmək; **eine Frage ~** məsələ qaldırmaq; **2.** göstərmək (*namizəd*); **II sich ~** durmaq, dayanmaq; **sich in Reih und Gleid ~** sıraya düzəlmək.
Auf || stellung *f* (10) **1.** qurma, düzmə; **2.** *hərb.* düzülmə; yerləşmə; **~ nehmen** sıraya düzülmək; **3.** siyahı; hesab, smeta; **4.** *mex.* maşın, mexanizm və s. hissələrinin montajı; **~ der Kosten** kalkulyasiya, malın maya və satış qiymətini hesablama; **eine ~ machen** smeta tutmaq.
Áuf || stieg *m* (1) **1.** yüksəliş, qalxma; **2.** *av.* uçub qalxma.
áuf || stoßen I *vt* itələyib açmaq; **II** *vi* **1.** (s) toxunmaq, toxunub yıxılmaq; **2.** qıcqırmaq (*çaxır*); **3.** gəyirmək, gəyirib qaytarmaq.
auf || streichen *vt* **1.** yaxmaq, sürtmək; **2.** daramaq (*geriyə*).
auf || stülpen *vt* gözünün üstünə basmaq (*papağı*).
auf || suchen *vt* axtarmaq, axtarıb tapmaq; **j-n ~** kimisə yoluxmaq, kiməsə dəymək.
Áuf || takt *m* **1.** *mus.* taktdan qabaq gələn nota; **2.** *məc.* başlanğıc, ilk addım; **den ~ zu etw. geben** nəyinsə ilkini qoymaq.
auf || tauchen *vi* (s) üzə çıxmaq, ortaya çıxmaq; təzahür etmək; **Zweifel tauchen auf** şübhə oyanır.
auf || tauen *vi* (s) **1.** ərimək; **2.** *məc.* canlanmaq; **allmählich ~** tədricən canlanmaq.
auf || teilen *vt* (h) bölmək, bölüşdürmək.
auf || tischen *vt* **1.** süfrəyə yemək düzmək; **2.** *məc.* çeşidli yalan danışmaq.
Auf || trag *m* (1) **1.** tapşırıq; sifariş; **im ~e** tapşırıqla; **einen ~ erteilen** tapşırıq vermək; **2.** *tex.* sürtmə, çəkmə (*rəng*).
auf || tragen I *vt* **1.** yeməyi masanın üstünə gətirmək; **das Essen ist aufgetragen** xörək çəkilib; **2.** çəkmək (*rəng, cizgi*); **3.** tapşırmaq; **4.** geyib köhnəltmək; **II** *vi:* **dick ~** böyütmək, şişirtmək; *dan.* həddi keçmək, ağ eləmək.
auf || treiben *vt* **1.** qaldırmaq; qovub qaçırtmaq; **der Wind treibt Staub auf** külək toz qaldırır; **2.** əldə etmək, tapmaq (*mal, pul*); **3.** *tex.* genişləndirmək (*deşiyi*).
auf || trennen *vt* sökmək (*paltarı, tikişi*).
auf || treten I *vi* **1.** (s, h) addım atmaq, ayaq basmaq; **2.** çıxış etmək; tribunaya/səhnəyə çıxmaq; **3.** hərəkət etmək; **II** *vt* ayağı ilə vurub açmaq (*qapını*).
Áuf || treten *n* ~s, *oh. pl* **1.** çıxış (*səhnədə, tribunada*); **das erste ~** ilk çıxış, debüt; **2.** əxlaq, özünü aparmaq qaydası; **er hat ein sicheres ~** o özünü etimadla aparır.
Áuf || tritt *m* (1) **1.** çıxış; **2.** *tea.* şəkil, pərdə; ◊ **einen ~ haben** sözləşmək, toqquşmaq; **3.** ayaq yeri, pillə.
áuf || tun I *vt* **1.** açmaq; geymək (*papağı*); **II sich ~** açılmaq; **alle Herzen taten sich ihm auf** o hamının rəğbətini qazanmışdır.
áuf || türmen I *vt* qalamaq, tığ vurmaq, üstüstə qalamaq; **II sich ~** yuxarı qalxmaq, qabarmaq.
áuf || wachen *vi* (s) yuxudan ayılmaq (oyanmaq); **ohne aufzuwachen** ayılmadan, oyanmadan.

auf || wachsen *vi* (s) **1.** böyümək, bitmək; **2.** *miner.* üstündə bitmək, artmaq.
Auf || wand *m* -(e)s, oh. *pl* xərcləmə, xərc, sərfetmə; cah-calal, zinət; **mit viel ~ von Mühe** çoxlu qüvvə sərf edərək; **großen ~ treiben / machen 1.** çox xərcləmək; **2.** *məc.* şişirtmək.
auf || wärmen *vt* qızdırmaq; **alte Geschichte / alten Kohl ~** *məc.* köhnə palan içi tökmək.
Aufwarte || frau *f* sil-süpür qadını; qulluqçu.
auf || warten *vi* (*j-m*) **1.** qulluq etmək; **2.** (*mit D*) qonaq etmək; **dem Gast mit einer Tasse Kaffee ~** qonağı bir fincan qəhvəyə qonaq etmək; **3.** öz ehtiramını bildirmək.
auf || wärts *adv* üzüyuxarıya; **den Strom ~ fahren** çayyuxarı üzmək.
auf || wecken *vt* **1.** oyatmaq; **2.** *məc.* canlandırmaq, ruhlandırmaq.
auf || weichen I *vt* yumşaltmaq, isladıb yumşaltmaq (*yolu*); **II** *vi* (s) islanıb yumşalmaq.
auf || weisen *vt* **1.** təqdim etmək, göstərmək; **2.** tapmaq, aşkar etmək.
auf || wenden *vt* xərcləmək, sərf etmək.
auf || werfen I *vt* **1.** açmaq (*kəskin hərəkətlə*); **2.** tökmək, (*torpaq*); **3.** *məc.* qaldırmaq (*məsələ*); **eine Frage ~** məsələ qaldırmaq; **die Lippen ~** dodaq sallamaq; küsmək; **II sich ~ 1.** (*zu D*) özünü ... hesab etmək (saymaq); **er wirft sich zum Richter auf** o özünü hakim sayır; **2.** (*gegen A*) hiddətlənmək; **3.** *tex.* əyilmək, qabarmaq.
auf || wickeln I *vt* **1.** sarımaq; **2.** açmaq; bələyi açmaq; **II sich ~** aydınlaşmaq.
auf || wirbeln I *vi* (s) qalxmaq (*toz*); **II** *vt* (h) qaldırmaq (*toz*); **viel Staub ~** *məc.* çox səs-küy qaldırmaq.
auf || wischen *vt* silmək (*tozu*).
auf || wühlen *vt* **1.** qazıb çıxarmaq; partlatmaq; **2.** *məc.* qızışdırmaq, qalmaqal salmaq.
auf || zählen *vt* bir-bir saymaq; sanamaq.
auf || zehren I *vt* yemək; **seine Kräfte ~** gücünü tükətmək; **II sich ~** özünü üzmək; özünü taqətdən salmaq.
auf || zeichnen *vt* **1.** cızmaq, şəkil çəkmək; **2.** yazmaq, qeyd etmək (*dəftərə* və s.).
Auf || zeichnung *f* **1.** qeyd; kiçik məqalə; **2.** *pl* qeydlər, xatirə; **3.** şəkil, rəsm.
auf || zeigen *vt* göstərmək, üstünü açmaq, aşkar etmək.
Aufzieh || brücke *f* qaldırılan körpü.
auf || ziehen I *vt* **1.** qaldırmaq, çəkmək, çəkib bərkitmək (*yelkən, pərdə, bayraq*); **2.** açmaq; **3.** qurmaq (*saat*); tarım çəkmək (*sim*); **4.** *tex.* taxmaq; **5.** tərbiyələndirmək (*uşaq*); **6.** yetişdirmək (*quş, heyvan*); **7.: andere Saiten ~** *məc.* başqa simə toxunmaq, öz münasibətini dəyişmək; **strengere Saiten ~** *məc.* xeyli ciddi olmaq; **gelindere Saiten ~** *məc.* xeyli güzəştə getmək; ◊ etw. **~** 1) nəyisə şişirdilmiş (süni) şəkildə göstərmək; 2) *isteh.* nəsə düzəltmək, təşkil etmək; **j-n ~** kimisə ələ salmaq; **II** *vi* (s) **1.** çıxış etmək; **2.** *hərb.* başlamaq, girmək (*qarovula*); **3.** yaxınlaşmaq (*fırtına*).
Auf || ziehen *n* -s, *oh. pl* **1.** qaldırma (*yelkən, pərdəni*), yuxarı çəkmə; **2.** qurma (*saat*); **3.** tərbiyə; **4.** bəslənmə (*quş və heyvan*); becərmə; böyütmə, yetişdirmə (*bitki*); **5.** *məc.* lağa qoyma; ələ salma.
auf || zucken *vi* **1.** diksinmək, səksənmək; **2.** sayrışmaq.
Auf || zug *m* **1.** yeriş, nümayiş, gediş; **2.** qurma, qurulma (*saat, yay* və s.); **3.** *tea.* pərdə; **in dem ~ kann ich mich nicht sehen lassen** bu cür kostyumdə görünə bilmərəm; **in feierlichem / vollem ~** parad geyimində; **in einem lächerlichen ~** gülünc şəkildə, gülünc halda; **4.** lift.
auf || zwängen I *vt* **1.** zorla açmaq (*qapını*); **2.** zorla geymək; **3.** *məc.* boynuna qoymaq, məcbur etmək; **II sich ~** zəhlə tökmək.
Aug || apfel *m* göz giləsi, bəbək.
Auge *n* (13) **1.** göz; **ein blaues ~** qançır, zədələnmiş göz; **kein ~ zutun** gözünü yummamaq, yuxusuz qalmaq; **mit bloßem ~** yaraqsız (çılpaq) gözlə (*optik cihazların köməyi olmadan*); **vor (den) ~n** göz qabağında; **vor ~n haben** *məc.* gözdən buraxmamaq; **Vier ~n sehen mehr als zwei** *ata söz.* Ağıl ağıldan üstündür; **große ~n machen** təəccüblənmək, heyrətlənmək; **ein ~ zudrücken** nəyəsə göz yummaq; **ganz ~ sein** ayıq-sayıq olmaq; *j-n, etw.* **ins ~ fassen** kimisə, nəyisə gözdən qoymamaq; **mit einem blauen ~ davonkommen** yüngül xətərlə ötüşmək; **das ~ gewöhnen** (*an A*) gözünü alışdırmaq; **im ~ haben** nəzərdə tutmaq; *j-n, etw.* **im ~ behalten** kimisə, nəyisə gözdən qoymamaq; **aus den ~n lassen / verlieren** gözdən qaçırmaq; **ins ~ / in die ~n fallen** gözə çarpmaq; **vor ~n liegen** göz qabağında olmaq; **unter die ~n kommen** gözə dəymək/çarpmaq/satışmaq; **unter vier ~n** göz-gözə, üz-üzə, baş-başa, ikilikdə; **die ~n gingen ihm über** onun gözləri yaşardı; o doluxsundu; **wie aus den ~n geschnitten** ≡ ikiyə bölünmüş bir alma kimi; **j-m ein Dorn im ~ sein** tikan olub kiminsə gözünə batmaq; **~n rechts!** *hərb.* sağa bax, düzlən! **2.** *tex.* qulp; **3.** *bot.* gözcük; **4.** xal, say (*oyunda*).
äugeln I *vt bot.* calaq etmək, peyvənd vurmaq; **II** *vi dan.* göz-qaş etmək.
Augen || blick *m* an, göz qırpımı; **im ~** bir göz qırpımında, **für den ~** hələlik; **jeden ~, alle ~e** hər an, arasıkəsilmədən; **bitte einen ~** lütfən bir dəqiqə.
augenblicklich I *a* ani, fövri; **II** *adv* bir anda, göz qırpınca, hal-hazırda.
Augen || braune *f* qaş.
augen || fällig *a* aydın, aşkar, açıq, gözə çarpan.
Augen || glas *n* binokl, durbin; **~ heilkunde** *f tib.* göz müalicəsi, oftalmologiya; **~höhle** *f* göz çuxuru; **~licht** *n* göz işığı, görmə, görmə qabiliyyəti; **~lid** *n* göz qapağı; **~maß** *n* gözəyarı (*ölçmə*); **nach ~ maß** gözəyarı.
Augen || merk *n* diqqət; məqsəd; **sein ~ auf eine Sache richten** (*auf A*) nəyəsə diqqət yetirmək.
Augen || schein *m* görünüş; görüntü; **dem ~ nach** görüntüyə əsasən, görünüşünə görə; **in ~ nehmen** diqqətlə baxmaq.
augenscheinlich I *a* aydın, aşkar, yəqin; **II** *adv* görünür ki.
Augen || stern *m* göz giləsi, bəbək; **~wimper** *f* kirpik; **~zeuge** *m* göz şahidi.
Äuglein *n* (7) **1.** gözcük; **2.** xal, say; **3.** *bot.* tumurcuq.
Augúst *m* (1) avqust (*ay*).
Augúst *m*, **Augústus** *m inv* Avqust (*ad*); **den dummen ~ spielen / abgeben** *dan.* özünü gicliyə (qanmaz) yerinə qoymaq.
Áula *f* -, -len/-s akt zalı (*universitetdə*).
aus I *prp* (D) -dan, dən, içindən; **~ vollem Halse** böğazı gəldikcə, çox ucadan (bərkdən); **~ der Stadt** şəhərdən; **II** *adv* qurtardı; **die Stunde ist ~** dərs qurtardı; **es ist ~ mit ihm [damit]** o [o iş] öldü; **von hier ~** buradan başlayaraq; **er ist darauf ~** o buna can atır; **er weiß weder ~ noch ein** o, çıxılmaz vəziyyətdədir; **von Grund ~** əsaslı surətdə.
aus= jahr~, jahrein ildən-ilə; **tag~, tagein** gündən-günə.
aus *präf* əsas etibarı ilə 1) xaricə doğru istiqaməti bildirir; 2) hərəkətin bitməsini göstərir (*fel prefiksi kimi işlənərkən ayrılır*).
áus || arbeiten *vt* hazırlamaq, hasil etmək, tərtib etmək; düzəltmək; **schriftlich ~** yazılı surətdə tərtib etmək.
Áus || arbeitung *f* (10) **1.** hazırlama, hasil; **2.** *tex.* işləmə.
áus || arten *vi* (s) nəsli pozulmaq, cırlaşmaq.
áus || atmen I *vt* nəfəs vermək; **II** *vi məc.* ölmək, canı çıxmaq.
áus || baden *vt:* etw. **~ mussen** *dan.* bir şeyin cəfasını çəkmək.
Áus || bau *m* -(e)s, *oh. pl* **1.** tikilib qurtarma; *məd.* hasil; **2.** *məc.* inkişaf, genişlənmə; **~ des Betriebes** müəssisənin böyüməsi (*inkişafı*).
áus || bauen *vt* **1.** tikib qurtarmaq; böyütmək, genişləndirmək (*tikinti*); **2.** təkmilləşdirmək, yaxşılaşdırmaq; **3.** *məd.* hasil etmək.
áus || bessern *vt* düzəltmək, təmir etmək; **~ lassen** təmirə vermək.
Áus || beute *f oh. pl* **1.** istismar (*sənayedə*); **2.** *məd.* hasil, hasilat; **3.** *hərb.* qənimət; **die wissenschaftliche ~ der Reise** səyahətin elmi nəticəsi.
áus || beuten *vi* **1.** istismar etmək; **2.** işlətmək, işləyib yararlı hala gətirmək (*mədən*).
Áus || beuter *m* (6) istismarçı.
Áus || beutung *f* (10) **1.** istismar; **2.** cinayət; **3.** *məd.* hasil, işlənmə.
áus || bilden I *vt* (*in D*) təhsil vermək; artırmaq, genişləndirmək, təkmilləşdirmək;

II sich ~ inkişaf etmək; təhsil almaq; təkmilləşmək.
Áus || bildung *f* təhsil, tələim, təkmilləşmə.
áus || bitten *vt* xahiş edib almaq; tələb etmək; **ich bitte mir das aus** mən bunu tələb edirəm.
áus || blasen *vt* **1.** üfürmək, söndürmək (*alovu*); **das Lebenslicht** ~ *məc.* öldürmək; **2.** üfürüb silmək; **3.** *tex.* üfürüb çıxartmaq (*təmizləmək*); **4.** *məc.* yaymaq (*sirri*); **5.** hazırlamaq (*şüşə*).
áus || bleiben *vi* (s) gəlməmək, olmamaq; **Sie sind so lange ausgeblieben** siz çoxdandır, görünmürsünüz; **seine Strafe soll nicht** ~ o, cəzadan qurtara bilməyəcək; **das konnte nicht** ~ bu, mütləq olmalı idi.
áus || bleichen I *vi* (s) rəngi solmaq; **II** *vt* ağartmaq.
Áus || blick *m* görünüş, mənzərə.
áus || blicken *vi* (*nach D*) diqqətlə baxıb seçmək, gözlə axtarıb tapmaq.
áus || blühen *vi* (h, s) çiçəklərini tökmək, solmaq.
áus || brechen I *vt* **1.** sındırmaq, sındırıb qopartmaq; **2.** *tib.* qusmaq; **II** *vi* (s) **1.** qaçmaq (*həbsxanadan*), sındırıb qaçmaq; **2.** baş vermək, (*qəflətən*) qopmaq (*tufan, yanğın, epidemiya* və s.) **3.** başlamaq (*müharibə, inqilab*); **in Tränen** ~ ağlamaq, göz yaşı tökmək; **in (ein) Gelächter** ~ qəhqəhə çəkmək.
áus || breiten I *vt* genişləndirmək; sərmək, döşəmək; *məc.* yaymaq (*xəbər, şayiə*); **II sich** ~ genişlənmək, yayılmaq.
áus || brennen I *vt* yandırmaq; **II** *vi* (s) yanmaq, yanıb qurtarmaq.
Áus || bruch *m* (1) **1.** başlanğıc; başlama (*qəflətən*); **2.** püskürmə (*vulkan*); **der ~ des Krieges** müharibənin başlanğıcı; **3.** odalma, alışma, qopma; şiddətlənmə; **4.** qaçma (*həbsxanadan*); **der ~ des Zornes** acıq coşqusu (püskürtüsü).
áus || brüten *vt* **1.** cücə çıxartmaq; **2.** *məc.* niyyətində olmaq; qəsdində olmaq; **Unheil** ~ pis iş (*cinayət*) niyyətində olmaq.
Áus || bund *m* (1*, 1) **1.** nəyinsə ən yüksək dərəcəsi (*nümunəsi*); **ein ~ von Gelehrsamkeit** alimlik nümunəsi; **so ein ~!** belə dəcəl!
áus || bündig *adv* nümunəvi surətdə; etw. ~ **Feines** olduqca nəfis/gözəl/zərif.
Áus || dauer *f oh. pl* möhkəmlik, dözüm, inad.
áus || dauern *vt* davam gətirmək, başa çatdırmaq.
ásusdauernd *a* dözümlü, davamlı, tablı.
áus || dehnen I *vt* çəkmək, dartmaq; genişləndirmək; **II sich** ~ dartılmaq, genişlənmək.
Áus || dehnung *f* (10) **1.** uzatma, genişləndirmə; **2.** *riyaz.* uzunluq.
áus || denken *vt* uydurmaq.
áus || dienen *vi* **1.** qulluq edib qurtarmaq; **2.** *məc.* köhnəlmək.
áus || drehen *vt* **1.** burub çıxartmaq; **2.** söndürmək (*qaz, işıq*); **3.** *tex.* yonub genəltmək, oymaq (*dəzgahda*).
Áus || druck *m* söz, ifadə; **ein veralteter** ~ arxaizm; **mit** ~ ifadəli; **zum ~ bringen** ifadə etmək; **zum ~ kommen** bildirilmək, ifadə edilmək.
áus || drücken I *vt* **1.** sıxmaq; **2.** ifadə etmək; **II sich** ~ ifadə edilmək; bildirilmək.
ásusdrücklich I *a* qəti, aydın; düz deyilmiş; **II** *adv* qəti; **~er Befehl** birbaşa əmr.
ásusdrucks || voll *a* ifadəli, mənalı, təsirli.
áus || dulden I *vt* səbir etmək, axıra qədər dözmək; **II** *vi* axıra qədər əzab çəkmək; ölmək.
áus || dunsten I *vi* (s), **ausdünsten** *vi* (s) buxarlanmaq, buğlanmaq; **II** *vt* buğa vermək.
auseinánder *adv* ayrılıqda, ayrı-ayrı, ayrıca; **sie sind** ~ onlar bir-birindən ayrılıblar.
auseinánder || biegen *vt* **I** düzəltmək (*əyri şeyi*); ~ **blasen** *vt* üfürmək; **~brechen** *vt* sındırmaq, parçalamaq; **~bringen** *vt* ayırmaq, aralamaq, bölmək; **~drücken** *vt* açmaq; **~fahren** *vi* (s) dağılışmaq, (*hərə bir yana*) getmək; **~fallen** *vi* (s) dağılmaq; pozulmaq; **~falten** *vt* hamarlamaq; düzəltmək; **~fließen** *vi* (s) axıb yayılmaq; qarışmaq (*dumana*); **~geh(e)n** *vi* (s) dağılmaq, dağılışıb getmək, aralanmaq; **~halten** *vt* fərqləndirmək; **er kann diese zwei Dinge nicht** ~ o, bu iki şeyi bir-birindən fərqləndirə bilmir; **~kommen** *vi* ayrılmaq (*bir-birindən*); bir-birini itirmək; **~laufen** *vi* (s) qaçıb dağılmaq; **~legen** *vt* **1.** düzmək, yerləşdirmək, sərmək; **2.** izah etmək; aydınlaşdırmaq; **~setzen II** *vt* **1.** oturtmaq

(*müxtəlif yerlərə*); **2.** izah etmək, başa salmaq; təhlil etmək; **III sich** ~ (*mit j-m*) mübahisə etmək.
Áuseinánder || setzung *f* (10) **1.** izahat, aydınlaşdırma; **2.** mübahisə, dalaşma, küsmə, müzakirə; **3.** *hüq.* bölüşdürmə; **wir hatten eine scharfe** ~ biz bərk mübahisə etdik; **blutige ~en** qanlı toqquşmalar.
auseinánder || sprengen I *vt* **1.** partlatmaq; **2.** pozmaq, dağıtmaq (*iclası, nümayişi*); **II ~treiben** *vt* **1.** qovlayıb dağıtmaq, pərən-pərən salmaq; **2.** şişmək; **~werfen** *vi* töküb-töküşdürmək, dağıtmaq, səpələmək.
áus || erkoren, áus || erlesen *a* seçilmiş.
áus || ersehen *vt* seçmək; irəlicədən təyin etmək.
áus || essen *vt* yemək; yeyib axırına çıxmaq; **~, was man sich eingebrockt hat** *məc.* özü qaynatdığını özü yemək; tutduğu əməlin altını çəkmək.
áus || fahren 1 *vt* **1.** başqa yerə aparmaq; **2.: den Weg** ~ yol açmaq; **II** *vi* (s) **1.** çıxıb getmək (*miniklə*); **2.** *məd.* qalxmaq.
Áus || fahrt *f* **1.** çıxıb getmə (*miniklə*); **2.** alaqapı, darvaza.
Áus || fall *m* **1.** düşmə, tökülmə; azalma, əskilmə; **der ~ der Haare** saçın tökülməsi. **2.** *hərb.* həmlə; **3.** nəticə; **4.** ədəbsiz hərəkət.
áus || fallen *vi* (s) **1.** düşmək, tökülmək; olmamaq, baş tutmamaq; çatmamaq; **2.** *hərb.* hücuma keçmək; **3.** (*gegen A*) (*kiminsə üstünə*) hücum çəkmək; **4.** nəticə vermək; **schlecht** ~ pis qurtarmaq; **gut** ~ yaxşı qurtarmaq.
áus || fegen *vt* süpürmək, süpürüb atmaq.
áus || fertigen *vt* düzəltmək, hazırlamaq, vermək (*sənəd*).
Áus || fertigung *f* (10) **1.** hazırlama, vermə (*sənəd*); surətini çıxarma; **2.** surət; **3.** nüsxə; **in einfacher** ~ bir nüsxədə.
ásusfindig *a:* ~ **machen 1.** axtarış aparmaq; **2.** düşünüb tapmaq.
ásusfließen *vi* (s) axmaq; axıb-getmək ~ **lassen** buraxmaq (*maye*).
Áus || flucht *f* (3) hiylə, kələk; boş bəhanə; **Ausflüchte machen** hiylə ilə canını qurtarmaq; bəhanə gətirmək.
Áus || flug *m* **1.** tənəzzöh, səyahət; **2.** uçuş, uçub-qalxma.
Áus || flügler *m* (6), **~in** *f* (12) ekskursiyaçı, səyahətçi (*kişi, qadın*).
Áus || fluß *m* **1.** çayın başlanğıcı; **2.** mənbə; **3.** *tib.* ifrazat.
áus || forschen *vt* **1.** dindirib bilmək, soruşub bilmək, öyrənmək; **2.** *hərb.* məlumat toplamaq.
áus || fragen *vt* sorğu-suala tutmaq; soruşub öyrənmək; *hərb.* dindirmək.
Áus || fuhr *f oh. pl iqt.* eksport, ixrac.
Ásusfuhr || artikel *m iqt.* ixrac edilən mal.
áus || führbar *a* yerinə yetirilə bilən, həyata keçirilə bilən.
áus || führen *vt* **1.** *iqt.* ixrac etmək; **2.** gəzməyə çıxartmaq; **3.** yerinə yetirmək; **einen Befehl** ~ əmri yerinə yetirmək; **4.** fikrini demək, başa salmaq; izah etmək; **ein Thema** ~ mövzunu izah etmək.
ásusführlich *a* ətraflı, müfəssəl.
Áus || führung *f* **1.** yerinə yetirmə; **2.** fikrini ifadə etmə, izahat; **3.** həll etmə (*hesab məsələsini*).
áus || füllen *vt* **1.** doldurmaq, yerinə yetirmək; **die Zeit** ~ vaxt keçirmək; **eine Lücke** ~ boşluğu doldurmaq; **2.** təpişdirmək, təpib doldurmaq.
Áus || gabe *f* **1.** xərc, məsarif; **2.** vermə; **3.** nəşr, çap (*kitab*); **4.** buraxılış (*istiqraz*).
Áus || gang *m* **1.** çıxış (*qapı*); **2.** istirahət günü; **3.** *oh. pl* nəticə, son; **~ der Wahlen** seçkilərin nəticələri; **einen guten ~ haben / nehmen** yaxşı qurtarmaq.
Ásusgangs || punkt *m* çıxış nöqtəsi.
áus || geben I *vt* **1.** vermək; **2.** buraxmaq (*qiymətli kağız*); **3.** *hərb.* vermək (*əmr*); bildirmək, ələ vermək; **4.** özünü başqasının yerinə qələmə vermək; *j-n* **für einen anderen** ~ kimisə başqası kimi qələmə vermək; **II sich** ~ (*für A*) **1.** özünü başqası kimi qələmə vermək; **2.: sich (ganz)** ~ çox xərcə düşmək.
áus || gedehnt *a* geniş; *məc.* ətraflı; **~e Praxis** geniş təcrübə.
áus || gedient *a* istefa vermiş, qulluqdan çıxmış; köhnəlmiş.
áus || gehen *vi* (s) **1.** çıxmaq, qapıdan çıxmaq; **2.** qurtarmaq, taqətdən düşmək; **3.** ağarmaq, rəngini itirmək; **4.** sönmək (*atəş*); **5.: ~ auf** etw. bir işə başlamaq; **auf Abenteuer** ~ fırıldaq işlərlə məşğul olmaq;

frei ~ cəzasını çəkməmək; cəzasız qalmaq; **leer ~** olduğu kimi qalmaq.
áus || gehungert *a* ac qalmış; əldən düşmüş, üzgün.
áus || geklügelt *a* çətin anlaşılan; qeyri-təbii.
áus || gelassen *a* şux, şən.
áus || gemacht I *a* həll edilmiş; icra edilmiş; **eine ~e Sache** həll edilmiş iş; **II** *adv dan.* əsil vaxtında.
áus || gemergelt *a* çox yorğun, üzgün, üzülmüş.
áus || genommen *prp* (*A*) -dan/-dən başqa, filan şey istisna olmaqla; **dich ~** səni çıxmaq şərtilə.
áus || geprägt *a* aydın ifadə olunmuş, göstərilmiş; qəti.
áus || gerechnet *adv* elə bil qəsdən, biləbilə; **~ Bananen!** *dan.* daha nə qalıb!, bir bu çatmırdı!; **er ist ~ heute gekommen** o elə bil qəsdən bu gün gəldi.
áus || gerichtet *a* tənzimlənmiş.
áus || geschlossen *adv* kənar edilmiş, istisna edilmiş; **das ist ~** bu, mümkün deyil.
áus || geschnitten *a* kəsilmiş, **ein ~es Kleid** açıq paltar.
áus || gesprochen *a* açıq-aydın, şübhəsiz; **eine ~e Ähnlichkeit** aydın görünən oxşarlıq.
Áus || gestaltung *f oh. pl* **1.** formalaşma, şəkillənmə, qəliblənmə; **2.** sima; **3.** inkişafın nəticəsi.
áus || gesucht *a* nəfis; seçilmiş; **~ höflich** çox nəzakətli.
áus || getreten *a* **1.** nimdaş, nimdaşlaşmış (*ayaqqabı*); **2.** sınıq, sınmış (*nərdivanın pilləsi*).
Ausgewanderte *m, f* (9*) mühacir (*kişi, qadın*).
áus || gezeichnet *a* əla; **mit ~er Hochachtung** yüksək ehtiramla (*məktubun sonunda*).
áus || giebig *a* bol, çox; təsirli, faydalı, yaxşı nəticə verən.
Ausgiebigkeit *f oh. pl* əliaçıqlıq, səxavət; təsir, təsirlilik.
áus || gießen *vt* **1.** tökmək, dağıtmaq; **2.** *mətb.* tökmək.
Áus || gleich *m* (1) **1.** razılıq, razılaşma; **nach ~** ödənəndən sonra; **zum ~** qiymətin hesabına; **2.** *elek.* kompensasiya vermə, qarşılıqlı əvəz etmə.
áus || gleichen *vt* **1.** düzəltmək; **2.** *elek.* kompensasiya vermək, bərabərləşdirmək; **3.** *məc.* razılığa gətirmək, barışdırmaq.
áus || gleiten *vi* (s) sürüşmək.
áus || glimmen *vi* (s) közərib sönmək.
áus || graben *vt* qazıb çıxarmaq.
Áus || grabung *f* (10) qazıma, qazıntı.
áus || gucken I *vi* **1.** (*nach D*) oğrun-oğrun baxmaq; **2.** göz gəzdirmək; **3.** *dəniz.* növbədə dayanmaq; **II** *vt* **sich** (*D*) **die Augen ~** *məc.* gözlərini xarab etmək (*çox işləməkdən*).
áus || hallen *vi* (s) kəsilmək (*səs*); zəif səslənmək.
áus || halten I *vt* **1.** davam gətirmək, dözmək; **es ist nicht auszuhalten** bu dözülməzdir; **2.** saxlamaq; **II** *vi* **1.** inadla durmaq; **2.** davam etmək.
áus || händigen *vt* çatdırmaq; təqdim etmək.
áus || hängen *vt* **1.** asıb nümayiş etdirmək; **2.** çəftədən çıxartmaq (*qapını, pəncərəni*).
Áus || schild *n* lövhə; **~zettel** *m* elan.
áus || harren *vi* səbirlə gözləmək; **auf einem Standpunkt ~** öz sözünün üstündə durmaq, öz fikrinin üstündə durmaq.
áus || heben *vt* **1.** çıxartmaq; rəzədən çıxartmaq (*qapı, pəncərə*); boşaltmaq (*poçt qutusu*); **2.** *hərb.* orduya çağırmaq, aparmaq; **3.** həbs etmək (*bir taşkilatın üzvlərini*); **4.** *mətb.* yığımı çıxartmaq.
áus || hecken *vt dan.* uydurmaq; **einen Streich ~** dəcəllik etmək.
áus || heilen *vt* sağaltmaq.
áus || helfen *vi* kömək etmək, bədbəxtlikdən qurtarmaq.
Áus || hilfe *f* **1.** müvəqqəti yardım; **2.** müvəqqəti işçi, köməkçi.
áushilfs || weise *adv* müvəqqəti kömək kimi; müvəqqəti köməkçi kimi.
Áus || höhlung *f* **1.** oyma, dəlmə; **2.** ağac oyuğu; dişək; **3.** *tex.* zindanın dəliyi; **4.** dairəvi çala (*tikintidə*); **5.** *tib.* oyuq, boşluq.
áus || höhlen *vt* dəlmə üsulu ilə oymaq; qazımaq, eşələmək (*çayı, suyu*).
áus || holen I *vt* **1.** qolaylamaq, qaldırmaq (*əlini*); **zum Schlage ~** kiminsə üstünə qolaylanmaq; **2. zum Sprunge ~** tullanmaq

üçün bir qədər qaçmaq; **3. weit ~** *məc.* bir məsələyə dair söhbəti uzaqdan başlamaq; **II** *vt* soruşmaq.
áus || horchen *vt* **1.** dindirib bilmək, soruşub bilmək, söz çəkmək; **2.** *tib.* qulaq asmaqla müayinə etmək.
áus || hungern *vt* acından öldürmək.
áus || jäten *vt k.t.* alaq etmək.
áus || kämmen *vt* darayıb təmizləmək; darayıb ayırmaq, dala daramaq (*saçı*).
áus || kehren *vt* süpürüb təmizləməmək, süpürüb atmaq.
áus || kleiden I *vt* **1.** soyundurmaq; **2.** döşəmək; ətrafını tikmək; kağız yapışdırmaq (*divara*); **II sich ~** soyunmaq.
Áuskleide || raum *m*, **~zimmer** *n* soyunubgeyinmə otağı.
áus || klopfen *vt* çırpmaq, çırpıb təmizləmək; *j-m* **das Wams auf dem Leibe ~** kimisə əzişdirmək.
áus || klügeln *vt* uydurmaq, əllamalık etmək.
áus || kochen I *vt* bişirmək (*axıracan*); qaynadıb çıxartmaq; *məc.* xəlvətcə hazırlamaq; **II** *vi* (s) bişmək.
áus || kommen *vi* (s) **1.** (*mit D*) dolanmaq, keçinmək; **mit dem Gelde ~** olan pulla keçinmək; **damit kommt er nicht aus** bu ona çatmaz; **2.** yola getmək; **mit ihm ist nicht auszukommen** onunla yola getmək çətindir; **3.** çıxmaq, baş tutmaq; **die Rechenaufgabe kommt nicht aus** hesab məsələsi düz çıxmır.
Áus || kommen *n* ~s, *oh. pl* həyat vəsaiti; var-dövlət; **er hat ein gutes ~** o, varlı adamdır; onun yaxşı gəliri var.
áus || kramen *vt* **1.** çıxarmaq (*dolabdan əşyaları* və s.), çıxarıb qoymaq; *məc.* göstərmək; **sein Wissen ~** öz biliyi ilə öyünmək; **2.** boşaltmaq (*yer*).
áus || kundschaften *vt* **1.** *hərb.* kəşfiyyat vasitəsilə öyrənmək; **2.** soruşub öyrənmək.
Áus || kunft *f* (3) məlumat, arayış.
Áuskunftéi *f* məlumat bürosu.
áus || künsteln *vt* uydurmaq, özündən quraşdırmaq.
áus || kurieren *vt* tamamilə sağaltmaq.
áus || lachen *vt* elə salmaq, lağa qoymaq, **laß dich doch nicht ~** camaatı özünə güldürmə; **II sich ~** doyunca gülmək.
áus || laden *vt* **1.** boşaltmaq (*yük*); **2.** *hərb.* qoşun çıxarmaq.
Áus || ladung *f* (10) **1.** boşaltma; çıxarma (*qoşun*); **2.** *tikin.* çıxıntı.
Áus || lage *f* **1.** vitrin **2.** *pl* xərc, məsarif.
Áus || land *n* ~ (e)s, *oh. pl* xaric (*ölkə*); **ins ~** xaricə; **vom ~, aus dem ~** xaricdən; **im ~** xaricdə.
Áus || länder *m* (6), **~in** *f* (12) xarici, yabançı (*kişi, qadın*).
áus || ländisch *a* xarici, əcnəbi, yabançı.
áus || lassen I *vt* buraxmaq; əritmək (*piy*); **ich habe ein Wort ausgelassen** mən bir söz buraxmışam; **seinen Zorn ~** (*an D*) öz acığını başqasının üstünə tökmək; **II sich ~** (*über A*) nəyinsə üstündə çox dayanmaq.
áuslaufen I *vi* (s) **1.** axmaq, axıb tökülmək; **2.** *dəniz.* yola düşmək, limandan çıxmaq; **3.** yayılmaq (*rəng*); **4.** *mətb.* şişmək (*yığıma aid*); **5.** (*in D / auf A*) qurtarmaq, bitmək; (*həmç. məc.*); **das Gespräch lief auf einen Streit aus** söhbət mübahisə ilə qurtardı; **das läuft auf dasselbe aus** bu elə eyni şeydir; **II sich ~ 1.** doyunca qaçmaq; **2.** *tex.* yeyilmək, köhnəlmək (*maşın, mexanizm*).
Áus || läufer *m* **1.** kuryer; paylayıcı, yayıcı (*qəzet*); **2.** *d.y.* qol; **3.** sıra dağlar qolu; **4.** şax, budaq; **5.** *məc.* nəsil.
Áus || laut *m fon.* son səs, sözün axırıncı səsi.
áus || lauten *vi fon.* hər hansı səslə (*heca ilə*) qurtarmaq; **~ auf** (*A*) nəyləsə qurtarmaq.
áus || leben I *vt:* **er hat seine Zeit ausgelebt** o öz dövranını sürüb; **II sich ~ 1.** zövq almaq, öz hisslərinə sərbəstlik vermək, ləzzət almaq, həzz almaq; **2.** öz qüvvəsini tükətmək.
áus || leeren I *vt* boşaltmaq; təmizləmək; dibinəcən içmək; **II sich ~** qarnını boşaltmaq.
áus || legen *vt* **1.** döşəmək (*daşla* və s.); qoymaq, asmaq (*göstərmək üçün*); **2.** düzmək, yerləşdirmək, sərmək; **3.: für j-n ~** kiminsə əvəzinə pul vermək (*qaytarmaq şərti ilə*); **4.** izah etmək, aydınlaşdırmaq; **j-m** etw. **als Schuld ~** günahı kiminsə boynuna qoymaq.
áus || leihen *vt* borc (*kirayə*) almaq (vermək).
áus || lernen I *vt* öyrənmək; **II** *vi* oxuyub qurtarmaq; **Man lernt nie aus** *ata. söz.* Elm bir dəryadır, öyrənməklə qurtarmaz.

Áus || lese *f* **1.** seçmə, artırma; **2.** *biol.* seçmə, artırma; **3.** *məc.* seçmə, seçkinlik; **4.** əla qoşun hissələri.
áus || liefern *vt* vermək, təhvil vermək.
Áus || lieferung *f* vermə, təhvil vermə; təqdim etmə, buraxılma (*mal*); **~ des Gefangenen** əsirin təhvil verilməsi.
áus || löffeln *vt* **1.** qaşıqlayıb qurtarmaq; **2.** *məc.* həll etmək, aydınlaşdırmaq (*dolaşıq məsələni*).
áus || löschen I *vt* **1.** söndürmək; **2.** pozmaq; *məc.* unutmaq, yaddan çıxartmaq; ödəmək (*borc*); **II** *vi* (s) sönmək.
áus || losen *vt* püşklə həll etmək.
áus || lösen *vt* **1.** pul verib azad etdirmək; girovu geri almaq; **2.** oyatmaq, səbəb olmaq; **ein Gefühl ~** hiss oyatmaq.
Áus || losung *f* (10) **1.** pul verib alma; dəyişmə (*əsir*); **2.** oyatma, səbəb olma; **~ von Gefühlen** hissin (*duyğunun*) büruzə verilməsi; **3.** *tex.* ayırma, kəsmə.
áus || lüften *vt* havasını dəyişmək; **II sich ~** havaya vermək (*təzələmək*).
áus || machen *vt* **1.** qurtarmaq; həll etmək (*mübahisəli işi*); **das ist ausgemacht** bu belədir; **es ist ausgemacht, daß ...** şübhə yoxdur ki, bu...; **2.** yox etmək, təmizləmək (*ləkə*); **Flecken ~** ləkəni təmizləmək; **3.** söndürmək; kəsmək (*işıq, qaz* və s.); **Licht ~** işığı söndürmək; **4.** tərtib etmək; **das macht nichts aus** bunun heç bir əhəmiyyəti yoxdur; **was macht das aus?** bu neçəyədir?, bu nə qədər edir?; **5.** sözləşmək; **6.** qazıb çıxarmaq.
áus || malen *vt* yazmaq, naxış çəkmək
den ~zustand verhängen (*über A*) fövqəladə vəziyyət elan etmək.
áusnahms || los *adv* müstəsnasız.
áusnahms || weise *adv* müstəsna olaraq.
áus || nehmen I *vt* **1.** çıxarmaq; **ein Huhn ~** toyuğun içalatını çıxarmaq; **2.** xaric etmək, kənar etmək, istisna etmək; **II sich ~** fərqlənmək; **sich gut ~** yararlı olmaq; yaxşı görünmək; yaraşmaq.
áusnehmend I *a* əla, xüsusən; **II** *adv* lap, son dərəcə.
áus || nutzen *vt*, **aus || nützen** *vt* istifadə etmək, istifadəyə vermək.
Áusnutzung *f* **1.** istifadə; **2.** geyib köhnəltmə, yırtma.
áus || packen *vt* **1.** açmaq (*qablaşdırılmış şeyləri*); çıxarmaq; **2.** *dan.* açıb demək (*yenilikləri*); **über j-n ~** *dan.* bir kəsdən şikayət etmək.
áus || pfeifen *vt* fitə basmaq, fitləyib masqaraya qoymaq.
áus || plaudern *vt* ağzından qaçırtmaq; açıb söyləmək (*sirri*).
áus || plündern *vt* qarət etmək, soymaq.
Áus || plünderung *f* qarət, soyğunçuluq.
áus || posaunen *vt məc.* aləmə yaymaq/car çəkmək, hamıya bildirmək.
áus || prägen I *vt* sikkə kəsmək; **II sich ~** **1.** çap edilmək; iz buraxmaq; **2.** *məc.* əks etmək, ifadə etdirmək (*üzdə*).
áus || pressen *vt* **1.** sıxmaq, basıb sıxmaq; **2.** *məc.* zorla, hiylə ilə almaq (*pul* və s.)
áus || pumpen *vt* **1.** çəkmək, boşaltmaq (*nasosla*); **2.** *məc.* aldadıb/tovlayıb almaq; istifadə etmək; **j-n ganz ~** *məc.* kiminsə bütün pullarını almaq.
áus || quartieren *vt* evdən çıxarmaq; köçür-

rəydən salmaq; **das lasse ich mir nicht ~** mən bu fikrimdən dönmərəm; məni bu fikirdən daşındıra bilməzsiniz; **3.** fikrini axıra qədər söyləmək; **4.** təmizə çıxartmaq, haqq qazandırmaq; **II** *vi* nitqini qurtarmaq; sözünü deyib qurtarmaq; **j-n ~ lassen** kiməsə fikrini söyləməyə imkan vermək; **III sich ~ 1.** söyləmək, danışmaq; **2.** boyun qaçırmaq; bəhanə etmək; özünü təmizə çıxarmaq.
áus || reichen *vi* kifayət etmək; çatmaq; **das wird ~** bu çatar (kifayət) edər.
Áus || reise *f* getmə, yola düşmə, tərk etmə.
áus || reisen *vi* (s) getmək, yola düşmək.
áus || reißen I *vt* cırmaq, çəkib dartmaq; **er reißt sich kein Bein aus** *dan.* o buna çox da can yandırmır; **II** *vi* (s) *məc.* qaçmaq, əkilmək; boyun qaçırmaq (*hərbi qulluqdan*); fərarilik etmək.
Áus || reißer *m* (6) qaçqın, fərari.
áus || renken *vt* burxulmaq, çıxmaq (*qol, qıç*).
Áus || renkung *f* çıxıq, (*ayaq, qol*) burxulma.
áus || richten *vt* **1.** *tex.* düzəltmək, düzləndirmək; **2.** *məc.* yerinə yetirmək; çatdırmaq, yetirmək (*salam*); **3.** əldə etmək; bayram keçirmək; **damit ist nichts ausgerichtet** bununla heç nə edilməmişdir.
áus || ringen I *vt* sıxmaq (*paltar* və s.), **II** *vi*: **er hat ausgerungen** *məc.* o öldü.
áus || roden *vt* kökündən çıxarmaq.
áus || rotten *vt* kökünü kəsmək, qırmaq, məhv etmək, tələf etmək.
áus || rücken I *vt* dayandırmaq (*maşını*), **II** *vi* (s) **1.** *hərb.* irəli hərəkət etmək, *tex.* ayırmaq; **2.** *dan.* qaçmaq, aradan çıxmaq.
áus || rüsten I *vt* **1.** təchiz etmək; **2.** *hərb.* silahlandırmaq; **II sich ~** tədarük/ehtiyat görmək.
Áus || rüstung *f* (10) **1.** təchiz; **2.** *hərb.* silahlanma; əsgəri təchizat; **3.** təchizat, inventar.
áus || rutschen *vi* (s) sürüşmək.
Áus || saat *f* **1.** *k. t.* əkin, səpin, əkmə; toxum; **2.** toxumlama, toxum səpmə.
áus || säen *vt* əkmək, əkib qurtarmaq.
Áus || sage *f* **1.** rəy, fikir; **2.** göstəriş; bəyanat, şəhadət; **die ~ zweier Zeugen** iki şahidin ifadəsi; **seiner ~ nach** onun sözlərinə görə; **3.** *qram.* xəbər.
áus || sagen *vt* ifadə vermək (*məhkəmədə*); danışmaq; **der Zeuge hat gegen den Angeklagten ausgesagt** şahid müttəhimin əleyhinə ifadə verdi.
Áus || satz *m* -es, *oh. pl tib.* cüzam, xora.
áus || sätzig *a* cüzamlı, xoralı.
áus || saugen *vt* sağmaq; *məc.* istismar etmək, əldən salmaq.
áus || schalten *vt* **1.** *elek.* kəsmək, söndürmək (*işıq*); **2.** çıxartmaq.
áus || schauen *vi* **1.** (*nach D*) başını çölə çıxarıb baxmaq, baxıb öyrənmək; **2.** görünüşü olmaq, görünmək; **wie schaut's aus?** işlər necə gedir?
áus || scheiden I *vt* **1.** ifraz etmək; **2.** ayırmaq; çıxdaş (*brak*) etmək; **der Körper scheidet Schweiß aus** bədən tər ifraz edir; **2.** *kim.* çökdürmək; **II** *vi* (s) çıxmaq, getmək, xaric olmaq, sıradan çıxmaq; **diese Frage scheidet aus** bu məsələ aradan qalxır (mənasını) itirir.
Áus || scheidung *f* **1.** ifrazat; ayırma, ayrılma; **2.** *kim.* çökdürmə.
áus || sch

áus || schlagen I *vt* **1.** vurub çıxartmaq, vurub sındırmaq; sındırıb ayırmaq; **2.:** etw. ~ qəti surətdə rədd etmək; ◊ **das schlägt dem Faß den Boden aus** buna daha dözmək olmaz; **3. ~ mit...** üz çəkmək; **II** *vi* **1.** (h) döyüb qurtarmaq; vurmaq; **die Uhr hat ausgeschlagen** saat vurdu; **2.** (h) şıllaq atmaq, təpik atmaq; **3.** (s) görünmək (*yanğın*); *bot.* açılmaq (*zoğ*); *tib.* səpmək; **4.** (s) nəm çəkmək (*divar*), **5.** (s) qurtarmaq, nəticələnmək; **die Sache schlug zu seinen Gunsten aus** iş onun xeyrinə qurtardı; **6.** (h) əyilmək (*düz xətdən*).

áusschlag || gebend *a* həlledici.

áus || schließen I *vt* kənar etmək, çıxartmaq, xaric etmək; **ausgeschlossen!** danışmağına dəyməz!; heç cür ola bilməz! **II sich ~** özünü kənar etmək, iştirak etməmək.

áus || schließlich I *a* müstəsna; **II** *adv* ancaq, müstəsna, xüsusi; **III** *prp* (*G, A*)... başqa; **er lebt ~ für seine Arbeit** o ancaq öz işi ilə yaşayır.

Áus || schluß *m* çıxarma, kənar etmə; **mit ~** çıxarmaqla, ...başqa; **unter [mit] ~ der Öffentlichkeit** *hüq.* gizli, xəlvəti.

áus || schmücken *vt* bəzəmək, yığışdırmaq.

áus || schnauben I *vt* burnunu silmək; **II** *vi* nəfəsini dərmək, **III sich ~** burnunu silmək, finxırmaq.

áus || schneiden *vt* kəsmək, biçmək.

Áus || schnitt *m* **1.** kəsik, biçmə; qol yeri; **2.** dekolte; **3.** *riyaz.* sektor; ◊ **Stoff im ~ verkaufen** parçanı kəsilmiş satmaq.

áus || schreiben 1. *vt* **1.** seçib yazmaq, yazıb götürmək; **eine Summe ~** rəqəmi sözlə yazmaq; **2.** axıracan yazmaq; **3.** *tea.* rolları yazılı bölüşdürmək; **Neuwahlen ~** yeni seçki təyin etmək; **II sich ~** yaradıcılıq qabiliyyətini itirmək (*yazıçı haqqında*).

áus || schreien I *vt* qışqırmaq, çığırmaq, qışqırıb demək, elan etmək; tərifləmək (*malı*); **er wird es überall ~** o bunu hər yerdə danışacaq; **sich** (*D*) **die Lunge ~** əldən düşüncə qışqırmaq; **II** *vi* çığırmaqdan əl çəkmək; **III sich ~** yorulana qədər qışqırmaq, qışqırmaqdan yorulmaq.

áus || schreiten *vi* (s) **1.** addımlamaq, addım atmaq, iri addımlarla yerimək; **wacker / tüchtig ~** [illegible]

Áus || schreitung *f* (10) nəfsini saxlaya bilməmək; israf, nizamsızlıq, qaydasızlıq; *məc.* ədəb.

Áus || schuß *m* (1*) **1.** seçmə, çeşidlərə ayırma; **2.** *oh. pl* xarab şey, nöqsanlı mal; makulatura, yararsız tör-töküntü (*kağız, kitab*), tör-töküntü (*məc. insanlara da aid*); **3.** komisyon, komitə; **4.** çıxış yeri (*güllə yarasında*).

Áusschuß || ware *f* nöqsanlı mal.

áus || schütteln *vt* silkələyib atmaq, silkələmək.

áus || schütten *vt* **1.** səpib boşaltmaq; tökmək; **sein Herz ~** ürəyini boşaltmaq; **2.** töküb boşaltmaq (*su*); **das Kind mit dem Bade ~** qaş düzəltdiyi yerdə gözünü tökmək; **3.** divident vermək (*aksiyanın üzərinə düşən gəlir faizi*); ◊ **sich vor Lachen ~** gülməkdən qarnını tutmaq.

áus || schwatzen *vt,* **áus || schwätzen I** *vt* **1.** ağzından qaçırmaq, açıb söyləmək; **2.** laqqırtını kəsmək; **II sich ~** doyunca danışmaq.

áus || schweifend *a* əxlaqsız, azğın, pozğun.

áus || schwitzen I *vi* (s) **1.** tərləmək; **2.** *bot.* axmaq, sızmaq, damcı-damcı tökülmək (*qətran*), **II** *vt:* **eine Krankheit ~** xəstəliyi tərlə çıxarmaq.

áus || sehen I *vi* **1.** görünüşü olmaq, görünmək; **~ wie ...** kimisə bənzəmək (oxşamaq); **das sieht nach nichts aus** bu heç nəyə bənzəmir (çox pisdir) biabırçılıqdır; **wie sieht er aus?** onun görkəmi necədir?; **er sieht gesund aus** o, sağlam görünür; **so siehst du aus!** 1) *dan.* ay elədin ha!; 2) hə, dalısını de!; **das sieht nach ihm aus** bu onun işidir; bu onun əlindən gələr!; **es sieht verzweifelt bei ihm / um ihn aus** o, çıxılmaz vəziyyətdədir; **es sieht nach Regen aus** deyəsən, yağış yağacaq; **2.: nach j-m ~** bir kəsin dalınca baxmaq; **II** *vt:* **sich** (*D*) **fast die Augen ~** gözlərini xarab etmək (*çox işləməkdən*).

Áus || sehen *n* -s, *oh. pl* görünüş, xarici görünüş; **dem ~ nach** görünüşə görə; **sich das ~ geben** özünü lazımi şəklə salmaq; **das ~ trügt** görünüş aldadıcıdır.

(*can atmaq*); **3.: er ist oft aus** o çox vaxt evdə olmur.

áus || senden *vt* göndərmək, yollamaq, **Strahlen ~** şüa buraxmaq.

áußen *adv* xaricdən, bayırdan; **nach ~ (hin)** xaricə, bayıra; **von ~ (her)** xaricdən, üzdən; **von ~ betrachtet** üzdən/zahirən baxdıqda.

Áußen || handel *m igt.* xarici ticarət.

Áußen || minister *m* xarici işlər naziri; **~politik** *f* xarici siyasət.

Áußen || welt *f* xarici aləm.

äußer *a* xarici; zahiri, kənar; **die ~ Ruhe** zahiri sakitlik; **die ~ Einflüsse** kənar (*xarici*) təsirlər; **die ~n Angelegenheiten** xarici işlər.

äußer I *prp.* (*D, nadir halda* G) başqa, əlavə, müstəsna olmaqla; **~ dem Hause** evdən xaricdə (kənarda); **~ Landes** ölkədən xaricdə; **~ dir** səndən başqa; **er ist ~ sich** o özündən çıxıb; **~ acht lassen** nəzərdən (gözdən) qaçırmaq; **~ Dienst** istefaya çıxmış; **II** *cj:* **~ daß, ~ wenn** əgər, yalnız.

äußer || amtlich *a* xüsusi, şəxsi, qeyri-rəsmi.

áußerdém *adv* bundan başqa.

Äußere *n* -n, *oh. pl* xarici görünüş; **dem ~(e)n nach** zahirən; **das Ministerium des ~n** Xarici İşlər Nazirliyi.

äußer || gewohnlich *a* fövqəladə, qeyri-adi, görünməmiş, qəribə.

äußerhalb I *prp* (*D / G*) bayır, xaric; qıraq; **er wohnt ~ der Stadt** o, şəhərdən kənarında/şəhərdən qıraqda yaşayır; **II** *adv* kənarda, qıraqda; **er wohnt ~** o, şəhər kənarında yaşayır; **~ wilen** qıraqda qalmaq, evdə qalmamaq; kənara, qırağa; **den Ball ~ schlagen** topu xətdən kənara (qırağa) vurmaq (*tennisdə*).

äußerlich I *a* **1.** xarici; *məc.* zahiri, süni, yalançı; **2.** səthi, ötəri; **II** *adv* xaricdən, üzdən; *tib.* xarici (*dərmana aid.*)

Äußerlichkeit *f* (10) formallıq; mərasim, dəbdəbə.

äußern I *vt* bildirmək (*hiss, fikir*); ifadə etmək; **II sich ~** (*über A*) fikrini demək, cavab vermək.

äußer || ordentlich *a* fövqəladə; qeyri-adi; **~er Professor** statdankənar professor.

äußerst I *a* son dərəcə, ən yüksək; **der ~e Termin** ən son müddət; **II** *adv* çox, son dərəcədə, olduqca; **die Sache ist ~ wichtig** iş olduqca vacibdir (əhəmiyyətlidir).

außerstánd(e) *adv* qeyri-mümkün; **~ sein** mümkün olmamaq; **~ setzen** imkandan məhrum etmək.

Äußerste *n* -n, *oh. pl* ifratçılıq; **sein ~s tun** əldən gələni etmək; **bis aufs ~, bis zum ~n** olduqca, son dərəcə; **einen Menschen bis zum ~n treiben** insanı son həddə gətirib çıxarmaq; **auf das ~ gefaßt sein** hər şeyə hazır olmaq.

Äußerung *f* (10) fikrini demə; ifadə; cavab; **eine ~ tun / fallen lassen** fikir söyləmək.

aus || setzen I *vt* **1.** düşürmək (*gəmidən*); **2.** aşkara çıxarmaq; **3.** təyin etmək, elan etmək (*mükafatı*); **4.** düçar etmək; salmaq; **j-n der Gefahr ~** kimisə təhlükəyə salmaq; **5.** dayandırmaq (*işi*); təxirə salmaq; etw. **auzusetzen haben** (*an D*) nöqsan/eyib tapmaq; **ein Kind ~** uşağını atıb getmək; **II** *vi* qeyri-müntəzəm işləmək (*ürək, motor*); **III sich ~** düçar olmaq, məruz qalmaq.

Áus || sicht *f* (10) **1.** mənzərə, görüntü dairəsi; **gute ~en haben** *məc.* yaxşı gələcəyə malik olmaq; **2.** ümid; **in ~ stellen** ümid vermək; **in ~ haben** nəzərdə tutmaq; **in ~ stehen** nəzərdə olmaq; **eine freie ~** açıq (*geniş*) mənzərə.

áussichtslos *a* ümidsiz.

Áussichts || punkt *m* müşahidə məntəqəsi.

áussichts || reich *a məc.* zəngin gələcəkli, ümid verən.

áus || siedeln *vt* köçürmək.

áus || sinnen *vt* uydurmaq; qəsdində olmaq.

áus || söhnen I *vt* barışdırmaq; **II sich ~** barışmaq.

Aus || söhnung *f* (10) barışıq, barışdırma.

áus || spähen I *vi* (*nach D*) baxıb axtarmaq; gözü ilə axtarmaq; **II** *vt* baxmaq; izləmək; güdmək; **die Gelegenheit ~** fürsət axtarmaq.

áus || spannen I *vt* **1.** dartıb uzatmaq; **2.** qoşqudan açmaq (*qoşqu heyvanını*); **3.** *məc.* istirahət etmək; **II sich ~** 1. yayılmaq;

áus || sperren *vt* **1.** girməyi qadağan etmək; kənar etmək, xaric etmək, qovmaq, işdən azad etmək; **2.** lokaut (*kütləvi tətil*) elan etmək; **3.** ayırmaq, aralamaq; **4.** *məih*

Áusstellungs || gegenstand *m* sərgidə göstərilən şey, eksponat; **~gelände** *n* sərgi ərazisi; **~raum** *m* sərgi salonu.

áus || st[illegible]

4. sona çatdırmaq (*mübahisəni*); **5.** keçirmək (*yarış*); **6.** *məc.* faş etmək.

Áusträger *m* (6), **~in** *f* (12) paylayıcı, dağı-

áus || wählen *vt* seçmək, seçib götürmək, arıtmaq, ayırmaq.

Áus || wanderer *m* (6), **~in** *f* (12) təzə yerə

Áus || wertung *f* **1.** qiymətqoyma, qiymətləndirmə; **2.** *riyaz.* rəqəm qiymətlərini müəyyənləşdirmə; **3.** istifadə; **4.** *hərb.* şəklə salınma (*məlumat*); **5.** *kim.* titrini müəyyən etmə.

Bequémlichkeit *f* (10) **1.** rahatlıq; **eine Wohnung mit allen ~en** rahat mənzil; **das hat seine ~en** bunun özünün də üstün cəhətləri var; **2.** tənbəllik.
beráten I *vt* məsləhət görmək; **ich kann dich gut ~** mən sənə yaxşı məsləhət verə bilərəm; **II** *vi* (*über A*) müzakirə etmək (*nəyisə*); konsultasiya vermək; **III sich ~: sich mit** *j-m ~* (*über A, wegen G*) məsləhətləşmək (*kimləsə, nə haqdasa*); **sich über die Arbeit ~** iş barədə məsləhətləşmək.
berátend *a* məsləhətçi, məşvərətçi; **mit ~er Stimme** məşvərətçi səslə; **~er Ingenieur** konsultant-mühəndis.
Beráter *m* (6), **~in** *f* (12) konsultant, məsləhətçi.
berátschlagen I *vt* müşavirə etmək, müzakirə etmək; **II** *vi* **sich ~** məsləhətləşmək.
Berátung *f* (10) müşavirə; müzakirə; məsləhət; **ärtztliche ~** konsilium; *etw.* **zur ~ bringen** nəyisə müzakirəyə qoymaq.
beráuben *vt* məhrum etmək, əlindən almaq; qarət etmək, soymaq, var-yoxunu əlindən almaq.
beráuchen *vt* his eləmək; hisə vermək.
beráuschen I *vt* kefləndirmək, sərxoş etmək, məst etmək; **II sich ~ 1.** keflənmək, sərxoş olmaq; **2.** *məc.* zövq almaq, nəşələnmək; **sich an einem schönen Anblick ~** gözəl mənzərədən həzz almaq.

beráuschend I *a* **1.** kefləndirici, tünd, çox spirtli (*içki*); **2.** *məc.* səfalı, valehedici; **II** *adv* çox.
Beráuschung *f oh. pl* **1.** keflənmə; sərxoşluq; **2.** *məc.* həzz, nəşə, kef.
beráuscht *a* kefli, sərxoş.
beréchnen *vt* **1.** hesablamaq, hesablayıb çıxarmaq, saymaq; **2.** *məc.* fikirləşmək, ölçüb-biçmək.
beréchnet *a* **1.** (*auf A*) hesablanmış; **2.** *məc.* qənaətcil, öz xeyrini bilən.
Beréchnung *f* (10) **1.** hesablama; hesablayıb çıxartma; kalkulyasiya (*malın maya və satış qiymətini hesablama*); **2.** *məc.* qənaətcillik.
beréchtigen *vt* (*zu D*) əsas vermək; hüquq vermək (*nəyəsə*).
beréchtigt *a* **1.** hüququ, haqqı [olan]; **ich bin ~ zu fordern** mənim tələb etməyə haqqım var; **2.** ədalətli, əsaslı; **~ sein** əsası olmaq, haqqı olmaq; **~e Klagen** ədalətli şikayət; **3.** müəllifin razılığı ilə.
Beréchtigung *f* (10) (*zu etw.*) haqq, hüquq (*nəyəsə*), səlahiyyət, tam ixtiyar; **nicht ohne ~** səbəbsiz olmayaraq.
beréden I *vt* **1.** dilə tutmaq, yola gətirmək, qandırmaq; **leicht zu ~** üzüyola, tezqanan; **2.** müzakirə etmək; **3.** böhtan atmaq; dalca danışmaq; **II sich ~** (*mit D*) məşvərət etmək, məsləhətləşmək (*kimləsə*).
Berédsamkeit *f oh. pl* natiqlik istedadı, gözəl danışma qabiliyyəti.
berédt *a* gözəl natiq (*gözəl və aydın danışmaq qabiliyyəti olan*); **eine ~e Sprache sprechen** gözəl (*ifadəli, mənalı*) danışmaq.
Beréich *m* (1), *n* (2) sahə, sərhəd, həddi; sfera, dairə (*müşahidənin, fəaliyyətin*); *hərb.* güllə tutan, əl çatan; **das gehört nicht in mein(en) ~** bu mənim işim /sahəm deyil, bu mənə aid deyil; **im ~ der Möglichkeit** imkan daxilində.
beréichern I *vt* zənginləşdirmək; varlandırmaq; **II sich ~** varlanmaq, dövlətlənmək; zənginləşmək.
Beréicherung *f* (10) zənginləşdirmə, varlandırma.
beréinigen *vt* sahmana salmaq, qaydaya salmaq; **eine Angelegenheit ~** işi sahmana salmaq; **Schwierigkeiten ~** çətinliyi aradan qaldırmaq.
beréisen *vt* hər tərəfi gəzmək (*miniklə*), səyahət etmək.
beréit *a* (*zu D*) hazır (*nəyəsə*); razı; **~ stehen, sich ~ halten** hazır olmaq, hazır durmaq; **sich ~ erklären, sich ~ finden** razılaşmaq.
beréiten I *vt* hazırlamaq; *j-m* **eine gute Aufnahme [guten Empfang] ~** bir kəsi yaxşı qəbul etmək (*qarşılamaq*); **j-m Freude ~** kimisə sevindirmək; **j-m Kummer ~** kimisə kədərləndirmək.
beréiten II *vt* **1.** gəzib-dolanmaq (*atla*), **2.** təlim vermək (*ata*).
beréit || halten *vt* hazır saxlamaq; **~legen** *vt* hazırlamaq, hazırlaşdırmaq; **~machen (sich)** (*zu D*) hazırlanmaq, hazırlaşmaq (*nəyəsə*).
Beréitheit *f oh. pl* hazırlıq, hazır olma.
beréits *adv* artıq.
Beréitschaft *f oh. pl* **1.** hazırlıq, hazır olma; **in ~** hazır, hazır vəziyyətdə; **im ~ halten** hazır saxlamaq; **2.** *hərb.* növbətçi hissə.
beréit || steh(e)n *vi* (*s*) hazır olmaq, durmaq.
beréit || stellen *vt* qabaqcadan hazırlamaq.
Beréitung *f* (10) hazırlama; hazırlanma.
beréitwillig I *a* səyli, çalışqan, qeyrətli; qulluq göstərən, iltifatlı; **II** *adv* həvəslə.
Beréitwilligkeit *f oh. pl* hazırlıq, səy, çalışqanlıq.
beréuen *vt* peşman olmaq, tövbə etmək, peşmançılıq çəkmək.
Berg *m* (1) **1.** dağ; **2.** *məd. pl* boş süxur; ◊ **er ist längst über alle ~e** onun izi-tozu da qalmayıb; **mit seiner Meinung hinter dem ~e halten** öz fikrini gizlətmək; *über* **den ~ sein** çətinlikləri aradan qaldırmaq; **mir stehen die Haare zu ~e** tüklərim biz-biz olur.
bergáb *adv* dağaşağı, dağdan; **mit seiner Gesundheit geht es berdáb** *məc.* onun səhhəti ağırlaşır.
Berg || adler *m* dağ şahini, dağ qartalı.
bergán *adv* dağa.
Berg || arbeiter *m* mədən fəhləsi; **~arbeiterverband** *m* mədən fəhlələrinin ittifaqı.
bergáuf, ~áufwärts *adv* dağa; ◊ **es geht wieder bergauf** vəziyyət yaxşılaşır.

Bérg || bau *m oh. pl* mədənçilik.
Bérg || bewohner *m* dağlı, dağ əhli, dağlıq yerdə yaşayan.
bérgen* *vt* **1.** gizlətmək; **2.** xilas etmək (*boğulan adamı, bədbaxt hadisədən iztirab çəkəni*); **3.** yığmaq (*məhsul*); **4.** toplamaq (*qənimət*); ◊ **er ist geborgen** o, təhlükədən uzaqdır.
bérgig *a* dağlıq, çox dağ olan.
Berg || kessel *m köhn.* vulkan ağzı; böyük çuxur, iri çala; **~mann** *m* (*pl* **~leute**) **1.** mədən fəhləsi; **2.** dağlı; **~öl** *n* neft; **~rücken** *m* sıra dağlar, dağ silsiləsi; **~rutsch** *m* çökmə, sürüşmə; **~steiger** *m* **1.** alpinist (*dağ turisti*); **2.** *məd.* şteyger (*mədən işlərinə baxan usta*); **~sturz** *m* dağ uçqunu.
Bérgung *f* (10) **1.** xilas etmə (*boğulan, bədbaxt hadisəyə düçar olan şəxsi*); **2.** 1) məhsul yığımı; 2) qır-qırıntı toplama; **3.** gizlində saxlama, ört-basdır etmə.
bérg || únter *adv* dağaşağı, dağdan.
Bérg || werk *n* mədən.
Bérícht *m* (1) məruzə; hesabat; məlumat; **~ erstatten** məruzə etmək; məlumat vermək.
berichten *vt* söyləmək; məruzə etmək; hesabat vermək; xəbər vermək, məlumat vermək.
Bericht || erstatter *m* (6) məruzəçi; müxbir; **~erstattung** *f* hesabatın, məruzənin (*qəzetdə buraxılan məqalə və ya müxbir yazılarının*) verilməsi, təqdim edilməsi.
berichtigen *vt* düzəltmək, yoxlamaq; yoxlayıb düzəltmək; **eine Rechnung ~** hesab vərəqi üzrə ödəmək (*pulu*).
Berichtigung *f* (10) **1.** düzəliş; **2.** nizama salma, qaydaya salma.
Berichts || jahr *n* hesabat ili.
beriechen *vt* **1.** iyləmək; qoxulamaq; **2.** *məc.* öyrəşmək, alışmaq (*işə*).
beritten *a* atlı; at üstündə; **~ machen** ata mindirmək.
Berlin *n coğr.* Berlin.
Berliner I *m* (6) berlinli; **II** *a inv* Berlinə məxsus.
berlin(er)isch *a* Berlinə məxsus, Berlin ləhcəsində.
Bérn || stein *m* kəhrəba.
bérsten* *vi* (s) partlamaq; çatlamaq; **vor Lachen ~** gülməkdən partlamaq.
Bérsten *n* **-s**, *oh. pl* **1.** çatlama; **2.** yarıq; partlama, partlayış; ◊ **das ist zum ~** acıqdan (*hirsdən, gülməkdən*) partlamaq olar.
berüchtigt *a* bədnam, adı çıxmış (*pislikdə*).
berücken *vt* məftun etmək, özünə cəlb etmək.
berücksichtigen *vt* nəzərə almaq.
Berücksichtigung *f* (10) nəzərə alma; hesaba alma; **unter ~, daß...** nəzərə alsaq ki...; **ohne ~** nəzərə almadan.
Berúf *m* **1.** ixtisas; sənət; **in Ausübung des ~es** xidməti/vəzifəni yerinə yetirərkən; **2.** rol, vəzifə.
berúfen I *vt* (*zu D* nəyəsə) çağırmaq, dəvət etmək; **er wurde zu diesem Amte ~** onu bu vəzifəyə dəvət etdilər; **II sich ~** (*auf A*) istinad etmək, əsaslanmaq (*nəyəsə, kimsəyə*).
berúflich *a* sənətsəl, peşəsəl; xidməti; **~e Ausbildung** ixtisas təhsili.
Berufs || arbeit *f* ixtisas üzrə iş; **~ausbildung** *f* peşə təhsili; **~kleidung** *f* iş paltarı; **~krankheit** *f* peşə xəstəliyi.
berúfs || mäßig I *a* professional, ixtisaslı; vəzifəli; **II** *adv* vəzifəsinə görə, ixtisasına görə.
Berúfs || revolutionär *m* peşəkar inqilabçı; **~schule** *f* peşə (*sənət*) məktəbi; **~spieler** *m idm.* Peşəkar oyunçu; **~wechsel** *m* peşə/sənət dəyişmə.
berúfs || tätig *a* işləyən, bir ixtisasla məşğul olan.
Berúfung *f* **1.** dəvət; çağırma (*işə*); çağırış; **2.:** (*auf A*) əsaslanma, istinad etmə (*nəyəsə*); **3.** *hüq.* apellyasiya (*şikayət*); **eine ~ einlegen** (*gegen A*) apellyasiya vermək (*nəyəsə*).
berúhen *vt* (*auf D*) əsaslanmaq (*nəyəsə*); **es beruht auf ihm** bu ondan asılıdır; **auf sich ~ lassen** ardını yoxlamamaq (atmaq).
berúhigen I *vt* sakitləşdirmək; **II sich ~** sakitləşmək.
Berúhigung *f oh. pl* sakitləşdirmə.
berühmt *a* məşhur, tanınmış; **~ sein** (*durch A, wegen G*) məşhur olmaq (*nə ilə*); **~ werden** şöhrət qazanmaq, ad qazanmaq.

Berühmtheit *f* (10) **1.** *oh. pl* məşhurluq; **~ erlangen** məşhur olmaq; **2.** məşhur adam, adlı-sanlı adam.
berühren *vt* **1.** dəymək, toxunmaq; *məc.* toxunmaq; **2. einen Ort ~** bir yerdən keçib getmək (*miniklə*).
Berührung *f* (10) **1.** (*mit D*) toxunma, yanaşı olma (*kimləsə, nə ilə*); **~ mit dem Feinde** *hərb.* düşmənlə toqquşma; **in ~ kommen** (*mit D*) əlaqədə olmaq (*kimləsə, nə ilə*); **2.** *tex.* kontakt.
Berührungs || punkt *m* birləşmə (*toxunma*) nöqtəsi.
besäen *vt* səpmək, əkmək; **der Himmel ist mit Sternen besät** *məc.* göy ulduzlarla örtülüdür.
besägen *vt* göstərmək, ifadə etmək; **das besagt, daß...** bu o deməkdir ki...; **das Gesetz besagt, daß...** qanunda deyilir ki, ... **das will gar nichts ~** bunun heç bir əhəmiyyəti yoxdur.
besägt *a* yada salınmış, göstərilmiş; **um auf das ~e Thema zurückzukommen** göstərilmiş mövzuya qayıdaraq.
besänftigen *vt* sakit etmək, sakitləşdirmək; ram etmək.
Besátz *m* (6) haşiyə, köbə, bəzək, yaraşıq.
Besátzung *f* (10) **1.** *hərb.* işğal dəstəsi; qarnizon; *dəniz.* gəmi ekipajı; **2.** işğal, işğalçılıq.
Besátzungs || truppen *pl hərb.* işğal qoşunları; qarnizon.
besáufen (sich) *dan.* kefli olana qədər içmək.
beschädigen I *vt* **1.** zərər vurmaq, zədələmək; pislik eləmək; 2. yaralamaq; **II sich ~** zədələnmək, əzilmək, özünü yaralamaq.
Beschädigung *f* (10) **1.** xarab etmə, korlama; **2.** zədə, zərər; **3.** *tex.* qəza.
beschäffen I *vt* yerinə yetirmək (çatdırmaq); vermək (*işi*); tapmaq, əldə etmək; hazırlamaq; **II** *a*: **die Sache ist so ~** iş belədir, iş bu haldadır; **wie ist es mit seiner Gesunhdeit ~?** onun səhhəti necədir?; **gut ~** yaxşı vəziyyətdə, varlı-hallı; **ich bin von Natur so ~** mən təbiətən beləyəm.
Beschäffenheit *f* (10) xüsusiyyət, xasso; vəziyyət; keyfiyyət; **~ des Körpers** bədən quruluşu, qəddi-qamət.
Beschäffung *f* (10) yerinə yetirmə (gətirmə); təmin etmə, hazırlama.
beschäftigen I *vt* iş vermək; məşğul etmək; **diese Fabrik beschäftigt 2000 Arbeiter** bu fabrikada 2000 fəhlə işləyir; **dieser Gedanke beschäftigt mich** bu fikir başımdan çıxmır; **II sich ~** (*mit D*) məşğul olmaq (*nə ilə*).
beschäftigt *a*: **~ sein 1.** hər hansı bir yerdə işləmək; **wo sind Sie ~?** harada işləyirsiniz?; **2.** məşğul olmaq; **er ist stark ~** o çox məşğuldur; **womit sind Sie ~?** siz nə ilə məşğulsunuz?
Beschäftigung *f* (10) **1.** məşğələ, iş; **2.** iş vermə.
beschämen *vt* utandırmaq, xəcalət vermək, pərt etmək.
beschämt *a* utandırılmış, pərt edilmiş; pərt olmuş.
beschátten *vt* kölgələmək, kölgə salmaq, kölgələndirmək; himayə etmək.
bescháulich *a* xəyalpərvər.
Beschéid *m* **1.** cavab; izah, izahat; **~ sagen** cavab vermək; **~ wissen in** etw. (*D*) bir şeyi yaxşı bilmək; **der weiß schon ~!** o bilir, iş nə yerdədir!; **er weiß ~** onun işdən xəbəri var; **2.** *hüq.* qərar, hökm; **3.** xəbərdar olma, məlumatı olma; **in dieser Gegend weiß ich ~** bu yerləri yaxşı tanıyıram.
beschéiden I *vt* **1.** bağışlamaq; pay vermək; **2.** çağırmaq, gəlməyi əmr etmək; **man hat mich zu 9 Uhr hierher beschieden** mənə saat 9-da buraya gəlməyi tapşırıblar; **vor Gericht ~** məhkəməyə çağırmaq; **3.** məlumat vermək, bildirmək; **II sich ~** (*mit D*) razı qalmaq, kifayətlənmək; **III** *a* sakit, dinc, təvazökar; **~er Preis** orta qiymət; **~ tun** təvazökarlıq etmək.
Beschéidenheit *f oh. pl* sadəlik, təvazökarlıq, mötədillik.
beschéinen *vt* işıqlandırmaq, nurlandırmaq.
beschéinigen *vt* şahidlik etmək, təsdiq etmək; **den Empfang ~** bir şeyi almaq üçün qol çəkmək.
Beschéinigung *f* (10) vəsiqə, arayış, qəbz.
beschénken *vt* bağışlamaq; (*mit D*) bölmək (*nə ilə*), pay vermək.

beschéren I *vt* bağışlamaq.
beschéren II *vt* qayçılamaq, qırxmaq.
Beschérung *f* (10) **1.** hədiyyə, **2.** nəticə; **da haben wir die ~!, eine schöne ~!** əcəb işdir!; **das ist die ganze ~!** *isteh.* elə bu! olan-qalan budur!
beschießen *vt* topa tutmaq, gülləyə basmaq, atəşə tutmaq; bombardman etmək.
Beschießung *f* (10) bombardman, topa tutma.
beschiffbar *a* gəmi işləyə bilən, gəmiçiliyə yararlı.
beschimpfen *vt* söymək, təhqir etmək.
beschirmen *vt* müdafiə etmək; söykənmək; qorumaq, saxlamaq.
Beschlág *m* (1•) **1.** üz çəkmə, metala tutma; **2.** nal; **3.** döymə inventar; çərçivə, sağanaq; **4.** *tex.* bənd; armatur; **5.** *iqt.* embarqo, qadağan; **6.** *hüq.* müsadirə, həbs; **in ~ nehmen, mit ~ belegen** müsadirə etmək; **7.** *kim.* ərp, ləkə; **8.** şeh; ◊ **er hat ihn ganz in ~ genommen** bu onun bütün vaxtını alır.
beschlágen I *vt* **1.** haşiyələmək, köbə vurmaq; **2.** nallamaq; **3.** müsadirə etmək; **II** *vi* (s) *və* **sich ~ 1.** tərləmək; **das Fenster ist ~** pəncərə tərləyib; **2.:** in etw. (**gut**) **~ sein**, bir şeyi əsaslı bilmək; **er ist gut ~** (*in D*) o təcrübəlidir, o, hər şeyi biləndir.
Beschlág || nahme *f* (11) *hüq.* müsadirə.
beschlágnahmen *vt* müsadirə etmək.
beschléunigen *vt* sürətləndirmək, sürətini artırmaq.
beschließen *vt* **1.** qərara almaq; **2.** qurtarmaq, tamamlamaq.
Beschlúß *m* (1) qərar, qətnamə; **einen ~ fassen** qərar qəbul etmək; **zum ~** sonda, axırda, nəticədə.
beschlúßfähig *a* səlahiyyətli, tam ixtiyarı olan.
Beschlúßfassung *f oh. pl* qərar qəbul etmə.
beschlúßreif *a* qərar üçün hazır.
beschmáusen *vt* **1.** *dan.* bayram etmək; **2.** bir kəsin hesabına qonaq olmaq.
beschmieren *vt* **1.** çirklətmək, kirlətmək; **2.** sürtmək.
Beschmierung *f oh. pl* sürtmə; bulama.
beschmútzen *vt* **1.** çirkləndirmək, zibilləmək; **2.** *məc.* murdarlamaq; ləkələmək.
beschneiden *vt* **1.** kəsmək, kəsib qısaltmaq; **2.** azaltmaq, gödəltmək; **3.** sünnət etmək.
beschnéit *a* qarla örtülü, qarla örtülmüş.
beschnüffeln *vt* imsiləmək.
beschnúppern *vt* imsiləmək (*yalnız heyvanlar haqqında*).
beschränken I *vt* (*in D*) məhdudlaşdırmaq **II sich ~** (*auf A*) məhdudlaşmaq; qane olmaq.
beschränkt *a* məhdud; **~er Mensch** *məc.* məhdud adam, dardüşüncəli adam; **~ tauglich** *hərb.* müvəqqəti yararsız.
Beschränktheit *f* (10) məhdudluq; qısalıq, müxtəsərlik.
Beschränkung *f* (10) məhdudlaşdırma, məhdudiyyət.
beschréiben *vi* **1.** yazıb qurtarmaq, yazıb doldurmaq; **2.** təsvir etmək, ifadə etmək, izah etmək; **das ist nicht zu ~** bu, təsvirə gələn deyil; **3.** *riyaz.* cızmaq, çəkmək (*xətt, cızıq*).
beschréibend *a* təsviri.
Beschréibung *f* **1.** təsvir, təsvir etmə; ifadə etmə; **das spottet jeder ~** bu, sözlə ifadə ediləsi deyil; **2.** yazıb doldurulma; yazıb qurtarma; **3.** *riyaz.* çevrəsini cızma, dövrəsinə xətt çəkmə; **4.** *topoqr.* legenda (*plan, xəritə üzərində verilən izahat*).
beschréiten *vt* ayaq qoymaq (*yola, döşəməyə* və s.); **einen Weg ~** *məc.* hansısa yola düşmək; **den Rechtsweg ~** məhkəməyə vermək.
beschúldigen *vt* (*G*) təqsirləndirmək, ittiham etmək (*nədəsə*).
Beschúldiger *m* (6), **~in** *f* (12) ittihamçı (*kişi, qadın*).
Beschúldigte *m, f* (9•) müttəhim, müqəssir.
Beschúldigung *f* (10) (*G*) ittiham, təqsirləndirmə, təqsir.
beschúmmeln *vt* aldatmaq; kələk gəlmək, başını tovlamaq.
beschürzen (sich) döşlük taxmaq.
Beschúß *m* (1•) *hərb.* atəşə tutma.
beschútten *vt* tökmək, axıtmaq.
beschützen *vt* (*vor D, gegen A*) müdafiə etmək, mühafizə etmək, qorumaq (*nədənsə, kimdənsə*); havadarlıq etmək, himayəçilik etmək.
Beschützer *m* (6), **~in** *f* (12) himayəçi; müdafiəçi, müdafiə edən.

Beschwérde *f* (11) **1.** çətinlik; **2.** azar, naxoşluq, xəstəlik; **3.** *hüq.* şikayət; **~ erheben** (*gegen A*) **~ führen** (*über A*) şikayət etmək (*kimdənsə, nədənsə*).
Beschwérde || buch *n* şikayət kitabçası; **~führer** *m* şikayətçi; **~sache** *f hüq.* şikayət etmə, şikayət vermə; **~stelle** *f* şikayət bürosu; **~weg** *m*: **im ~** şikayət qaydası ilə; **den ~ gehen / betreten / beschreiten** şikayət vermək (etmək).
beschwéren I *vt* ağırlaşdırmaq, çətinləşdirmək, işini ağırlaşdırmaq, zəhmətə salmaq; **II sich ~** (*über A*) şikayətlənmək; gileylənmək; **er beschwert sich über dein Benehmen** o, sənin davranışından gileylənir.
beschwérlich *a* ağır, çətin, zəhmətli; **~ sein / fallen** çətin olmaq (gəlmək).
Beschwérlichkeit *f* çətinlik, ağırlıq.
beschwichtigen *vt* sakitləşdirmək; yatırmaq (*hirs, acıq* və s.).
beschwindeln *vt* aldatmaq, kələk (fırıldaq) gəlmək.
Beschwind(e)lung *f* (10) fırıldaq, kələk; yalan.
beschwingen *vt* qanadlandırmaq, ruhlandırmaq.
beschwingt *a* **1.** qanadlı; **2.** *məc.* ruhlanmış, qanadlanmış.
beschwören *vt* and içmək; and vermək, yalvarmaq.
Beschwörung *f* (10) **1.** andla təsdiq etmə; **2.** təkidli xahiş; **3.** and, and vermə.
beséelen *vt* canlandırmaq, həvəsə gətirmək.
Beséelung *f oh. pl* həvəsləndirmə, canlandırma, ruhlandırma, ruh yüksəkliyi, coşqunluq.
beséhen *vt* baxmaq, tamaşa etmək; **das muß man sich bei Lichte ~** *məc.* bunu müfəssəl müzakirə etmək lazımdır.
beséhens || wert *a*, **~würdig** *a* baxılmağa layiq, baxmağa layiq, **das ist ~** buna baxmağa dəyər.
beséitigen *vt* kənar etmək, aradan qaldırmaq; götürmək.
Beséitigung *f* (10) kənar edilmə; ləğv edilmə.
Bésen *m* (7) **1.** süpürgə; **2.** *dan.* ev qulluqçusu; ◊ **alter ~** *dan.* küpəgirən qarı; **wenn das nicht stimmt, fresse ich einen ~** *dan.* ≡ mən deyən düz olmasa, adımı dəyişərəm/bığımı qırxdıraram.
bésen || dürr *a* arıq (*çöp kimi*).
beséssen *a* tutulmuş, mübtəla; qudurmuş, qızğın; **von einer Idee ~** hər hansı bir fikrə düşmüş; **er läuft wie ~ herum** o, dəli kimi vurnuxur.
Beséssene *m, f* (9) dəli, divanə; **wie ein ~r** dəli kimi.
besétzen *vt* **1.** qoymaq, yerləşdirmək; **2.** təyin etmək (*vəzifəyə*); tutmaq (*boş yeri*); *tea.* bölüşdürmək (*rolu*); **3.** tutmaq; **alles besetzt!** hər yer tutulub!; **einen Platz ~** yer tutmaq; **4.** *hərb.* zəbt etmək; işğal etmək; **5.** tikmək, haşiyə tikmək.
besétzt *a* tutulmuş; **alles ~!** yer yoxdur!; **~es Gebiet** zəbt olunmuş sahə / ərazi.
Besétzung *f* (10) **1.** əvəz etmə; tutma; **~ der Rollen** *tea.* rolların bölünməsi; **2.** *hərb.* zəbt, zəbt etmə, işğal; **3.** xəz haşiyə, paltar ətəyinə tikilmiş xəz.
besichtigen *vt* göz gəzdirmək, baxmaq, tamaşa etmək.
besiedeln *vt* yerləşdirmək, məskən salmaq.
besiegeln *vt* möhürlə təsdiq etmək; **j-s Schickdsal ~** *məc.* kiminsə taleyini həll etmək.
besiegen *vt* yenmək, qalib gəlmək, qələbə çalmaq.
Besieger *m* (6), **~in** *f* (12) qalib, qalib gələn (*kişi, qadın*).
Besing *m* (1) *bot.* qaragilə, mərcanı.
besingen *vt* **1.** tərənnüm etmək, dastan qoşmaq; **2.** vala yazmaq (*səsi*).
besinnen (sich) **1.** (*auf A*) xatırlamaq, yada salmaq (*nəyisə*); **2.** özünə gəlmək, ayılmaq; **besinne dich doch auf den Namen!** adı yadına sal!; **sich eines andern** *yaxud* **eines Bessern ~** ağıllanmaq; **ich kann mich nicht ~** yadıma sala bilmirəm.
Besinnen *n -s, oh. pl* düşünmə, fikirləşmə; düşüncə.
besinnlich *a* **1.** yadda qalan; **2.** xəyalpərəst, xəyalçı; dərinfikirli; dərindüşüncəli.
Besinnung *f* (10) düşüncə, huş, şüur; **die ~ verieren** huşunu itirmək; **(wieder) zur ~ kommen** özünə gəlmək; ayılmaq; fikrini dəyişdirmək.

besinnungslos I *a* şüursuz, huşsuz; II *adv* huşunu itirərək, şüurunu itirərək.

Besitz *m* -es, *oh. pl* **1.** mülk, malikanə; **2.** sahib olma, malik olma (*G, von D*); etw. **in ~ nehmen** nəyəsə yiyələnmək, əlinə keçirmək; **im ~(e) haben, im ~(e) sein** (*von D*) malik olmaq, sahib olmaq; **im ~(e) Ihres Schreibens** məktubunuzu alaraq; **3.** əmlak, mal, var.

besitz || **anzeigend** *a*: **~es Fürwort** yiyəlik əvəzliyi.

besitzen *vt* sahib olmaq, malik olmaq.

besitzend *a* varlı; hakim; **die ~en Klassen** hakim siniflər.

Besitzer *m* (6), **~in** *f* (12) yiyə, sahib, sahibkar (*kişi, qadın*).

Besitz || **ergreifung** *f* **1.** sahib olma; **2.** ekspropriasiya, mülkiyyətdən məhrum edilmə.

bezitzlos *a* yoxsul, kasıb.

Besitztum *n* (5) mülk, əmlak.

bezoffen *a kob.* içmiş, kefli, sərxoş.

besóhlen *vt* pəncə vurmaq (*ayaqqabıya*).

besólden *vt* məvacib vermək.

Besóldung *f* (10) məvacib, maaş.

besónder *a* xüsusi; ayrı; fövqəladə; **im ~(e)n** xüsusən, xüsusilə.

Besónderheit *f* (10) xüsusiyyət, başqalıq.

besónders *adv* xüsusən, həddən artıq, ayrıca; **das befriedigt mich nicht ~** bu məni o qədər də təmin etmir.

besónnen I *vt* günəşlə işıqlandırmaq.

besónnen II *a* düşüncəli, dərrakəli; ehtiyatlı, ehmallı.

Besónnenheit *f oh. pl* düşüncəlilik, dərrakəlilik; ehtiyatlılıq.

besónnt *a* günəşlə işıqlandırılmış.

besórgen *vt* **1.** yerinə yetirmək (*tapşırığı*); **2.** məşğul olmaq; qayğısına qalmaq, qeydinə qalmaq; **3.** tədarük etmək; **eine Fahrkarte ~** bilet almaq; **den Haushalt ~** ev işinə baxmaq; **Einkäufe ~** bazarlıq etmək; **die Kinder [Kranken] ~** uşaqlara [xəstələrə] baxmaq/qulluq etmək; ◊ **ich werde es ihm ~!** *dan.* mən ona göstərərəm!

Besórger *m* (6), **~in** *f* (12) icraçı, icra edən (*kişi, qadın*).

besórglich *a* qayğılı; qayğı çəkən; qeydə qalan.

Besórgnis *f* (3) qorxu, ehtiyat, qayğı; **~se hegen** qorxmaq, ehtiyat etmək.

besórgt *a* qayğıkeş; **~ sein** (*um, für A*) qayğısına qalmaq (*kiminsə, nəyinsə*); **ich bin um deine Gesundheit ~** sənin sağlamlığından narahatam.

Besórgung *f* (10) **1.** tapşırıq; **2.** yerinə yetirmə, icra etmə; **~en machen** bazarlıq etmək.

bespánnen *vt* **1.** çəkmək, dartmaq; tarımlaşdırmaq; **2.: einen Wagen mit Pferden ~** atları arabaya qoşmaq; **3.: mit Saiten ~** sim çəkmək (*tara* və s.).

bespánnt *a* **1.** tarım, dartılmış; **2.** qoşulmuş.

bespréchen I *vt* müzakirə etmək; **2.** rəy yazmaq; **eine Grammophónplatte ~** səsini qrammofon valına yazdırmaq; **II sich ~** (*mit D über A*) məsləhətləşmək; razılığa gəlmək (*kimləsə nə haqdasa*).

Bespréchung *f* (10) **1.** müzakirə; **2.** müşavirə; **3.** resenziya.

bespréngen *vt* çiləmək, səpmək (*su*); sulamaq.

bespritzen *vt* səpmək, sıçratmaq.

bespülen *vt* yalamaq (*sahili*).

bésser *a* daha yaxşı.

Béssere *n* -n, *oh. pl* daha yaxşı (*şey*); **eine Wendung zum ~n** yaxşılığa doğru dönüş; **eines ~n belehren** başa salmaq, qandırmaq; **sich (A) eines ~n besinnen** ağıllanmaq.

béssern I *vt* yaxşılaşdırmaq; **II sich ~** düzəlmək, yaxşılaşmaq.

Bésserung *f* (10) yaxşılaşma, düzəlmə; **er ist auf dem Wege der ~** o sağalmaq üzrədir; **(ich wünsche Ihnen) gute ~!** tezliklə sağalmanızı arzu edirəm!

best I *a* (*superl vom gut*) ən yaxşı; **beim ~en Willen** canla-başla; **im ~en Schlafe sein** bərk yatmaq; **der erste ~e** hər kəs gəldi; **II** *adv*: **am ~en** hər şeydən yaxşı; **~ens, aufs ~e** mümkün olan qədər yaxşı, lap yaxşı; *etw.* **für das ~e halten** nəyisə daha üstün tutmaq; **j-n zum ~en haben [halten]** kimisə ələ salmaq, lağa qoymaq.

Beständ *m* (1*) **1.** sabitlik, daimilik, davamlılıq; **~ haben, von ~ sein** daimi olmaq, möhkəm olmaq; **das ist von ~** bu davamlıdır, həmişəlikdir; **2.** vəziyyət; tərkib; var.

~ der Kasse kassada olan nağd pul; ◊ **eiserner ~** toxunulmaz ehtiyat.

beständig I *a* **1.** sabit, dəyişməz, daimi; **2.** davamlı; **~ werden** düzəlmək, yaxşılaşmaq (*hava*); **das Barometer steht auf ~** barometr dəyişmədən göstərir; **II ~** *adv* adətən, həmişə.

Beständigkeit *f* (10) sabitlik, daimilik, dəyişməzlik; davamlılıq.

Beständ || **teil** *m* tərkib hissə.

bestärken *vt* möhkəmlətmək; təsdiq etmək; **das bestärkt mich in meinem Vorhaben** bu mənim fikrimi qüvvətləndirir.

bestätigen *vt* təsdiq etmək.

Bestätigung *f* (10) **1.** təsdiq, **2.** sübut, dəlil.

bestátten *vt* dəfn etmək, basdırmaq.

bestäuben 1. *vt* toz etmək; **2.** *bot.* tozlanmaq, tozlamaq (*bitkilərdə*).

bestáubt *a* tozlu.

bestäubt *a bot.* tozlanmış.

Bestáubung *f* (10) toz təbəqəsi.

Bestäubung *f* (1◌̈) *bot.* tozlandırma.

Beste *m, f* (9*) **1. der ~** ən yaxşı; **der ~ in der Klasse** sinifdə ən yaxşı şagird; **2.** *n* -n, *oh. pl* xeyir, fayda; **zum ~ der Werktätigen** zəhmətkeşlərin mənafeyinə; **ich will nur dein ~s, ich habe nur dein ~s im Auge** mən yalnız sənin xeyrini düşünürəm; **er tut sein ~s** o, əlindən gələni edir; **das erste ~ nehmen** rast gələni götürmək.

bestéchen *vt* rüşvətlə aldatmaq; rüşvət vermək; **sich ~ lassen 1.** rüşvət almaq; **2.** (*durch A*) *məc.* aldadılmaq (*nə iləsə*); **er läßt sich durch schöne Reden ~** o şirin dilə tez uyur.

bestéchlich *a* satqın (*adam*); **ein ~er Mensch** rüşvətxor.

Bestéchlichkeit *f oh. pl* satqınlıq, rüşvətxorluq.

Bestéchung *f* (10) rüşvət.

Bestéck *n* (2) futlyar; alət, dəst (*qab*).

bestéh(e)n I *vt* üstün gəlmək, qalib gəlmək; dözmək; **eine Prüfung ~** imtahandan uğurla çıxmaq, imtahan vermək; **II** *vi* (*s, h*) **1.** mövcud olmaq, davam etmək; **es kann kein Zweifel ~** şübhə ola bilməz; **2.** (*auf D*) nəyinsə üstündə durmaq; israr etmək; **er besteht auf seinem Standpunkt** o öz mövqeyində qalır; **3.** (*aus, in D*) ibarət olmaq.

Bestéhen *n* -s, *oh. pl* **1.** mövcudluq; **2.** (*auf etw. D*) təkid, inad; ◊ **~ der Prüfung** imtahan vermə.

bestéhlen *vt* oğurlamaq, var-yoxunu aparmaq.

bestéigen *vt* **1.** qalxmaq; çıxmaq (*dağa*); **2.** minmək (*ata, qayığa*).

Bestéigung *f* (10) **1.** təsdiq, **2.** sübut, dəlil.

bestéllen *vt* **1.** qoymaq; **2.** tapşırmaq; sifariş etmək (*bei D*); vermək; **ich habe *etw.* an Sie zu ~** Sizə bir tapşırığım var; **eine Zeitung ~** qəzetə yazılmaq; **einen Gruß ~** salam göndərmək; **die Briefe werden pünktlich bestellt** məktublar vaxtında çatdırılır; **3. zu sich ~** öz yanına gəlməyi əmr etmək; **4.: den Acker ~** *k.t.* tarlanı becərmək; **5.** (*zu D*) təyin etmək; **ist es (damit *yaxud* um die Sache) so bestellt?** işlər belədirmi?

Bestéller *m* (6), **~in** *f* (12) sifarişçi (*kişi, qadın*).

Bestéll || **schein** *m* sifariş kağızı.

Bestéllung *f* (10) **1.** sifariş; **auf ~ arbeiten** sifarişlə işləmək; **2.: ~ des Ackers** *k.t.* tarlanın becərməsi.

bestén || **falls** *adv* [yaxud **besten Fall(e)s**] ən yaxşı halda, fürsət düşdükdə.

béstens *adv* yaxşıdanyaxşı.

bestéuern *vt* vergi qoymaq.

bestiálisch *a* vəhşicəsinə, heyvancasına.

Bestialität *f* (10) vəhşilik; heyvanlıq.

Béstie *f* (11) vəhşi, heyvan; *məc.* qəddar, zalım.

bestimmbar *a* müəyyən edilə bilən, təyin oluna bilən.

bestimmen I *vt* **1.** təyin etmək; yoluna qoymaq; **gesetzlich ~** qanunlaşdırmaq; **2.** (*zu D*) təhrik etmək; təsir altına almaq; **besimme ihn zu arbeiten** onu işləməyə yola gətir; **II** *vi*: **~ Sie über mich** Sizin ixtiyarınızdayam.

bestimmt I *a* müəyyən, təyin edilmiş; dəqiq; qəti; **der ~e Artikel** *qram.* müəyyən artikl; **II** *adv* yəqin ki, qəti surətdə; **~ wissen** dəqiq bilmək; **ganz ~** lap yəqin; **Sie irren ~** yəqin səhv edirsiniz.

Bestimmtheit *f oh. pl* müəyyənlik, yəqinlik; **mit ~** inamla, qətiyyətlə; **mit ~ wissen** dəqiq bilmək.

Bestimmung *f* (10) **1.** təyinat, təyin; **2.** qərar; **die gesetzliche ~** qanun; **3.** həvəs, meyil; tale, bəxt.

Bestimmungs || ort *m* təyin edilən yer; **~recht** *n hüq.* qərar vermə hüququ; **~wort** *n* (*pl* **~wörter**) *qram.* təyinedici söz.

be || stirnt *a* ulduzlu.

Bést || leistung *f* rekord.

best || möglich *adv* ən yaxşı yolla, ən yaxşı üsulla.

bestráfen *vt* (*für A, wegen G*) cəzalandırmaq, cərimə etmək; **mit dem Tode ~** *hüq.* ölüm hökmü kəsmək.

bestráhlen *vt* şüalandırmaq; işığa salmaq (*rentgen*).

bestrében (sich) çalışmaq, səy etmək, **bestrebt sein** (*um A*) can atmaq.

bestréichen *vt* **1.** yaxmaq; bulamaq; **2.** rəngləmək; **3.** toxunmaq, dəymək; **4.** *hərb.* atəşə tutmaq.

bestréiten *vt* **1.** mübahisə etmək, höcət etmək, etiraz etmək; **ich will es nicht ~** mən buna etiraz etmirəm; **2.** ödəmək; yerini doldurmaq; **die Unkosten ~** xərclərin yerini doldurmaq.

bestr[illegible] *vt* səpmək.

bestrickend *a* cəzbedici, məftunedici, çox gözəl.

Bestrickung *f oh. pl* yoldan çıxartma, azdırma, məftun etmə.

beströmen *vt* **1.** bütünə keçmək; **2.** rahatlıq verməmək; ovqatını təlx etmək, kədərləndirmək; **3.** təngə gətirmək, zarə gətirmək.

bestürzt *a* pərt olmuş, məğlub olmuş.

Bestürzung *f oh. pl* çaşma, çaşıb qalma; donub qalma, mat qalma.

Besúch *m* (1) **1.** yoluxma, baş çəkmə; **2.** qonaq; **zu (auf) ~ sein** qonaq olmaq; **wir haben ~ bekommen** bizim qonağımız var; *j-m einen ~ abstatten* [machen] kimsə baş çəkmək.

besúchen *vt* baş çəkmək, yanına getmək.

Besúcher *m* (6), **~in** (12) **1.** qonaq; görüşə gələn; **2.** *tea.* tamaşaçı; dinləyici; *pl* tamaşaçılar.

besúcht *a* baş çəkilən, yoluxulan; **eine gut ~e Versammlung** çox adam iştirak edən iclas.

besúdeln *vt* çirkləndirmək, bulamaq.

betágt *a* yaşlı, yaşa dolmuş, ahıl.

betásten *vt* əlləmək; əl ilə yoxlamaq (*xəstəni*).

betätigen I *vt* işə salmaq, işlətmək, fəaliyyətə gətirmək; **seine Freundschaft ~** dostluğunu işə salmaq; **II sich ~ 1.** (*in D*) məşğul olmaq; **2.** (*bei, an D*) iştirak etmək.

Betätigung *f oh. pl* fəaliyyət, fəallıq; iştirak; sübut (*işlə*).

Betätigungs || feld *n* fəaliyyət sahəsi.

betäuben *vt* **1.** kar etmək; kütləşdirmək; heyrətləndirmək, təəccübləndirmək; **2.** *tib.* keyləşdirmək; **3.** *məc.* bihuş etmək.

betäubend *a* **1.** qulaqbatırıcı; **2.** *məc.* bihuşedici; *tib.* keyləşdirici.

betäubt *a* bihuş edilmiş; karlaşmış, keyləşmiş.

Betäubung *f* (10) keyləşmə; karlaşma; **2.** *tib.* ürəkkeçmə, ürəkgetmə, özündəngetmə; narkoz; **einen Zahn mit ~ ziehen** dişi narkozla çəkmək.

betáut *a* şehli, şeh basmış, şehlə örtülü.

betéiligen (sich) I (*bei, an D*) iştirak etmək; **II** payını vermək, payını qoymaq.

betéiligt *a* (*bei, an D*) bir işdə iştirak edən, əli olan; **~ sein an etw.** bir şeydə iştirak etmək.

Betéiligte *m, f* (9*) iştirak edən, iştirakçı; *ilc.* oriaq, yarlı.

Betéiligung *f* (10) (*bei, an D*) iştirak, ilə ortaqlıq, yerlilik; **das Fest fand unter großer ~ der Jugend statt** bayramda çoxlu gənc iştirak edirdi.

betén I *vt* ibadət etmək; namaz qılmaq; **II** *vt* dua etmək / oxumaq.

betéuern *vt* (*j-n etw.*) inandırmaq; and içmək.

Betéuerung *f* (10) inandırma; and içmə.

betíteln *vt* **1.** sərlövhə vermək (*kitaba, məqaləyə*); **2.** ad vermək, ləqəb vermək.

Béton [be'tõ:] *m* -s, -s beton.

betónen *vt* **1.** vurğu qoymaq; **eine Silbe ~** heca üzərinə vurğu qoymaq; **2.** *məc.* qeyd etmək; vurğulamaq.

Betónung *f* (10) vurğu; qəbartma.

betören *vt məc.* başını gicəlləmək; aldatmaq; yoldan çıxartmaq; heyran etmək, məftun etmək.

Betrácht *m* -(e)s, *oh. pl* baxılma; **außer ~ bleiben [lassen]** nəzarətsiz qalmaq [*qoymaq*]; **in ~ ziehen** nəzərə almaq; **in ~ kommen** nəzərə alınmaq.

betráchten *vt* baxmaq; nəzərdən keçirmək; **politisch ~** siyasi cəhətdən yanaşmaq.

Betráchter *m* (6), **~in** *f* (12) müşahidəçi; nəzarətçi.

beträchtlich *a* xeyli, çox; **dieser Weg ist um ein ~es weiter** bu yol xeyli uzaqdır; **um ein ~es** xeyli.

Betráchtung *f* (10) baxma, gözdən keçirmə; tamaşa, baxış; seyr etmə; fikir, mülahizə **~en anstellen** düşünmək, fikrə dalmaq.

Betrág *m* (1*) yekun; məbləğ; dəyər, qiymət; **im ~e** ümumilikdə, bütünlükdə, hamısı bir yerdə.

betrágen I *vi* ibarət olmaq (*məbləğdən*), bərabər olmaq; təşkil etmək (*məbləğ*). **II sich ~** (*gegen A*) özünü aparmaq.

Betrágen *n* -s, *oh. pl* əxlaq.

betráuen *vt* vəkil etmək; tapşırmaq.

betráuern *vt* yas/matəm saxlamaq.

Betréff *m* -(e)s, *oh. pl*: **in ~** nisbətən; [illegible] qaldıqda.

betréffen *vt* **1.** toxunmaq, dəymək; aid olmaq; dəxli olmaq; **was mich betrifft...** mənə gəlincə (qalsa)... **2.** zərbə endirmək; **ein schweres Unglück hat ihn betroffen** ona böyük bədbəxtlik üz verib.

betréffend I *a* uyğun, təxirsiz; dəxli olan; həmin; **der ~e Betrieb** müvafiq müəssisə; **II** *adv* haqqında, barəsində.

betréffs *prp* (*G*) dair, haqqında, barəsində.

betréiben *vt* **1.** məşğul olmaq (*işlə, sənətlə*); **Wissenschaften ~** seçiqəbağı təhsilgah açmaq; **einen Prozeß ~** divan qurmaq (*məhkəmə*); **2.** güdmək (*məqsəd*); çalışmaq, sürətləndirmək.

Betréiben *n* -s *oh. Pl* təkid, israr; tələb; **auf sein ~** hin onun təkidi ilə.

betréten I *vt* daxil olmaq, girmək; **mein Fuß betritt nie mehr Ihr Haus** ayağımı bir də sizə qoymaram; **den Rechtsweg ~** *hüq.* işi məhkəməyə vermək.

betréten II *a* **1.** tapdanmış; **2.** *məc.* pərt edilmiş.

Betrétung *f oh. pl* **1.** girmə, daxil olma (*evə*); **2.** qalxma, çıxma (*dağa*).

betréuen *vt* **1.** qayğısına qalmaq, qeydinə qalmaq; **2.** xidmət etmək, **3.** rəhbərlik etmək (*elmi işdə*).

Betrieb *m* (1) **1.** müəssisə; zavod; **der Arbeiter steht schon 10 Jahre im ~** fəhlə artıq 10 ildir ki, zavodda işləyir; **2.** istismar (*maşın*); hərəkət, gediş-gəliş; gedişqaynaşma; təchiz etmə; **am Bahnhof war starker ~** vağzalda böyük qaynaşma vardı; vağzal qayır-qayır qaynaşırdı; **3.** *tex.* ötürmə; **elektrischer ~** cərəyan ötürüşü; **nicht im ~ sein** işləməmək; **den ~ aufnehmen** müəssisəni işə buraxmaq; **der Fahrstuhl ist in ~** lift işləyir; **4.** *məc.* hərəkət; **da ist immer viel ~** burada həmişə böyük canlanma var.

betriebsam *a* çalışqan, səyli.

Betriebs || ausschuß *m* fabrik-zavod komitəsi.

betriebs || bereit *a* [*işə*] istismara hazır; **~fähig, ~fertig** *a* **1.** istismara hazır/yararlı; **2.** işə hazır.

Betriebs || kosten *pl* istismar xərcləri; **~leiter** *m* müəssisə rəhbəri; **~leitung** *f* müəssisə müdiriyyəti.

betriebs || sicher *a* texniki cəhətdən təhlükəsiz.

Betriebs || sperre *f* müəssisənin müvəqqəti bağlanması; **~stellung** *f* istehsalın dayandırılması; *d.y.* hərəkətin dayandırılması; **~stoff** *m* duru yanacaq; **~störung** *f* qəza; dayanma (*müvəqqəti*); istehsalın pozulması; **~unkosten** *bax:* **~kosten**; **~versammlung** *f* istehsalat iclası; **~verwaltung** *f* **1.** *d.y.* hərəkət xidməti idarəsi; **2.** müəssisə rəhbərliyi; **~weise** *f* istehsal üsulu.

betrinken (sich) içmək (*sərxoş olmaq*).

betróffen *a* pərt edilmiş, heyəcanlı; **du machst mich ~** sən məni təəccübləndirirsən.

betrüben *vt* qəmləndirmək, kədərləndirmək, qüssələndirmək.

betrüblich *a* dərd gətirən, dərdli, qəmli, qüssəli.

Betrübnis *f* (3) dərd, qəm, kədər, qüssə.

betrübt *a* qəmgin; **~ sein** (*über A*) qəmlənmək, kədərlənmək, (*nədənsə*) dərdlənmək.
Betrúg *m* -(e)s, *oh. pl* aldanış; fırıldaq, kələk.
betrügen *vt* (*um A*) aldatmaq (*nədəsə*); aldadaraq əlindən almaq; **sich ~lassen** yalana uymaq.
Betrüger *m* (6) yalançı; fırıldaqçı.
betrügerisch, betrüglich *a* aldadıcı; yalançı, yalan.
betrúnken *a* sərxoş; **~ machen** içkiyə öyrətmək, içkiyə alışdırmaq.
Bett *n* (13) **1.** yataq, yorğan-döşək; çarpayı; **das ~ hüten** xəstə yatmaq; **das ~ machen** yataq hazırlamaq; **zu [ins] ~ gehen** yatmağa getmək (girmək); **2.** çay yatağı; **aus dem ~ treten** yatağından çıxmaq; **3.** *tex.* özül (*maşın və ya dəzgahın altı*); **4.** *məd.* kömür təbəqəsi.
Bett || decke *f* yorğan, adyal.
Béttel *m* -s, *oh. pl* **1.** dilənçilik; **2.** cır-cındır; yırtıq ayaqqabı; cırıq paltar; əsgi-üsgü, zir-zibil.
béttel || arm *a* dilənçi, çox kasıb.
bétteln *vi* dilənmək, dilənçilik etmək.
Béttel || stab *m* dilənçi əsası (əl ağacı); **an den ~ bringen*** var-yoxdan çıxarmaq, müflisləşdirmək; **an den ~ kommen*** var-yoxdan çıxmaq, kasıblamaq, müflisləşmək; **~suppe** *f* dilənçi payı.
bétten I *vt* yatırtmaq; çarpayıya uzatmaq; II **sich ~** yatmaq; ◊ **Wie man sich bettet, so schläft man** *ata. söz.* Nə tökərsən aşına, o da çıxar qarşına.
bétt || lägerig *a* yataq xəstəsi; **~ sein** xəstə yatmaq; **~ werden** xəstələnmək, yorğan-döşəyə düşmək.
Bétt || laken *m* döşəkağı.
Béttler *m* (6), **~in** *f* (12) dilənçi.
Bétt || sack *m* döşək; **~stelle** *f* çarpayı; **~überzug** *m* döşəküzü; **~vorhang** *m* miçotkən; pərdə; **~vorleger** *m* çarpayının qabağına salınan xalça; **~wärmer** *m* qrelka; **~zeug** *n* yataq dəyişəyi (*döşəkağı, halışüzü* və s.).
Béuche *f* (11) *kim.* torta.
Béuge || fall *m qram.* hal (*isim*).
béugen I *vt* **1.** əymək; **die Knie ~** diz çökmək; **2.** *məc.* əzmək, incitmək; **3.** *qram.* hallandırmaq; II **sich ~** (*vor D* əyilmək; alçalmaq; **den Nacken ~** bel bükmək.
béugsam *a* əyilən, qatlanan, bükülən; elastik.
Béule *f* (11) şiş (*bədəndə*); **~ bekommen / kriegen** gözünün altını göyərtdirmək; batıq (*maşında*).
béunruhigen I *vt* narahat etmək; II **sich ~** narahat olmaq; həyəcanlanmaq.
béunruhigend *a* narahat, həyəcanlı.
Beúnruhigung *f* (10) narahatlıq; təşviş, həyəcan.
beúrkunden *vt* təsdiq etmək, sənədlə sübut etmək.
beúrlauben I *vt* məzuniyyət vermək; II **sich ~** məzuniyyət götürmək.
beúrlaubt *a* məzuniyyət almış.
Beúrlaubung *f* (10) məzuniyyətə buraxma.
beúrteilen *vt* (*nach D*) müzakirə etmək; mühakimə etmək; hökm vermək; düşünmək.
Beúrteilung *f* (10) **1.** mühakimə; qiymət; **2.** attestasiya.
Beúte *f oh. pl hərb.* qənimət; **~ machen** qənimət ələ keçirmək.
Béutel *m* (6) **1.** pul kisəsi; çanta; **aus seinem ~ bezahlen** öz cibindən ödəmək; **den ~ ziehen** *dan.* səxavətə gəlmək; xərcləmək; **2.** dəyirman ələyi; **3.** luza (*bilyard toru*).
beúteln *vt* ələmək (*unu*); silkələmək.
Béutel || netz *n* balıq toru; **~schneider** *m dan.* cibgir.
Béutel || tier *n zool.* kisəli heyvan.
Béute || stück *n* qənimət; **~zug** *m* basqın, qəfildən hücum.
bevölkern *vt* məskunlaşdırmaq.
Bevölkerung *f* **1.** əhali; **2.** yerləşmə, yerləşdirmə (*əhali*).
Bevölkerungs || abnahme *f* əhalinin azalması; **~dichte** *f* əhali sıxlığı; **~gesetz** *n* əhalinin artması qanunu; **~menge** *f* əhalinin sayı; **~zuwachs** *m* əhali artımı.
bevóllmächtigen *vt* vəkil etmək; səlahiyyət vermək.
bevóllmächtigt *a* vəkil edilmiş, müvəkkil; səlahiyyətli.
Bevóllmächtigte *m* müvəkkil, vəkil; inanılmış (*şəxs*); səlahiyyət sahibi.

bevórmunden *vt* **1.** qəyyumluq etmək, qəyyum olmaq; **2.** qəyyum təyin etmək.
bevórrechten *vt* imtiyaz vermək; üstünlük vermək.
bevórrechtet *a* imtiyazlı; üstün.
bevórsteh(e)n *vi* qarşıda durmaq.
bevórzugen *vt* üstün tutmaq.
bevórzugt *a* imtiyazlı.
Bevórzugung *f oh. pl* üstünlük, üstün tutma.
bewáchen *vt* qorumaq, keşiyini çəkmək.
bewáchsen I *vi* (s) (*mit D*) örtmək (*nə ilə*); basmaq (*bitərək*); **mit (von) Gras ~** otla örtülmək; II *a* ot basmış.
Bewáchung *f* (10) keşik, qarovul.
bewáffnen I *vt* (*mit D*) silahlandırmaq; II **sich ~** silahlanmaq.
bewáffnet *a* silahlı; **der ~e Aufstand** silahlı üsyan; **die ~e Macht** silahlı qüvvələr.
Bewáffnung *f* (10) silahlanma.
bewáhren I *vt* saxlamaq, qorumaq; **bewahre mich davor** canımı bundan qurtar; **ei, bewahre!** qətiyyən belə şey yoxdur!; belə şey yoxdur!; **Gott bewahre!** Allah saxlasın!; Allah eləməsin!; II **sich ~** (*vor D*) özünü qorumaq.
bewährt *a* sınanmış, inanılmış.
Bewáhrung *f* (10) qoruma; mühafizə.
Bewáhrungs || frist *f hüq.* şərti məhkumetmə müddəti.
bewáldet *a* meşəli, meşəlik.
bewältgen *vt* üstün gəlmək, öhdəsindən gəlmək; **einen Stoff ~** işi (materialı) öyrənmək.
bewándert *a* (*in D*) məlumatlı, bilikli, xəbərdar, təcrübəli.
Bewándtnis *f* hal, vəziyyət, şərait; **damit hat es [yaxud die Sache hat] folgende ~** iş başqa cürədir.
bewässern *vt* suvarmaq.
Bewässerung *f* (10) suvarma.
bewégbar *a* hərəkətli.
bewégen I *vt* **1.** tərpətmək; hərəkətə gətirmək; **2.** *məc.* dəymək, toxunmaq, həyəcanlandırmaq; **3.** (*zu D*) təhrik etmək; **bewogen?** səni gətməyə nə vadar etdi?; II **sich ~ 1.** tərpənmək; firlanmaq; **2.: sich ~ lassen** (*zu D*) razı salınmaq, təhrik edilmək.
bewégend *a* hərəkətverici, yönəldici.
Bewég || grund *m* səbəb, əsas, bəhanə.
beweglich *a* hərəki; hərəkət edən; hərəkətli; **~e Habe** daşınar əmlak; **eine ~e Skala** sürüşən şkala; **~er Mensch** diribaş adam.
Bewéglichkeit *f oh. pl* **1.** hərəkilik, cəldlik, qıvraqlıq; zirəklik; **2.** *məc.* həyasızlıq, heç şeydən çəkinməmə.
bewégt *a* mütəəssir, həyəcanlanmış; **~es Leben** canlı həyat; **~e See** coşqun dəniz.
Bewégung *f* (10) hərəkət (*həmç. məc.*); *məc.* tərəddüd, çaxnaşma, təşviş; hərəkat; **sich (D) ~ machen** gəzmək, gəzinmək; **in ~ bringen** hərəkətə gətirmək, **sich in ~ setzen** yola düşmək, yerindən tərpənmək; **alle Hebel [Himmel und Hölle] in ~ setzen** *dan.* bütün vasitələri işə salmaq.
Bewégungs || freiheit *f oh. pl* hərəkət azadlığı; **~gesetz** *n* hərəkət qanunu; **~krieg** *m hərb.* manevr müharibəsi; **~lehre** *f oh. pl fiz.* kinematika.
bewégungslos *a* hərəkətsiz, tərpənişsiz.
bewéhren *vt* **1.** silahlandırmaq, yaraqlandırmaq, təchiz etmək; **2.** *məc.* gücləndirmək.
Bewéhrung *f* (10) **1.** təchiz etmə, təchiz edilmə; **2.** *tex.* armatur; **3.** *köhn.* bərkitmə, möhkəmləndirmə.
bewéibt *a* evli.
bewéinen *vt* oxşayıb ağlamaq, dalınca göz yaşı tökmək.
Bewéis *m* (1) sübut, dəlil; **einen ~ geben [liefern]** (*von D*) (*nəyisə*) sübut etmək; **einen ~ führen** sübut / dəlil gətirmək.
Bewéis || aufnahme *f hüq.* şahidi dindirmə; məhkəmə istintaqı.
bewéisbar *a* sübut oluna bilən.
bewéisen *vt* sübut etmək; **seinen Mut ~** öz cəsarətini göstərmək; **Aufmerksamkeit ~** diqqətli olmaq, diqqət yetirmək.
Bewéis || führung *f* əsaslandırma; dəlil, sübut; **~grund** *m* əsas, dəlil (*sübut üçün*).
bewéiskräftig *a* dəlilli, sübutedici.
bewérben (sich) 1. (*um A*) çalışmaq, əldə etmək; yarışa girmək, yarışmaq; **2.** elçi

bewähren I vt işdə göstərmək, doğrultmaq; II sich ~ özünü doğrultmaq; yararlı çıxmaq; dözümlü olmaq, **dieser Stoff hat sich bewährt** bu parça dözümlü çıxdı.

Bewérber *m* (6), **~in** *f* (12) **1.** iddiaçı; namizəd; **2.** adaxlı, nişanlı, **3.** yığan, toplayan.
bewérfen *vt* (*mit D*) yaxmaq, tullamaq; **mit Kalk / Stuck ~** malalamaq.
bewérkstelligen *vt* həyata keçirmək, yerinə yetirmək.
bewérten *vt* qiymətləndirmək.
Bewértung *f* (10) qiymətləndirmə, dəyərləndirmə.
Bewétterung *f* (10) *məd.* havasını təmizləmə, havasını dəyişmə.
bewickeln *vt* sarımaq, dolamaq.
bewilligen *vt* icazə (izin) vermək.
Bewilligung *f* (10) icazə, izin.
bewillkommnen *vt* salamlamaq.
Bewillkommnung *f* (10) təbrik, salam; səmimi qəbul.
bewirken *vt* **1.** səbəb olmaq; imkan yaratmaq, yol vermək; **dieses Leiden hat seinen Tod bewirkt** o, bu xəstəlikdən öldü; **2.** çalışıb almaq; xahişlə və minnətlə əldə etmək.
Bewirkung *f* (10) **1.** təsir; **2.** gətirmə, yetirmə, çatdırma.
bewirten *vt* qonaq qəbul etmək; qonaq etmək; qonağa qulluq göstərmək.
bewirtschaften *vt* idarə etmək, dolandırmaq (*təsərrüfatı*).
Bewirtschaftung *f* dolandırma, xidmət etmə; xidmət.
Bewirtung *f* (10) qonaq etmə, qonaqlıq.
bewirtzeln *vt* ələ salmaq, lağa qoymaq.
bewóhnbar *a* yaşayışa yararlı, yaşanıla bilən.
bewóhnen *vt* yaşamaq; sakin olmaq.
Bewóhner *m* (6), **~in** *f* (12) sakin; kirayənişin.
Bewóhnerschaft *f oh. pl* əhali.
bewóhnt *a* yaşanılan.
bewölken I *vt* buludlarla örtmək; **II sich ~** buludlarla örtülmək.
bewölkt *a* **1.** buludlu, tutqun; **2.** *məc.* əhvalı pozulmuş, əvqatı təlx.
bewúndern *vt* baxıb həzz almaq; heyran (məftun) olmaq.
bewúnderns || wert, ~würdig *a* heyrətamiz, valehedici.
Bewúnderung *f oh. pl* heyrət, heyranlıq, valehlik.
bewúnderungs || wert, ~würdig *a* bax: **bewundernswert.**
Bewúnd(e)rer *m* (6), **Bewúnderin** *f* (12) pərəstiş edən, sitayiş edən.
Bewúrf *m* -(e) s, *oh. pl* malalama, suvaqlama; suvaq.
bewúßt I *a* **1.** düşüncəli, şüurlu; **sich** (*D*) **~ sein** (**G**) haqq-hesabını başa düşmək; **ich bin mir keiner Schuld ~** mən özümdə təqsir bilmirəm; **es ist mir wohl ~ 2** mən yaxşı başa düşürəm; **es ist mir nicht mehr ~** yadıma gəlmir, yadıma sala bilmirəm; **3.** məlum, müəyyən, o (*haqqında danışılan*); **der ~e Genosse** o yoldaş; **II** *adv* bilə-bilə.
Bewúßtheit *f oh. pl* **1.** *fəls.* şüur, düşüncə, **2.** şüurluluq.
bewúßtlos I *a* düşüncəsiz, şüursuz, anlaqsız; **II** *adv* huşsuz.
Bewúßtsein *n* -e, *oh. pl* düşüncə; yaddaş; huş; **er hat das ~ verloren** o, huşunu itirmişdir; **bei vollem ~** tam şüurlu; **es kommt mir zum ~, daß ...** mənə aydın olur ki... yavaş-yavaş başa düşürəm ki...
bezáhlen *vt* **1.** ödəmək, pulunu vermək; **sich von j-m für** etw. (*A*) **teuer ~ lassen** nəyisə başqasına baha başa oturtmaq; **auf Heller und Pfennig ~** axırıncı qəpiyinə kimi xərcləmək; **2.** *məc.* zərərini çəkmək; **mit dem Leben ~** həyatını (canını) qurban vermək; **3.** əvəzini vermək; haqqını vermək; **das macht sich bezahlt** öz xərcini ödəyər, **muß dafür die Leiche ~** bunun cəzasını canı ilə çəkər.
Bezáhlung *f* ödəmə; qonorar, zəhmət haqqı.
bezähmen *vt* sakitləşdirmək, yatırtmaq; ram etmək.
bezáubern *vt* məftun etmək, övsunlamaq, tilsimə salmaq.
bezáubernd *a* heyranedici, məftunedici.
bezéichnen *vt* ifadə etmək; göstərmək; *məc.* dolalət etmək.
bezéichnend *a* xarakterik, səciyyəvi.
Bezéichnung *f* ifadə; ad.
bezéigen *vt* göstərmək, izhar etmək; **Béileid ~** başsağlığı vermək.
bezéugen *vt* şəhadət vermək, təsdiq etmək, təsdiqləmək.
bezichtigen *vt* təqsirləndirmək.

beziehen *vt* **1.** köçmək (*bir yerə*); daxil olmaq (*ali məktəbə*), tutmaq (*ev, mövqe*), **2.** üz çəkmək (*mebel, yastıq* və s.); qızarmaq (*yanaq*); bürümək, çülğalamaq, əhatə etmək (*bulud*); **neu ~** yorğan-döşək ağlarını dəyişmək; **3.** *tic.* sifariş etmək (*mal*); toplamaq (*gəlir*); **4.** (*auf A*) aid etmək; **II sich ~ 1.** örtülmək, çülğanmaq; **2.** (*auf A*) istinad etmək; əsaslanmaq (*kiməsə, nəyəsə*), **3.** aid olmaq; **es bezieht sich nicht auf diesen Punkt** bu, bu bəndə aid deyil.
Beziehung *f* (10) **1.** tutma (*mənzil*), köçmə; **2.** əlaqə, münasibət; **die** (*diplomatischen*) **~en abbrechen** (*diplomatik*) münasibətləri kəsmək; **3.** yaxınlıq, dostluq; **~en anknüpfen** əlaqə yaratmaq (qurmaq).
beziehungsweise *adv* şəraitə görə; müvafiq halda; yaxud; daha doğrusu.
Beziehungs || wort *n* (*pl* **~wörter**) *qram.* nisbi söz.
beziffern I *vt* rəqəmlərlə ifadə etmək; **II sich ~** hesablanmaq, sayılmaq.
Bezirk *m* (1) **1.** rayon; **2.** *məc.* sərhəd, həddi, hüdud.
Bezirks || gericht *n* mahal məhkəməsi.
bezúg *prp*: **in ~ auf** (A) bir şey haqqında, bir şey barəsində.
Bezúg *m* (1•) **1.** üz çəkmə, yastıqüzü; **2.** alma, əldə etmə (*gəlir, mal*), *pl* məvacib, əmək haqqı; **er erhält hohe Bezüge** o, yüksək əmək haqqı alır; **3.** *oh. pl* əlaqə; **in ~ auf** (*A*) əlaqəsinə görə; **mit ~ auf** (*A*)... əsaslanaraq; **~ nehmen auf** (*A*) əsaslanmaq, istinad etmək.
bezüglich I *a* dair, nisbi; **II** *prp* (*G*) nisbətən.
Bezúg || nahme *f* (11) istinad etmə, əsaslanma; **mit ~ auf Ihr Schreiben...** məktubunuza əsasən.
bezwécken *vt* məqsədi olmaq; məqsəd güdmək; **was bezweckst du damit?** sən bununla nə məqsəd güdürsən?
bezwéifeln *vt* şübhə altına almaq, şübhə etmək; **es ist nicht zu ~** buna şübhələnmək olmaz.
bezwingbar *a* aradan qaldırıla bilən, öhdəsindən gəlinə bilən.
bezwingen I *vt* üstün gəlmək, öhdəsindən gəlmək; qalib gəlmək; **II sich ~** özünü ələ almaq.
bibbern *vi* əsmək, titrəmək.
Bibel *f* (10) Bibliya.
Biber *m* (6) *zool.* qunduz (*dərisi qiymətli gəmirici heyvan*).
Bibliothék *f* (10) kitabxana.
Bibliothekár *m* kitabxanaçı.
bibliothekárisch *a* kitabxana.
Bick || beere *f* qaragilə, mərcanı.
Bickel *m* (6) *k.t.* toxa, kərki.
bieder *a* namuslu, şərəfli, ürəyiaçıq.
Biederkeit *f* (10) düzgünlük; sadəqəlblilik, açıqürəklilik.
Bieder || mann *m* (*pl* **~männer**) düzgün, təmizqəlbli adam; **ein falscher ~, falsche ~männer** şübhəli adam, şübhəli adamlar.
biegbar *a* elastik, asanlıqla əyilə bilən.
biegen I *vt* əymək; **II** *vi* (s) (*um A*) dönmək, burulmaq; əyilmək, qatlanmaq; **um die Ecke ~** tini dönmək (burulmaq); **III sich ~** əyilmək.
biegsam *a* **1.** elastik, əyilə bilən; **2.** *məc.* üzüyola, sözqanan.
Biegsamkeit *f oh. pl* **1.** elastiklik, əyilə bilmə; **2.** *məc.* tez təsir altına düşmə, üzüyola.
Biegung *f* (10) **1.** bükük, əyri, əyrilik, döngə; **2.** *qram.* hallanma.
Biene *f* (11) bal arısı.
Bienen || garten *m* pətəklik; **~honig** *m* arı balı; **~ korb** *m* arı yuvası; **~schwarm** *m* arı beçəsi; **~stand** *m* arıxana, pətəklik; **~stich** *m* arı sancması; **~stock** *m* bax: **Bienenkorb**; **~zucht** *f* arıçılıq, arıçılıq təsərrüfatı.
Bier *n* ~ (e)s, *oh. pl* pivə.
Bier || ausschank *m* pivə barı; **~brauerei** *f* pivə zavodu; **~glas** *n* pivə parçı; **~halle** *f*, **~haus** *n*, **~kneipe** *f*, **~lokal** *n* **~schenke** *f*, **~stube** *f* pivəxana; **~seidel** *n* bax: **Bierglas.**
Biest *n* (5) fırıldaqçı, oclaf.
Biest || milch *f oh. pl* ağız (*süd*).
bieten I *vt* **1.** təklif etmək; **2.** vermək (*pul*); imkan vermək; **(dem König) Schach ~** 1) *şahm.* şah elan etmək; **2.** *məc.* kimsə meydan oxumaq, zidd getmək; **das lasse ich mir nicht ~** mən buna yol vermərəm, mən buna dözməröm; *j-m* **die Stirn [Trotz] ~** (*kimin.ə*) ağzından vurmaq, rədd etmək; **II sich ~** özünü təqdim etmək;

es bot sich eine günstige Gelegenheit əlverişli füsət düşdü.

bigótt *a* riyakar, ikiüzlü.

Bigotterie *f oh. pl* riyakarlıq, ikiüzlülük.

Bilanz *f* (10) balans; haqq-hesabın vəziyyəti; **die ~ ziehen** balans çıxarmaq; yekun vurmaq.

Bild *n* (5) **1.** şəkil; surət; **sich ein ~ machen** (*über A*) nəyisə özünə aydın etmək; **in ~ern** bədii surətdə, canlı surətdə; **ein ~ von etw. entwerfen** təsəvvür etmək; **sich** (*D*) **ein ~ von einer Sache machen** nəyisə təsəvvürünə gətirmək; ◊ **über** *etw.* **im ~e sein** işdən hali (*xəbərdar*) olmaq; **2.: ~ der Type** *mətb.* tökmə hərf gözü.

bilden *vt* **1.** təşkil etmək, düzəltmək; formaya salmaq; **2.** təhsilləndirmək.

Bilden *n* (7) **1.** formalaşma, əmələgəlmə; **2.** *kim.* çökdürmə, çökmə.

bildend *a* təşkiledici; təhsilverici; **die ~en Künste** təsviri sənət.

Bilder || buch *a* şəkili kitab (*uşaq üçün*); **~rätsel** *n* rebus, tapmaca, bilməcə.

Courage [ku'ra:ʒə] *f oh. pl* qoçaqlıq, igidlik; ~ **haben** cürətli olmaq.
Cousin [kuizɛ̃:] *m* -s, -s əmi (dayı, bibi, xala) oğlu.
Cousine [ku'zi:nə] *f* (11) əmiqızı, dayıqızı.
Cowboy ['kaobɔj] *m* kovboy.
Creme [krɛ:m] *f, pl* -s **1.** krem; **2.** çəkmə (sürtmə) yağı; **3.** qaymaq; **4.** *məc.* nəyinsə ən yaxşısı.

Dd

D, d *n inv alman əlifbasının dördüncü hərfi.*
da I *adv* **1.** orada; burada; **2.** budur; **3.** o zaman; ~ **oben** orada, yuxarıda; **dieses Haus** ~ budur, bu ev; **von** ~ oradan; **hier und** ~ hər yerdə, hər tərəfdə, hər yanda; **wer** ~**?** oradakı kimdir?, gələn kimdir?; **von** ~ **(ab)** o vaxtdan; **sieh** ~**!** bir buna bax!; kimi görürəm!; ~ **hast du!** al gəldi!, tut gəldi!; **nichts** ~**!** bir şey yoxdur!; **II** *cj* **1.** üçün, görə; **er konnte nicht kommen,** ~ **er krank war** o, xəstə olduğu üçün gələ bilmədi; **2.** zaman, vaxt; **eines Tages,** ~ **er zu Hause war...** bir dəfə o, evdə olanda...
da || béi *adv* yanında; ~ **sein** yanında olmaq, iştirak etmək; **es bleibt** ~**!** etirazsız!; **es ist nichts** ~ bunda elə bir pis şey yoxdur; **er war** ~ **, die Aufgaben zu machen** o, elə öz dərslərini hazırlayırdı.
da || bleiben *vi* (s) yerində qalmaq.
Dach *n* (5) dam; ◊ **unter** ~ **und Fach sein** təhlükəsiz yerdə olmaq.
Dách || balken *m* tir, çatı; çatma; **~boden** *m* çardaq; **~decker** *m* (6) taxtapuş ustası; **~fenster** *n* dam pəncərəsi, baca; **~kammer** *f arxit.* mansarda (*çatı altında çəp tavanlı otaq*); **~luke** *f* dam pəncərəsi, baca; **~rinne** *f* navça, novalça, şırratan.
Dachs *m* (1) *zool.* porsuq; **wie ein** ~ **schlafen** bərk yatmaq; ölü kimi yatmaq; **ein frecher** ~ *dan.* sırtıq, utanmaz.
Dáchs || bau *m* (*pl* -baue) porsuq yuvası.
dáchs || beinig *a* əyriayaq, əyriqıç.
Dáchs || hund *m* taksa (*əyriqıç kiçik it cinsi*).
Dách || stuhl *m tikin.* çatı, çatma ferması; **~tráufe** *f* taxtapuş navalçası; **~wand** *f məd.* tavan, dam örtüyü; **~werk** *n oh. pl* dam örtüyü, taxtapuş; **~ziegel** *m* kirəmit.
Dáckel *m* (6) taksa (*it cinsi*).
dádúrch *adv* bununla, bunun vasitəsi ilə; **dadurch, daß...** ona görə, onun üzündən.
dafür *adv* bunun əvəzinə, bunun üçün; **ich bin / stehe** ~ mən bunun tərəfindəyəm; **ich kann nichts** ~ bunda mən təqsirkar deyiləm.
Dafür || halten *n* -s, *oh. pl*: **nach meinem** ~, **meines** ~**s** fikrimcə.
dagégen I *adv* nəyinsə ziddinə, əleyhinə; **ich bin** ~ mən bunun əleyhinəyəm; **II** *cj* əksinə, buna baxmayaraq; **er sprach wenig,** ~ **tat er viel** baxmayaraq ki, az danışdı, ancaq çox iş gördü.
degégen || halten *vt* **1.** tutuşdurmaq, müqayisə etmək; **2.** etiraz etmək (*nəyəsə*).
da || héim *adv* evdə, vətəndə; **in** etw. ~ **sein** hər hansı bir işin mütəxəssisi olmaq.
Dahéim *n* -s, *oh. pl* ailə; məskən, yurd.
dahér I *adv* oradan, ona görə, onun üçün; **II** *cj* buna görə, bu səbəbə.
da || hin *adv* oraya; **bis** ~ oraya qədər; o vaxta qədər; ~ **und dorthin** hər istiqamətə; **sie sind** ~ onlar yoxdur; onlar ölmüşdür.
dahin= *feldə ayrılan ön şəkilçi:* 1) *hərəkətin məqsədini bildirir;* **~arbeiten** bir şeyə can atmaq; **2)** *məhv etmə, ölüm bildirir;* **~welken** *vi* (s) çiçəklərini tökmək; *məc.* solmaq, gəncliyini itirmək.
dahin || ellen *vi* (s) **1.** çapmaq; **2.** sürətlə getmək (*vaxt*); **~gehen** *vi* (s) getmək, çıxıb getmək; *məc.* ölmək; **die Zeit geht dahin** vaxt keçib gedir; **~jagen** *vi* (s) var gücü ilə qaçmaq; çox bərk qaçmaq (*heç yana baxmadan*); **~schwinden** *vi* (s) **1.** azalmaq, tükənmək; qurtarmaq, yox olmaq; **2.** arıqlamaq, solmaq; **~siechen** *vi* (s) arıqlamaq, solmaq, zəifləmək.
da || hinter *adv* arxada, dalında, geridə; **es steckt** etw. ~ burada nəsə bir sirr var.
dahinter= *feldə ayrılan ön şəkilçi* arxasında; dalında; **dahinterstellen** nəyisə nəyinsə arxasına qoymaq.
dahinter || kommen *vi* (s) öyrənmək, öyrənib bilmək; **~machen (sich)** işə başlamaq; işə girişmək.
dahin || treiben *vi* üzmək, axınla (axının) istiqaməti ilə hərəkət etmək.
dámalig *a* ovaxtkı, ozamankı.
dámals *adv* o zaman, o vaxt.
Dam || bock *m* erkək maral; **~hirsch** *m zool.* xallı maral; **~spiel** *n* dama oyunu; **~stein** *m* dama daşı; **~wild** *n* xallı maral.
Dáme *f* (11) **1.** qadın; **2.** *şahm.* vəzir; ~ **spielen** dama oynamaq.

dämelich, dämelig *a* ağıldankəm, başıboş, gicbəsər.

damit I *adv* bununla, beləliklə; **~ hat die Sache ein Ende** bununla iş bitir, bununla iş qurtarır; **II** *cj* ondan ötrü ki, ona görə ki; **gib ihm Geld, ~ er fahren kann** ona pul ver ki, gedə bilsin; ◊ **her ~!** bura verin; **heraus ~** açıq danış!

dämlich *a* gicbəsər, ağıldankəm.

Dämlichkeit *f* (10) sarsaqlıq, giclik.

Damm *m* (1*) **1.** bənd (*göllənmiş yer*); *d.y.* yataq, döşəmə, yol; **2.** döşənmiş yol, küçənin döşənmiş hissəsi; **3.** *məc.* əngəl, maneə, çətinlik; ◊ **auf dem ~ sein** sağlam olmaq, gümrah olmaq; j-n (*A*) **wieder auf den ~ bringen** kimisə sağaltmaq.

dämmen *vt* **1.** bənd çəkmək, qabağını kəsmək (*çayın*); **2.** *məc.* qabağını almaq, saxlamaq (*hissin*); **3.** döşəmək (*yolu, küçəni*).

Dámm || erde *f oh. pl* qaratorpaq.

dämmerhaft, dämmerig *a* **1.** toran; tutqun; (*rəng*); **2.** *məc.* qeyri-müəyyən.

Dämmer || licht *n oh. pl* toran, qaşqaralan vaxt, alaqaranlıq; *məc.* düşkünlük, tənəzzül.

dämmern *vi* **1.** qaranlıqlaşmaq, qaranlıq düşmək; **2.** işıqlanmaq; **der Morgen dämmert** səhər açılır; **II** *vt* qabağını tutmaq; ◊ **es dämmert** *fam.* kimsə sakitləşdirmək.

Dámpf || heizung *f* buxarla isitmə sistemi.

Dámpf || kassel *m tex.* buxar qazanı; **~ kraftanlage** *f tex.* buxarı mexaniki qüvvəyə çevirən qurğu; **~leitung** *f* buxar kəməri; **~maschine** *f* buxar maşını; **~messer** *m* manometr; **~pinásse** *f* buxar kateri; **~roß** *n dan.* parovoz; **~schiff** *n* paroxod; **~schifffahrt** *f* gəmiçilik; **~schlange** *f tex.* spiral boru; **~spritze** *f* buxar-yanğın nasosu; **~winde** *f tex.* buxar bucurğad; **~zufuhr** *f tex.* buxarın verilməsi (*gətirilməsi*).

Dämpfung *f* (10) **1.** alçalma; azalma; sönmə; **2.** pörtmə; buğda bişirmə (*əti*); **3.** *tib.* sakitləşmə, azalma (*ağrı*).

danách *adv* **1.** sonra, bundan sonra; **2.** ona görə; **3.** bu barədə; **ich habe ihn ~ gefragt** mən ondan bu barədə soruşdum; **sich ~ richten** bir şeyə uyğunlaşmaq; **diese Arbeit ist auch ~** bu iş heç nəyə dəymməz; **er sieht ~ aus!** bu onun işidir, bu onun əlindən gələr.

Däne *m* (9) danimarkalı (*xalq*).

da || nében *adv* **1.** yanında, burada; **2.** bununla bərabər, bununla yanaşı.

sağ olun!, artıq dərəcədə təşəkkür edirəm; **ich bin ihm ~ schuldig** mən ona minnətdaram; ona minnətdarlıq borcum var.

dánkbar I *a* razı, minnətdar; **II** *adv* təşəkkürlə, minnətdarlıqla.

Dánkbarkeit *f oh. pl* təşəkkür, razılıq.

dánken *vi* (*j-m für A*) təşəkkür etmək; **ich danke dir (ihm, ihnen)** təşəkkür edirəm; **ich danke ihm das Leben** həyatım üçün ona borcluyam.

dánkens || wert, ~würdig *a* təşəkkürə layiq.

dánk || erfüllt *a* razı.

Dánk || schreiben *n,* **~schrift** *f* **1.** təşəkkür məktubu; **2.** fərman.

dann *adv* onda, o vaxt; sonra; **~ und wann** arabir, hərdən, hərdənbir, bəzən.

dar= *feldə ayrılan ön şəkilçi:* verməni, təklifi bildirir; **dar || bringen** *vt* gətirmək, təqdim etmək; vermək (*bəxşiş*).

d(a)rán *adv* buna; o haqda; bundan, buna görə; bunda; **ich bin ~ beteiligt** mən bunda iştirak edirəm; ◊ **ich bin noch lange nicht ~** mənim növbəm hələ gec çatar; **es liegt zmir viel ~** bu, mənə çox vacibdir; **ich war nahe ~ abzureisen** az qalmışdı gedəm; **ich bin übel ~** mənə çətin/ağır gəlir.

d(a)rán || geh(e)n *vi* (*s*) işə başlamaq; işə

dar || áus *adv* ondan; bundan; buradan; **~ folgt** deyilənlərdən belə çıxır ki...; ◊ **er macht sich nichts ~** onun heç vecinə də deyil.

dárben *vi* ehtiyac içində yaşamaq, yoxsulluq çəkmək.

dárbieten I *vt* gətirmək, təqdim etmək, təklif etmək; **II sich ~** xəyala gəlmək; **eine Gelegenheit bietet sich dar** imkan/fürsət ələ düşdü.

Dár || bietung *f* (10) **1.** təklif etmə; **2.** tamaşa, ifa; proqram; **eigene ~** özfəaliyyət.

dár || bringen *vt* gətirmək, təqdim etmək (*hədiyyə*).

Dár || bringung *f* (10) təqdim etmə, bəxşiş vermə; bəxşiş; bağışlama; təklif etmə, təklif.

Dardanéllen *pl coğr.* Dardanel.

d(a)r || éin *adv* buna; ora; içəriyə, daxilə.

d(a)réin || finden (sich) razılaşmaq, öyrənmək; **~mengen (sich), ~mischen (sich)** qarışmaq, araya girmək; **~reden** *vi* söhbətə qarışmaq; **red' mir nicht d(a)rein!** qarışma!/sənin işin deyil!; **~schauen** *vi:* **er schaut munter drein** o, qıvraqdır/şuxdur; **~schicken (sich)** öyrəşmək; razılaşmaq, tabe olmaq.

darf I *və* III *şəxs tək* **"dürfen"** *felinin präs-i.*

dar || nében *adv* = **danében 1.** yanında; buradaca; **2.** bununla yanaşı.
dar || nieder *adv* = **danieder** aşağı, aşağıya, aşağıda.
da || rób *adv* bu barədə, o haqda.
dár || reichen *vt* vermək, təqdim etmək.
dárren *vi* qurutmaq (*sobada*); qovurmaq, qızartmaq; *tex.* yandırmaq, bişirmək.
Dárr || haus 1. meyvə və s. qurudulan yer, bina; **2.** mərək; **~kammer** *f* meyvə qurudulan yer; **~ofen** *m* quruducu soba; **~sucht** *f oh. pl tib.* tabes (*xəstəlik*).
dár || stellen *vt* təsvir etmək; təqdim etmək; təsəvvür etmək.
Dár || steller *m* (6) rolu ifa edən, ifaçı (*çalan, oxuyan*).
Dár || stellung *f* (10) göstərmə, təsvir etmə; ifadə etmə.
d(a)r || über *adv* **1.** bunun (onun) üstündən (üzərindən); **dort fließt ein Fluß, eine Brücke führt ~** oradan çay axır, üstündən körpü keçir; **2.** bu barədə (haqda); **3.** ondan yüksək, daha yaxşı; **es geht mir nichts ~** bu mənə hər şeydən ötədir; **~ vergeht die Zeit** beləliklə vaxt keçir.
d(a)r || úm *adv* bunun (onun) ətrafında (yərəsində); buna (ona) görə; bunun xatirinə; **es handelt sich ~, daß ...** söhbət ondan gedir ki... **es ist mir sehr ~ zu tun** mənə bu çox lazımdır.
daß *cj* ki, üçün, ötrü, görə; **ohne ~** onsuz da ki.., **~ nur nicht** təki (o) olmasın; **ohne ~ ich es weiß** mənim xəbərim (icazəm) olmadan; **~ uns nur nichts aufhält** təki bizi nəsə ləngitməsin.
das || sélbe *pron dem n N* və *A sg* **1.** həmin özü, həmin o; **ich habe ~ gesagt** mən də elə onu dedim; **2.** *kit. dil.* elə olan-olmazı; **er hat mir ein Buch geliehen und will ~ wieder haben** o mənə kitab verib və onu da geri almaq istəyir.
dá || stehen *vi* (s) dayanmaq (*burada, orada*); ◊ **er steht gut da** o, yaxşı təmin olunmuşdur.
Dáta, Dáten *pl* məlumat, rəqəmlər.
datieren *vt* və *vi* tarix qoymaq; tarixini müəyyən etmək (*hadisənin* və s.).
Dátiv *m* (1) *gram.* yönlük hal.
Dáttel *f* (11) xurma.
Dátum *n* -s, *pl* **Dáta (Dáten)** tarix; **unter demselben ~** həmin tarixdə.
Dáuer *f oh. pl* **1.** davam; vaxt; müddət; **während der ~** ərzində (*müəyyən vaxtda*); **von kurzer ~** qısamüddətli; axırda, nəhayət; **2.** davamlıq, möhkəmlik; **auf die ~** möhkəm.
Dáuer- *mür. isimdə bir hadisə və şeyin uzun müddət davamını bildirir;* **der Dauerbetrieb** arasıkəsilməyən iş, istehsal.
Dáuer || fleisch *n* konservləşdirilmiş ət; **~gewächs** *n* çoxillik bitki.
dáuerhaft *a* möhkəm, davamlı, sarsılmaz.
Dáuer || karte *f* abunə, daimi bilet; **~lauf** *m sp.* uzaq məsafəyə qaçış; **~leistung** *f tex.* uzunmüddətli işdə maşının həqiqi qüvvəsi.
dáuern I *vi* davam etmək; **der Winter dauert bei uns sechs Monate** qış bizdə altı ay davam edir; **II** *vt* yazığı gəlmək; təəssüf bildirmək; **er dauert mich** mənim ona yazığım gəlir; **es dauert mich, daß...** heyifsilənirəm ki...
dáuernd I *a* uzun, daimi; **II** *adv* uzun müddətə, daimi.
Dáumen *m* (7) **1.** baş barmaq (*əldə*); **2.** *tex.* barmaq, yumruq, mil.
Dáumling *m* (1) **1.** cırtdan, barmaq boyda uşaq (*nağıllarda*); **2.** ölçəyin baş barmağı.
Dáune *f* (11) narın porqu (*tük*); *pl* tük; pərqu, tiftik.

Dáunen || decke *f* yorğan (*tükdən*).
Daus I *n* tuz, saqqa, aş (*oyun kartı*).
Daus II *m* şeytan; **ei der ~!** ay məlun!; **was der ~!** bu nə hoqqadır!
da || vón *adv* bundan, bu barədə, bu haqda; **~ ist nicht die Rede** söhbət bu barədə deyil; ◊ **er ist auf und ~** o, yox olub (qaçıb).
davón- *feldə. ayrılan ön şəkilçi:* hərəkətə uzaqlaşma mənası verir.
davón || kommen *vi* (s) qaçıb qurtarmaq, yaxa qurtarmaq; xilas olmaq; **mit dem Leben ~** sağ qalmaq; **~laufen** götürülüb qaçmaq; **~machen (sich)** qaçmaq, əkilmək, daban almaq; **~ tragen** *vt* aparmaq, götürüb getmək; *dan.* oğurlamaq; ◊ **den Sieg ~** qələbə çalmaq; **~ziehen** *vi* (s) getmək (*miniklə*) geri çəkilmək (*ordu*).
dá || vór *adv* bunlardan qabaq; bundan əvvəl; bundan; buna; **ich stehe ~** mən qarşıda dayanıram (*bir şeyin*); **ich habe einen Ekel ~** bundan ürəyim bulanır.
da || wider *adv* bunun əleyhinə/ziddinə.
dawider || reden *vi* etiraz etmək, zidd olmaq.
da || zú *adv* buna, ona, bunun üçün; **was sagst du ~?** buna nə deyirsən? ◊ **er ist der Mann ~** o, buna layiq adamdır.
dazú- *feildə ayrılan ön şəkilçi, tərcümə olunur:* əlavə, artma.
dazú || geben *vt* əlavə etmək, artırmaq; **~gehören** *vi* bir şeyə mənsub olmaq, aid olmaq; **~kommen** *vi* (s) təsadüfi olaraq yaxınlaşmaq; çatmaq; özünü yetirmək; ◊ **wie komme ich dazu?** 1) mən buna necə nail olum?; 2) görəsən, bunun əsil səbəbi nədir?; **ich komme nicht dazu** mən buna vaxt tapa bilmirəm; **~schreiben** əlavə etmək (*yazı*).
dazú || gehörig *a* nəyəsə aid (mənsub) olan.
da || zumal *adv* o zaman, o vaxt.
da || zwischen *adv* bu arada, bu dəmdə.
dazwischen || kommen *vi* (s) qarışmaq; mane olmaq; ortadan çıxmaq; **wenn nichts dazwischenkommt, gehe ich morgen ins Theater** ortadan bir şey çıxasa, sabah teatra gedərəm; **~legen** *vt* qoymaq (*arasına*); **~reden** *vi* (s) himayə etmək; tərəfdar olmaq; *dan.* qarışmaq.
Dazwischen || kunft *f oh. pl* gəlib çıxma; görünmə; qarışma, müdaxilə etmə.
dazwischen || liegend *a* aralıq, aradakı, aralıqdakı, ortadakı.
Debátte *f* (11) mübahisə; bəhs; müzakirə.
debáttieren *vi* müzakirə etmək; (*über A*) mübahisə etmək.
debitieren *vt tic.* **1.** satmaq; **2.: j-n mit** etw. ~ debetə daxil etmək, debetə yazmaq.
Debüt *n*, -s, -s debüt, başlanğıc.
Debütánt *m* (6), **~in** *f* (12) debütant, ilk dəfə çıxış edən adam (*kişi, qadın*).
dechiffrieren [de-ʃif'ri:rən] *vt* şifrini açmaq.
Deck *n* (2) **1.** *dəniz.* göyərtə; **2.** *av.* səth; təyarənin qanadı.
décke *f* (11) **1.** örtük; **2.** yorğan, adyal; **3.** tavan; ◊ **sich nach der ~ strecken** ayağını yorğanına görə uzatmaq.
Déckel *m* (6) qapaq.
décken *vt* örtmək; **den Tisch ~** süfrə açmaq (*salmaq*); ◊ **sich den Rücken ~** *məc., hərb.* arxanı himayə etmək.
Déck || mantel *m* **1.** örtük; **2.** *məc.* bəhanə; daldalanacaq; *etv.* **unter dem ~ der Freundschaft verbergen** nəyisə dostluq adı altında gizlətmək.
Déckung *f* (10) **1.** örtmə; *hərb.* örtülü səngər; **2.** *tic.* təmin etmə, təminat (*veksel*).
defékt *a* nöqsanlı, qüsurlu, zədəli.
Defékt *m* (1) nöqsan, qüsur; z[illegible]
Defensive *f* (11) müdafiə.
Definitión *f* (10) tərif, tərif vermə.
defraudieren *vt* israf etmək; aldatmaq.
Dégen *m* (7) **1.** qılınc; xəncər; **2.** *bədii ədəb.* pəhləvan, qəhrəman.
degenerieren *vi* (s) nəsli pozulmaq, əslini itirmək, cırlaşmaq.
degeneriert *a* degenerativ (*orqanizmin bioloji və ruhi cəhətdən pozulması*), nəsli pozulmuş/cırlaşmış.
degradieren I *vt* vəzifəsini/rütbəsini alçaltmaq; **II** *vi* (s) tənəzzül etmək, geri getmək; xarablaşmaq.
déhnbar *a* uzana bilən, çəkilə bilən, elastik.
Déhnbarkeit *f oh. pl* gərilə bilmə, elastiklik.
déhnen I *vt* çəkmək; genişləndirmək; uzatmaq; **II sich ~** uzanmaq, genişlənmək, ◊ **sich strecken und ~** gərnəşmək.

Déhnung *f* (10) **1.** uzanma, gərilmə; **2.** *dilç.* uzanma (*saitlərin*).
Deich *m* (1) bənd; dəhnə.
Déichsel *f* (11) **1.** dişlə, çillə (*qoşqu alətí*); **2.** kərki.
dein *pron poss* sənin.
déiner || **seits** *adv* sənin tərəfindən.
déines || **gleichen** *a* sənə oxşar.
déinet || **halben, ~wegen, ~willen** *adv* sənə görə, sənin xətrinə.
déinige *pron poss* **(der, die, das Deinige)** səninki, **mein Buch ist interessanter, als das deinige** (*yazıda:* **das Deinige**) mənim kitabım səninkindən maraqlıdır; ◊ **die Deinigen** səninkilər; sənin qohumların.
Dekán *m* (1) dekan.
Dekanát *n* (2) dekanat, dekanlıq.
Deklinatión *f* (10) *qram.* hallanma.
deklinieren *vt qram.* hallandırmaq.
Delegatión *f* (10) deleqasiya, nümayəndə heyəti.
delegieren *vt* nümayəndə göndərmək.
Delegierte *m,* (9*) nümayəndə.
Delikatésse *f* (11) *oh. pl* **1.** nəzakət, ədəb; zəriflik, incəlik; **2.** delikates, məzə.
Delikatéssen || **handlung** *f* qastronom.
Delírium *n* -s, -rien sayaqlama, sərsəmləmə.
dem *der* və *das'ın D sg'i.*
dementieren *vt* təkzib etmək, yalana çıxartmaq, yalan olduğunu sübut etmək.
dém || **entspréchend, démgemäß** *adv* buna müvafiq, buna / ona uyğun.
Demissión *f* (10) istefa.
demissionieren *vi* istefa vermək.
dém || **jenigen derjenige** *və* **dasjenige'***nin D sg'i.*
dem || **nách** *adv* buna uyğun (müvafiq); bunun nəticəsində.
dém || **nächst** *adv* yaxın zamanda, tezliklə.
demobilisieren *vt* tərxis etmək, ordudan buraxmaq.
Demobilisierung *f* (10), **Demobilmachung** *f* (10) tərxis.
demobil || **machen** *vt* bax: **demobilisieren.**
Demokrát *m* (8) demokrat.
Demokratie *f* (11) demokratiya.
demokratisch *a* demokratik.
demolieren *vi* dağıtmaq.
Demolierung *f* (10) xarab etmə, korlama.
Demonstratión *f* (10) **1.** nümayiş; **2.** göstərmə; göstərgi.
Demonstrativ *n* (2), **Demonstrativ** || **pronomen** *n qram.* işarə əvəzliyi.
demonstrieren *vt, vi* nümayiş etdirmək; göstərmək.
demontieren *vt tex.* sökmək (*maşını*).
Demoralisatión *f oh. pl* pozğunluq, düşkünlük, mənəvi pozğunluq.
demoralisieren *vt* pozğunluq salmaq.
demsélben derselbe *və* **dasselbe'***nin D sg'i.*
dém || **ungeáchtet** *adv* buna baxmayaraq, bunun əksinə olaraq.
Démut *f oh. pl* sadəlik, təvazökarlıq; itaət, itaətkarlıq.
démütigen I *vt* sakitləşdirmək; hörmətdən salmaq, alçaltmaq; **II sich** ~ sakit olmaq; hörmətdən düşmək, alçalmaq.
démütigend *a* təhqiredici, alçaldıcı.
Démütigung *f* (10) alçalma, təhqir; **eine ~ erleiden** alçalmaq, hörmətdən düşmək.
dém || **zu** || **fólge** *adv* ardıcıl olaraq, bunun dalınca.
denationalisieren *vt* milliləşdirilmiş mülkləri əvvəlki sahiblərinə qaytarmaq.
denaturalisieren *vt* vətəndaşlıq hüququndan məhrum etmək.
dénen *der, die, das'ın D pl'i* (bax: *der* **II** *və* **III**).
déngeln *vt k.t.* dəryazın/kərəntinin ağzını döymək.
dénjenigen 1. derjenige'nin *A sg'i;* **2. derjenige, diejenige, dasjenige***'nin D pl'i.*
Denk || **arbeit** *f* zehni iş; **~art** *f* düşünmə tərzi, zehniyyət.
dénkbar I *a* düşünülən, fikrə gələn, ağlasığan; **II** *adv* ola bilsin ki, güman olunur ki; **in der ~ kürzesten Frist** mümkün qədər az vaxtda.
dénken *vt, vi* **1.** (*an D*) fikirləşmək (*kim, nə haqdasa*); düşünmək; təsəvvür etmək; **man sollte (doch) wohl ~** ehtimal etmək olardı; **das gibt sehr zu ~** bu düşünmək tələb edir; **es ist gar nicht d(a)ran zu ~** bu haqda heç fikirləşməyə dəyməz; **das habe ich mir gedacht** mən elə-belə təsəvvür edirdim; **2.: ~ zu (+inf)** niyyət etmək;

3.: sich (*D*) ~ təsəvvür etmək təsəvvürə gətirmək; **es läßt sich ~, daß...** təsəvvür etmək olar ki...; **denk mal an!** təsəvvür et!; **gut von** *j-m* ~ bir kəs haqqında yaxşı fikirdə olmaq.
Dénken *n* -s, *oh. pl* təfəkkür; düşünmə; fikirləşmə.
dénkend *a* düşünən, fikirləşən.
Dénker *m* (6) mütəfəkkir.
dénk || **faul** *a* tənbəl, fikirləşmək istəməyən.
Dénk || **freiheit** *f* fikir azadlığı.
Dénk || **mal** *n* (*pl* **-male** və **-mäler**) abidə, heykəl.
Dénk || **schrift** *f* məlumat vərəqəsi; **~spruch** *m* aforizm, kəlam, hikmətli söz; **~weise** *f* düşünmə tərzi, zehniyyət.
dénk || **würdig** *a* unudulmaz, yaddan çıxarılmaz.
Dénk || **zettel** *m* yaddaş dəftərçəsi; ◊ **ich werde dir einen ~ geben!** *dan.* Sənə göstərərəm!, Mən səni öyrədərəm!
dénn *cj* **1.** çünki, belə ki, ona görə ki, zira; **ich kann nicht kommen, ~ ich bin krank** gələ bilmirəm, çünki xəstəyəm; **2.** *suallarda:* məgər, yoxsa, ki; **was ~?** bəs nə?; **ist er ~ krank?** məgər o xəstədir?
denominieren *vt* **1.** təyin etmək, müəyyən etmək; **2.** elan etmək.
dénnoch *cj* yenə də, hər halda.
densélben 1. derserbe'nin A sg'i; **2. der –, die –, dasselbe'***nin D pl'i.*
denunzieren *vt* kiməsə məlumat vermək/çatdırmaq; xəbərçilik etmək; şeytanlamaq.
deponieren *vt* **1.** *tic.* saxlanca qoymaq (*pulu*); **2.** *hüq.* yazılı surətdə məhkəməyə ifadə vermək.
Deportatión *f* (10) sürgün, sürgün etmə.
deportieren *vt* sürgün etmək.
Depot [de'po:] *n* -s, -s **1.** depo; anbar; **2.** əmanət.
Depressión *f* (10) **1.** məyusluq, düşkünlük, əzginlik; depressiya; **2.** *iqt.* düşmə, enmə, tənəzzül.
deprimieren *vt* əsarət altına almaq, istismar etmək.
Deputatión *f* (10) deputatlar heyəti.
Deputierte *m, f* (9*) deputat.
Deputierten || **kammer** *f* nümayəndələr palatası.
der *m* (*f* **die**, *n* **das**, *pl* **die**) **I** *müəyyən artikl;* **der 1 März** Bir mart; **II** *pron rel* hansı, kim, nə; **mein Bruder, der hier wohnt** mənim burada yaşayan qardaşım; **III** *pron dem* bu, o.
dér || **artig I** *a* belə, buna uyğun, buna oxşar, buna bənzər; **II** *adv* o qədər, o dərəcədə.
derb *a* möhkəm; kobud, qaba.
Dérbheit *f* (10) möhkəmlik; kobudluq, qabalıq, nəzakətsizlik.
der || **éinst** *adv* vaxtilə, bir vaxt, nə vaxtsa.
déren I *pron rel* **1.** *die'nin G sg'i;* **die Schülerin, deren Arbeit gut ist** işi yaxşı olan məktəbli qız; **2.** *der, die, das'ın G pl'i;* **II** *pron dem* **1.** *die'nin G sg'i;* **Sehen Sie diese Schülerin? Das ist deren Arbeit!** Bu şagirdi görürsüz? Bu onun işidir!
dérent || **halben, dérent** || **wegen, dérent** || **willen** *adv* onun (*onların*) xətrinə; hansına (hansılara) görə ki.
dérer *pron dem* **der, die, -das'**ın G *pl'i.*
der || **jenige** *m* (*diejenige f. dasjenige n, diejenigen pl*) *pron dem* o, obiri; **da ist derjenige, von dem ich gesprochen habe** haqqında danışdığım budur bu adamdır.
dér || **léi** *a inv* belə, bu cür, buna oxşar.
dér || **malen** *adv* indi, hazırda.
dér || **málig** *a* indiki, hazırkı.
dér || **máßen** *adv* belə, bu cür, beləliklə.
der || **sélbe** *m* (**diesébe** *f,* **dassébe** *n,* **dieselben** *pl*) *pron dem* o, həmin, həmin o; **das ist derselbe Mensch** bu həmin adamdır.
der || **sélbige** *m* (**dieisélbige** *f* **dassélbige** *n,* **dieselbgen** *pl*) bax: **derselbe.**
dér || **wéil, der** || **wéile(n)** *adv* bu vaxt, bu arada, bu dəmdə; hələlik.
des *der* və *das'ın G Sg'i.*
desarmien *vt* silahsızlaşdırmaq, tərki-silah etdirmək.
Deserteur [de.zɛr'tØ:r] *m* (l) dezertir, fərari.
dés || **gleichen I** *a* ona uyğun, ona oxşar; **II** *adv* eyni surətdə, eyni cür.
dés || **halb** *adv* ona görə, ona əsasən.
Desinfektión *f* (10) dezinfeksiya.
desinfizieren *vt* dezinfeksiya etmək.

dés || jenigen, dérjenige və **dásjenige'***nin G sg'i.*
Desorganisatión *f* (10) pozğunluq salma.
desorganisieren *vt* pozğunluq salmaq; işi pozmaq.
desorientieren *vt* yanıltmaq, aldatmaq, çaşdırmaq.
despektierlich *a* etinasız, laqeyd; nifrətli, həqarətli.
Despót *m* (8) zalım, zülmkar.
Despotismus *m* ~, *oh. pl* istibdad.
déssen I *pron rel der, das'ın* G *Sg-ı*; **der Mann, dessen Adresse unbekannt ist** ünvanı məlum olmayan adam; **II** *pron dem* : **Sehen Sie diesen Mann? Das ist dessen Buch** Bu kişini görürsünüz? Bu onun kitabıdır.
désto *adv* (*müqayisə dərəcəsi ilə işlənir*) daha; bir o qədər; **~ besser für ihn** onun üçün daha yaxşı; **je mehr, ~ besser** nə qədər çox olarsa, o qədər yaxşıdır.
dés || wégen *adv* bunun (ona) görə, bu səbəbə görə.
detaillieren *vt* **1.** müfəssəl şəkildə izah etmək; detallaşdırmaq; **2.** xırda alver etmək.
Detektiv *m* (1) (*pl həmç.* -s) xəfiyyə.
déuteln *vt, vi* yanlış izah etmək; **an einem Wort ~** sözü yanlış izah etmək.
déuten I *vt* izah etmək, şərh etmək; **II** *vi* işarə vermək, eyham vurmaq.
déutlich *a* aydın, dürüst, dəqiq.
Déutlichkeit *f oh. pl* aydınlıq, açıqlıq.
deutsch I *a* alman; **II** *adv* almanca; **auf ~** almanca; **ich spreche ~** mən almanca danışıram; **der Brief ist ~ geschrieben** məktub alman dilində yazılıb; ◊ **das heißt auf gut ~** yəni bu o deməkdir; *mit j-m ~* **reden / sprechen** kimləsə açıq (düzüdüzünə) danışmaq.
Deutsch *n* -(s), *oh. pl* alman dili; **das ist (ein) gutes Deutsch** bu, səlis alman dilidir.
Déutsche *m, f* (9*) alman.
Déutschland *n* Almaniya.
Déutung *f* (10) izahat, başa salma, şərh; eyham.
Dezémber *m oh. pl* dekabr.
Dezi= *mür. isimdə* onda bir, onuncu hissə; **Dezimèter** *n* desimetr (*metrin onda biri*).
dezimál *a* onluq.
Dezimál || bruch *m* onluq kəsr; **~waage** *f* qapan (*tərəzi*).
dezimieren *vt* **1.** *riyaz.* azaltmaq (*on dəfə*); **2.** *məc.* son dərəcə kiçiltmək (*sayı*).
dgl = dergleichen və ilaxır (və i.a.).
d. h. = das heißt yəni.
d. i. = das ist yəni.
Diagnóse *f* (11) *tib.* diaqnoz.
Dialékt *m* (1) *dilç.* dialekt, ləhcə.
Dialéktik *f oh. pl fəls.* dialektika.
Dialóg *m* (1) dialoq.
dialéktisch *a* dialektik.
Diamánt I *m* (8) almaz (*qiymətli daş*); **geschliffener ~** brilyant.
Diät *f oh. pl* pəhriz; **~ halten** pəhriz saxlamaq.
Diäten *pl* ezamiyyət pulu.
dicht I *a* sıx; qalın (*saç*); möhkəm **~es Gebüsch** sıx kolluq; **~es Zeug** möhkəm mal; **ein ~er Kamm** sıxdişli daraq; **II** *adv* kip, çox sıx, bərk; lap yaxın, yanaşı; **~ am Ufer** lap sahildə; **~ machen** sıxlaşdırmaq, möhkəmləndirmək.
Dichte *f oh. pl* sıxlıq, kiplik; qalınlıq.
dichten I *vt tex.* sıxlaşdırmaq, möhkəmləndirmək.
dichten II *vt, vi* yazmaq, qoşmaq (*şeir*), yaratmaq (*əsər*).
Dichter *m* (6), **~in** *f* (12) şair, şairə.
dichterisch *a* şairanə.
Dichtheit *f oh. pl*, **Dichtigkeit** *f oh. pl* sıxlıq, qalınlıq, möhkəmlik.
Dicht || kunst *f* poeziya, şeir, nəzm.
Dichtung I *f* (10) **1.** *tex.* sıxlaşdırma; kiplətdirmə; **2.** *dəniz.* tıxama, kəpitkələmə.
Dichtung II *f* (10) **1.** poeziya; **2.** poema; **3.** uydurma, əfsanə.
dick *a* **1.** qalın; kök, tosqun; **2 sm ~** 2 sm qalınlıqda; **2.** sıx, qalın; qəliz, qatı; ◊ **sich ~ tun** lovğalanmaq, təkəbbürlənmək; **sie sind ~e Freunde** onlar möhkəm dostdur; **durch ~ und dünn gehen** ən qısa yolla getmək (*heç bir çətinliyə baxmayaraq*).
dick || bäuchig *a* yekəqarın.
Dicke *f oh. pl* **1.** qalınlıq; yoğunluq, köklük; **2.** *fiz.* qatılıq, qəlizlik; **3.** *m, f* (9*) kök kişi (*qadın*); şişman adam.
dick || fellig, dick || häutig *a* qalındərili, qalınqabıq; *həmç. məc.*

Dickicht *n* (2) qalın meşəlik, çəngəllik.
Dick || kopf *m dan.* tərs (*adam*).
Dick || wanst *m* yoğun, yekəqarın kişi.
die I *art-def f* **1.** *N* və A *sg*; **2.** *N* və *A pl* bütün cinslər üçün; **II** *pron rel*: **die Aufgabe, die ich gelöst habe** həll etdiyim çalışma; **III** *prop dem*: **sind die aber dumm!** onlar necə də gicdir!
Dieb *m* (1) oğru.
diebisch I *a* oğruya məxsus; əliəyri; **II** *adv dan.* həddindən çox; **sich ~ freuen** çox sevinmək, artıq dərəcədə sevinmək.
Diebs= *mür. isimdə* oğruya məxsus; **Diebs || sprache** *f* oğru dili.
Dieb || stahl *m* (1*) oğurluq.
Didáktik *f oh. pl* didaktika.
Diele *f* (11) **1.** döşəmə; **2.** dəhliz; **3.** rəqs salonu.
dienen 1. (*als N... kimi,.. sifəti ilə*) qulluq etmək; **2.:** (*zu D*) xidmət etmək, yaramaq.
Diener *m* (6) xidmətçi, qulluqçu; ◊ **einen ~ machen** nəzakətlə baş əymək.
dienerhaft *a* kölə, nökər.
Dienerhaftigkeit *f oh. pl* lakeylik, nökərçilik.
dienlich *a* xeyirli, yararlı, faydalı, **~ sein** (*zu D*) **1.** yaramaq; **2.** işə yaramaq.
Dienst *m* (1) **1.** qulluq, iş, vəzifə; **in den ~ treten** işə girmək; **2.** xidmət; **aktiver ~** həqiqi xidmət (*orduda*); **außer ~** istefada; ◊ **~ haben / tun** növbətçi olmaq; **vom ~** növbətçi; **ich stehe zu ihren ~en** qulluğunuzda hazıram; **dieses Buch leistete mir gute ~e** bu kitab mənə çox yaradı.
Dienst || abteil *m d.y.* bələdçi kupesi.
Diens || tag *m* çərşənbə axşamı, tək (xas) (*gün*).
diens || tags *adv* xas günlər, tək günlər.
Dienst || alter *n* **1.** staj; **2.** *hərb.* əsgərlik yaşına çatmış; **~antritt** *m* işə (qulluğa) girmə; **~anweisung** *f* xidməti təlimat.
dienstbar *a* **1.** itaətli; ... hakimiyyəti altında olan, ... itaətində olan; **~ machen** özünə tabe etmək; **2.** xidmət göstərən, qulluq göstərən.
Dienstbarkeit *f oh. pl* **1.** tabelik, tabeçilik, asılılıq; **2.** iltifat, qulluq göstərmə, yararlılıq.
Dienst || bote *m köhn.* xadim; nökər, xidmətçi; **~eid** *m* and (*qulluğa girəndə*); **~eifer** *m* iş həvəsi.
dienst || eifrig *a* işə can yandıran, çalışqan; **~fertig** *a* yararlıq göstərən, qulluq göstərən; işə yarayan; **~habend** *a* növbətçi.
Dienst || kleidung *f* forma, uniform (*rəsmi paltar*); **~leistung** *f* qulluq, xidmət; yararlıq; **~leute** *pl* ev qulluqçuları, xidmətçilər.
dienstlich *a* **1.** xidməti; **2.** rəsmi.
Dienst || liste *f* xidmət dəftərçəsi (*bir şəxsin əsil-nəcabətini, təhsilini və hansı hərbi vəzifələrdə olduğunu göstərən sənəd*); **~mädchen** *n* ev qulluqçusu, qaravaş; *məc.* köməkçi; **~ordnung** *f* xidmət haqqında nizamnamə; **~pflicht** *f* hərbi borc, hərbi vəzifə.
dienst || pflichtig *a* hərbi vəzifəli; **~tauglich** *a* xidmətə yararlı, işə yararlı; **~tuend** *a* növbətçi.
Dienst || vergehen *n* işdə xata etmə; **~vertrag** *m* əmək müqaviləsi.
dienst || willig *a* qulluq göstərən, yaramağa çalışan.
dies = dieses bu.
dies || bezüglich I *a* buna aid olan; **II** *adv* bu barədə, bu sahədə.
diese *pron dem f* **1.** *N* və *A sg*; bu; **2. dieser; diese, dieses'***in N* və *A pl'i*.
diesélbe *pron dem* həmin, həmin o.
Diesel || lokomotive *f* teplovoz; **~ motor** *m tex.* dizel motoru.
dieser *m* (**diese** *f*, **dies(es)** *n*, **diese** *pl*) *pron dem* bu; **am 5 dieses Monats** bu ayın 5-də.
dies || falls *adv* belə halda, bu halda.
dies || jährig *a* buillik.
dies || mal *adv* bu dəfə.
dies || malig *a* indiki, hazırkı.
dies || seitig *a* bu tərəfki, buüzkü.
dies || seits *adv* və *prp* (*G*) bu tərəfdə.
Dietrich *m* (1) kilidaçan (*qıfıl açmaq üçün açar əvəzində işlədilən qarmağa oxşar alət*).
Differénz *f* (10) **1.** müxtəliflik, çeşidlilik; fərq, təfavüt; **2.** *məc.* fikir ayrılığı, ixtilaf.
Differenzierung *f* (10) ayrılma, fərqləndirmə; fərqlənmə.
diffórm *a* eybəcər, kifir, çirkin.
Difformität *f* (10) eybəcərlik, çirkinlik.

Diktát *n* (2) **1.** diktant, imla; **2.** əmr, hökm.
Diktatúr *f* (10) diktatura.
diktieren *vt* **1.** imla yazdırmaq, diktə etmək; **2.** göstəriş vermək, əmr etmək.
Dill *m* (1) *bot.* şüyüd.
Dille *f* (11) *tex.* vtulka, oymaq.
Dimensión *f* (10) *fiz.* ölçü, əndazə.
Diner [di·´ne:] *n* -s, -s ziyafət (*nahar*).
Ding *n* (2) **1.** şey, iş; **die ~e liegen so** iş belədir, vəziyyət belədir; **2.** (*pl* **~er**) *dan.* bala, körpə bala; **das dumme ~** axmaq, səfeh (*qadın*); **das arme ~** yazıqcığaz, zavallı; ◊ **vor allen ~en** hər şeydən əvvəl; **guter ~e sein** yaxşı əhvali-ruhiyyədə olmaq; **das geht nicht mit rechten ~en zu** *dan.* işlər nəsə yaxşı deyil); **~ an sich** *fəls.* şey özündə.
dingen I *vt* işə götürmək; **II** *vi* (*um A*) qiymət danışmaq.
ding || fest *a: j-n ~ machen* tutmaq, həbs etmək.
Dings *n inv:* **wie heißt das ~?** bunun adı nədir?
Ding || wort *n* (*pl* **~wörter**) *qram.* isim.
dinieren *vi* nahar eləmək.
Diphtherie *f oh. pl,* **Diphtheritis** *f oh. pl tibb.* difteriya (*yoluxucu boğaz xəstəliyi*).
Diphthóng *m* (1, 8) *dilç.* diftonq.
Diplóm *n* (2) diplom.
diplomátisch *a* **1.** diplomatik; **das ~e Kops** diplomatik korpus; **2.** mahir siyasətçi.
dir *pron pers du'*nun *D'i* (*məktubda Dir*) sənə.
direkt I *a* bilavasitə, vasitəsiz; **~er Wagen** birbaşa olan vaqon; **II** *adv* 1) bilavasitə, vasitəsiz olaraq; 2) *tic.* ilk əldən (mənbədən).
Direktión *f* (10) direksiya, müdiriyyət.
Direktíve *f* (11) direktiv, əmr, göstəriş.
Dirigént *m* (8) dirijor.
dirigieren *vt mus.* [illegible]
diskutieren *vt, vi* (*über A*) müzakirə etmək.
Disposition *f* (10) yerləşmə, yerləşdirmə; həvəs, meyil; ◊ **~en treffen** sərəncam vermək.
disputieren *vi* (*über A*) mübahisə (*müzakirə*) etmək; **über eine Frage ~** məsələ ətrafında mübahisə (*müzakirə*) aparmaq.
Distel *f* (11) *bot.* qanqal.
Distrikt *m* (1) rayon, sahə, dairə (*ərazi bölgüsü, vahidi*).
Disziplin *f* (10) **1.** intizam, nizam; **2.** fənn.
ditto (dito) həmin o.
divérs *a* cürbəcür, müxtəlif, başqa-başqa.
dividieren [-vi'-] *vt riyaz.* bölmək, ayırmaq; **eine Zahl durch drei ~** rəqəmi üçə bölmək.
División *f* (10) **1.** *riyaz.* bölmə, ayırma; **2.** *hərb.* divizion; diviziya.
d. J. = dieses Jahres bu ilin.
d. M. = dieses Monats bu ayın.
doch *cj* və *adv* yenə də, hər halda; buna baxmayaraq, lakin, ancaq; isə, ki; axı; **sprechen Sie ~!** danışın də! ◊ **wirst du nicht da sein? ~!** sən orada olmayacaqsan? bəs nece!; **ja ~!** əlbəttə, şübhəsiz!
Docht *m* (1) fitil, piltə.
Dock *n* (2) (*pl həmç.* **-s**) dok (*gəmi təmir olunan yer*).
Dógge *f* (11) doq (*it cinsi*).
Dógma *n* -s, **-men** doqma, ehkam.
Dóhle *f* (1) *zool.* dolaşa, zağca (*quş*).
Dóhne *f* (11) tələ.
Dóktor *m* -s, **-tóren 1.** doktor (*yüksək elmi dərəcə*); **2.** *dan.* həkim; ◊ **seinen ~ machen** doktor (elmi) adı almaq.
Dokumént *n* (1) sənəd.
Dokumentár || film *m* sənədli film.
dokumentárisch *a* sənədlərə əsaslanan; həqiqi, sənədli.
Dolch *m* (1) xəncər.

Dóm || pfáff(e) *m zool.* qar quşu.
Don *m coğr.* Don (*çay*).
Dónau *f coğr.* Dunay (*çay*).
Dónau || länder *pl* Dunay ölkələri.
Dónez || becken *n* Donets hövzəsi.
Dónner *m* ~s, *oh. pl* göy gurultusu, gurultu; ◊ **unter ~ und Blitz** bərk tufanda; **~ und Blitz schleudern** göydən od eləmək.
dónnern *vi* və *vimp* guruldamaq; **es donnert** göy guruldayır.
Dónners || tag *m* cümə axşamı.
dónners || tags *adv* cümə axşamları.
Dónner || wetter *n* **1.** tufan; **2.** *məc.* qulaqburması; ◊ **~!** Lənət şeytana!
dóppel- *mür. sifətdə:* iki-, qoşa-; **~ g(e)leistig** ikixətli, qoşaxətli; **dóppel || geschlechtig, ~geschlechtlich** *a biol.* ikicinsli; **dóppel || läufig** *a* qoşalüləli. **dóppel || sinnig** *a* ikimənalı; **dóppel || züngig** *a* ikiüzlü, riyakar.
Dóppel- *mür. isimlərdə:* ikiqat, ikili; **~decker** *m* biplan (*üst-üstə qoşaqanadlı təyyarə*); **~fenster** *n* ikiqatlı pəncərə; **~gänger** *m* bənzər, oxşar; **~glas** *n* binokl, durbin; **~laut** *m* diftonq; **~leitung** *f tex.* ikidamarlı məftil; **~name** *m* ikifamilyalı; **~punkt** *m* iki (qoşa) nöqtə (:); **~sinn** *m oh. pl* **1.** ikimənalı fikir; **2.** ikimənalılıq; **~tür** *f* ikitaylı (ikilaylı) qapı.
dóppeln *vt* ikiqat artırmaq; ikiləmək.
dóppelt I *a* ikiqat; **II** *adv* iki dəfə çox, iki qat çox; **~ so viel** iki dəfə çox; **~ so groß** iki dəfə böyük; **um das Doppelte erhöhen** ikiyə yüksəltmək; ◊ **~ hält besser** *ata. söz.* Ehtiyat igidin yaraşığıdır.
Dorf *n* (5) kənd.
Dorf- *mür. isimdə:* kənd, kəndli; **~bewohner** *m* kənd sakini, kənd əhli; **~gemeinde** *f,* **~gemeinschaft** *f* kəndli icması; **~jugend** *f* kəndli gənclər.**~rat** *m* kənd soveti;
dórren *vi* (s) qurumaq, solmaq.
dörren *vt* qurutmaq; qaxac etmək.
Dörr || gemüse *n* qurudulmuş tərəvəz; **~obst** *n* quru meyvə.
Dorsch *m* (1) *zool.* treska, navaha balığı (*şimal dənizlərində yetişən balıq*).
dort *adv* orada; **hier und ~** hər yerdə, hər yanda, hər tərəfdə; **von ~** oradan.
dort || hér *adv* oradan; **~hin** *adv* oraya.
dórtig *a dan.* oradakı, oralı, o yerli.
Dóse *f* (11) **1.** qutu; **2.** *tib.* doza.
dösen *vi* mürgüləmək; ◊ **vor sich hin ~** *dan.* mürgüləmək.
Dósis *f* **-, -sen** doza, miqdar.
Dótter *m* (6) yumurta sarısı.
Dr = Dóktor doktor (**1.** *yüksək elmi dərəcə;* **2.** *həkim*).
Dráche *m* (9), **Drachen** *m* (7) **1.** əjdaha; kağızdan ilan; **2.** *dan.* bədqılıq, qılıqsız, rəftarsız (*adam*).
Draht *m* (1*) **1.** məftil, tel, sim; ◊ **per ~** telefonla; teleqrafla; **2.** mumlu sap, çəkmə ipi; **3.** *dan.* pul.
Draht= *mür.* isimdə məftilə məxsus; **~auskunft** *f* teleqrafla məlumat; **~bericht** *m* teleqrafla verilən xəbər; **~geflecht** *n* **1.** məftil tor; **2.** teleqraf; **~netz** *n* dəmir tor; **~seil** *n* məftil buraz, tros; **~seil || báhn** *f* məftil burazlı dəmiryolu; funikulyor; **~verhau** *m* **1.** məftil çəpər, məftil hörgü; **2.** *dan.* quru meyvədən bişirilmiş şorba.
dráhten *vt* tel vurmaq, teleqrafla xəbər vermək.
dráhtlos I *a* simsiz, telsiz; **II** *adv* radio ilə.
drall *a* **1.** tarım, gərgin; sərt, şax, dar; **2.** *məc.* sağlam, təravətli, saf, möhkəm.
Dráma *n* -s, **-men** dram.
Dramátiker *m* (6), **Dramatúrg** *m* (8) dramaturq.
dran *adv* **-daran** buna, bu barədə, buna görə.

özünü yığmaq; **sich durch die Menge ~** soxulub keçmək; **die Zeit drängt** vaxt gözləmir.
Drángsal *f* (3), *n* (2) ehtiyac, yoxsulluq.
drástisch *a* sərrast, düz, **ein ~es Besispiel** parlaq, aydın misal.
drauf *adv* **-darauf** buna; bunun dalınca; bundan sonra.
Dráuf || gänger *m dan.* dəlibaş; dəliqanlı.
drauf || lósgehen *vi* (s) maneələrə baxmayaraq getmək; *məc.* uçuruma getmək.
draus *adv* **-daràus** bundan; ondan; buradan.
dráußen *adv* bayırda, həyətdə; küçədə; şəhər kənarında; **von ~** bayırdan, eşikdən, bayır tərəfdən; üzdən.
Dréchsel || bank *f tex.* xarrat dəzgahı.
dréchseln *vt* yonmaq (*xarrat dəzgahında*).
Dréchsler *m* (6) xarrat.
Dreck *m* ~ (e)s, *oh. pl* **1.** çirk, natəmizlik; **Dreifélder || system** *n*, **~wirtschaft** *f k.t.* üçtarlalı əkin.
Dréi || fuß *m* üçayaq, sacayağı; **~gespann** *n* üçatlı fayton.
drei || húndert *num* üç yüz.
dréi || jährig *a* üçillik, üçyaşar, üç yaşında.
dréi || kantig *a riyaz.* üçüzlü; üçkünc.
Drei || käse || hoch *m* (1) *dan.* koppuş, pompul.
dréi || mal *adv* üç dəfə, üç kərə, üç yol.
Drei || master *m* **1.** üçdorlu gəmi; **2.** *köhn.* üçkünc şlyapa.
dréi || monatlich *a* üçaylıq.
drein *adv* = **daréin** bunda; ora; daxilinə.
Dréi || rad *n* üçtəkərli velosiped.
dréi || räd(e)rig *a* üçtəkərli, üççarxlı.
dréi || seitig *a* üçtərəfli; üçyanlı; **~silbig** *a* üçhecalı; **~sitzig** *a* üçadamlıq; **~spaltig** *a* üçsütunlu.
dréißig *num* otuz; **die ~er Jahre** [illegible]

dressieren *vt* təlim etmək, öyrətmək (*heyvanı*).
Dressúr *f* (10) təlim; öyrətmə, təlimetmə (*heyvanı*).
Drill I *m* (1) tik (*döşəküzü üçün parça*).
Drill II *m* -(e)s, *oh. pl hərb.* sərt, qaba hərbi təlim.
Drill || bohrer *m tex.* burğu, əl burğusu.
drillen *vt* **1.** deşmək (*burğu ilə*); **2.** təlim vermək.
Drillinge *pl* üçəm, üç əkiz uşaq.
Drill || maschine *f* cərgəli toxumsəpən maşın.
drin *adv* **-darin** bunda, orada.
dringen *vi* **1.** (s) keçmək, soxulmaq; **der Regen ist durch meine Kleider gedrungen** yağış paltarımdan içəri keçib; **2.** (h) (*auf A*) təkid etmək; tələb etmək; **er drang auf Bezahlung** o, pulu ödəməyi tələb etdi; **er ist mit Fragen in sie gedrungen** o, sual-
Dróssel II *f* (11) *tex., elek.* drossel.
drósseln *vt* **1.** boğmaq, söndürmək; **2.** *tex.* drosselləşdirmək, drossel etmək; dayandırmaq, söndürmək (*motoru*); **3.** *tic.* **die Preise ~** qəsdən/bilə-bilə qiyməti aşağı salmaq.
drüben *adv* orada, o tərəfdə.
drüber *adv* = **darüber** bunun üzərində, üstündən, üzərindən.
Druck *m* (1•) **1.** sıxma, əzmə; **2.** əl vermə; **3.** *məc.* zülm, təzyiq; **einen ~ ausüben** təzyiq etmək; **4.** mətbuat; nəşriyyat; parça üstünə gülbasma; **in ~ geben** çapa vermək.
Druck || boden *m* çap vərəqi.
Drücke || berger *m* (6) **1.** tənbəl, avara; **2.** işdən və hərbi qulluqdan boyun qaçıran şəxs.
drücken *vt* **1.** *məth.* çap etmək; **2.** naxış bas-

durch || fróren *a* donmuş, üşümüş.
dúrch || führbar *a* yerinə yetirilə bilən, həyata keçirilə bilən, ifa oluna bilən.
dúrch || führen *vt* **1.** keçirmək (*iclas* və s.); **2.** ifa etmək; **eine Rolle ~** *tea.* rolu aparmaq; **3.** aparmaq, daşımaq.
Dúrch || gang *m* keçid.
dúrch || geh(e)n 1. *vi* keçmək, getmək (*axıradək*); **2.** *vi* (s) qaçmaq; bərk qaçmaq (*at*).
dúrch || gehend *a* iki tərəfə çıxan; birbaşa gedən.
dúrch || gleiten *vi* (s) sürüşüb keçmək, sürüşüb ötmək.
dúrch || glühen *vt tex.* közərtmək, qızartmaq (*dəmiri*).
dúrch || greifen *vi* qəti hərəkət etmək.
dúrch || greifend *a* qəti, var qüvvə ilə; **~e Maßnahmen** qəti ölçü; **eine ~e Reform** əsaslı, köklü islahat.
dúrch || halten *vi* davam gətirmək, dayana bilmək.
Dúrch || hau *m* cığır (*meşədə yol*).
dúrch || hauen I *vt* 1. kəsmək, kəsib yarmaq, açmaq; **2.** qamçılamaq, qırmanclamaq; **II sich ~** keçmək, soxulub keçmək, keçilmək, **sich durch die Reihen der Feinde ~** düşmən xəttini yarıb keçmək.
dúrch || helfen *vi* kömək etmək, çətinlikdən çıxarmaq.
dúrch || kämpfen (sich) keçmək, yarıb keçmək (*döyüşlə*).
dúrch || kommen *vi* (s) keçmək, ötmək (*miniklə*); *məc.* keçinmək, birtəhər dolanmaq.
dúrch || kréuzen *vi* **1.** keçmək (*yolu*); kəsmək (*yolunu*), **2.: Pläne ~** *məc.* planı pozmaq.
dúrch || kriechen *vi* (s) sürünə-sürünə keçmək; imələmək.
Dúrch || laß *m* (1*) **1.** buraxılış, icazə vərəqəsi; **2.** dar keçid; **3.** xəlbir, şadara; **4.** *tex.* süzgəc.
dúrch || lassen *vt* buraxmaq, icazə vermək (*keçməyə*).
dúrch || lässig *a* buraxan, su keçən; **das Dach ist ~** dam damır.
Dúrch || lässigkeit *f oh. pl tex.* sukeçirmə, suburaxma.
dúrch || láufen *vt* yüyürmək, qaçaraq keçmək (*nəyinsə üstündən*); *məc.* gözdən keçirtmək, baxmaq.
dúrchlesen *vt* oxumaq (*axıra qədər*).
dúrch || léuchten *vt* aydınlaşdırmaq; *tib.* işıqlandırmaq (*rentgen şüaları ilə*).
Dúrch || léuchtung *f xüs.* işığa salma, rentgenə salma.
durch || löchen *vt* **1.** deşmək, dəlmək (*kağızı*); **2.** *d.y.* komposterləmək (*bileti*).
dúrch || löchern *vt* deşmək, dəlmək, deşik-deşik etmək.
dúrch || lüften *vi*; **durch || lüften** *vt* havasını dəyişmək, havasını təmizləmək.
dúrch || machen *vt* **1.** qurtarmaq (*məktəbi*); **2.** dadmaq, acısını çəkmək; həyəcan keçirmək, qatlaşmaq; **er hat viel durchgemacht** onun başına çox iş gəlib; **eine Krankheit ~** xəstəlik keçirtmək.
Dúrch || marsch *m* ordunun və ya qoşunun keçməsi.
durch || méssen *vt* gəzib-dolaşmaq, ayaqdan salmaq (*yeri*).
Dúrch || messer *m* (6) *riyaz.* diametr.
Dúrch || mischen *n* (7) qarışdırma.
dúrch || mustern, (durchmústern) *vt* diqqətlə baxmaq, diqqətlə seçmək.
dúrch || nagen *vt* gəmirib deşmək.
dúrch || nähen *vt* tikmək (*iki üzdən*).
dúrch || nässen *vt* islatmaq.
dúrch || nehmen *vt* seçmək; keçmək (*fənn*).
dúrch || pausen *vt* üzünü köçürmək, surətini çıxarmaq; nazik kağız üzərinə çəkmək.
dúrch || peitschen *vt dan.* qamçılamaq, şallaqlamaq.
dúrch || pflügen *vt* sürmək, şumlamaq, şırım açmaq.
dúrch || pressen I *vt* dürtmək, keçirmək; **II sich ~** soxulmaq, itələyə-itələyə girmək.
dúrch || próbieren, dúrch || prüfen *vt* sınamaq, yoxlamaq.
dúrch || prügeln *vt* döymək, kötəkləmək.
Dúrch || reise *f* keçmə; keçiş, gediş; **auf der ~** keçərkən, yolüstü.
dúrch || reisen *vi* (s) keçmək, ötmək (*miniklə*); getdiyi zaman bir yerdə olmaq; **ich bin dort nur durchgereist** mən orada yalnız yolüstü olmuşam.

dúrch || reisen *vt* gəzib-dolaşmaq; başdan-başa dolaşmaq, ayaqdan salmaq; **ich habe das Land durchgereist** mən ölkəni başdan-başa gəzib-dolaşdım.
dúrch || reißen I *vt* cırmaq, yırtmaq; az cırmaq; **er hat das Papier durchgerissen** o, kağızı cırdı; **II** *vi* (s) qırılmaq, yırtılmaq.
dúrch || reiten *vi* (s) at belində getmək (*bir məntəqədən...*).
durch || reiten *vt* at belində yan gəzib-dolaşmaq.
dúrch || rühren *vt* qarışdırmaq; çevirmək, qurdalamaq.
dúrchs = durch das.
dúrch || schauen *vi* bir şeyin arasından baxmaq.
durch || schäuen *vt* **1.** gözdən qaçırmaq (*səhvi*); **2.** başdan-başa görmək; *məc.* yaxşıca tanımaq, sınayıb bələd olmaq; **er hat meine Pläne durchschaut** o mənim planımı duyub.
dúrch || scheinen *vi* işıqlandırmaq, işığa salmaq.
dúrch || schieben *vt* soxmaq, dürtmək.
dúrch || schießen *vi* (s) çaparaq keçmək, sürətlə keçmək; uçub keçmək (*güllə sürəti ilə*).
durch || schießen *vt* gülləyə tutmaq, gülləyə basmaq; deşmək, dəlmək (*güllə ilə*).
Dúrch || schlag *m* **1.** deşik, yarıq; **2.** surət (*makinada yazılmış*); **3.** *tex.* zınba; **4.** süzgəc, aşsüzən; **5.** *tikin.* xəlbir.
dúrch || schlagen I *vt* deşmək; süzmək; süzgəcdən keçirmək; **II** *vi* keçmək (*bu tərəfdən o tərəfə*) **III sich ~** keçmək; keçinmək, birtəhər dolanmaq; çıxmaq, cücərmək.
dúrch || schlagend *a* həlledici, əsas; **~er Erfolg** əsas müvəffəqiyyət.
dúrch || schleichen sich ~ sivişmək, gizlicə girmək.
dúrch || schlüpfen *vi* (s) gizlin keçmək, sürüşüb getmək.
dúrch || schneiden *vt* **2.** kəsmək (*arasını*); **2.** yarmaq, şaqqalamaq; **3.** *məc.* kəsib keçmək, keçmək (*yol*); **die Bahn durchschneidet das Land** dəmiryolu ölkənin içərisindən keçir.
Dúrch || schnitt *m* **1.** kəsmə, kəsik; **2.** *riyaz.* orta hesab; **im ~** orta hesabla.
dúrch || schnittlich I *a* orta; **II** *adv* orta hesabla.
Dúrchschnitts = *mür. isimdə:* orta; kəsən; **~zahl** *f* ortaq rəqəm; **linie** *f* kəsişmə xətti; **~mensch** *m* adi, gözə çarpmayan adam; **~punkt** *m* kəsişmə nöqtəsi; **~zeit** *f* orta müddət, orta vaxt.
dúrch || schreiten *vi* (s) içərisindən keçmək (*dağdı və s.*).
durch || schréiten *vt* iri addımlarla kəsib keçmək.
dúrch || schwimmen *vi* (s) üzüb keçmək.
dúrch || sehen I *vt* gözdən keçirtmək, baxmaq; yoxlamaq; **II** *vi* bir şeyin arasından baxmaq.
dúrch || setzen *vt* keçirmək; məqsədə çatmaq, əldə etmək; **seinen Willen ~** inadla məqsədinə çatmaq.
durch || sétzen *vt* (*mit D*) islatmaq, canına hopdurmaq, düzmək, keçirmək.
Dúrch || sicht *f oh. pl* baxış; yenidən baxma, yoxlama.
dúrch || sichtig *a* şəffaf, dupduru, aşkar, açıq; ◊ **seine Absichten waren ~** onun məqsədi aydın idi.
dúrch || sickern *vi* (s) sızmaq, sızıb keçmək; **das Geheimnis sikkerte durch** sirr yavaş-yavaş açılırdı.
dúrch || sieben *vt*ələmək, xəlbirləmək.
dúrch || springen *vt* (s) qalxmaq, cəld keçmək, qaçıb keçmək.
dúrch || stechen (durch || stéchen) *vt* sancmaq, sancaqlamaq; yaralamaq.
dúrch || stecken *vt* soxmaq, dürtmək.
dúrch || stehlen (sich) gizlicə girmək, xəlvəticə girmək.
dúrch || stöbern *vt dan.* araşdırmaq, hər tərəfi axtarmaq, gəzmək (*bir şeyi tapmaq üçün*); **Papiere ~** kağızların arasında eşələnmək/qurdalanmaq.
dúrch || stoßen I *vt* itələmək, itələyib keçirtmək; **II** *vi* (s) *hərb.* dəlmək, deşmək, açmaq.
durch || stóßen *vt* vurub deşmək, dəlib keçmək.
dúrch || streichen *vt* başdan-başa pozmaq, tamamilə qaralamaq.

dúrch || strömen *vt* axmaq; axıb keçmək; **der Fluß durchströmt das Tal** çay dərə ilə axır.
dúrch || studieren *vt* əsaslı öyrənmək, dərindən öyrənmək.
durch || súchen *vt* axtarmaq.
Durch || súchung *f* (10) axtarış; yoxlama, baxılma.
durch || tränken *vt* islatmaq, canına hopdurmaq.
durch || trieben *a* hiyləgər, kələkbaz, bic.
durch || wagen (sich) keçməyi qət etmək.
dúrch || wandern *vi* (s), **(durch || wándern)** *vi* gəzib-dolaşmaq, səyahət etmək; **ich durchwánderte das Land** mən ölkəni gəzib-dolaşdım.
dúrch || wärmen (durch || wärmen) *vt* qızdırmaq, isitmək.
dúrch || waten *vt* bata-bata/yara-yara keçmək; dayaz yerdən keçmək (*çayın*).
durchwég(s) *adv* **1.** başdan-başa, tamam, bütün; **2.** həmişə, daim, hər vaxt.
dúrch || wehen *vt* (s) və *vt* üfürmək, üfürüb təmizləmək.
dúrch || wéichen *vt* tamam islatmaq.
dúrch || wintern *vi* qışlamaq, qışı başa vurmaq.
durch || wirken *vt* (*mit D*) cilalamaq, üz çəkmək; **mit Silber** ~ gümüş suyuna çəkmək.
durch || wühlen *vt* diqqətlə axtarmaq; *məc.* alt-üst etmək.
dúrch || ziehen *vt* **I** *vt* keçirtmək, taxmaq (*sap* və s.); **II** *vi* (s) keçmək, ötmək (*miniklə*).
durch || ziehen *vt* keçmək, səyahət etmək; qarış-qarış gəzmək; zol-zol etmək, şırımlamaq.
Dúrch || zug *m* **1.** yol, keçid; uçuş; **2.** hava cərəyanı, yelçəkər.
dúrch || zwängen I *vt dan.* dürtmək, soxmaq, keçirmək; **II sich** ~ *dan.* soxulmaq, itələyə-itələyə girmək/soxulmaq.

dürfen *vi* ixtiyarı olmaq, icazəsi olmaq; **man darf** olar, mümkündür; **man darf nicht** olmaz, icazə yoxdur; **er darf nicht hinein** onun daxil olmağa ixtiyarı yoxdur; **er hat es nicht sagen** ~ onun bunu deməyə haqqı yox idi; **er dürfte noch kommen** o hələ gələ bilər; **wenn ich bitten darf** xahiş etməyim rəva bilinərsə.
dürftig *a* yoxsul, kasıb; az, cüzi.
Dürftigkeit *f* (10) *oh. pl* **1.** yoxsulluq, ehtiyac; **2.** azlıq.
dürr *a* quru; arıq; ◊ **mit ~en Worten** kəskin; yanıq verə-verə; düzü-düzünə.
Dürre *f* (11) **1.** quraqlıq; **2.** arıqlıq.
Durst *m* -es, *oh. pl* susuzluq, yanğı; **den ~ löschen** susuzluğu yatırmaq/söndürmək; **ich habe ~** mən susuzam; sudan yanıram.
dúrsten, dürsten *vi* susamaq; **mich dürstet** su içmək istəyirəm.
dúrstig *a* susamış; **ich bin ~** su içmək istəyirəm, susuzam; **~ nach etw.** *məc.* bir şeyə qızğın ehtiras, bir şeyə canatma.
Dúsch || bad *n*, **Dúsche** *f* (11) duş.
Düse *f* (11) *tex.* ucluq; qarmaq.
Dúsel *m* -s, *oh. pl* **1.** başgicəllənmə; **2.** mürgüləmə; **3.** boxt.
dús(e)lig *a* yatağan, yuxucul, süst.
dúseln *vi* mürgüləmək.
Düsen || flugzeug *n* reaktiv təyyarə.
düster *a* **1.** tutqun, dumanlı; **2.** qaşqabaqlı, qaraqabaq.
Düsterheit *f*, **Düsterkeit** *f oh. pl* **1.** qaranlıq, zülmət; **2.** qaraqabaqlıq, tutqunluq.
Düte *f* (11) kağız torba, kağız kisə.
Dútzend *n* (2) düjün (*on iki ədəd*).
Dútzend || mensch *m* adi adam.
dútzend || weise *adv* düjün-düjün.
dúzen *vt* kimisə "sən" deyə müraciət etmək.
Dúz || freund *m* ürək dostu, yaxın yoldaş.
Dynámo *f* -, -s, **Dynamo || maschine** *f* dinamomaşın.
D-Zug *m* **(Durchgangszug)** sürət qatarı.

Ee

E, e *n inv.* **1.** *alman əlifbasının beşinci hərfi*; **2.** *mus. mi.*
Ébbe *f* (11) çəkilmə (*dənizdə*); **~ und Flut** qabarma və çəkilmə; **in der Kasse ist ~** kassa boşdur.
ébben *vi* **1.** çəkilmək (*dəniz suyu*); **2.** *məc.* azalmaq, əskilmək.
ében I *a* düz; hamar; *riyaz.* yastı; **~es Land** düzənlik, düzən; **zu ~er Erde** birinci mərtəbədə; **II** *adv* **1.** məhz; elə özüdür ki var; güc-bəla ilə; **2. ~ erst, jetzt ~** elə bu saat; **na ~!** *dan.* məhz, odur ki var!
Ében || bild *n* bənzəyiş, oxşayış; şəkil; **er ist das ~ seines Vaters** o elə bil atasının kopiyasıdır.
ében || bürtig *a* eyni güclü, bərabər olan; **er ist ihm nicht ~** o, ona tay ola bilməz.
Gedränge *n* (6) basabas, basırıq; darısqallıq; **ins ~ kommen** basırığa düşmək.
gedrängt *a* sıx, yığcam (*yazı*); sıxılmış; **~ voll** ağzınacan dolu; **in ~er Kürze darstellen** müxtəsər ifadə etmək, yığcam şərh etmək.
Gedrängtheit *f oh. pl* **1.** darısqallıq, tündlük; **2.** qısalıq, müxtəsərlik; **3.:** **die ~ der Ereignisse** hadisələrin qısa şəkildə birbirini əvəz etməsi.
gedrúckt *a* çap (nəşr) edilmiş.
gedrückt *a* sıxılmış, əzilmiş.
gedrúngen *a* **1.** dolu, enlikürək; pota, bəstəboy; **2.** qısa, yığcam, müxtəsər (*üslub, üsul, qayda*); **3.** məcbur olmuş; məcburi,

Gefährte *m* (9) yol yoldaşı; yoldaş.
Gefährtin *f* (12) yol yoldaşı; yoldaş (*qadın*).
gefáhr ‖ voll *a* təhlükəli.
gefállen I *vi* və *vimp* xoşa gəlmək, ürəyə yatmaq; **wie es Ihnen gefällt!** istədiyiniz kimi!; ixtiyar sahibisiz!; **II** *vt:* **sich** (*D*) *in etw.* (*D*) **~** nədəsə ləzzət görmək; **sich** (*D*) *etw.* (*A*) **~ lassen** dözmək; danışıqsız keçirmək; **sich eine Beleidigung ~ lassen** incikliyi söz-söhbətsiz keçirmək; haqsızlığa səbirlə dözmək; **II** *a* ölmüş, həlak olmuş.
Gefálle *n* (2, 6) **1.** yamac, enişi; **2.** gəlir; **3.** torpaq vergisi.
Gefállen I *m, n* (7) iltifat, minnət, kömək, xidmət; **j-m einen / ein ~ tun / erweisen** kimisə yaxşılıq etmək.
Gefállen II *n* -s, *oh. pl* ləzzət, zövq; **~ finden** (*an D*) xoşlanmaq, (*nədənsə*) ləzzət görmək.
gefállig *a* **1.** xidmət göstərən, iltifatlı, lütf-

gefáßt *a* sakit, rahat; cəsarətli; **sich** *auf etw.* ~ **machen** nəyəsə hazırlaşmaq; **auf alles** ~ **sein** hər şeyə hazır olmaq.

Gefécht *n* (2) hərb, döyüş, vuruşma; **ein** ~

Gefrór(e)ne *n* -n, *oh. pl* dondurma.

Gefüge *n* -s, *oh. pl* quruluş, tikinti; struktur.

gefüge || los *a* formasız, biçimsiz.

gefügig *a* **1.** elastik; **2.** sözəbaxan, güzəşt

Gégen || einánder *n* -s, *oh. pl* qarşılıqlı müqavimət; qarşılıqlı antaqonizm.

gegen(ein)ánder || halten *vt* tutuşdurmaq, müqay

gegenüber= *ayrılan önşəkilçi: əksi, əks tərəfi, qarşılaşdırılanı bildirir;* **gegenüber || stellen** qarşılaşdırmaq.

[redacted]

[redacted]

[redacted]

Gehége *n* (6) qoruq; çəpər, hasar; **komm mir nicht ins ~!** mənim işlərimə qarışma!; *j-m* **ins ~ kommen** kiminsə işinə əngəl törətmək.
gehéim I *a* gizli, sirli; **II** *adv:* **im ~en** gizlicə, xəlvəti, əl altından.
Gehéim || druckerei *f* gizli mətbəə.
gehéim || halten *vt* gizli saxlamaq.
Gehéimnis *n* (3˚) sirr; gizlənc; **ein ~ bewahren** sirr saxlamaq.
Gehéimnis || krämerei *f* gizli danışıq.
gehéimnis || voll *a* sirli, əsrarəngiz; gizli; **~ tun** sirr vermə mək, gizli saxlamaq.
Gehéim || polizist *m* çuğul, çuğulçu; **~vertrag** *m* gizli müqavilə.
Gehéiß *n* -es, *oh. pl* əmr, hökm, sərəncam; **auf (mein) ~** (*mənim*) əmrimlə.
géh(e)n *vi* (s) **1.** getmək, yerimək; **2.** sürüşmək, getmək (*miniklə*); **3.** işə girmək; **4.** keçmək (*vaxt*); **auf Urlaub ~** məzuniyyətə çıxmaq; **wie geht es Ihnen?** necəsiniz?; **so geht das nicht** belə yaramaz; **an die Arbeit ~** işə başlamaq; **zu Bette ~** yatmağa getmək; **in Stücke ~** sınmaq, qırılmaq; parça-parça olmaq; **es geht um Leben und Tod** bu, ölüm-dirim məsələsidir; **vor sich ~** baş vermək; **zu Grunde ~** məhv olmaq; **zu Ende ~** qurtarmaq; **in sich ~** peşman olmaq; fikrini toplamaq; **verloren~** məhv olmaq, özünü itirmək; **über eine Frage mit sich zu Rate ~** bir məsələ üzərində fikirləşmək; **sich ~ lassen** özbaşınalıq etmək, boşalmaq; zəifləmək; **~ Sie doch!** bəsdir!, kifayətdir!, yetər!; **lassen Sie mich ~!** məni dinc buraxın!
Géhen *n -s, oh. pl* yerimə, getmə, gəzmə; **im ~** ayaqüstü, yolüstü; gedə-gedə, hərəkət zamanı; **das ~ und Kommen** gəzib-dolaşma.
gehéuer *a* və *adv:* **nicht ~** əngəlli, nöqsanlı; **mir ist nicht ~ zu Mute** məni nəsə vahimə basır, mən özümdə deyiləm; **die Sache ist nicht ~** iş şübhəlidir, iş əngəldir.
Gehéul *n -s, oh. pl* ulama, vıyıltı.
Gehílfe *m* (9) köməkçi; assistent.
Gehílfin *f* (12) köməkçi; assistent (*qadın*).
Gehírn *n* (2) **1.** *anat.* beyin; **2.** *asp.* beyin (*xörək*); **3.** *məc.* ağıl, zəka, zehin.
gehóben *a* yüksək, təntənəli; **in ~er Stimmung** şad əhvali-ruhiyyədə, damağı çağ; şad-xürrəm.
Gehöft *n* (2) həyət, oba; mülk.
gehólfen: damit ist mir nicht ~ bu mənə ol vermir.
Gehölz *n* (2) ağaclıq, odunluq, xırda meşə.
Gehör *n* -s, *oh. pl* eşitmə; eşitmə qabiliyyəti; musiqini düzgün qavrama qabiliyyəti; **nach dem ~ singen, spielen** notsuz oxumaq, çalmaq; **die Bitte hat ~ gefunden** xahiş eşidilmiş, yerinə yetirilmişdir.
gehórchen *vi* (*D*) sözünə baxmaq (*kiminsə*), qulaq asmaq, itaət etmək (*kimisə*).
gehören *vi* aid olmaq, mənsub olmaq; **wem gehört dieses Buch?** bu kitab kimindir?; **das gehört nicht in mein Fach** bu mənim sahəm deyil; **das gehört nicht viel Verstand** bunun üçün çox da ağıl (bilik) lazım deyil; **das gehört sich nicht** bu olmaz, bu yaramaz.
gehórig I *a* **1.** mənsub olan, aid olan; **zum Hause ~** evə aid olan; **2.** xeyli, kifayət qədər; **eine ~e Summe** xeyli məbləğ, pul; **II** *adv* lazımi qədər; yaxşıca; **er hat ihm ~ die Wahrheit gesagt** o onu yaxşıca danladı; o ona bütün həqiqəti dedi.
gehör || los *a* kar, eşitməkdən məhrum.
Gehörn *n* (2) buynuz.
gehörnt *a* **1.** buynuzlu; **2.** dişbatmaz, məhkəm.
gehórsam *a* sözə qulaq asan, itaətkar, sözəbaxan, itaətli.
Gehórsam *m* -s, *oh. pl* qulaq asma, itaət etmə; itaət, sözə baxma; **den ~ kündigen / verweigern** tabe olmaqdan, itaət etməkdən boyun qaçırmaq.
Gehör || sinn *m oh. pl* eşitmə hissi; eşitmə qabiliyyəti.
Géh || rock *m* sürtük (*uzunətəkli kişi pencəyi*).
Gehúpe *n oh. pl* fit, fit səsi.
Géier *m* (6) *zool.* çalağan.
Géifer *m* -s, *oh. pl* **1.** ağız suyu, tüpürcək; **2.** *məc.* acıq, zəhər.
géifern *vi* **1.** ağız suyunu/tüpürcəyi sıçratmaq; **2.** *məc.* hirslə/ağzı köpüklənə-köpüklənə danışmaq.

Géige *f* (11) skripka, kaman; ◊ **der Himmel hängt ihm voller ~n** o, göyün yeddinci qatındadır; o, sevincindən özünü itirib.
Géigen || bogen *m mus.* yay (*kamançada, skripkada*).
Géiger *m* (6) skripkaçı, kamançaçı.
geil *a* **1.** şəhvətli; **2.** məhsuldar, bərəkətli (*torpaq*); **3.** qalın (*bitki*).
Géisel *m* (6), *f* (11) girov götürülmüş adam.
Geiß *f* (10) keçi.
Géißel *f* (11) uzun qamçı, qırmanc; **die ~ des Spottes schwingen** *məc.* acı-acı lağa qoymaq, ələ salmaq.
geißeln *vt* qamçılamaq, şallaqlamaq; *məc.* cəzalandırmaq.
Geist *m* (4) **1.** *oh. pl* ruh; **der ~ der Zeit** zamanın ruhu; **2.** ağıl, ariflik; **ein großer ~** çox ağıllı adam; **3.** xəyal, qarabasma; **er erlebte im ~e alles noch einmal** o, hamısını bir də xəyalından keçirdi.
Géistes || bildung *f oh. pl* əqli inkişaf; **~gegenwart** *f oh. pl* soyuqqanlılıq, özünü itirməmə, mətanət.
géistes || krank *a* ruhi xəstə.
géistes || schwach *a* ağıldan zəif, kəmağıl.
Géistes || verfassung *f oh. pl* ruhi vəziyyət; kef, hal.
géistig *a* **1.** ruhi; əqli; **~e Arbeit** zehni iş; **2.: ~e Getränke** spirtli içkilər.
géistlich *a* dini; ibadət(li).
Géistliche *m* (9) keşiş.
géistreich *a* dərrakəli, ağıllı, hazırcavab.
géist || voll *a* cürətli; ruhlandırılmış, ürəklənmiş; vəcdə gəlmiş.
Geiz *m -es, oh. pl* xəsislik, simiclik; tamahkarlıq.
géizen *vi* **1.** (*mit D*) xəsislik etmək (*nəyəsə*); **mit Worten ~** az danışmaq; **2.** (*nach D*) arzu etmək (*nəyisə*), nəyinsə arzusunda olmaq (həsrətində olmaq) (*şöhrət* və s.).
Géiz || hals *m dan.* simic, xəsis.
géizig *a* simic, xəsis, tamahkar, acgöz.
Gejámmer *n* -s, *oh. pl* inilti, ah-zar; fəryad.
Gefóhle *n* qışqırıq, nərilti.
Gejúbel *n* -s, *oh. pl* şadlıq, şənlik.
Gekéife *n* -s, *oh. pl* söyüş.
Gekicher *n* -s, *oh. pl* istehza ilə gülmə, bığaltı gülmə.
Geklimper *n* -s, *oh. pl* danqıldatma, dınqıldatma (*royalı* və s.)
Geklirr(e) *n* **-res.** *oh. pl* zəng, cingilti (*arasıkəsilmədən*).
Geklüft *n* -es, *oh. pl* dərə.
Geknátter *n* -s, *oh. pl* çatırtı; partıltı.
geknéchtet *a* kölə olmuş, qul olmuş; əsarət altına alınmış; məhkum.
Gekrách *n* -s, *oh. pl* gurultu.
Gekrächze *n* -s, *oh. pl* qarıldama.
Gekritzel *n* -s, *jh. pl* cızma-qara yazı, qaraqura yazı; aydın olmayan, anlaşılmayan xətt.
gekünstelt *a* süni, qeyri-təbii.
Gelächter *n* (6) gülüş, qəhqəhə; **ein ~ erheben** gülüş qoparmaq; **zum ~ werden** ələ salınmaq, gülünc olmaq.
geláden *a* doldurulmuş, dolu.
Gelág(e) *n* -es, *oh. pl* kiçik qonaqlıq, xudmani məclis.
gelágert *a* yerləş(diril)miş, qoyulmuş.
gelähmt *a* iflicləşmiş, iflic.
Gelände *n* (6) **1.** yer, sahə. **2.** torpaq; **hügeliges ~** dərə-təpəli yer.
Gelände || kunde *f* topoqrafiya; **~lauf** *m idm.* kros.
Geländer *n* (6) sürahi, məhəccər.
gelángen *vi* (s) dəymək; (*bis zu D*) çatmaq; yetişmək; (*zu D*) müvəffəq olmaq; nail olmaq; **ans Ziel ~** məqsədə nail olmaq; **zur Herrschaft ~** ixtiyar, səlahiyyət əldə etmək; **zu Ohren ~** qulağına çatmaq (*xəbər, məlumat*); **zum Verkauf ~** satışa gəlmək.
gelássen sakit, təmkinli.
Gelatine [ʒelaˈtiːnə] *f oh. pl* jelatin.
geläufig *a* sərbəst, adəti; **die deutsche Sprache ist ihm ~** o, alman dilində sərbəst danışır.
geláunt *a:* **gut ~** yaxşı əhvali-ruhiyyədə, kefikök.
Geläute *n* -s, *oh. pl* zəng səsləri.
gelb *a* sarı; **~ werden** saralmaq; **~e Rüben** kök; **~ farben** sarı rəngə boyamaq.
Gelb *n* -(e)s, *oh. pl* sarı rəng.
Gélbe *n* -n, *oh. pl* sarılıq; **das ~ von Ei** yumurta sarısı.
Gelb || guß *m* **1.** bürünc, latun (*metal*); **2.** bürünc tökmə.

Geléise *n* (6) təkər izi; dəmir yolu; **ein totes ~** ehtiyat yol, döngə; **aus dem ~ kommen** izi itirmək, yoldan çıxmaq; *məc.* çaşmaq (*danışıqda*), **ins ~ bringen** səliqəyə salmaq; yoluna qoymaq.

Geléit *n* **-es, -e 1.** ötürmə, yola salma; **ich gab ihm das ~** mən onu ötürdüm; **2.** *hərb.* mühafizəçi konvoy; **freies ~ gewähren** azad (təhlükəsiz keçməyə) getməyə zamin olmaq; **das letzte ~ geben** axırıncı borcu vermək (*ölənə*).

geléiten *vt* ötürmək, yola salmaq.

Geléit ‖ wort *n* (*pl* **-worte**) müqəddimə.

Gelénk *n* (2) **1.** *anat.* oynaq, bənd, büküş; dirsək; **2.** *tex.* həncama; diz.

gelénkig *a* **1.** elastik, əyilgən; zirək, çevik; **2.** *tex.* dirsəkli.

Geliebte *m, f* (9*) sevgili; sevimli, istəkli.

gelinde *a* zəif; yüngül; yumşaq; **das ist, ~ gesagt, eine Frechheit** bu, yumşaq deyilsə, ədəbsizlikdir.

gelingen *vi* (s) müvəssər olmaq, nail olmaq; yoluna qoymaq; **die Sache will nicht ~** iş düz gətirmir.

Gelingen *n* **-s,** *oh. pl* uğur, müvəffəqiyyət.

gellen *vi* kəskin fəryad etmək; kəskin səs vermək; **mit ~ der Ohren** qulaqlarını cingildəyir.

gellend *a* gurlu, qulaqbatırıcı; kəskin; iti.

gelóben *vt* əhd-peyman etmək, əhd eləmək, ümid etmək; əd eyləmək.

Gelöbnis *n* (3) əhd-peyman; təntənəli vəd.

gelöckt *a*: **~es Haar** qıvrım saç, burulu saç.

Gélse *f* (11) ağcaqanad, milçə.

géltend I *a* qüvvədə olan; **II** *adv:* **sich ~ machen** əhəmiyyətə malik olmaq; **seine Rechte ~ machen** öz hüquqlarını əldə etmək.

Géltung *f* (10) əhəmiyyət, məna, qiyməti olma; **zur ~ kommen** özünü göstərmək (*yaxşı tərəfdən*).

Gélt ‖ vieh *n k.t.* qısır mal.

Gelübde *n* (6) əhd-peyman, təntənəli vəd; **ein ~ tun** əhd-peyman etmək.

gelúngen *a* müvəffəqiyyətli; **eine ~e Arbeit** müvəffəqiyyətli iş; **ein ~er Kerl** bacarıqlı adam.

Gelüst(e) (2, 6) arzu, istək; şıltaqlıq, naz.

gelüsten *vt, vi* və *vimp:* **es gelüstet ihn (ihm) nach Ehre** o, şöhrət düşkünüdür.

gemách *adv* sakit, səssiz; **nur ~!** sakit!

Gemách *n* (5) otaq.

gemächlich I *a* sakit, dinc; **II** *adv* ləsməndən.

Gemächlichkeit *f oh. pl* **1.** sakitlik, dinclik; **2.** rahatlıq.

Gemächlichkeit *f oh. pl* qeyri-təbiilik, süniilik.

Gemálde *n* (1) şəkil.

gemáhnen *vt* (*j-n an A*) yadına salmaq, xatırlatmaq.

Gemárkung *n* **-s,** *oh. pl* yersiz iməd., özəşmə, qərəz.

Gemäße *n* (6) şəkil, tablo, rəsm.

gemäß *ədv* və *pre:* (*əksər hallarda 'istədən sonra gəlir*) uyğun olaraq; münasib olaraq, ...görə; **deinem Wunsch ~** sənin istəyinə görə.

diyyə rəisi; **~wirtschaft** *f* kommunal təsərrüfat.

Geméine *m* (9) *hərb.* sıravi əsgər.

geméin ‖ faßlich *a* hamının başa düşəcəyi şəkildə olan, aydın, anlaşılan.

geméin ‖ gefährlich *a* ictimai cəhətdən təhlükəli (*qorxulu*).

geméin ‖ gültig *a* adi, hamı tərəfindən qəbul edilmiş; yararlı; etibarlı (*hər yerdə*).

Gemein ‖ gut *n oh. pl* ictimai mülk, ictimai əmlak, ümumi mülk; **~ des Volkes** ümumxalq malı.

Geméinheit *f* (10) alçaqlıq; vulqarlıq; əclaflıq.

geméin ‖ hin / geméiniglich *adv* adətən, adəti üzrə, bir qayda olaraq.

geméin ‖ nützig, gemin ‖ nützlich *a* hamıya faydalı, hamı üçün faydası olan.

Geméin ‖ nützigkeit *f oh. pl* ictimai fayda.

Gemein ‖ platz *m* ümumi (ictimai) yer; *məc.* boş laqqırtı.

geméinsam *a* ümumi, kollektiv; **~e Sache machen** birlikdə hərəkət etmək.

Geméinsamkeit *f oh. pl* ümumilik, birlik.

Geméinschaft *f* (10) **1.** ümumilik, birlik; **2.** cəmiyyət; **3.** əlaqə, qarşılıqlı münasibət; **mit j-m ~ haben / machen** kiməsə əlaqədə olmaq, kiməsə əlaqə saxlamaq; **ehelíche ~** cinsi əlaqə, birgə yaşama; **in ~** *(mit D)* birlikdə, bir yerdə (*kimləsə*).

geméinschaftlich I *a* ümumi, birgə; **~e Erziehung** birgə tərbiyə (*hər iki cinsdən olan uşaqları*); **II** *adv* birlikdə, birgə, bir

gemischt *a* qarışıq, qatışıq.
Gémse *f* (11) dağ keçisi, köpgər.
Gémse ‖ **leder** *n* zamşa (*yumşaq maral dərisi*).
Gemüll *n* -(e)s, *oh. pl* zibil.
Gemünkel *n* -s, *oh. pl* qeybət, dedi-qodu.
Gemúrkel *n* -s, *oh. pl* **1.** mırıltı, yavaş danışma; **2.** şırıltı, şırıldama.
Gemüse *n* (6) tərəvəz, göyərti.
Gemüse ‖ **bau** *m oh. pl* bostançılıq, tərəvəzçilik; **~garten**

geném *a* **1.** xoş, xoşagələn; **2.** qəbul oluna bilən.
genémmigen *vt* bir şeylə razılaşmaq; yol vermək; təqdir etmək.
Genémmigung *f* icazə; razılıq; bəyənmə.
genéigt *a* **1.** meyilli, həvəsli; **ich bin ~ diese Arbeit anzunehmen** mənim bu işi götürməyə həvəsim var; **2.** xeyirxah, həvəsi olan; iltifatlı; **er ist mir ~** o mənə qarşı iltifatlıdır.

Gentleman ['dʒəntəlmən] *m* -s, *pl* **-men** centlmen.
genúg *adv* xeyli, kifayət qədər; **das ist gut ~** bu çox yaxşıdır; **ich habe Arbeit ~** mənim kifayət qədər işim var; **ich habe ~ davon** bəsdir, mən bundan çəkdim; **~ des Guten** yaxşı şeyin azı.
Genüge *f oh. pl* razılıq, məmnunluq; **ich kenne ihn zur ~** mən onu yaxşı tanıyıram; **er tat meiner Forderung ~** o mənim tələ-

Geplänkel *n* (6) **1.** atışma; **2.** *dan.* söyüşmə.
Geplápper *n* -s, *oh. pl* cəfəngiyat, boşboğazlıq, boş danışıq, boş söhbət.
Geplärr *n* -(e)s, *oh. pl* ağlaşma, ağlama səsi.
Geplätscher *n* -s, *oh. pl* şırıltı, şırıldama.
Gepläuder *n* -s, *oh. pl* boşboğazlıq; şit söhbət.
Gepólter *n* -s, *oh. pl* gurultu.
Gepräge *n* -s, *oh. pl* **1.** kəsilmə (*pul, medal*); pul üçün kəsilmiş kağız; şəkil (*pulun üs-*

yerinə düşməmək; **auf den Einfall ~** fikrə düşmək; **aus der Bahn ~** yo[illegible] çıxmaq, yolu itirmək, azmaq; **außer sich ~** *məc.* özündən çıxmaq, hirslənmək; **einander in die Haare ~** saçyoldusuna çıxmaq; **in Brand ~** yanmaq, od tutmaq; **in Harnisch ~** hirslənmək, acıqlanmaq; **in die Klemme ~** bəlaya (çətin) vəziyyətə düşmək; **in Vergessenheit ~** yaddan çıxmaq; **in Verwirrung ~** çaşmaq, özünü itirmək; **in Verzweiflung ~** ümidsizləşmək; **in Wut / Zorn ~** qəzəblənmək, hiddətlənmək; **2.** baş tutmaq; **die Arbeit ist gut ~** iş baş tutdu; **das Getreide ist gut ~** taxıl yaxşı yetişdi (*məhsul yaxşı gətirdi*).

geráten II *a* müvəffəqiyyətli, yaxşı; **ein gut ~es Kind** yaxşı uşaq.

Gerate || **wóhl** *n* -s, *oh. pl* **aufs ~** fikirləşmədən, kor-koranə, ağına-bozuna baxmadan, necə gəldi.

Gerätschaft *f* (10) aparatura, aparatlar.

geräuchert *a* hisə verilmiş, hisdə qurudulmuş.

Geráufe *n* -s, *oh. pl* vuruşma, dava-dalaş.

geráum *a* sürəkli, uzunsürən, uzunmüddətli; **seit ~er Zeit** çoxdan, uzaq keçmişdə.

geräumig *a* geniş, gen-bol; **ein ~es Zimmer** geniş otlaq.

Geräusch *n* (2) xışıltı, küy; *rad.* mane; **~ machen** səs-küy salmaq.

geräusch || **los** *a* səssiz, gurultusuz; **~voll** *a* gurultulu, səs-küylü.

Gerräusper *n* -s, *oh. pl* öskürək, içini artlama.

gérben *vt* aşılamaq (*dərini*), ◊ *j-m* **das Fell ~** *dan.* kimisə döymək, əzişdirmək, kiminsə dərisinə saman təpmək.

Gérber *m* (6) dabbağ, gön istehsalı ustası (*fəhləsi*).

Gérberéi *f* (10) **1.** dabbağxana, gön zavodu; **2.** aşıya qoyma, aşılama (*dərini*).

gerécht *a* insaflı, ədalətli; haqlı, doğru; **allen Forderungen ~ werden** bütün tələbləri yerinə yetirmək; ◊ **er ist in allen Sätteln ~** o, hər işi bacarır; onun əlindən hər iş gəlir.

gerécht || **fertigt** *a* haqlı, doğru, ədalətli.

Geréchtigkeit *f* (10) insaf; ədalət; haqq.

Geréde *n* -s, *oh. pl* **1.** danışıq; **2.** şayiə; **ins ~ kommen** ağız-dildə düşmək, qeybət hədəfi olmaq.

geréichen *vi* (*zu D*) səbəb olmaq (*nəyəsə*); **das wird ihm zum Nutzen ~** bu onun xeyrinə olar; **diese Tat gereicht ihm zur Ehre** bu iş ona şöhrət qazandırır.

geréizt *a* hirsləndirilmiş, acıqlandırılmış; acıqlı, hirsli; **~ werden** acıqlanmaq, hirslənmək.

Geréiztheit *f oh. pl* acıqlanma, hirslənmə, əsəbiləşmə.

geréuen *vimp:* **es gereut mich** mən təəssüf edirəm, heyifsilənirəm.

Gericht I *n* (2) yemək, nahar, xörək.

Gericht II *n* (2) məhkəmə; **die Sache kommt vor das ~** işə məhkəmədə baxılacaq; **über *j-n* ~ halten** kimisə mühakimə etmək.

gerichtet *a* məhkum edilmiş, məhkum.

gerichtlich I *a* məhkəmə yolu ilə; **II** *adv* məhkəmə qanunu ilə; **~ belangen / verfolgen** məhkəmə yolu ilə məsuliyyətə cəlb etmək; **gegen *j-n* ~ vorgehen** kimisə məhkəməyə vermək.

Gerichts || **barkeit** *f hüq.* məhkəməyə aid olma; **~behörde** *f* məhkəmə; **~hof** *m* məhkəmə, məhkəmə kollegiyası; tribunal; **~sitzung** *f* məhkəmə iclası; məhkəmə sessiyası; **~verfahren** *n hüq.* mühakimə icrası; **~verfassung** *f hüq.* məhkəmə təşkilatı sistemi; **~verhandlung** *f* məhkəmə prosesi, mühakimə; **~vollzieher** *m* məhkəmə icraçısı.

gerieben *a* hiyləgər, bic, sürtülmüş; **en ~er Bursche** *dan.* bərkdən-boşdan çıxmış adam.

gerieren (sich) özünü aparmaq, rəftar etmək, hərəkət etmək.

Geriesel *n* -s *oh. pl* səsi kəsilməyən şırıltı.

gering *a* əhəmiyyətsiz, cüzi, az, heç; **nicht im ~sten** biraz da olsa, zərrə qədər də olsa, qətiyyən.

geringfügig *a* az əhəmiyyətli, əhəmiyyətsiz.

Geringfügigkeit *f* (10) **1.** azlıq, əhəmiyyətsizlik; mənasızlıq; **2.** boş şey, əhəmiyyətsiz şey; dəyərsiz şey.

geringschätzig I *a* etinasız, laqeyd, saymazyana; **II** *adv* saymazlıqla, etinasızlıqla.

Geringschätzung *f* saymazlıq, saymama, etinasızlıq.

gerinnen *vi* (s) çürümək (*süd*); laxtalanmaq (*qan*); donmaq (*yağ, piy*).

Gerippe *n* (6) *anat.* skelet; gövdə; karkas.

gerissen 1. *a* cırıq; **2.** *məc.* bic, çoxgörmüş; **ein ~er Kerl** hiyləgər, bərkdən-boşdan çıxmış.

germánisch *a* german.

gérn(e) *adv* (*comp* **lieber**; *superl* **liebsten**) həvəslə, məmnuniyyətlə; **ich höre ~ Musik** mən musiqini sevirəm; **ich möchte ~** istərdim; **ich mag ihn ~** o mənim xoşuma gəlir.

Gérne || **groß** *m* -, -e lovğa, gopçu, bambılı.

Geröchel *n* -s, *oh. pl* xırıltı.

Geröhr *n* (2) **1.** qamışlıq; **2.** *oh. pl* maral bağırtısı.

Gerólle *n* -s, *oh. pl* uğultu, guyultu; gurultu (*göy*).

Geröll(e) *n* -s, *oh. pl* çınqıl, xırda çay daşı.

Gérste *f oh. pl* arpa.

Gérsten || **brot** *n* arpa çörəyi; **~korn** *n* **1.** arpa dənəsi; **2.** *tib.* itdirsəyi (*gözdə*); **~saft** *m* pivə.

Gérte *f* (11) çubuq, qamçı, qırmanc.

Gerúch *m* (1¨) **1.** iybilmə, iy duyğusu; **2.** iy, qoxu; **lieblicher ~** ətir, xoş iy; **übler ~** pis iy; **einen ~ haben / von sich geben** iy vermək; **3.** şöhrət, ad-san; ◊ **in schlechtem / üblem ~ stehen** adı pisliyə çıxmaq.

gerúchlos *a* iysiz.

Gerúch(s) || **sinn** *m oh. pl* iybilmə, iy duyğusu.

Gerücht *n* şayiə, xəbər, danışıq; **ein ~ verbreiten / unter die Leute bringen** şayiə yaymaq; **es geht / läuft das ~, daß ..., das ~ ist im Umlauf, daß ...** deyirlər ki ..., şayiə gəzir ki ...

gerúchen *vi* mərhəmət (lütf) etmək; **wirst du endlich ~, mir zu antworten?** axır ki lütfkarlıq göstərib mənə cavab verəcəksən?

gerúhig, gerúhlich, gerúhsam *a* sakit, dinc.

Gerümpel *n* -s, *oh. pl* köhnə şey-şüy; cırcındır, zir-zibil, dəyərsiz şeylər.

Gerüst *n* (2) taxta körpü; taxta meydança; çəfət, edam meydançası; *tikin.* taxtabənd, evin karkası.

Gerüttel *n* -s, *oh. pl* silkələmə, əsdirmə, yırğalama.

gesámmelt *a* **1.** yığılmış, toplanmış; **~e Werke** əsərlər külliyyatı; **2.** *məc.* yığcam, sakit.

gesámt *a* bütöv, hamısı birlikdə; **die ~e Belegschaft** bütün kollektiv.

Gesámt || **ausgabe** *f* **1.** seçilmiş külliyyat; **2.** *pl* ümumi xərc; **~bestand** *m* hazırkı tərkib.

Gesámte *n* -n, *oh. pl* ümumi məbləğ, ümumi yekun.

Gesámt || **eindruck** *m* ümumi təsir; **~einkommen** *n*, **~einnahmen** *pl iqt.* ümumi gəlir.

Gesámtheit *f oh. pl* yekun, cəm.

Gesámt || **stärke** *f oh. pl* hazırkı tərkib (*qoşun*); **~verzeichnis** *n* ümumi siyahı; **~zahl** *f* ümumi məbləğ.

Gesándte *m* (9) diplomatik nümayəndə, səlahiyyətli müvəkkil; elçi.

Gesándtschaft *f* (10) səlahiyyətli müvəkkillik; səfarətxana; missiya, səfirlik.

Gesáng *m* (1¨) nəğmə, mahnı.

Gesäß *n* (2) **1.** sarğı; **2.** oturulan yer (*stulda*).

Geschäft *n* (2) **1.** iş; **2.** əməliyyat (*ticarət*); saziş; **ein ~ abschließen** ticarət müqaviləsi bağlamaq; **3.** ticarət müəssisəsi, mağaza; firma.

Geschäfte || **macher** *m* möhtəkir, alverçi.

geschäftlich I *a* işgüzar; **II** *adv* işdən ötrü.

Geschäfts || **führung** *f dəft.* kargüzarlıq; **~gang** *m oh. pl* işin gedişi; **~gebaren** *n oh. pl* iş təcrübəsi; işin aparılma metodu; **~gegend** *f* şəhərin ticarət sahəsi; **~geheimnis** *n* ticarət sirri; **~haus** *n* ticarət müəssisəsi; **~jahr** *n* hesabat ili; **~mann** *m* (*pl* **-männer / -leute**) işbaz, tacir; **~ordnung** *f* **perlament** (*parlamentdə*); qayda, üsul, nizam; **~reisende** *m* səyyar ticarət agenti; **~verkehr** *m oh. pl* ticarət münasibəti, ticarət əlaqəsi.

geschätzt *a* hörməti, möhtərəm.

geschéhen *vi* (s) baş vermək, əmələ gəlmək; **das geschieht ihm recht** əcəb oldu, cəzasıdır, qoy çəksin; **er ließ es ruhig ~** o, manəçilik törətmədi; **es ist um ihn ~** o məhv olmuşdur.

Geschéhen *n* ~s, *oh. pl* hadisə.

Geschéhnis *n* (3˚) hadisə, vaqiə, əhvalat.
geschéit *a* ağıllı, dərrakəli, kamallı; **~ er Kopf** çox ağıllı adam; **du bist wohl nicht ganz ~!** sənin deyəsən ağlın başından çıxıb!
Geschénk *n* (2) hədiyyə, bəxşiş.
geschénkt *a* müftə; bağışlanmış.
Geschichte *f* (11) **1.** *oh. pl* tarix (*elm*); **2.** hadisə əhvalat; **3.** rəvayət; povest; hekayə; **das ist eine dumme ~!** bu ki bir axmaq əhvalatdır!; **mach keine ~n!** özündən tarix açma!, özünü gicliyə qoyma! (*hoqqa çıxartma*).
geschichtet I *a* qat-qat, lay-lay; **~ es Gestein** çöküntü dağ süxuru; **II** *adv* qatlarla.
geschichtlich *a* tarixi.
Geschichts || buch *n* tarix kitabı (*dərsliyi*); **~ forscher** *m* tarixçi (*tədqiqatçı*); **~ forschung** *f* istorioqrafiya (*elm*); **~ guelle** *f* tarixi mənbə (*sənəd* və s.); **~ schreiber** *m* tarixçi; **schreibung** *f oh. pl* istorioqrafiya; **~ wissenschaft** *f* tarix elmi.
Geschick *n* (2) **1.** tale, fələk; bəxt; **2.** cəldlik, zirəklik, bacarıq, məharət; **er hat weder ~ noch Gelenk** o, heç nəyə yaramır; onun əlindən heç bir iş gəlmir.
Geschicklichkeit *f* (10) bax: **Geschick II.**
geschickt I *a* cəld, diribaş; mahir; **in ~ er Weise** məharətlə, bacarıqla; *adv* cəld, bacarıqla.
geschieden *hüq.* boşanmış, boşamış.
Geschimpfe *n* ~s, *oh. pl* söyüş.
Geschirr *n* (2) **1.** qab-qacaq; **2.** qoşqu şeyləri (*yəhər, qayış*); **3.** qurğu, alət, cihaz; *dəniz.* gəmi ipləri; ◊ **sich ins ~ legen** səy göstərmək, işə girişmək.
Geschirr || macher *m* (6) sərrac.
Geschlámpe *n*-s, *oh. pl* **1.** pintilik, səli-

Geschléchts || orgán *n anat.* cinsiyyət üzvü; **~reife** *f oh. pl* cinsi yetkinlik, həddibüluğ; **~verkehr** *m* cinsi əlaqə; **~wahl** *f oh. pl biol.* irsi seçmə (*seçilmə*), **~wort** *n* (*pl* **-wörter**) *qram.* artikl; **~zeichen** *n biol.* cinsi əlamət.
Geschliffenheit *f oh. pl* **1.** itiləmə, itiləmə; **2.** cilalanma.
geschlóssen *a* **1.** qıfıllanmış, bağlanmış; örtülü, qapalı; **2.** sıx, yekdil; **eine ~e Versamlung** qapalı iclas; **~ vorgehen** birgə (yekdil) hərəkət etmək.
Geschlóssenheit *f oh. pl* **1.** örtülülük, qapalılıq; **2.** bütövlük, birlik.
Geschmáck *m* (1˚) zövq; həzz; **~ finden** (*an D*) vərdiş etmək; ◊ **Geschmäcke sind verschieden, über den ~ läßt sich nicht streiten** zövqlər müxtəlifdir, hər kəsin öz zövqü var.
geschmáck || los *a* dadsız, ləzzətsiz; zövqsüz.
Geschmácklosigkeit *f* **1.** *oh. pl* zövqsüzlük; **2.** *məc.* şitlik.
geschmáck || voll *a* ləzzətli, zövqlü.
Geschméide *n* (6) daş-qaş, cavahirat, boyunbağı.
geschméidig *a* **1.** elastiki, əyilgən; yumşaq (*dəri*); **2.** *məc.* üzüyola, tez yola gələn, tez ipə yatan.
Geschméiß *n* -es, *oh. pl* **1.** peyin; nəcis; **2.** həşərat; tüfeyli; **3.** *məc.* canilər dəstəsi, banda.
Geschmétter *n* -s, *oh. pl* şaqqıltı, gurultu; **~ der Nachtigall** bülbül cəh-cəhi.
Geschmiere *n* -s, *oh. pl* cızma-qara, ilan-qurbağa (*yazı*).
Geschnárche *n* -s, *oh. pl* xorultu, xoruldama.
Geschnátter *n* -s, *oh. pl* qarıldaşma (*qaz*);

geschúlt *a* təlim keçmiş; texniki cəhətdən hazırlanmış, ixtisaslı.
Geschütz *n* (2) *hərb.* top; **mit einem groben / schweren ~ auffahren** əsaslı dəlillər gətirmək.
Geschwáder *n* (6) *dəniz.* eskadra; *av.* eskadrilya.
geschwänzt *a* quyruqlu.
Geschwátz(e) *n* **-zes,** *oh. pl,* **Geschwätz(e)** *n* **-zes,** *oh. pl* boş danışıq.
geschwätzig *a* boşboğaz, naqqal, çərənçi.
Geschwätzigkeit *f oh. pl* söhbətcillik, dilini saxlamama.
geschwéige *adv* və *cj:* **~ denn** o handa da ola ...; o ki olsun ..., **er kann nicht englisch lesen, ~ denn schreiben** o ingiliscə oxuya bilmir, o ki olsun yazmağı.
geschwind *n* tez, sürətli, iti, cəld.
Geschwíndigkeit *f* (10) **1.** sürət, tezlik, yeyinlik, itilik; **2.** *idm.* temp; **in aller ~** təcili, tələsik; **in der größten ~** mümkün qədər tez.
Geschwírr *n* -(e)s, *oh. pl* uğultu; vızıltı (*güllə*).
Geschwíster *pl* bacı-qardaş; bacılar; qardaşlar.
Geschwíster || kind *n* **1.** əmioğlu; -qızı; **2.** qardaşoğlu, -qızı, bacıoğlu, -qızı.
geschwóllen *a* **1.** *tib.* şişmiş, köpmüş; **2.** *məc.* təmtəraqlı, ibarəli, təntənəli, qəliz.
geschwóren *a məc.* qəddar (*düşmən*).
Geschwór(e)ne *m, f* (9˚) *hüq.* andçı iclasçısı (*kişi, qadın*).
Geschwór(e)nen || gericht *n* andçılar məhkəməsi.
Geschwúlst *f* (3) *tib.* şiş.
Geschwür *n* (2) yara, irin, çiban.
Geséll *m* (8), **Geselle** *m* (9) **1.** yoldaş; gənc

(*ticarətdə*); **4.** aləm, kainat; aristokratlar; **5.** ittifaq; ◊ **wir haben ~** bizim qonağımız var; **er hat mir den ganzen Tag ~ geleistet** o bütün günü mənə yoldaşlıq etdi.
Geséllschafter *m* (6), **~in** *f* (12) **1.** həmsöhbət, müsahib (*kişi, qadın*); **2.** şərik.
geséllschaftlich *a* **1.** yoldaşsal; **2.** ictimai, ümumi, **~e Arbeit** ictimai iş; **3.** dünyəvi, dini olmayan.
Geséllschafts || ordnung *f* ictimai quruluş.
geséllschafts || widrig *a* cəmiyyətə zidd.
Gesénk *n* (2) *tex.* ştamp, puanson (*qəlib*).
Gesénke *n* (2) *tex.* eniş, yamac, maillik.
Gesétz *n* (2) qanun, qayda; **das ~ tritt in Kraft** qanun qüvvəyə minir; **das ~ verletzen** qanunu pozmaq; **das ~ anrufen** qanuna əsaslanmaq.
Gesétz || buch *hüq.* məcəllə, qanunlar külliyyatı; **~entwurf** *m* qanun layihəsi; **~kraft** *f oh. pl hüq.* qanunun gücü.
gesétz || gebend *a* qanunverici.
Gesétz || geber *m* (6), **~in** *f* (12) qanun verən (*kişi, qadın*); **~gebung** *f* (10) qanunvericilik; **~kunde** *f oh. pl* qanunşünaslıq.
gesétzlich *a* qanuni, qanunauyğun; **~ geschützt** qanunla qorunan.
Gesétzlichkeit *f oh. pl* qanunçuluq, qanunilik.
gesétz || los *a* qanunsuz.
Gesétzlosigkeit *f oh. pl* qanunsuzluq; anarxiya.
gesétz || mäßig I *a* qanunauyğun; **II** *adv* qanunla.
gesétzt *a* **1.** yaşlı, ahıl; **in ~em Alter** yaşlı, yaşa dolmuş; **2.** fərz edilən, təxmin edilən; **~ den Fall** fərz edək ki, tutaq ki, belə zənn edək ki.
gesétz || widrig *a* qanunazidd.
gesichert *a* təmin olunmuş; zəmanət veril-

zu ~ paltar ona yaraşır; **er machte ein ~ wie sieben Tage Regenwetter** o, mısmırığını salladı.

Gesichts || ausdruck *m oh. pl* üz ifadəsi; **~feld** *n oh. pl* görüş dairəsi; **~kreis** *m, oh. pl* bilik dairəsi, bilik səviyyəsi; **seinen ~ erweitern** bilik səviyyəsini artırmaq; **~nerv** *m* **1.** üz siniri; **2.** *anat.* görmə siniri; **~punkt** *m* baxım, nöqteyi-nəzər, baxış; **von meinem ~ aus gesehen** mənim baxışımdan yanaşdıqda; **~ sinn** *m* görmə duyğusu, görmə qabiliyyəti; **~täuschung** *f* göz aldanışı; **~winkel** *m* baxışdan uzaq yer (*həmç. məc.*); **~züge** *pl* üz cizgiləri.

Gesims *n* (2) karniz, pərvaz, çıxıntı.

Gesinde *n* (6) ev qulluqçusu.

Gesindel *n* (6) tör-töküntü, zir-zibil (*cəmiyyətə zidd adamlar*).

gesinnt *a* (*gegen A*) hüsn-rəğbət göstərən; yaxşı münasibət bəsləyən (*kimsə*); **er ist freundschaftlich gegen mich ~** o mənə dostluq münasibəti bəsləyir; **feindlich ~** düşmənçəsinə; **wie ist er ~?** onun əhvalı necədir?, onun əqidəsi necədir?

Gesinnung *f* (10) əqidə, məslək, etiqad; **seine ~ an den Tag legen 1.** öz əqidəsini bildirmək; **2.** əsil simasını göstərmək.

Gesinnungs || genósse *m* fikirdaş, məsləkdaş.

gesinnungs || los *a* prinsipsiz.

gesittet *a* **1.** nəzakətli, ədəbli, mərifətli; **2.** tərbiyəli; **3.** mədəni; **ein ~es Volk** mədəni xalq.

gesóndert *a* xüsusi, ayrı; *qram.* xüsusiləşmiş.

gesónnen bax: **sinnen.**

Gespánn *n* (2) qoşqu, at arabası; at-araba.

gespánnt *a* gərgin (*həmç. məc.*); **eine ~e Lage** gərgin vəziyyət; **~e Werhältnisse** gərgin münasibətlər.

Gespánntheit *f* (10) gərginlik.

Gespénst *n* (5) qarabasma, xəyal; vahimə, kölgə.

Gespénst || heischrecke *f zool.* çəyirtkə.

gespérrt *a* və *adv* bağlanmış; **~!** yol bağlıdır!; *mətb.* seyrəltmək, aralı; **~ setzen** seyrəltmək, aralı yığmaq; **~es Holz** fanera.

Gespiele *m* (9) uşaqlıq yoldaşı.

Gespinst *n* (2) iplik; toxunmuş şey.

Gespött *n* -(e)s, *oh. pl* istehza, masqara; ələsalma, təhqir; **zum ~ werden** gülünc olmaq; **sein ~ mit** *j-m* **treiben** kimisə lağa qoymaq.

Gespöttel *n* -s, *oh. pl* istehza; lağ.

Gespräch *n* (2) söhbət, danışıq; **ein ~ anknüpfen** söhbətə başlamaq.

gesprächig *a* danışqan, söhbətcil.

Gesprächigkeit *f oh. pl* söhbətcillik.

gespreizt *a* aralanmış.

gespróchen *a*: **das ~e Wort** canlı nitq.

Gespúte *n* -s, *oh. pl* tələsmə, tələsiklik.

Gestáde *n* (6) sahil, kənar.

Gestált *f* (10) **1.** fiqura, boy-buxun, quruluş; **2.** forma, görünüş.

gestálten I *vt* rəng vermək; düzəltmək; lazımi şəklə salmaq; **II sich ~** görünüş almaq; *məc.* şəkil almaq.

Gestáltung *f* (10) **1.** bəzəmə, müəyyən şəklə salma; **2.** forma, təsvir; **die ~ der Dinge** şeylərin vəziyyəti.

Gestámmel *n* -s, *oh. pl* pəltəkləmə, kəkələmə.

Gestámpfe *n* -s, *oh. pl* tappıltı (*ayaq səsi*).

geständig *a*: **~ sein** etiraf etmək, boynuna almaq.

Geständnis *n* (3) etiraf; boynuna alma; **ein ~ ablegen** etiraf etmək (*öz təqsirini*).

Gestánk *m* -(e)s, *oh. pl* üfunət, pis qoxu.

Gestapo *f*, **Gehéime Stáatspolizei** Gestapo, gizli dövlət polisi (*faşist Almaniyasında*).

gestátten *vt* icazə vermək, yol vermək; **~ Sie!** müsaidənizlə!, izin verin!

Gestäude *n* (6) kol, kolluq.

Geste ['gestə] (11) *f* jest.

gestéh(e)n *vt* etiraf etmək; boynuna almaq; **sein Unrecht ~** təqsirini boynuna almaq.

Gestéhungs || kosten *pl iqt.* istehsal xərcləri.

gesteigert *a* yüksək, yüksəldilmiş.

Gestéin *n* (2) daş, daş-qaş; süxur.

Gestéll *n* (2) **1.** dayaq, altlıq, bünövrə; stellaj (*bir şeyi dik halda saxlamaq üçün qurğu*); **2.** özül (*maşın və dəzgahın özülü*); qoşa-təkərli ox (*arabada*); **3.** cığır.

Gestéllung *f* (10) **1.** tədarük, hazırlıq; **2.** *hərb.* çağırış, yığma (*əsgərliyə*).

gestérn *adv* dünən; **von ~, seit ~** dünəndən (bəri); **~ früh** dünən səhər; **wir sind nicht von ~** bizə ağıl öyrətməyin.

gestiefelt *a* (*uzunboğaz*) çəkməli; **~ und gespornt** yola hazırlanmış.

gestikulieren *vi* əl-qolla hərəkət etmək, əl-qolunu oynatmaq.

Gestírn *n* (2) *astr.* bürc (*ulduzlar topası*); göy cismi.

gestírnt *a* ulduzlu.

Gestöber *n* (6) boran, çovğun.

Gestöhn(e) *n*, **-nes,** *oh. pl* inilti, ah-vay.

Gestólper *n* -s, *oh. pl* **1.** büdrəmə, ilişmə; basabas; basırıq; **2.** *məc.* duruxma, tutulma (*danışarkən*).

Gestótter *n* -s, *oh. pl* kəkələmə, pəltəklik.

Gestráuch *n* (2) kolluq; kol.

gestréift *a* zolaqlı, zol-zol, zolaq-zolaq.

gestréng *a* ciddi, sərt.

gestrichelt *a* ştrixlənmiş, cızıqlanmış.

géstrig *a* dünənki.

gestürzt *a* devrilmiş, yıxılmış; çevrilmiş, aşırılmış.

Gestrüpp *n* (2) qalın kolluq; alçaq kolluq.

Gesúch *n* (2) ərizə (*um A*); **~ um Anstellung** işə girmək ərizəsi.

gesúnd *a* sağlam; möhkəm; **der ~e Menschenverstand** sağlam düşüncə; **ein ~er Geist in einem ~en Körper** sağlam bədəndə sağlam ruh.

Gesúnd || brunnen *n* mineral su mənbəyi.

gesúnden *vi* (*s*) sağalmaq, yaxşılaşmaq.

Gesúndheit *f oh. pl* səhhət, sağlamlıq, cansağlığı; **zur ~!** nuş olsun!

Gesúndheits= *mürək. isimlərdə* gigiyenik, sanitar; **Gesundheits || ausschuß** sanitar komissiyası.

Gesúndheits || amt *n* səhiyyə şöbəsi.

gesúndheits || halber *adv* sağlamlıq xatirinə, sağlamlıq üçün.

gesúndheits || schädlich *a* sağlamlığa zərərli; **~e Betriebe** (*sağlamlığa*) zərərli müəssisə.

Gesúndheits || wesen *n* səhiyyə, səhiyyə işləri; **Ministerium für ~** Səhiyyə Nazirliyi.

Gesúndung *f oh. pl* sağlamlaşdırma, sağlamlaşma, yaxşılaşma.

gesúnken *a* batmış, qərq olmuş; **das ~e Schiff** batmış gəmi.

getán: tun *felinin part* II'i.

getéert *a* qatranlanmış, qatran sürtülmüş.

getéilt *a* bölünmüş, ayrılmış, ayrı; **~e Ansichten** müxtəlif nəzərlər (baxışlar) fikirlər; **~e Empfindungen** fərqli duyğular (hisslər).

Getrier *n* -(e)s, *oh. pl* heyvanat.

Getös(e) *n* **-ses,** *oh. pl* uğultu, gurultu.

getrágen *a* **1.** geyilmiş, nimdaş; **2.** söykənən, dirənən.

Getrámpel *n* -s, *oh. pl* tappıltı (*ayaq səsi*).

Getränk *n* (2) içki.

Getráppel *n* -s, *oh. pl* tappıltı (*heyvan ayaqlarının*).

getráuen *vt* və **sich ~** cürət etmək, cəsarət etmək, ürək etmək; **ich getraue mich nicht zu kommen** gəlməyə ürək etmirəm.

Getréibe *n* -s, *oh. pl* canlanma.

Getréide *n* -s, *oh. pl* **1.** dənli bitkilər; **2.** taxıl.

Getréide || bau *m oh. pl* əkinçilik, rəncbərlik; **~beschaffung** *f* taxıl tədarükü; **~feld** *n* əkin yeri; **~pflanzen** *pl* dənli bitkilər; **~vorrat** *m* taxıl tədarükü.

getrénnt *a* ayrılmış; ayrı, aralanmış.

Getrénntheit *f* (10), **Getrénnt || sein** *n* ayrılıq; əlaqəsizlik, ayrılma.

getréu *a* sadiq, etibarlı; **~ der Wahrheit** həqiqətə uyğun; **ein ~es Abbild** həqiqi, düzgün portret.

getréulich *adv* sədaqətlə; mötəbər, düz.

Getriebe *n* (6) **1.** *məc.* vurnuxma, hərəkət; canlanma, dirçəlmə; **2.** *tex.* ötürücü mexanizm.

getrieben *a*: **~es Gold** kəsilmiş qızıl.

getróst *a* arxayın, xatircəm; dinc, rahat; **seien Sie ~!** narahat olmayın!; **er ist nicht recht / nicht ganz ~** onun ağlı başında deyil.

getrösten (sich) (*G*) arxayın olmaq, (*nəyəsə*) güvənmək, bel bağlamaq.

Getrümmer *n* -s, *oh. pl* xarabaxana, xarabazarlıq; qırıntı, tör-töküntü.

Getúe *n* -s, *oh. pl* **1.** vurnuxma; **2.** özünü üzmə.

Getümmel *n* -s, *oh. pl* qarışıqlıq, çaxnaşma, hərc-mərclik, basırıq, basabas.

Getúte *n* -s, *oh. pl* fit, fit səsi.

geübt *a* təcrübəli, mahir; təlim görmüş.

Geübtheit *f oh. pl* vərdiş; təcrübəlilik, təcrübə.

Gevátter *m* (6), **~in** *f* (12) kirvə; dost (*kişi, qadın*).

Gewächs *n* (2) **1.** bitki; **2.** *tib.* şiş; ◊ **verdächtiges ~** şübhəli adam.
Gewächs ‖ haus *n* oranjereya, istixana.
gewáchsen *a: j-m ~* **sein** kimsə tay olmaq (*gücdə*); **er ist dieser Ausgabe ~** o bu vəzifənin öhdəsindən gələ bilər.
gewählt *a* seçilmiş; gözəl (*danışıq*).
gewáhr *a: ~ werden* (*G, A*) görmək; aşkar etmək; **wir wurden unseres Irrtums / unseren Irrtum ~** öz səhvimizi anladıq (başa düşdük).
Gewähr *f oh. pl* zəmanət, zaminlik; **~ leisten** zəmanət vermək, zamin olmaq.
gewáhren *vt* (*A, G*) görmək, (*nəyisə*) tapmaq.
gewähren *vt* **1.** hüquq (ixtiyar) vermək; **2.** kreditlə təmin etmək; nisyə vermək; **3.** güzəşt etmək; **4.** yerinə yetirmək; **eine Bitte ~** xahişi yerinə yetirmək; *j-n ~* **lassen** kimsə külli-ixtiyar vermək.
gewährleisten *vt* zəmanət vermək, zamin olmaq, zaminlik etmək.
Gewährleistung *f* zaminlik, zəmanət.
Gewährsam *m* (1) **1.** qoruma, saxlama; mühafizə etmə; **eine Ware in ~ nehmen** malı saxlamağa götürmək; **2.** *n* (2) həbsxana; **in ~ bringen / nehmen / setzen** həbs etmək.
Gewährs ‖ mann *m* **1.** zamin olan; **2.** böyük nüfuza malik olan şəxs.
Gewährung *f* (10) **1.** yerinə yetirmə, razı salma; **2.** icazə vermə, imkan vermə.
Gewált *f* (10) **1.** hakimiyyət, ixtiyar; güc; **seine ~ bekommen** sahib olmaq (*nəyəsə, kimsəyə*); zəbt etmək, almaq; *j-n* **unter seiner ~ haben** kimisə öz əsarətində saxlamaq; kimsə hökmranlıq etmək; **unter seine ~ bringen** əlinə keçirmə, təsiri altına almaq; **2.** güc, qüvvət; **höhere ~** qarşısı alına bilməyən güc, fövqəladə vəziyyət; **3.** güc, zor, zorakılıq; **mit ~** güclə, zorla; **~ antun** (*D*) məcbur etmək, (*kimisə*) zorlamaq; **sich** (*D*) **~ antun** 1) özünü məcbur etmək; 2) özünə qəsd
Gewált ‖ brief *m* icra vərəqəsi; **~haber** *m* hökmdar; **~herrschaft** *f oh. pl* zülmkarlıq; istibdad üsuli-idarəsi; **~herrscher** *m* zalım hökmdar, zülmkar.
gewáltig *a* qüvvətli, qüdrətli; nəhəng, olduqca böyük.
Gewáltigkeit *f* (10) **1.** qüdrət, əzəməti, **2.** böyüklük, nəhənglik.
gewáltsam, gewált ‖ tätig *a* məcburi, zorakı, zor gücü ilə həyata keçirilən.
Gewált ‖ tat *f* zor, güc; zorakılıq.
Gewánd *n* (5) və (*pl* **-e**) paltar; geyim, libas.
gewándt *adv* cəld, zirək; bacarıqlı, diribaş; mahir, məharətli.
gewärtig *a: ~ sein* (*G*) gözləmək; (*kimisə, nəyisə*); **ich war dieser Sache ~** mən bunu (*bu işi*) gözləyirdim.
gewärtigen I *vt, vi* gözləmək; **II sich ~** (*G*) **/ gewärtig sei)** hazır olmaq (*nəyəsə*); **du hast dich dessen zu ~** bunu gözləyə bilərsən.
Gewässer *n* (6) **1.** sular; **2.** ləpələr; **3.** su axını; **4.** dəniz.
gewässert *a* su hopdurulmuş.
Gewébe *n* (6) **1.** parça; **2.** toxuma, hörmə; *məc.* hiylə, kələk; **3.** hörümçək toru.
gewéckt *a* zirək, cəld, qoçaq; **ein ~es Kind** bilikli uşaq.
Gewéhr *n* (2) tüfəng.
Gewéhr ‖ kolben *m* qundaq (*tüfəngdə*); **~lauf** *m* lülə (*silahda*).
Gewéih *n* (2) maral buynuzu; ◊ **j-m ein ~ aufsetzen** ərinə bir neçə dəfə xəyanət etmək; ərinə şaxəli buynuz qoymaq.
Gewéine *n* -s, *oh. pl* ağlama, inləmə.
gewéllt *a* dalğalı; büzməli.
Gewénde *n* (6) *k.t.* mərz, sınır.
Gewérbe *n* (6) sənət; peşə; məşğuliyyət; **ein ~ treiben** sənətlə (peşə ilə) məşğul olmaq; **Handel und ~** ticarət və sənaye.
Gewérb(e)= *mürəkkəb isimlərdə:* sənət, sənaye; **Gewérbe ‖ ausstellung** *f* sənət (sənaye) sərgisi.

gewérbs ‖ mäßig *a* sənət/peşə ilə əlaqədar olan; peşəkar.
Gewérkschaft *f* (10) həmkarlar təşkilatı.
gewérkschaftlich *a* həmkarlar (*sif.*); **ich bin ~ organisiert** mən həmkarlar ittifaqının üzvüyəm.
Gewérkschafts ‖ beitrag *m* həmkarlara üzvlük haqqı; **~bewegung** *f oh. pl* həmkarlar hərəkatı; **~buch** *n* həmkarlar ittifaqı bileti.
Gewícht *n* (2) **1.** çəki, ağırlıq; **2.** çəki daşı; **3.** *oh. pl məc.* çəki, nüfuz; əhəmiyyət; **er legte ~ auf diesen Umstand** o bu vəziyyətə böyük əhəmiyyət verirdi; **dieser Umstand fällt schwer ins ~** bu durumun böyük önəmi var; **ein Mann von ~** nüfuzlu adam, sözü keçən adam.
gewíchtig *a* **1.** ağır; dəyərli (*pul*); **2.** *məc.* qiymətli, tutarlı; mötəbər; nüfuzlu; **~er Grund** üzürlü səbəb.
Gewichts ‖ angabe *f* çəkinin göstərilməsi; **~tabélle** *f* çəki cədvəli; **~verlust** *m* çəkidən itirmə; **~zunahme** *f* çəkinin artması.
gewiegt *a məc.* təcrübəli; cəld.
Gewíeher *n* -s, *oh. pl* **1.** kişnərti; **2.** *dan.* bərk gülüş, qəhqəhə.
gewillt *a: ~ sein* niyyət etmək, fikrində olmaq, razı olmaq, meyil göstərmək.
Gewímmel *n* -s, *oh. pl* hərəkət edən dəstə; basabas, basırıq.
Gewímmer *n* -s, *oh. pl* hönkürtü, ağlaşma.
Gewínde *n* (6) **1.** əklil, çələng. **2.** *tex.* yiv, şeş.
Gewínn *m* (1) **1.** qazanc, gəlir; **2.** uduş; **3.** *tex.* istehsal, hasilat.
Gewínn ‖ anleihe *f* uduşlu istiqraz.
gewínn ‖ bringend *a* qazanclı, mənfəətli.
gewínnen I *vt* **1.** (*von D*) udmaq (*kimdənsə*); **2.** əldə etmək; **3.** almaq; **den Eindruck ~** *məc.* təsir oyatmaq; **4.** nail olmaq; əldə etmək; **Einluß ~** nüfuz qazanmaq; **5.** (*für A*) *məc.* təsir altına salmaq, təhrik etmək (*nəyəsə*); **für sich**
gewínnt an Klarheit məsələ aydınlaşır; **von** etw. **~** nədənsə qazanc götürmək.
gewínnend *a* cəzb edən, hüsn-rəğbət oyadan, cəlb edən; **er hat eine ~e Art** onun rəftarında nəsə bir cazibədarlıq var.
Gewínner *m* (6) **1.** udmuş, udan (*şəxs*), uduşçu; **2.** uduş nömrəsi.
Gewínn ‖ liste *f* uduş cədvəli.
Gewínn ‖ sucht *f oh. pl* tamahkarlıq, xəsislik, mənfəət güdmə.
Gewínnung *f* (10) alma; hasil etmə; tapma, çıxarma (*filiz*).
Gewínsel *n* -s, *oh. pl* zingilti, ciyilti.
gewiß I *a* **1.** düzgün, həqiqi, şübhəsiz; **2.** kim isə, birisi, müəyyən, tanınan; **ein gewißer Fleischer** Flayşer adlı birisi; **II** *adv* yəqin (*ki*), şübhəsiz; əlbəttə; **~ doch** əlbəttə; **ganz ~** mütləq, hökmən; **ich bin meiner Sache ~** mən öz işimin uğuruna əminəm.
Gewíssen *n* (7) vicdan, insaf; həya, abır; **man muß ihm ins ~ reden** onu utandırmaq (onun abrını vermək) lazımdır; **er macht sich kein ~** o utanmır/onun abır-həyası yoxdur.
gewíssenhaft *a* vicdanlı, məsuliyyətli.
gewíssen ‖ los *a* həyasız, utanmaz; vicdansız, insafsız.
Gewíssens ‖ bisse *pl* vicdan əzabı; **~freiheit** *f* vicdan azadlığı.
gewísser ‖ maßen *adv* qismən, bir dərəcəyə qədər.
Gewißheit *f* (10) (*G*) yəqinlik, əminlik, həqiqilik; inam; **die ~ des Sieges** qələbəyə inam.
Gewítter *n* (6) tufan.
gewíttern *vimp:* **es gewittert** tufan qopur.
gewítzigt, gewítzt *a* təcrübəli, ağıllı, bilici.
Gewóge *n* -s, *oh. pl* dalğalanma (*su*).
gewógen: wägen / wiegen fellərinin *part II*'si; *a* **1.** çəkilmiş (*tərəzidə*); **2.** meyilli, meyli olan; **er ist mir ~** o mənə rəğbət bəsləyir; onun mənə meyli var.

Gewóhnheits || recht *n hüq.* adət hüququ.
gewöhnlich I *a* adi; həmişəki; sadə; şit; **II** *adv:* **für ~** adətən, adət üzrə.
gewóhnt *a* adət olunmuş; öyrənçəli; **die ~e Lebensweise** adət edilmiş həyat tərzi.
gewöhnt *a* öyrədilmiş, alışdırılmış (*an A* nəyisə).
Gewölbe *n* (6) **1.** qübbə; **2.** zirzəmi; anbar; **3.** sərdabə.
Gewólke *n* -s, *oh. pl* bulud, duman.
Gewühl *n* -(e)s, *oh. pl* **1.** qarışma, bellomo, **2.** basabas, basırıq; **im ~ der Schlacht** vuruşmanın qızğın çağında.
gewúnden *a* **1.** burulmuş; qıvrımlı; əyri-üyrü, əyri, bükük, **2.** toxunmuş; **eine ~e Erklärung** *məc.* dolaşıq izahat.
gewúrfelt *a* **1.** dama-dama; **2.** *bot.* ala-bəzək, ala-bula.
Gewúrm *n* (2) **1.** sürünənlər, **2.** qurd, səxalcan; **3.** *məc.* naxıs, bədəsil.
Gewürz *n* (2) tündlük, tündməzaclıq; ədviyyə, ədviyyat.
Gewürz || nelke *f* mixək.
gezáckt, gezáhnt *a* dişli, diş-diş.
Gezáppel *n* -s, *oh. pl* çapalama, çıpınma.
Gezéit *f* -, **-en** dənizdə hərəkət, *pl* qabarma və çəkilmə (*dəniz suları*).
Gezélt *n* (2) çadır, alaçıq.
Geziefer *n* (6) həşərat, cücü.
geziemen *vi, vimp* və **sich ~** yaraşmaq, layiq olmaq; **es geziemt sich (nicht)** ... yaraşmaz.
geziemend *a* yaraşan, layiq olan, münasib, layiqli.
geziert *a* zəbtəli; ədalı, nazlı, qəmzəli, qəlizlənmiş.
Gezíscht(e) *n* -sches, *oh. pl* üşkü, köpüklənmə.
Gezíschel *n* -s, *oh. pl* dedi-qodu, qeybət, pıçıltı.
Gezúcht *n* -(e)s, *oh. pl* tayfa, səy, nəsil.
gezückert *a* şirin.
Gezwéig *n* -(e)s, *oh. pl* budaq, şaxə.
gezwéigt *a* qollu-budaqlı, şaxəli.
Gezwítscher *n* -s, *oh. pl* civiltı, cəh-cəh, cik-cik.
gezwúngen I *a* məcbur edilmiş; qeyri-təbii, qeyri-adi, **II** *adv:* məcburi; təbii olmayan, süni, **~ lächeln** süni (zorla) gülümsəmək.

Gicht I *f oh. pl tib.* podaqra, duzlaşma.
Gicht II *f* (10) *tex.* domna sobasının ağzı.
Giebel *m* (6) *arxit.* fronton, binanın ön hissəsi (burnu).
Giebel || dach *n* qoşa çatalı dam; **~ tübchen** *n* evin yuxarı hissəsində kiçik otaq, mansard.
Gier *f oh. pl,* **Gierde** *f oh. pl* acgözlük, tamahkarlıq; xəsislik, simicilik.
gieren *vi* (*nach D*) **1.** həsətində olmaq (*nəyinsə*), susamaq, **2.** *dəniz.* *dv* axınla üzmək (*gəmi*), istiqamətdə pozmaq.
gierig *a* acgöz, tamahkar; xəsis, simic.
gießen I *vt* və *vi* **1.** tökmək, **2.** *tex.* boşaltmaq, tökmək (*çuqun və s.*); **II** *vimp:* **es gießt** yağış sel kimi yağır.
Gießer *m* (6) tökməçi (*metaltökən təbəə*).
Gießerei *f* (10) **1.** tökmə sexi, tökmə emalatxanası; **2.** tökmə işi, **3.** *məh.* hörtükəri emalatxana.
Gieß || flasche *f tex.* polad qəlib; **~form** *f* tökmə qəlibi; **~haus** *n*, **~hütte** *f* tökmə zavodu; **~kanne** *f* suçıləyən; parç, çaləş; **~ofen** *m tex.* ərütmə sobası, ərüdici soba.
Gift *n* (2) **1.** zəhər, ağı; **2.** *məc* qəzəb, **~ er speit ~ und Galle** o, əd-ələvi püskürür (*hirsindən*).
giften I *vi məc* zəhərlənmək, acılanmaq; **II sich ~** *məc* hirslənmək.
giftig *a* **1.** zəhərli, **2.** *tib* virulent (*zəhərli törəmə bilən*), **3.** *məc* acı, zəhərli.
Giftigkeit *f* **1.** zəhərlilik; acılıq, **2.** *tib* virulentlik (*mikrobun xəstəliktörətmə qabiliyyəti*), **3.** *məc* acıdillilik, otiaclıq.
Gift || kröte *f* zəhərli qurbağa; **~mischer** *m* zəhərləyən (*şəxs*); **~mischerei** *f* bəhtan; **~pfiz** *m* zəhərli göbələk; **~stoff** *m* zəhərləyici maddə.
Gigánt *m* (8) giqant, nəhəng.
gigántenhaft, gigántisch *a* nəhəng, çox böyük.
Gigerl *m* (6) modabaz.
gigerlhaft *a* bərbəzəkli, bəzək-düzəkli.
Gilde *f* (11) gildiya, təşkilat.
Gimpel *m* (6) **1.** *zool* qar quşu, **2.** *məc* axmaq, sarsaq.
Gipfel *m* (6) uc, zirvə, təpə, kəllə; **~ eines Berges** dağın zirvəsi, **~ eines**

Baumes ağacın təpəsi; **auf dem ~ des Ruhmes** şöhrətin zirvəsində.
Gipfel || leistung *f* yüksək məhsuldarlıq; rekord (*ən yüksək başarı*).
Gips *m* (1) gips.
Giráffe [gi-, *bəzən* ʒi] *f* (11) *zool.* zürafə.
Girlánde *f* (11) zəncirə, hörük, çiçək hörüyü.
girren *vi* qurüldamaq (*göyərçin*).
Gischt *m* (1) köpük, sıçrantı.
Gitárre *f* (11) gitara.
Gitter *n* (6) barmaqlıq, şəbəkə.
Gitter || fenster *n* barmaqlıqlı (şəbəkəli) pəncərə.
Glacé || handschuh *m* keçi dərisindən (şamşaq olcək, **mit ~ en anfassen** *məc* kimisə nəzakətlə (ehtiyatla) davranmaq.
Glanz *m* (1) parıltı, şəfəq; **falscher ~** saxta parıltı; **den ~ verlieren** tutqunlaşmaq, qatılmaq.
glänzen I *vi* parıldamaq, şəfəq saçmaq, işıldamaq, fərqlənmək, **II** *vt* parıldatmaq, işıldatmaq, sığal vurmaq.
glänzend *a* parlaq; şəfəqli; *məc* üstün, çox yaxşı; **ein ~er Redner** *məc* çox gözəl (məhir) natiq.
Glánz || kohle *f məd.* antrasit (*daş kömürün ən yaxşı növü*).
glánzlos *a* **1.** tutqun, donuq, **2.** *məc* gorkemsiz, çırkin.
Glánz || punkt *m oh. pl* üst, apogey (*ən yüksək zirvə*); **der ~ des Programms** proqramın məğzi (canı), **~stoff** *m oh. pl* sünı ipək.
glánz || voll *a* parlaq.
Glas *n* (5) **1.** şüşə; **2.** stəkan, piyalə; **drei ~ Tee** üç stəkan çay, **3.** gözlük, eynək; **ohne ~ kann ich nicht lesen** eynəksiz oxuya bilmirəm; **4.** binokl.
Glás || asche *f* soda; **~auge** *n* **1.** sünı göz, **2.** *məc* mənasız (boş) baxış, **~bläser** *m* şüşəçi, üfürməklə şüşə hazırlayan fəhlə.
Glaser *m* (6) şüşəsalan; **~ ist dein Vater ~? ~ dein Vater war doch kein ~!** işığın qabağını kəsmə (işığın qabağından çəkil).
Glaserei *f* (10) **1.** şüşəçilik, **2.** şüşə emalatxanası.
glásern *a* şüşə, şüşəli.
Glás || fabrik *f*, **~hütte** *f* şüşə zavodu; **~malerei** *f* şüşə üzərində şəkil; şüşədə nəqqaşlıq; **~röhre** *f* **1.** şüşə boru; **2.** sınaq borusu, sınaq şüşəsi; **~scheibe** *f* pəncərə şüşəsi; **~scherbe** *f* şüşə qəlpəsi, şüşə qırığı; **~schleifer** *m* şüşə cilalayıcısı (*fəhlə*); **~schrank** *m* **1.** şüşə dolab; **2.** şüşə qablar dolabı; **~türe)** *f* şüşə qapı.
Glasur *f* (10) **1.** şirə (*suvaqların üzünə çəkilmiş məhlul*), **2.** mərə (*diş*), **3.** şəffaf lak, **4.** şirə (*yağlar şirəsi*).
gläsig *a* **weise** *a* stəkan-stəkan.
glatt *a* **1.** daz, hamar, **2.** sürüşkən, **3.** xalis; **die Sache geht ~** iş yaxşı gedir, **4.** yaltaq, fırıldaq; **~e Worte** yaltaq sözlər; **es eine ~e Lüge** bu, ağ yalandır; **er hat ~ abgeschlagen** o, tam rədd etdi.
Glätte *f* (11) **1.** hamarlıq, sürüşkənlik, **2.** *məc* pardıdama, düzəltmə, sığallama.
Glätt || eis *n* sürüşkə, buz bağlama; **~ aufs ~ führen** *məc* kimisə aldatmaq.
glätten *vt* ütüləmək, hamarlamaq, pardıdatmaq.
glätt || machen *vt* ütüləmək, hamarlamaq, hamarlayıb düzəltmək.
glátt || weg *adv* düz, təmiz, tamamilə, **~ absagen** qəti surətdə imtina etmək.
glatt || zungig *a* yaltaq.
Glätze *f* (11) daz, dazlaşmış yer, çılpaq yer.
glätzig *a* daz.
Glátz || kopf *m* dazbaş.
glátz || köpfig *a* daz, dazbaş.
gläubbar *a* ağlabatan, həqiqətə uyğun.
gläuben I *vt* **1.** inanmaq; **2.** duyunmək, güman etmək; **ich glaube es nicht** mən buna inanmıram, **II** *vt* (*an A*) inanmaq (*nəyəsə, nəyəsə*), etiqad etmək; **er glaubt an nichts** onun heç nəyə etiqadı yoxdur; **? er muß [soll] daran ~** *dem.* **1.** o bununla razılaşmalıdır, **2.** onun işi bitdi.
Gläube(n) *m* -, *oh. pl* **1.** inam, etibar (*an A*), **2.** *din* inam, iman, etiqad.
Gläubens || bekenntnis *n* din, məzhəb, imana tapınış.
gläubhaft *a* inamlıcaq, ağıkəsən, həqiqətə uyğun.
gläubig *a din* mömin, dindar, saleh.
Gläubiger *m* (6), **-in** *f* (12) kreditor, kredit verən, borc verən (*öz. qadın.*).

gláublich, gláub || **würdig** *a* həqiqətə uyğun, mümkün ola bilən, ehtimal edilən, ağlabatan.

Gleichheits || **zeichen** *n riyaz.* tənlik işarəsi (=).

gléich || **kingend** *a* həmahəng, həmavaz

gléich || **gültig** *a* laqeyd, etinasız, fərqsiz (*gegen A, gegenüber D*).

Gléichheit *f* (10) bərabərlik; eynilik, həm-

gléich || **setzen** *vt* bərabər (tay) tutmaq.

konvex ['vɛks] *a fiz.* qabarıq.
konzedíeren *vt* güzəşt etmək, razılaşmaq (*bir şeydə*).
Konzentrát *n* (2) konsentrat; qatılaşdırılmış xammal.
Konzentratión *f* (10) bir yerə toplanma, bir yerə yığılma; yığma, toplanma.
Konzentratións || lager *n* həbs düşərgəsi.
konzentríeren *vt* **1.** bir yerə toplamaq, bir yerə yığmaq; **2.** *kim.* qatılaşdırmaq, qəlizləşdirmək.
konzéntrisch *a* konsentrik, ortaq mərkəzli.
Konzépt *n* (2) qaralama layihə, konspekt; **aus dem ~ kommen** *məc.* çaşmaq; karıxmaq; *j-m* **das ~ verderben*** *dan.* kiminsə planını pozmaq.
Konzeptión *f* (10) **1.** konsepsiya; fikir, yaradıcılıq planı; **2.** mayalanma, döllənmə.
Konzért *n* (2) konsert.
Konzért || flügel *m* konsert royalı.
konzertíeren *vi* konsert vermək.
Konzessión *f* (10) **1.** *iqt.* konsessiya; **2.** icazə, güzəşt.
konzessionieren *vt iqt.* konsessiya vermək.
Konzessións || urkunde *f iqt.* patent.
Konzessív || satz *m qram.* güzəşt budaq cümləsi.
konzipíeren *vt* qarasını cızmaq.
Kooperatión *f* (10) *iqt.* əməkdaşlıq, bir yerdə işləmək; kooperasiya.
kooperíeren *vi* birlikdə təsir göstərmək.
kooptíeren *vt* kooptasiya etmək (*öz heyətinə seçkisiz yeni üzv daxil etmək*).
koordinïeren *vt* uyğunlaşdırmaq, uzlaşdırmaq, əlaqələndirmək.
Kopéke *f* (11) qəpik.
Köper || tuch *n* (*pl* **-tuche**) drap.
Kopf *m* (1*) **1.** baş; **den ~ oben behalten*** 1) başını dik tutmaq; 2) *məc.* ruhdan düşməmək; **den ~ hängen lassen*** *məc.* ruhdan düşmək; **er weiß nicht, wo ihm der ~ steht** o, başını itirib; ◊ **das will ihm nicht in den ~** *məc.* bu onun başına girmir; **er ist nicht auf den ~ gefallen** *məc.* o, axmaq deyil; **der ~ steht ihm nicht recht** *məc.* o özündə deyil; *j-m* **den ~ warm machen** *məc.* kimisə qızışdırmaq; *j-m* **den ~ waschen*** kimisə danlaqdan keçirmək; *j-m* etw. **auf den ~ zusagen** *məc.* kimisə təqsirləndirmək; *j-m* **über den ~ wachsen*** *məc.* kimisə ötüb keçmək (*birlikdə*); *j-m* **den ~ zurechtrücken** *məc.* kiminsə başına ağıl qoymaq; **die Köpfe zusammenstecken** *məc.* pıçıldaşmaq; **alles auf den ~ stellen** hər şeyi alt-üst etmək; **sich (*D*) die Augen aus dem ~e sehen** *məc.* gözlərini xarab etmək (*çox işləməkdən*); **mit bloßem ~e** açıq başla, başıaçıq; **Hals über ~** çox iti, çox cəld; **die Hände über dem ~e zusammenschlagen*** əllərini başı üstündə çarpazlamaq; **2.** ağıl, zehin, dərrakə, idrak; **ein klarer ~** ağıllı baş, aydın fikirləşən; **im ~(e)** fikrində, ağlında; **die führenden / leitenden Köpfe einer Idee** hansısa ideyanın baniləri; **er hat einen offenen ~** o, aydın fikirləşən adamdır; **den ~ verlieren*** *məc.* başını itirmək; çaşmaq; **aus dem ~e** əzbər, əzbərdən; *etw.* **im ~e behalten*** nəyisə yadda saxlamaq; **er ist nicht richtig im ~e** onun

ağılı özündə deyil; *etw.* **geht mir durch den ~** ağlıma bir şey gəldi, yadıma bir şey düşdü; **3.** baş, həyat; **seinen ~ aufs Spiel setzen** həyatı ilə risk etmək; **~ und Kragen kosten** *məc.* baha başa gəlmək, baha oturmaq; **es gilt den ~, es geht an ~ und Kragen** burada başınla (həyatınla) risk edirsən; **den ~ hergeben müssen*** cəfasını çəkmək; başını qurban vermək; **4.** *bot.* papaq (*göbələkdə*); baş (*kələm*); **5.: ~ einer Zeituug** *məc.* başlıq (*qəzetdə*); ◊ *j-m* **eine Beleidigung [Beschuldigung] an den ~ ~stein** *m* çaylaq daşı; **~steuer** *f* baş vergisi; **~sturz** *m idm.* şığıma.

köpf || über *adv* başaşağı; üzüstə.

Köpf || weh *n oh. pl* başağrısı; **~zahl** *f* adamların sayı (*baş hesabı ilə*); **~zerbrechen** *n oh. pl* başsındırma; tapmaca.

Kopíe *f* (11) surət, üz, kopiya.

kopíeren *vt* üzünü (surətini) çıxarmaq.

Kopíst *m* (8), **~in** *f* (12) surət çıxaran, kopiya çıxaran.

Köppe *f* (11) zirvə (*dağda*); kəllə, təpə.

Köppel *f* (11) **1.** *ovç.* mərəz, xalta; **2.** ictimai

olmaq; **von altem / echtem Schrot und ~** köhnə əqidəli adam, etibarlı və möhkəm adam.

Korn II *m* -(e)s, - araq.

Kórn || blume *f bot.* peyğəmbərçiçəyi; **~boden** *m* taxıl anbarı; **~brand** *m k.t. bot.* çovdar mahmızı; **~brennerei** *f* **1.** araq zavodu; **2.** araqçəkmə; **~darre** *f* taxıl (*dən*) qurudulan yer.

Kornél || kirschbaum *m* zoğal ağacı.

körnen I *vt tex.* xırdalamaq, dən-dən etmək; **II** *vi* sünbül bağlamaq, sünbüllənmək.

korrékt *a* **1.** düzgün; **2.** ədəbli, tərbiyəli.

Korrektión *f* (10) **1.** düzəltmə, düzəliş; **2.** cəza, tənbeh.

Korrektúr *f* (10) **1.** düzəltmə, düzəldilmə; **2.** *matb.* korrektura, düzəliş.

Korrelatión *f* (10) qarşılıqlı münasibət, nisbət, korrelyasiya.

Korrespondént *m* (8) müxbir.

Korrespondénz *f* (10) korrespondensiya, yazışma, məktublaşma.

Korrespondénz || büro *n* məlumat bürosu (*qəzet üçün*).

istifadə üçün torpaq (meşə) və s., 3. çəpərlənmiş otlaq; 4. *n* (6) *harb.* çıyın qayışı

ppeln *vt* bağlamaq, **ein Pferd ~** ata cidar ləmək.

ópp(e)lung *f* (10) əlaqə, rabitə; *elek.* birləşdirmə.

ópula *f* -, -s *qram.* bağlayıcı.

opulatív *a* birləşdirən, bağlayan

opulíeren *vt* **1.** *köhn.* nikahlamaq; birləşdirmək; **2.** *zool.* cütləşdirmək; **3.** *bot.* calaq (peyvənd) etmək.

orálle *f* (11) mərcan.

orb *m* (1*) səbət, gövdə; ◊ *j-m* **einen ~ eben** *dan.* kiminsə xoruzunu qonuğuna ermə.

rb || flasche *f* toxunma səbətin içində lan şüşə; **~macher** *m* səbət toxuyan; **sessel** *m* hörmə kreslo; **~weide** *f* səbətlik öyüd.

diál *a* səmimi, mehriban.

rden ['dɔ:l] *m* (1) və -s, -s **1.** qayıtan, baş

Korn || ernte *f* taxıl biçini, biçin; **~feld** *n* tarla, zəmi; **~handel** *m* taxıl alveri; **~kammer** *f* taxıl anbarı; **~kasten** *m* kəndi, daqqa.

kórn || reich *a* **1.** verimli, məhsuldar (*torpaq*); **2.** dənli (*sünbül*).

Kórn || schneidemaschine *f* taxılbiçən maşın; **~schwinge** *f* sovurucu maşın, dənsovuran maşın; **~wicke** *f bot.* çölnoxudu; **~wucher** *m* taxıl alveri (*spekulyasiya*); **~zins** *m tqt.* taxıl vergisi; **~zoll** *m* taxıla qoyulan gömrük.

Körper *m* (6) bədən, gövdə; korpus, çanaq;

~flüssiger ~ *fiz.* maye.

Körper || bau *m* (*pl* **-baue**) bədən quruluşu, boy-buxun, qamət; **~bewegung** *f* bədən hərəkəti; **~ersatzstück** *n* protez; **~kultur** *f oh. pl* idman, bədən tərbiyəsi.

körperlich *a* cismi, cismani.

körper || los *m* cisimsiz, qeyri-maddi.

Körper || maß *n* həcm, həcm ölçüsü, kubik

korrespondíeren *vt* (*mit D*) **1.** yazışmaq, məktublaşmaq (*kimləsə*); **2. mit** *etw.* ~ nəyəsə uyğun gəlmək (olmaq).

Kórridor *m* (1) dəhliz

korrigíeren *vt* düzəltmək, yoxlamaq

korrumpíeren *vt* **1.** əxlaqını pozmaq, pis yola aparmaq; **2.** ələ almaq, ələ gətirmək; **3.** korrupsiyaya uğratmaq

Korruptión *f oh. pl* **1.** əxlaqsızlıq, əxlaq pozğunluğu; **2.** satqınlıq, pula satılma; rüşvət; **3.** ələ alma, öz tərəfinə çəkmə (*rüşvətlə, pulla*).

Kórypnde *m* (9) gorkəmli xadim.

köscher *a* **1.** pak; **2.** *məc.* təmiz.

kósen *vt* **I 1.** oxşamaq, əzizləmək; **II** *vi* **1.** nazlanmaq, naz etmək; **2.** dostcasına söhbət etmək.

kósmisch *a* kosmik, dünyəvi; **~e Strahlung** kosmik şüalar; **~e Physik** astrofizika.

Kósmos *m inv oh. pl* dünya, aləm, kainat.

keine ~ scheuen xərcdən çəkinməmək; **auf seine ~ kommen*** öz xərcini ödəmək; *məc.* ləzzət almaq, həzz almaq.

Kósten || anschlag *m* xərclərin smetası.

kósten || frei, ~los *a* pulsuz, havayı, müftə; **j-n ~ frei halten*** kiminsə xərclərini ödəmək; **~pflichtig** *a* xərclərin ödənməsi zaminliyi ilə.

Kósten || preis *m iqt.* maya dəyəri; **~punkt** *m oh. pl* məxaric mənbəyi; **~überschlag** *m* ilk smeta, təxmini smeta; **~gänger** *m* (6), **~gängerin** *f* (12) pansionda qalan; xörək yeyən; **~geld** *n* yemək pulu.

köstlich *a* **1.** çox gözəl, çox yaxşı, əla qiymətli; **2.** gözəl, zərif, incə; dadlı, ləzzətli; **3.** əyləncəli, gülməli.

kóst || spielig *a* bahalı, qiymətli; zərər gətirən.

Kostüm *n* (2) kostyum.

kostümíeren I *vt* bəzəmək, geyindirib-kecindirmək; **II sich ~** bəzənmək, geyinib-kecinmək.

Kóst || verächter *m* şıltaq, yeməyi sonalayan; **er ist kein ~** 1) o, dadlı tikəni əldən buraxmaz; 2) ona nə versəm yeyər.

Kot *m* -(e)s, *oh. pl* **1.** çirk, zibil; **2.** nəcis, peyin; ◊ **j-n durch / in den ~ ziehen** *məc.* şər atmaq; hörmətdən salmaq, rüsvay etmək.

Kóte *f* (11) **1.** koma, daxma, dəyə; **2.** *geod.* yüksəkliyi qeyd etmə.

Kótel *m* (6) peyin (*təzə və i.*).

Kotélett *n* (2), **Kotelétte** *f* (11) kotlet.

Kóter *m* (6) həyət iti.

Kó || fügel *m zool.* zibil bəndi; **~grube** *f* zibil quyusu.

kótig *a* **1.** çirkli; **2.** nəcisli, peyinli.

kotíeren *vt iqt.* qiymət qoymaq (*birjada*).

Kotíerung *f* (10) qiymətqoyma, qiymətli kağızların hazırkı dəyəri.

Kótner *m* (6) torpaqsız kəndli.

Kótze *f* (11) **1.** *coll.* yun ədyal; **2.** qusuntu.

kótzen *vt dan.* qusmaq; **er ist zum Kotzen!** bundan adamın üreyi bulanır!

Krábbe *f* (11) **1.** *zool.* krab, qısaquyruq; **2.** koppuş, totuq.

krábbeln *vi* (*h, s*) sürünmək, çapalamaq.

Krach *m* (1) **1.** çatılıb, şaqqıltı; səs-küy; **2.** *dan.* dava, qalmaqal; **~ machen** qalmaqal salmaq; **mit Ach und ~** güc-bəla ilə; **3.** sınıq çıxma, iflas.

krächen *vi* **1.** çartıldatmaq; **2.** qatlamaq; **3.** sınıq çıxmaq.

krächzen *vi* **1.** qırıldamaq, qır-qır etmək; **2.** xırıldamaq.

Krad *n* (*qısal.*) motosikl.

kraft *prp* (*G*) gücünə, sayəsində; **~ dessen** bir şeyin gücünə.

Kraft *f* (3) **1.** güc, qüdrət; **2.** *fiz.* güc, təsir; **aus eigener ~** öz gücü ilə; **aus voller ~, mit aller ~** var gücü ilə; **das geht über seine Kräfte** bu onun gücündən artıqdır; **nach Kräften** nə qədər mümkündürsə; **in ~ sein** qüvvədə olmaq; **in ~ treten*** qüvvəyə minmək; **in ~ setzen** tətbiq etmək; işə salmaq; **außer ~ setzen** ləğv etmək; **von Kräften kommen*** zəifləmək (*xəstəlikdən sonra*); **weder Saft noch ~ haben** nə dadı, nə də ləzzəti var; **3.** mütəxəssis.

Kráft || anlage *f tex.* elektrik stansiyası; **~aufwand** *m tex.* energi sərfi; **~äußerung** *f* güc göstərmə; **~brühe** *f* bulyon, ət suyu.

Kräfte || verhältnis *n oh. pl* qüvvələr nisbəti.

Kráft || fahrer *m* sürücü.

Kráft || feld *n fiz.* güc sahəsi; **~futter** *n k.t.* qüvvətli yem.

kräftig *a* **1.** qüvvətli, güclü; möhkəm; **2.** qidalı, doydurucu.

kräftigen *I vt* gücləndirmək; gücləndirmək; **II sich ~** möhkəmlənmək, bərkimək; güclənmək.

Kräftigung *f* (10) möhkəmlətmə, möhkəmlədilmə.

Kráft || leistung *f* **1.** qabiliyyət; **2.** *tex.* buxarın qüvvə; **3.** qocalmış, itgilik; **4.** kölək.

kráft || los *a* **1.** gücsüz, qüvvəsiz; **2.** *hüq.* qüvvədən düşmüş, öz əhəmiyyətini itirmiş.

Kráft || maschine *f tex.* motor; **~mensch** *m* pəhləvan, atlet; **~meter** *m tex.* güc ölçən (*cihaz*); **~öl** *n* dizel yanacağı (*motor üçün*); **~probe** *f* güclü yoxlama; **~rad** *n* motosikl; **~wagen** *m* avtomobil; yük maşını; **~werk** *n* elektrik stansiyası.

Krágen *m* (7) **1.** yaxalıq, yaxa; **2.** *j-n an ~ packen* kiminsə yaxasından tutmaq (yapış-

maq; ◊ **es geht ihm an den ~** bu onun üçün ölüm-dirim məsələsidir; **es kann ihm an den ~ kosten** bu ona başı bahasına başa gələ bilər.

Krágen || spiegel *m* rəsmi paltarların yaxasına vurulmuş nişan.

Krähe *f* (11) qarğa.

krähen *vi* qarıldamaq, banlamaq (*xoruz*); ◊ **kein Hahn kräht danach** bununla heç kim maraqlanmaz.

Krähen || füße *pl dan.* **1.** cızma-qara; **2.** qırış (*göz ətrafında*).

Kräh || winkel *m dan.* mədəni mərkəzdən uzaq yer, dalda-bucaqda.

Kráke *m* (9) *zool.* mürəkkəb ilbizi, sepiya.

Krakéel *m* (1) höcətləşmə, dalaşma, küsüşmə, çığır-bağır.

krakéelen *vi* qalmaqal salmaq, mübahisə etmək; söyüşmək, savaşmaq; qışqırmaq, hay-küy qaldırmaq.

Králle *f* (11) **1.** caynaq; dırnaq; **die ~n einziehen*** *məc.* caynaqlarını gizlətmək; **die ~ zeigen** caynaq göstərmək; **2.** *tex.* ağız, götürüm.

krállen I *vt* cırmaqlamaq; caynağını batırmaq; **II sich ~** dalaşmaq, söyüşmək; yapışmaq (*bir şeydən*).

Kram *m* (1*) **1.** xırdavat; **2.** *məc.* zir-zibil, cır-cındır; **3.** *dan.* işlər; ◊ **das paßt mir nicht in den ~** bu mənə yaramır; bu

krämen *vi* (*in D*) sökib qurudulmaq; axtarmaq; eşələmək (*nəyisə*).

Krämer *m* (6) **1.** xırdavatçı, çərçi; **2.** *məc.* zındaçı.

Krämerei *f* (10) axtarma, eşələmə.

Krämerin *f* (10) bəqqal/çərçi dükanı.

Krám || laden *m* xırdavat dükanı.

Krámpe *f* (11) toxmaq; çəngəl (*qapını döymək üçün*); sıyrıma, reja.

Krámpf *m* (1*) *tib.* qıc, qəng olma, konvulsiya; **~ader** *f* varikoz damarı; **~haft** *a* titrək; əsəbi; gərgin; hədiz, həddindən artıq; **sich ~ bemühen** çox çalışmaq, dəfədən-qabığdan çıxmaq.

Kran *m* (1; 6) (*pl tamç.* Kräne) kran.

Krángang *f* (10) *dəniz.* əyilmə.

Kránich *m* (1) *zool.* durna.

krank *a* xəstə; **sich ~ lachen** *dan.* ürəyi gedənə qədər gülmək.

Kránke *m, f* (9*) xəstə (*kişi, qadın*).

kränkeln *vi* xəstələnmək; naxoşlamaq (*arabir*).

kránken *vi* (*an D*) **1.** xəstələnmək (*daim*); **2.** *məc.* dərdlənmək, naxoşlamaq (*nədənsə*).

kränken *vt* kədərləndirmək, məyus etmək, xətrinə dəymək, təhqir etmək; alçaltmaq, hörmətdən salmaq; **sich gekränkt fühlen** özünü təhqir edilmiş hiss etmək; **j-s Rechte ~, j-n an seinen Rechten ~** kiminsə hüququna toxunmaq.

Kránken || bahre *f* xərək (*xəstələr üçün*); **~bericht** *m tib.* xəstəlik tarixi; **~besuch** *m* xəstəni yoluxma.

kránkend *a* incidən, xətrinə dəyən.

Kránken || haus *n* xəstəxana; **~kasse** *f* xəstəlik sığortası; **~kost** *f* pəhriz; **~pflege** *f oh. pl* xəstəyə qulluq; **~pfleger** *m* sanitar (*xəstəyə qulluq edən kişi*); **~pflegerin** *f* sanitar (*xəstəyə qulluq edən qadın*); **~schein** *m* bülleten, xəstəlik vərəqəsi; **~versicherung** *f* xəstəlik sığortası; **~wagen** *m* ambulans; **~zimmer** *n* xəstə palatası.

kránkhaft *a* xəstə, naxoş; birtərəfli, obyektiv olmayan.

Kránkheit *f* (10) xəstəlik; azar.

kránkheits || halber *adv* xəstəliyə görə, xəstəlik üzündən.

Kránkheits || keim *m* simulyant, özünü xəstəliyə vuran adam; **~kunde** *f*, **~lehre** *f* patologiya; **~verhütung** *f* profilaktika (*xəstəliyin qabağını alma tədbirləri*).

Kránk || heit *n*: **es ist zum ~** bu çox gülməlidir.

kränklich *a* azarlı; zəif; **~ sein** azarlamaq.

krank || schreiben *vt* xəstəlik haqqında bülleten vermək; *hərb.* xəstə saymaq.

Kränkung *f* (10) xətrinə dəymə; inciklik, küsmə.

Kránz *m* (1*) **1.** çələng, əkil; **2.** bir dəstə (*adam*).

Kränzchen *n* (7) **1.** çələngcik; **2.** axşam qonaqlığı, əyləncə gecəsi; **3.** bir dəstə (*adam*).

kränzen *vt* tac qoymaq, çələng qoymaq.
kraß *a* gözəçarpan, parlaq, kəskin, aşkar.
Kráßheit *f* (10) sərtlik.
Kráter *m* (6) krater (*vulkan ağzı*).
Krátz || bürste *f* **1.** *tex.* qaşov; **2.** *məc.* deyingən, davakar (*adam*).
Krátze *f* (10) *tex.* yun darağı.
Krätze *f* (11) **1.** *tib.* qoturluq, gicişmə; **2.** *tex.* kəsinti (*metal*).
Krátz || eisen *n tex.* ərsin.
krátzen I *vt* qaşımaq; qazımaq; sürütmək; cızmaq; **II** *vi:* **die Feder kratzt** qələmucu cızır; **es kratzt mir im Halse** boğazım gicişir; **II sich ~** qaşınmaq; ◊ **er fühlt sich gekratzt** *dan.* o özünü məmnun hiss edir.
Krátzer *m* (6) **1.** ərsin, kürəkcik; **2.** cırmaq yeri; sıyrıntı.
Krätzer *m* (6) turş çaxır.
Krátz || fuß *m* ayaqlarını bir-birinə vuraraq təzim etmə.
krátzig *a məc.* deyingən, daim donquldanan.
krätzig *a* qotur.
kráuchen *vi* sürünmək, iməkləmək.
kráueln *vt*, **krauen** *vt* qaşımaq (*arabir*), yavaşca qıdıqlamaq; tumarlamaq.
kraus *a* **1.** qıvrım, buruq-buruq; **2.** qırışmış, qırışıq; əzilmiş, əzik-üzük.
Kráuse *f* (11) **1.** köynək yaxasında kisəyi və ya krujevadan büzməli haşiyə, krujevalı ləçək; **2.** saçburma.
kräuseln I *vt* **1.** burmaq, burdurmaq (*saçı*); **2.** asta-asta dalğalandırmaq; **der Wind kräuselt das Wasser** ≡ külək suyu tərpədir; **II sich ~** burulmaq, qıvrılmaq.
kráusen *vt* burmaq, burdurmaq.
kráus || haarig *a* qıvrımsaçlı.
Kráus || kopf *m* qıvrımsaç.
Kraut *n* (5) **1.** ot; bitki; **2.** göyərti, tərəvəz; **3.** kələm; **4.** meyvəkök bitkilərin gövdə və yarpaqları; ◊ **wie ~ und Rüben** necə gəldi; **ins ~ schießen*** çox tez artmaq, qol-budaq atmaq (*mənfi şeylər*).
Kräuter || käse *m* yaşıl pendir (*pendir növü*).
Kráut || markt *m* göyərti (tərəvəz) bazarı.
Krawáll *m* (1) **1.** səs; **2.** küçə hay-küyü; **3.** şuluqluq, çaxnaşma.
krawállen *vi* hay-küylə toplaşmaq, çaxnaşmaq, qiyam etmək.
Krawátte *f* (11) qalstuk.
kráxeln *vi* (*s, h*) çətinliklə dağa qalxmaq.
Kreatúr *f* xəlq olunmuş, varlıq; *nifr.* alçaq.
Krebs *m* (1) **1.** xərçəng; **2.** *astr.* xərçəng ulduzlar; **3.** *tib.* xərçəng xəstəliyi.
krébs || artig *a* xərçəngvari, xərçəngəbənzər.
krébseln *vi* (**s**) çıxmaq, dırmaşmaq.
krébsen *vi* **1.** xərçəng tutmaq; **2.** *dan.* daldalı getmək.
Krébs || gang *m oh. pl:* **den ~ gehen** daldalı getmək, dala getmək (*həmç. məc.*); **~schaden** *m* **1.** *tib.* xərçəng xəstəliyi; **2.** *məc.* yamanlıq; **~schere** *f* qısqac (*xərçəng ayağının ucu*).
kredénzen *vt* qonağın qabağına qoymaq (*yemək, çaxır*).
Kredénz || teller *m* məcməyi.
Kredít *m* (1) inam; **auf ~** borc olaraq, kreditlə; **j-n um seinen ~ bringen** kimisə etibardan salmaq; **j-m ~ geben** kiməsə inanmaq.
Krédit *n* -s, -s *bux.* kredit, aktiv.
Kredít || anstalt *f* kredit müəssisəsi; **~brief** *m* akkreditiv.
kredít || fähig *a tic.* krediti (borcu) ödəyə bilən.
kreditíeren *vt tic.* kredit vermək, pul buraxmaq.
Kreditív *n* (2) etimadnamə.
Kréditor *m* -s, **-tóren** kredit verən, borc verən.
Krédo *n* -s, -s inam rəmzi; əqidə, dünyagörüşü.
Kréide *f* (11) tabaşir; ◊ **bei j-m in der ~ stehen*** kimədə borclu olmaq; **mit doppelter ~ ausschreiben*** hesabda aldatmaq, əskik vermək; ikiüzlü siyasət aparmaq.
kréiden *vt* **1.** tabaşirləmək, tabaşir sürtmək; **2.** tabaşirlə yazmaq.
kreíeren *vt* yaratmaq.
Kreis *m* (1) **1.** dairə, ətraf; **sich im ~ drehen** dolanmaq, dövrə vurmaq; **einen ~ um etw. schließen*** nəyisə dövrəyə almaq; **2.** dairə, mahal, rayon; **3.** *elek.* dövrə; **4.** *məc.* dairə, sahə, mühit; **im ~e der Familie, im häuslichen ~e** ailə daxilində.
Kréis || abschnitt *m riyaz.* seqment (*xətlərlə qövs arasında qalan dairə parçası*); **~ausschnitt** *m riyaz.* sektor; **~bahn** *f astr.* orbit (*göy cisimlərinin hərəkət yolu*).

~bewegung *f* dövri hərəkət; dövretmə; **~bogen** *m riyaz.* qövs.
kréischen *vi* zingildəmək; bərkdən çağırmaq, bağırmaq.
Kréisel *m* (6) **1.** fırfıra, fırlanğıc; **2.** *fiz.* giroskop.
Kréisel || pumpe *f tex.* mərkəzdənqaçan nasos; **~rad** *n tex.* turbin.
kréisen *vt, vi* fırlanmaq, dairə boyunca hərəkət etmək, hərlənmək; dövr etmək (*qan*).
Kréis || fläche *f riyaz.* çevrənin səthi.
kréis || förmig *a* çevrəsəl, dairəvi.
Kréis || lauf *m oh. pl* dövr, dövrə; dövretmə; **~leitung** *f* mahal komitəsi; **~linie** *f riyaz.* çevrə; **~schreiben** *n* sirkulyar.
kréißen *vi* doğarkən əziyyət çəkmək.
Kréißerin *f* (12) zahı.
Kréis || stadt *f* qəza şəhəri; rayon mərkəzi.
Krematión *f* (10) kremasiya (*ölülərin yandırılması*).
Kreml *m* -s Kreml, iç şəhər.
Krémpe *f* (11) **1.** papağın qırağı, günlük; **2.** *tex.* haşiyə, kənar.
Krémpel *f* (11) **1.** *tex.* darayıcı maşın; **2.** *dan.* zir-zibil.
krémpeln *vt* **1.** daramaq (*yun və s.*); **2.** qatlamaq.
krémpen *vt* qatlamaq; əymək (*şlyapanın qırağını*).
Krémser *m* (6) lineyka (*uzunsov və üstüaçıq minik arabası*), dilican.
Kréngel *m* (6) krendel (*bulka növü*).
krepíeren *vi* (**s**) **1.** *kob.* gəbərmək, murdar olmaq; **2.** *hərb.* partlamaq (*mərmi haqqında*).
Krésse *f* (11) *bot.* kres (*çoxillik ot bitkisi*).
Kretin [-'tē:] *m* -s, -s, **Kretíne** *m* (9) ağıldankəm, ağlı zəif.
kretínenhaft *a* səfeh, gic.
Kréta *n* Krit adası.
Kreuz *n* (2) **1.** xaç; xaç ordeni; **übers ~ legen** çarpaz qoymaq; **Eisernes Kreuz** (*qısal.* **EK**) dəmir xaç (*Almaniyada hərbi orden*); ◊ **ein ~ über** *etw.* (*D*) **machen** nəyinsə üstündən qələm çəkmək; **zu ~ kriechen*** tabe olmaq, itaət etmək; **in die ~ und (in die) Quer(e), kreuz und quer** eninə-uzununa, hər tərəfdən; **2.** dərd, əzab; **sein ~ tragen*** öz dərdini (əziyyətini) özü çəkmək; **3.: das ~ schlagen*** *din.* xaç çevirmək; **4.** *anat.* omba sümüyü; **5.** *mus.* diyez; **6.** *riyaz.* toplama, cəm (+) işarəsi.
Kréuz || band *n* **1.** banderol; **2.** çarpaz; **~bein** *n anat.* omba sümüyü.
kréuz || bráv *a* olduqca düz, vicdanı təmiz; **~dumm** *a dan.* gicdən-gic; **~dumm sein** *dan.* ağıldan kəm olmaq.
kréuzen I *vt* **1.** üstündən çalın-çarpaz xətt çəkmək; **2.** *biol.* cütləşdirmək (*həmç. məc.*); **3.** kəsmək, iki bölmək; ◊ **j-s Pfad ~** kiminsə yolunu kəsmək; **j-s Pläne ~** kiminsə planlarına mane olmaq; **II** *vi dəniz.* üzmək, işləmək (*məntəqələr arasında*); **III sich ~** çarpaz düşmək; yolda sovuşmaq, ayrılmaq (*məktub, xəbər və s.*)
Kréuzer I *m* (6) kreyser (*çox sürətli böyük hərbi gəmi*).
Kréuzer II *m* (6) kroyser (*sikkə pul vahidi*); **das ist keinen ~ wert** bu bir qəpiyə də dəyməz.
Kréuz || fahrer *m tar.* əhli-səlib, səlibçi, xaç yürüşçüsü; **~fahrt** *f* **1.** *tar.* səlib müharibəsi; **2.** *dəniz.* qarovul çəkmə; **~feuer** *n hərb.* çarpaz atəş (*həmç. məc.*).
kréuz || fidél *a dan.* çox şən.
Kréuz || gang *m* üstüörtülü yol (*qalereya*).
kréuzigen *vi* çarmıxa çəkmək (*cəza üsulu*).
kréuz || lahm *a dan.* hər iki qıçından şikəst.
Kréuz || otter *f zool.* qara ilan, gürzə; **~peilung** *f rad.* qəbuledici stansiya vasitəsi ilə təyyarənin yerini müəyyənləşdirmə; **~punkt** *m riyaz.* kəsişmə nöqtəsi; **~ritter** *m tar.* səlib cəngavəri; **~spinne** *f* bağça hörümçəyi; **~stich** *m* çarpazı tikiş.
Kréuzundquérzüge *pl* azma, çaşma.
Kréuzung *f* (10) **1.** *biol.* cütləşdirmə; **2.** dördyol ayrıcı; çarpaz yol.
Kréuz || verhör *n hüq.* çarpaz dindirmə; **~weg** *m* dördyol ayrıcı, çarpaz yol.
kréuz || weise *adv* çarpazvari.
Kréuz || worträtsel *n* çarpaz krossvord; **~zug** *m tar.* səlib yürüşü.
kríbb(e)lig *a* əsəbi, həyəcanlı.
kríbbeln I *vi* qaynaşmaq, vızıldaşmaq; **II** *vimp* gicişmək, qaşınmaq; **mir kribbelt es in den Fingern** *məc.* əllərim gıcışır.
kríckeln *vi dan.* cızma-qara yazmaq.

kríechen *vi* **1.** (*s*) sürünmək; yavaş-yavaş getmək; yavaş-yavaş (*gizlincə*) yaxınlaşmaq; gizlincə girmək; **in** etw. (*A*) ~ nəyinsə içinə girmək; **unter** etw. (*A*) ~ sürünüb nəyinsə altına girmək; **durch** etw. (*A*) ~ görünmədən keçib getmək; **aus dem Ei** ~ yumurtadan çıxmaq; **2.** (*s, h*) *məc.* yaltaqlıq etmək, quyruq bulamaq.

Kríecher *m* (6) yaltaq.

Kriecheréi *f* (10) yaltaqlıq, alçalma, nökərçilik.

kríecherisch *a* yaltaq, yaltaqcasına.

Kríech || pflanze *f bot.* sürünən bitki; **~tier** *n* sürünən heyvan.

Kríeg *m* (1) müharibə; **den ~ erklären** müharibə elan etmək; **zum ~e rüsten** müharibəyə hazırlaşmaq.

kríegen I *vt dan.* almaq; **ein Kind ~** uşaq doğmaq; ◊ **es mit der Angst (zu tun) ~** qorxmaq; **j-n klein ~** kimləsə hesablaşmaq, kimisə divan tutmaq; kimisə dilə tutmaq; **II** *vi* müharibə etmək.

Kríeger *m* (6) hərbi döyüşçü.

kríegerisch *a* hərbi, əsgəri, mübariz.

kríeg || führend *a* müharibə edən.

Kríegs || artikel *m* hərbi nizamnamə; **~bedarf** *m* hərbi ehtiyat, ləvazimat.

kríegs || bereit *a* döyüşə hazır, müharibəyə hazır.

Kríegs || bereitschaft *f oh. pl hərb.* döyüş hazırlığı; **~bericht** *m* müharibənin gedişi haqqında məlumat; **~berichter, ~bericht || erstatter** *m* hərbi müxbir; **~beschädigte** *m* müharibə əlili; **~bestand** *m hərb.* hərbi kontingent; **~betrieb** *m* hərbi ehtiyac üçün (*dəmir yolundan, zavodlardan* və s.) istifadə; **~brandstifter** *m* müharibə qızışdıran; **~dienst** *m oh. pl* hərbi qulluq; **~entschädigung** *f* hərbi xərclərin ödənilməsi; *pl* təzminat.

kríeges || erfahren *a* müharibə təcrübəsi olan.

Kríeges || erklärung *f* (*gegen A*) müharibə elan etmə; **~fall** *m oh. pl* müharibəyə səbəb; **im ~fall** müharibə olarsa; **für den ~fall** müharibə üçün; **~führung** *f* müharibə aparmaq üsulu; **~fuß** *m oh. pl:* **auf den ~ fuß setzen** hərbi vəziyyətə keçirmək; **mit j-m auf dem ~fuß stehen*** kimləsə müharibə vəziyyətində olmaq; düşmənçilik etmək; **~gefahr** *f* müharibə qorxusu; **~gefangene** *m* hərbi əsir; **~gefangenschaft** *f* əsirlik; **~gerät** *n* hərbi ləvazimat; **~herd** *m* müharibə ocağı; **~hetzer** *m* müharibə qızışdıran.

kríegs || lustig *a* cəngavər, mübariz, döyüşkən.

Kríegs || macht *f* **1.** *oh. pl* hərbi qüdrət; **2.** döyüşən ölkə; **~offizier** *m* hərbi dövrün zabiti; **~pfad** *m məc.* müharibə cığın (*yolu*); **sich auf den ~pfad begeben*** *məc.* düşmənçiliyə başlamaq; **~rüstung** *f* silahlanma, müharibəyə hazırlıq; **~schäden** *pl* müharibədən dəyən zərər; **~schätzung** *f* təzminat; təzminat alma; **~schauplatz** *m* döyüş meydanı; **~schuld** *f oh. pl* müharibə məsuliyyəti; **~schulden** *pl* hərbi borclar; **~schule** *f* hərbi məktəb; **~teilnehmer** *m* müharibə iştirakçısı; cəbhəçi; **~treiber** *m* müharibə qızışdıran, təcavüzkar; **~verbrecher** *m* müharibə canisi; **~wesen** *n oh. pl* hərbi iş; **~zustand** *m* hərbi vəziyyət.

Kriekente *f* (11) *zool.* cürə (*ördəyə oxşar kiçik suquşu*).

Krim *f coğr.* Krım.

kriminál *a hüq.* cinayət, cinayətkar.

Kriminál || dienst *m* cinayət axtaran idarə; **~fall** *m* cinayət işi.

kriminéll *a* kriminal, cinayət.

Krímmer *m* (6) **1.** qaragül; **2.** süni dəri.

Krímmi *m* -s, -s *dan.* casus.

Kríms || krams *m* - və -es, *oh. pl* cır-cındır.

Kríngel *m* (6) krendel (*bulka*).

kríngeln (sich) burulmaq, qıvrılmaq.

Kríppe *f* (11) körpələr evi (*həmç. uşaq evi*).

Krips: j-n beim ~ nehmen* *dan.* kiminsə yaxasından tutmaq.

Kríse *f* (11), **Krisis** *f,* **-, Krisen** böhran.

Kristáll [-st-] **1.** *m* (1) kristal; **2.** *n* -s, *oh. pl* büllur; büllur qab.

kristáll || ähnlich *a* büllurabənzər; kristalşəkilli.

kristállen *a* kristal; büllur.

Kristall || glas *n* **1.** büllur; **2.** badə (*büllurdan*).

kristallisíeren *vt, vi* (*s*) *və* **sich ~** kristallaşmaq, büllurlaşmaq.

Kritérium *n* **-s, -rien** meyar.

Kritík *f* (10) **1.** tənqid; **~ üben an** etw. (*D*), etw. **der ~ unterziehen*** nəyisə tənqid etmək; **2.** tənqidi məqalə; rəy; **unter aller ~** hər şeydən pis, tənqidə gəlməyən.

Kritikáster *m* (6) tənqidbaz.

Kritiker *m* (6) tənqidçi.

kritík || los *a* qeyri-tənqidi.

kritísch *a* **1.** tənqidi; **2.** böhranlı.

kritisíeren *vt* tənqid etmək; tənqidi yanaşmaq.

kritteln *vi* hər şeydə bir qüsur axtararaq tənqid etmək.

Kritzeléi *f* (10) cızma-qara yazı.

kritzeln *vt, vi* cızma-qara yazmaq, cızmaq (*qələmucu ilə*).

kroch "kriechen" *felinin impf*'i.

Krokodíl *n* (2) *zool.* timsah.

Krokodíls || tränen *pl məc.* saxta göz yaşları.

króllen (sich) hörülmək.

Króne *f* (11) **1.** tac; çələng; **2.** *tib.* koronka (*dişə taxılan metal qapaq*); **3.** çətir (*ağaclarda*); **4.** çilçıraq; **5.** *köhn.* xəzinə, dövlət; **6.** kron (*bəzi ölkələrdə pul vahidi*); ◊ **was ist ihm in die ~ gefahren*?** *dan.* onu hansı ilan sancmışdır?; **das setzt allem die ~ auf** bu lap nahaqdır.

krönen *vt* tac qoymaq.

Krónleuchter *m* çilçıraq.

Krönung *f* (10) **1.** tac qoyma; **2.** *məc.* mükafatlandırı(ıl)ma.

Krón || zeuge *m hüq.* əsas şahid.

Kropf *m* (1*) çinadan, dəncik.

króp fig, kröpfig *a* iri çinadanlı.

Króp fung *f* (10) *tex.* dirsək, əyri.

Krópp || zeug *n oh. pl dan.* oğul-uşaq, uşaqlar.

Kröte *f* (11) **1.** *zool.* quru qurbağası; **2.** *məc. dan.* ifritə (*acıqlı arvad haqqında*); 3. körpə bala, quzum; ◊ **die paar ~n** xırda pul, az pul.

Krücke *f* (11) **1.** qoltuq ağacı, əsa; **2.** od çəkən, atəşkeş.

Krug *m* (1*) **1.** səhəng; bardaq; qulplu; **2.** meyxana.

Krügel *n* qulpluca.

Krúke *f* (11) böyük saxsı qab, səhəng, dəsti.

Krümchen *n* (7) çörək qırıntısı; **ein ~** bir az.

Krúme *f* (11) **1.** çörəyin içi; **2.** *pl* çörək qırıntıları; **3.** yumşaq şumlaq torpaq.

Krümel *n* (6), *m* (6) **1.** qırıntı (*çörək*); *məc.* **2.** koppuş.

krümeln I *vt* xırda-xırda doğramaq, ovub tökmək; **II** *vi* ovulub tökülmək.

krumm *a* **1.** əyri, qatlanmış; **~ biegen*, ~ machen** əymək; **~ werden** beli bükülmək; **2.** *məc.* dolayı, əyri, sədaqətsiz; **j-n ~ ansehen*** *məc.* kiməsə çəp-çəp baxmaq; ◊ **~e Finger haben** *məc.* əliəyri olmaq; **einen ~en Rücken / Buckel machen** *məc.* yaltaqlıq etmək, riyakarlıq etmək; **j-n ~ und lahm schlagen*** *məc.* 1) kimisə şil-küt etmək; 2) darmadağın etmək **~e Wege gehen, ~e Pfade wandeln** *məc.* əyri yola düşmək; **das Gerade ~ und das Krumme grad machen** ≡ qatığa qara demək; etw. **~ nehmen*** nədənsə incimək; **es geht ~ mit ihm** onun işləri şuluqdur.

krümmen I *vt* əymək; ◊ **ihm wurde kein Haar gekrümmt** onun bir tükünə də toxunulmadı; **deswegen krümme ich keinen Finger** buna görə heç tüküm də tərpənmir; **II sich ~ 1.** əyilmək, qovrulmaq, qıc olmaq (*ağrıdan*); **2.** *məc.* yaltaqlanmaq, quyruq bulamaq.

Krúmm || holz *n* (*pl* **-hölzer**) **1.** əymə (*qoşqu ləvazimatı*); **2.** bumeranq (*Avstraliyada ağac silah*).

krúmm || linig *a riyaz.* əyricizıqlı, əyrixətli.

Krümmung *f* (10) **1.** əyrilik, bükük yer, döngə; **2.** *riyaz.* əyrilik.

Krupp *m* -s, *oh. pl tib.* kurp (*boğaz ağrısı*).

Krúppe *f* (11) sağrı (*atda*).

Krüppel *m* (6) çolaq, şikəst.

krüppelhaft *a* şikəst, əlil.

Krúste *f* (11) qabıq (*çörəkdə*); *tib.* qaysaq, qabıq, köz (*yarada*).

Krústen || tier *n* xərçəngvari heyvan.

krústig *a* qabıqla örtülmüş.

Kruzifíx *n* (2) *din.* xaç (*İsanın çarmıxa çəkilmiş şəkli olan*).

Kúba *n coğr.* Kuba.

Kübel *m* (6) **1.** çən, çəllək; **2.** *tex.* təknə.

kubíeren *vt riyaz.* kuba yüksəltmək.

Kübler *m* (6) çəlləkçi.

Kúbus *m* -, - və **-ben** *riyaz.* kub.

Küche *f* (11) **1.** mətbəx; **2.** *məc.* yemək, qida; **kalte ~** 1) soyuq yemək; 2) soyuq yeməklər hazırlanan mətbəx; **warme ~** 1) xörək; 2) isti xörəklər hazırlanan mətbəx; **lateinische ~** *zar.* latın mətbəxi (*aptek*); **es raucht in der ~** evdən dava-dalaş iyi gəlir.

Küchen *m* (7) bişi; tort; şirin çörək; keks; yağlı kökə; ◊ **ja ~!** *dan.* bu baş tutan iş deyil!

Küchen || bäcker *m* qənnadçı, şirniyyatçı.

Küchen || chef *a* baş aşpaz; **~geschirr** *n* mətbəx qab-qacağı; **~junge** *m* aşpaz şəyirdi; **~schabe** *f* tarakan, mətbəx böcəyi; **~zettel** *m* menyu (*yemək siyahısı*).

Küchlein *n* (7) cücə.

kúcken *vi dan.* baxmaq, tamaşa etmək.

Kücken *n* (7) **1.** cücə; **2.** *məc.* körpə uşaq; **3.** *tex.* kranın tıxacı.

Kúckuck *m* (1) **1.** *zool.* qu quşu; **2.** *hərb. dan.* səyyar mətbəx; ◊ **weiß der ~!** nə bilim!

Kúddel || muddel *m, n* -s, *oh. pl din.* hərc-mərclik.

Kúfe *f* (11) **1.** çəllək, çən; **2.** *pl* xizəyin tayı.

Yüz yaşa, yüz öyrən; **Soviel von** etw. **verstehen*, wie die ~ vom Sonntag** ≡ Eşşək nə bilir, zəfəran nədir.

Kúh || fuß *m hərb. dan.* tüfəng; **~glocke** *f* zınqırov, qumrov (*inəyin boynunda*); **~handel** *m məc.* gizli danışıqlar; gizli iş; **~haut** *f oh. pl* gön ◊ **das geht auf keine ~** buna inanmaq olmaz; bu qüvvə xaricində olan şeydir.

kühl *a* **1.** sərin; **2.** *məc.* soyuq.

Kühl || apparat *m*, **~bottich** *m* soyuducu cihaz.

Kühle *f oh. pl* **1.** sərinlik, sərin hava; **im ~n** soyuq yerdə, kölgədə; **2.** *məc.* soyuqluq, təmkinlilik.

kühlen *vt* sərinləşdirmək; soyutmaq; **sein Mütchen an** etw. / **j-m ~** nəyəsə, kiməsə hirsini tökmək.

Kühler *m* (6) *tex.* soyuducu; radiator (*avtomobil*); kondensator.

Kühl || haus *n* buzxana; **~schrank** *m* soyuducu.

Kühlung *f* (10) soyutma, soyudulma.

Kühl || vorrichtung *f tex.* refrijerator; [illegible] soyuducu vaqon; vaqon-

Kultúr || erbe *n oh. pl* mədəni irs; **~front** *f oh. pl* mədəni cəbhə; **~geschichte** *f oh. pl* mədəniyyət tarixi; **~gut** *n* mədəni irs; **~gruppe** *f* özfəaliyyət dərnəyi; **~schätze** *pl* mədəniyyət xəzinəsi.

Kúltus *m* -, **~te** pərəstiş.

Kumm *m* (1), **Kúmme** *f* (11) kasa.

Kümmel *m* (6) **1.** *bot.* zirə; **2.** zirə arağı.

Kúmmer *m* -s, *oh. pl* dərd, kədər, ələm.

kümmerlich I *a* yazıq, zavallı, aciz, miskin; **II** *adv.* güclə, güc-bəla ilə.

Kümmerlichkeit *f* (10) kasıblıq, yoxsulluq.

kümmern I *vt* dərd çəkmək, qəm çəkmək, kədərlənmək; **was kümmert ihn das!** onun bu işlə nə əlaqəsi var!, bu iş onun nəyinə lazımdır; **II sich ~** (*um A*) qayğısına qalmaq, qayğısını çəkmək.

Kümmernis *f* (3) qəm, qüssə, kədər; fikir, dərd.

Kúm(me)t *n* (2) xamut, boyunduruq.

Kumpán *m* (1) **1.** yoldaş; **2.** içki yoldaşı.

Kúmpel *m* (6) **1.** mədən fəhləsi; **2.** iş yoldaşı.

kündbar *a* rədd oluna bilən; dəyişdirilə bilən.

Künde I *f* (11) məlumat, xəbər.

Kúndschafter *m* (6) *hərb.* gizli müvəkkil, casus.

kúnd || tun *vt* elan etmək, xəbər vermək.

künftig I *a* qarşıdakı, gələcək; **II** *adv* **~, ~ hin** (*hamç.* **künftighin**) qarşıda, gələcəkdə.

Kúnkel *f* (11) cəhrə.

Kunst *f* (3) **1.** incəsənət; **die schönen Künste** incə sənət; **2.** bacarıq, qabiliyyət, cəldlik; **hier ist meine ~ zu Ende** buna artıq mənim gücüm çatmaz.

kúnst || beflissen *a* incəsənəti öyrənən, incəsənətlə maraqlanan.

Kúnst || butter *f* marqarin yağı.

Kunsteléi *f* (10) sünilik, qəribəlik; əllamalık.

künsteln I *vt* naz etmək, özünü naza qoymaq; **Freude ~** özünü sevincək göstərmək; **II** *vi* (*an D*) əllamalık etmək.

kúnst || fertig *a* bacarıqlı, məharətli.

Kúnst || griff *m* **1.** məharət, bacarıq; **2.** hiylə, kələk, biclik; **~kenner** *m* incəsənəti yaxşı bilən, sərraf.

Künstler *m* (6), **~in** *f* (12) sənətkar, sənətçi (*kişi, qadın*).

Künst[illegible]

kúpferig *a* misəoxşar, mis.
kúpfern *a* mis.
Kúpfer || schmied *m* misgər; **~stecher** *m* mis oymaçısı; **~stich** *m* qravür, mis üzərində oyma ilə çəkilmiş şəkil; **~vitriól** *n kim.* mis kuporosu; **~zeit** *f geol.* mis dövrü.
kupfert *a:* **~es Gelände** *hərb.* dərə-təpəlik.
Kupón [ku'pɔ̃:] *m* -s, -s **1.** kəsik; parça; **2.** kupon (*qiymətli kağızların faiz talonu*).
Kúppel *f* (11) **1.** günbəz, qübbə; **2.** örtük (*lampa üçün*).
Kuppeléi *f* (10) vasitəçilik, aradüzəltmə.
kúppeln *vt* **I** örtmək; **II 1.** birləşdirmək; **2.** elçi göndərmək; vasitəçilik etmək.
Kúppler *m* (6) quda, vasitəçi, aradüzəldən.
Kur *f* (10) **1.** müalicə; **eine ~ gabrauchen** müalicə kursu keçmək; **zur ~** müalicə üçün; **j-n in die ~ nehmen*** kimisə müalicə etmək; **2.** *oh. pl tər.* seçmə, seçilmə; **3. j-m die ~ machen** kiməsə pərəstiş etmək.
kuránt *a* **1.** işlənilən pul; **2.** tezsatılan.
Kuratél *f* (10) *hüq.* qəyyumluq.
Kurátor *m* -s, **-tóren** qəyyum, hami.
Kúrbel *f* (11) dəstək, sap, tutğac, çarxqolu.
Kúrbel || lager *n tex.* əsas yataq (*padşipnik*).
kúrbeln *vt* **1.** *tex.* fırlandırmaq, hərləndirmək; **2.** film çəkmək.
Kúrbel || stange *f tex.* sürgüqolu; **~welle** *f tex.* dirsəkli vərdənə.
Kúrbis *m* -ses, -se *bot.* balqabaq, kudu.
Kúr || gast *m* kurortçu; **~haus** *n* kurzal (*kurortlarda ictimai bina*).
Kurier *m* (1) kuryer.
kuríeren *vt* müalicə etmək, sağaltmaq.
kuriós, kuriös *a* **1.** gülünc, gülməli, əyləncəli; **2.** qəribə.
Kuriosität *f* (10) **1.** kuryoz, gülünc hadisə, qəribəlik; **2.** nadir hadisə.
kúr || pfuschen *vi* el təbabəti ilə müalicə etmək.
Kúr || pfuscher *m* ara həkimi.
kurrént *a* cari.
Kurrént || schrift *f oh. pl* əlyazma şrifti.
Kurs *m* (1) **1.** *tic.* məzənnə; **2.** *dəniz. av.* səmt, istiqamət; **3.** aparılan siyasət; **4.** kurs (*müalicə*); **5.** kurs (*müəyyən müddətə təşkil olunmuş təlim növü*).
Kúrs || buch *n* dəmiryol məlumat kitabçası; qatarların hərəkət cədvəli; **~schmied** *m dan.* baytar.
Kürschner *m* (6) xəzçi, kürkçü.
kursíeren *vi* **1.** işlənmək (*pul*); **2.** yayılmaq (*xəbər, şayia*).
Kúrsus *m* -, **Kurse 1.** kurs (*bir fənnin şərhi*); **2.** *pl* kurs (*məktəb*).
Kúrs || wert *m tic.* bugünkü məzənnə; **~zettel** *m* birja bülleteni.
Kúr || taxe *f* kurort rüsumu.
Kúrve *f* (11) **1.** *riyaz.* əyri; **2.** *avt.* yolu dönmə; *d.y. döngə*; *av.* viraj.
kurz I *a* qısa, uzun sürməyən; **~ / ~e Zeit darauf** bundan azca sonra; **~ / ~e Zeit vorher** bundan bir az qabaq; ◊ **den kürzeren ziehen** zərərə düşmək; **einen ~en Entschluß fassen** çox fikirləşmədən həll etmək; **einen ~en Prozeß machen** tez hesablaşmaq; **in ~en Worten** qısa; **II** *adv* qısaca, müxtəsərcə; tez; **~ nach ...** (*D*) ondan az sonra; **~ vor ...** (*D*) bundan bir az əvvəl; **binnen ~em, in ~em** yaxın zamanda; **seit ~em** yaxın keçmişdən bəri; **über ~ oder lang** gec-tez; **~ und bündig** qısa və qəti; **j-n ~ halten*** gözümçıxdıya salmaq; **zu ~ kommen*** 1) aldanmaq; 2) (*bei D*) zərər çəkmək (*nədənsə*); 3) (*mit D*) çatışmayan şeyə dözmək (*bir işdə*); etw. **~ und klein kriegen / schlagen*** nəyisə darmadağın etmək; **zu schießen* ~** səhv atmaq, hədəfi vura bilməmək (*həmç. məc.*); (*gegen j-n*) **~ angebunden sein** kimsə soyuq cavab vermək; **j-n ~ abfertigen** bax: **abfertigen; sich ~ fassen** müxtəsər ifadə etmək.
Kúrz || arbeit *f oh. pl* qısa iş günü; qısa iş həftəsi; **~arbeiter** *m* bütün həftəni (*bütün iş günü*) işləməyən fəhlə.
kúrz || atmig *a* təngnəfəs.
kúrz || befristet *a* qısamüddətli; **~ dauernd** *a* sürəksiz, uzun sürməyən.
Kürze *f oh. pl* qısalıq, müxtəsərlik; **in (aller) ~** müxtəsər; tezliklə.
kürzen *vt* qisaltmaq; **sich (D) die Zeit ~** əylənmək.
kurzer || hánd *adv* o saat, çox fikirləşmədən.
kúrz || faserig *a* qısalifli.
Kúrz || film *m* qısametrajlı film.

kúrz || fristig *a* qısamüddətli; **~gefaßt** *a* **1.** yığcam, qısa; **2.** tez, cəsarətli, qəti.
Kúrz || geschichte *f ədəb.* qısa həkayə, novella.
kúrz || lebend, ~lebig *a* azömürlü, kəmömür.
kürzlich *adv* bir az bundan qabaq.
Kúrz || schluß *m elek.* qısaqapanma; **~schrift** *f* stenoqrafiya; **~schuß** *m hərb.* atılan güllənin hədəfə dəyməsi.
kúrz || sichtig *a* uzağı görməyən, qarov (*həmç. məc.*).
kúrz || silbig *a* **1.** qısahecalı; **2.** *məc.* birhecalı; **3.** qaradinməz, azdanışan.
Kúrzstrecken || läufer *m idm.* sprinter (*qısa məsafəyə qaçış idmançısı*).
kúrz || úm *adv* bir sözlə, müxtəsəri.
Kürzung *f* (10) ixtisar, ixtisar etmə.
Kúrz || waren *pl* qalantereya malları.
kúrz || wég *adv* birbaşa.
Kúrz || weil *f* vaxt keçirmə, məşğuliyyət; əyləncə, kef.
kúrz || weilig *a* məzəli.
Kúrzwellen || empfänger *m rad.* qısadalğalı radio aparatı; **~sender** *m dan.* qısadalğalı radio stansiyası.
Kúrz || woche *f* natamam iş həftəsi.
kusch! *int ovç.* yat!, dayan!; toxunma! (*ovda ita edilən əmr*).
kúscheln sich *dan.* **1.** rahat uzanmaq; **2. sich an j-n ~** kimsə qısılmaq.
kúschen *vi və* **sich ~ 1.** yatmaq (*it haqqında*); **2.** *dan.* cınqırını çıxarmamaq (*adam haqqında*).
Kusíne *f* (11) əmi-, dayı-, xala-, bibiqızı.
Kuß *m* (1*) öpüş.
küssen I *vt* öpmək; **j-n auf** etw. **~** kimisə bir yerindən öpmək; **II sich ~** öpüşmək.
Küssen *n* -s, *oh. pl* öpmə.
Küß || hand *f* hava öpüşü; **mit ~** sevinclə, həvəslə; **eine ~ zuwerfen*** hava öpüşü göndərmək.
Küste *f* (11) dəniz kənarı, sahil.
Küsten || fahrer *m dəniz.* kabotaj gəmisi, sahil gəmisi; **~fahrt** *f dəniz.* kabotaj (*sahil gəmiçiliyi*).
Küster *m* (6) kilsə xadimi.
Kústos *m* -, **-tóden** mühafiz (*muzeydə, kitabxanada*).
Kútsch || bock *m* kozla; şahnişin.
Kútsche *f* (11) karet, minik arabası.
Kútschen || schlag *m* karetin qapıları.
Kútscher *m* faytonçu, arabaçı.
kutschíeren *vi* atları sürmək.
Kútte *f* (11) keşiş cübbəsi, əba.
Kútter *m* (6) *dəniz.* kater.
Kuvért [-vɛrt] *n* (2) **1.** konvert, paket; **2.** xörək dəsti.

Ll

L, l *n inv alman əlifbasının on ikinci hərfi.*
Lab *n* (2) **1.** qursaq mayası; **2.** *anat.* qursaq, şirdan.
Labbe *f* (11) **1.** sallaq dodaq; **die~ hängen lassen** dodağını sallamaq; **2.** sahil qağayısı (*şimalda*).
lábberig *a* **1.** horra kimi; **2.** şit, dadsız.
Lábe *f oh. pl* fərəh, sevinc.
láben I 1. *vt* mayalamaq; çürütmək (*südü*); **2.** *vi* və **sich ~** çürümək (*süd*).
láben II *vt* **1.** təzələmək, möhkəmlətmək; **2.** əyləndirmək, könlünü almaq; **3. sich ~** möhkəmlənmək, havası dəyişmək; ləzzət almaq.
lábend *a* xoş, canlandırıcı.
Lábe || trunk *m* sərinləşdirici içki.
labiál *a dilç.* dodaq (*səs*).
labíl *a* möhkəm olmayan, dəyişkən.
Labilität *f* (11) dəyişkənlik, laxlıq.
labiodentál *f* dil-diş (*samiti*).
Labór *n* -s, -s/-e bax: **Laboratórium**.
Laborantánt *m* (8) **-in** (12) laborant (*kişi, qadın*).
Laboratórium *n* -s, **-rien** laboratoriya.
laborieren *vi* **1.** (*an D*) işləmək, çalışmaq (*nəyinsə üzərində*); **2. an einem Experiment ~** təcrübə qoymaq.
Lábsal *n* (2), **Lábung** *f* (10) **1.** fərəh, sevinc; **2.** möhkəmlənmə, təzələmə.
Láche I *f* (11) gülüş; **eine ~ anschlagen** qəşş etmək.
Láche II *f* (11) gölməçə, nohur.
Láche III *f* (11) mərz nişanı; xaz.
lächeln *vi* gülümsəmək, gülümsünmək.
Lächeln *n* -s, *oh. pl* təbəssüm, gülümsəmə, gülümsünmə.
lachen *vi* gülmək; **aus vollem Halse ~** ürək dolusu gülmək; **wer zuletzt lacht, lacht am besten** qələbə son gülənindir; **j-n ~ machen** kimisə güldürmək; **sich (D) ins Fäustchen ~** buğaltı gülmək, istehza ilə gülmək; *über etw., j-n ~* kiminsə, nəyinsə üstünə gülmək; **II sich ~: sich krank ~** *məc.* nəfəsi kəsilənə qədər gülmək.
Láchen *n* -s, *oh. pl* gülüş; qəhqəhə; **vor ~** gülməkdən; **es ist zum ~!** gülməlidir; ◊ **j-n zum ~ bringen** kimisə güldürmək; **in ~ ausbrechen** qəhqəhə çəkmək.
láchend *a* gülən, güləyən.
lächerlich *a* gülməli, gülünc; ◊ etw. **~ machen,** etw. **ins lächerliche ziehen** lağa qoymaq, gülünc etmək.
lách || listig *a* güləyən.
Lachs *m* (1) *zool.* qızıl balıq.
Lách || salve *f* (11) şaqqanaq.
Lack 1. *m* (1) lak; **2.** *m* (1) və (2) surğuc; ◊ **fertig ist der ~!** *dan.* iş düzəldi!, hər şey yerindədir!
lackíeren *vt* lak çəkmək; lak sürtmək; ◊ **der Lackierte sein** aldadılmaq.
Láde *f* (11) iri yeşik; siyirtmə yeşik.
láden I *vt* **1.** (*auf A*) yükləmək; **2.** *tex.* doldurmaq; **den Hochofen ~** domna sobasını doldurmaq; **3.** *hərb.* doldurmaq (*silahı*); **scharf [blind] ~** dolu [boş] güllələrlə doldurmaq; **4. eine Verantwortung auf sich** (*A*) **~** məsuliyyəti öz üzərinə götürmək; **eine Schuld auf j-n ~** təqsiri kiminsə üstünə atmaq (yıxmaq); ◊ **er ist** (*auf mich*) **geladen** onun (*mənə*) acığı tutub; **er hat schwer / schief geladen** o çox içib.
láden II *vt* **1.** çağırmaq, dəvət etmək; **2.** *məc.* cəlb etmək; **3.** çağırmaq; **vor Gericht ~** məhkəməyə çağırmaq.
Láden I *n* -s, *oh. pl* yük; yükləmə, yüklənmə.
Láden II *m* (7, 7*) **1.** mağaza; **2.** pəncərə taxtası; **3.** qalın lövhə; ◊ **den ~ schmeißen** *dan.* işə düzəltmək.
Láden || fenster *n* vitrin, görük (*mağaza sərgisi*); **~tisch** *m* piştaxta.
Láde || platz *m* yükləmə yeri.
Láder *m* (6) mal yükləyən, yükvuran fəhlə.
Láde || raum *m* **1.** anbar (*gəmidə*); **2.** sandıq (*silahda*); **~stock** *m hərb.* sümbə; **~streifen** *m hərb.* patrondaş.
ládíeren *vt* korlamaq, xarab etmək, zədələmək.
Ládung *f* (10) **1.** yükləmə; **2.** yük, tay; **eine ~ nehmen** yük vurmaq; **3.** *hərb.* güllə; barıt; **4.** dəvətnamə; **5.** çağırma.
Láffe *m* (9) ədəbsiz, qanmaz, gic (*adam*).
lag "liegen" *felinin imp'f'i.*

Lage *f* (11) **1.** vəziyyət; yerləşmə; tutduğu yer; sahə; quruluş, qurğu; **die ~ der Dinge** hadisələrin/işlərin vəziyyəti; **2.** hal, vəziyyət; **in der ~ sein** imkanı olmaq, iqtidarı olmaq; **3.** *geol.* qat, lay, təbəqə; **4.** kağız topu; **5.** *hərb.* növbə; yaylım atəşi; **6.** *mus.* ton.
Láger *n* (6) **1.** yuva; yataq; yatacaq; **2.** mağaza, anbar; **3.** düşərgə; **ein ~ aufschlagen** düşərgə salmaq; **ein ~ abbrechen** *hərb.* düşərgəni yığmaq, yola düşmək; **4.** *tex.* yastıq; **5.** *geol.* məden yatağı.
Láger || gebühr *f*, **~geld** *n* yükün saxlanma haqqı; **~haus** *n* anbar; **~holz** *n* tir, şpal.
lágern I *vi* (*h, s*) **1.** yerləşmək, qalmaq; **2.** düşərgə salmaq; **II** *vt* **1.** yığmaq, qoymaq; **2.** anbarda saxlamaq; **3.** *tex.* qurğunu yastığın üstünə qoymaq; **III sich ~** yerləşmək; **sich in Schichten ~** qat-qat yerləşmək.
Láger || ort *m*, **Láger || platz** *m* **1.** *tic.* anbar yeri; **2.** düşərgə yeri/meydançası; **~raum** *m* anbar; **~schuppen** *m xüs.* anbar; **~stätte** *f geol.* yataq.
Lágerung *f* **1.** yerləşmə, yerləşdirmə; **2.** anbarda saxlama; **3.** *tex.* qurğu; **4.** *geol.* laylaşma, təbəqələşmə.
lahm *a* iflic; şil, topal, axsaq; ◊ **eine ~e Ausrede** boş bəhanə.
lähmen *vi* axsamaq.
lähmen *vt* zəiflətmək; iflic etmək (*həmç. məc.*).
Lähmheit *f* **1.** axsaqlıq, şillik, topallıq; **2.** *məc.* gücsüzlük, zəiflik.
lähm || legen *vt* **1.** zərərsizləşdirmək; **2.** susdurmaq; **3.** *məc.* iflic etmək.
Lähm || legung *f* **1.** zərərsizləşdir(il)mə; **2.** yatırtma, susdurma; **3.** *məc.* fəaliyyətsizlik.
Lähmung *f* (10) **1.** zəiflətmə; iflic; **2.** *məc.* durğunluq, hərəkətsizlik.
Laib *m* (1) kömbə, kalac (*çörək*); girdə (*pendir*).
Laich *m* -(e)s, *oh. pl* kürü.
láichen *vi* kürü tökmək.
Láie *m* (9) **1.** biliksiz/səriştəsiz adam; dilettant; **ein blutiger ~** tam biliksiz; zırrama; **2.** *din.* dünyəvi şəxs, dini bilgisi/səviyyəsi olmayan adam.
láienhaft *a* təcrübəsiz, biliksiz, naşı.
Lakái *m* (8) ev qulluqçusu.
Láke *f* (11) şor su, duzlu su; şoraba.
Láken *n* (7) döşəkağı; kətan parça.
lakónisch *a* yığcam, qısa; lakonik.
lállen *vi* dili topuq çalmaq.
lamentábel *a* acınacaqlı, ağlamalı.
Lamentatión *f* (10) ah-nalə, fəryad.
lamentíeren *vi* şikayətlənmək.
Lamm *n* (5) **1.** quzu; **2.** *məc.* quzu/fağır, körpə; ◊ **das ~ beim Wolf verpfänden** quzunu qurda tapşırmaq; ◊ **Ein ~ flieht, wenn's den Geier sieht** *ata. söz.* Quzu quzğundan qaçar; **Wer sich zum ~ macht, den fressen die Wölfe** *ata. söz.* Özünü quzu sayanı qurd yeyər.
lámmen *vi* quzulamaq, balalamaq.
Lámm(e)s || geduld *f oh. pl* dözüm, səbir, hövsələ.
Lámpe *f* (11) çıraq, lampa.
Lámpen || schirm *m* çıraq örtüyü, abajur.
Land *n* (5) **1.** (*ədəb.* **Lande**) ölkə, məmləkət; dövlət; **hier zu ~e / hierzulande** bu vilayətdə; **außer ~e(s) sein** yad/qərib ölkədə olmaq; **2.** *oh. pl* torpaq, yer; düzənlik (*yer*); **flaches / ebenes / plattes ~** düzənlik, düzən yer; **3.** *oh. pl* quru; **ans ~ gehen / steigen** sahilə çıxmaq; **ans ~ setzen** sahilə çıxarmaq; **zu Wasser und zu ~** suda və quruda; **4.** *oh. pl* kənd; **auf dem ~e** kənddə; şəhər kənarında; **aufs ~ gehen** şəhər kənarına (*kəndə*) getmək; **vom ~e** kəndli; ◊ **seitdem sind viele Jahre ins ~ gegangen** o vaxtdan çox illər keçib.
Land || arbeit *f* tarla işi; **~arbeiter** *m* muzdur.
land || arm *a iqt.* aztorpaqlı.
Land || armee *f hərb.* quru qoşun; **~armen** *pl* kənd yoxsulları; **~arzt** *m* kənd həkimi; **~bau** *m oh. pl* əkinçilik; **~bauer** *m* əkinçi; **~besitz** *m* **1.** mülkədarlıq, torpaq sahibliyi; **2.** mülk; malikanə; **~besitzer** *m*, **~besitzerin** *f* mülkədar, torpaq sahibi (*kişi, qadın*); **~bevölkerung** *f* kənd əhalisi; **~bewohner** *m* kənd sakini; **~brücke** *f coğr.* boyun.
Lände *f* (11) körpü (*gəmilərin yan almaşı üçün*).
landeinwärts *adv* ölkənin içi ilə.

etməmək; **das Leben ~** ölmək; **laß das Weinen!** ağlamağı kəs!; **j-n nicht aus den Augen ~** kimisə gözdən qoymamaq, kimisə gözlərini zilləyib baxmaq; *məc.* kimisə nəzərdən qaçırmamaq; **~ Sie diese Scherze!** zarafat bir yana qalsın!; **das muß man ihm ~** bunu onun əlindən almaq olmaz (*həmç. məc.*); **sich** (*D*) **Zeit ~** tələsməmək; **wo hast du das Buch gelassen?** kitabı harda qoymusan? ◊ **das läßt sich hören** bu haqda danışmaq olar; **das lasse ich mir nicht bieten** mən buna dözə bilmərəm; **sich** *etw.* (*A*) **gefallen ~** bir şeyə dözmək, səbir etmək; **sich sehen ~** görünmək, görsənmək; **im Stich ~** darda qoymaq; **II** *vi*: **von** etw. (*D*) **~** nədənsə boyun qaçırmaq.

Láßheit *f oh. pl* yorğunluq; zəiflik, yumşaqlıq, süstlük, cansızlıq; tənbəllik.

lässig *a* **1.** səliqəsiz; **2.** astagəl, ağır; süst.

läßlich *a* yol verilən, bağışlana bilən.

Lásso *m* -s, -s kəmənd.

Last *f* (10) yük; ağırlıq; *məc.* ağır yük; **zu ~en des Käufers** *tic.* alıcının hesabına; **j-m zur ~ fallen** kimisə yük olmaq; **j-m** etw. **zur ~ legen** kimisə suçlandırmaq, təqsirləndirmək.

Last || auto *n* yük arabası (*avtomobili*).

lästen *vi* (*auf D*) basmaq; ağırlıq etmək (*kimisə, nəyisə*); **die Verantwortung lastet auf ihm** məsuliyyətin ağırlığı onun üzərinə düşür.

Láster *n* (6) **1.** qüsur, nöqsan; əxlaqsızlıq; **2.** *dan.* yük arabası; **einem ~ frönen** əxlaqsızlıqla məşğul olmaq; **Müßiggang ist aller ~ Anfang** *ata. söz.* Veyllik cinayətin anasıdır.

lästerhaft *a* əxlaqsız; eyibli.

lästerlich *a* iftiralı; alçaq, rəzil, murdar; iyrənc; **sich ~ langweilen** *məc. dan.* bərk darıxmaq; **~ fluchen** hərcayi söyüşmək.

Lästermaul *n* acıdil; böhtançı, iftiraçı.

lästern *vt və vi* **1.** (*auf, über, gegen A*) dalca danışmaq, başqasını pisləmək; pisləmək, ləkələmək; **2.** *din.* küfr danışmaq, asilik etmək.

lästernd *a* **1.** böhtanlı, iftiralı; **2.** küfrlü, asi.

Lästerung *f* **1.** dalca danışma, qeybət; böhtan, iftira; söyüş; **2.** küfr, asilik.

Last || fuhre *f* yük arabası.

lästig *a* təngəgətirən, zəhlətökən; ağır, əziyyətli, məşəqqətli; zəhmətli, yorucu; **~ sein / fallen** təngə gətirmək, zəhlə tökmək.

Lästigkeit *f* (10) **1.** təngə gətirmə, zəhlə tökmə; **2.** çətinlik; narahatlıq.

Last || kahn *m* barj; **~kraftwagen** *m* yük arabası (*avtomobili*), **~pferd** *n* yük atı; **~tier** *n* yük heyvanı; **~träger** *m* mal yükləyən fəhlə; yükdaşıyan, hambal; **~wagen** *m* **1.** yük vaqonu; **2.** yük arabası (*avtomobili*); **~zug** *m* yük qatarı.

Lasúr *f* (10) şir, mina.

lasúrblau, ~farben *a* mavi, göy (*rəng*).

Latéin *n* -s, *oh. pl* latın dili; ◊ **er ist mit seinem ~ zu / am Ende** o çıxış yolu tapa bilmir (onun biliyi çatmır); **hier geht sein ~ aus** biliyi bura qədərdir.

Latéinisch, Lateinische *sub* latın dili.

latéinisch I *a* latın; **II** *adv* latınca.

Latéiner latınşünas.

latént *a* gizli, gizlin; **~es Bild** *foto.* aşkarlanmamış şəkil; **eine ~e Feindschaft** gizli düşmənçilik; **eine ~e Kranrheit** xəstəliyin gizli keçən forması; **~e Krise** *iqt.* böhranın gizli forması.

Latérne *f* (11) fənər.

Latríne *f* (11) ayaqyolu; zibil çalası;

Latsch *m* (1) pinti, səliqəsiz adam.

Schléh || busch *m*, **~dorn** *m* (*pl* **~dorne**) *bot.* göyəm.
Schlei *m* (1) *zool.* tinqa balığı.
Schléische *f* (11) *zool.* koramal.
schléichen* I *vi* **(s)** sürünmək, yavaş-yavaş yaxınlaşmaq; **wie eine Schnecke ~** ağır addımlarla irəliləmək; **II sich ~** gizlicə girmək; **sich in j-s Vertrauen ~** kiminsə qılığına girmək.
schléichend *a* sürünən, imələyən; **~er Fieber** üzücü titrətmə / qızdırma; **~er Gang** oğrun yeriş; **~es Gift** tədricən təsir edən zəhər.
Schléicher *m* (6*) özünü hər yerə soxan adam, sümsük.
Schléich || handel *m* kontrabanda, qaçaqmalçılıq; əlaltı / əlaltdan alver; **~händler** *m* kontrabandaçı, qaçaqmalçı; **~weg** *m* dolayı yol (*həmç. məc.*).
Schléier *m* (6) örtük, pərdə; çadra; **unter dem ~ der Nacht** gecənin qaranlığında.
schléierhaft *a* dumanlı; gizli; **das ist mir ~** *dan.* bu mənim üçün tapmacadır.
Schléife *f* (11) **1.** bant (*qəşəng bağlanmış lent*), ilgək; **2.** kirşə, xizək; **3.** katok (*konkidə sürüşmək üçün buz meydançası*); **4.** cələ, tələ (*quş üçün*); **5.** bülöv, bülövləmə.
schléifen* *vt* **1.** *tex.* yonmaq, itiləmək, cilalandırmaq; **2.** *zəif təsrifə* çəkmək, sürümək; **3.** *zəif təsrifə, hərb.* qalanı sökmək, dağıtmaq; **4.** *zəif təsrifə, dan.* əzab vermək, incitmək.
Schléifen || flug *m av.* fiqurlu uçuş; **~kurve** *f av.* ölü ilgək (*təyyarənin şaquli istiqamətdə dairə vurması*).
Schleifer *m* (6) bülöv.
Schléif || maschine *f* cila(lama) maşını; **~stein** *m* bülöv, bülöv daşı.
Schleim *m* (1) selik, bəlğəm.
schléimen *vi* bəlğəm ifraz etmək.
Schléim || haut *f* selikli qişa.
schléimig *a* selikli.
Schleiße *f* (11) **1.** tilişkə, talaşa; **2.** qanadın yanı (*quşda*).
schleißen* *və zəif təsrifə;* **I** *vt* doğramaq, yarmaq; doğrayıb qopartmaq; tüklərini yolmaq; **II** *vi* **(s)** köhnəlmək, dağılmaq.
Schlémihl *m* (1) *dan.* qarabəxt, bəxtigətirməyən; bəxtiqara.
Schlémmer *m* (6) kefcil, əyyaş.
schléndern *vi* **(s)** veyllənmək, avara gəzmək.

Schléndrian *m* (1) səhlənkarlıq, başısoyuqluq; süründürmə, köhnəlik; **den alten ~ gehen*** köhnə üsulla işləmək.
schlénkern *vt, vi* **1.** (*kənara*) atmaq, tullamaq; **2.** əl-qol atmaq.
Schlépp || dampfer *m* yedək gəmisi.
Schleppe *f* (11) şleyf.
schléppen I *vt* **1.** sürümək, sürüyüb çəkmək; **2.** yedəyə götürmək; **II sich ~** sürünmək.
schléppend *a* **1.** sürünən; **2.** yeknəsəq, asta; **3.** uzanan.
Schlépper *m* (6) **1.** traktor, yedəkçi; **2.** yedək gəmisi.
Schlépp || kahn *m* barj; **~kette** *f* yedək zənciri; **~netz** *n* balıq toru; **~seil** *n*, **~tau** *n* yedək ulğanı / kanatı / burazı; *av.* qaydrop (*aerostat endiyi zaman yerə atılan kəndir*); **j-n ins ~tau nehmen*** *məc.* kimisə yedəyə götürmək, kimisə kömək etmək; **~zug** *m* **1.** yedək karvanı; **2.** traktorla çəkilən araba qatarı; **3.** *av.* hava qatarı; təyyarə qoşulmuş planer; **4.** traktor vasitəsi ilə çəkmə.
schlésisch *a* sileziyalı, sileziya (*sif.*).
Schléuder *f* (11) **1.** sapand; katapult mancanaq (*qədimdə ox və ya daş atan alət*); **2.** *tex.* sentrifuqa.
Schléuder || honig *m* şansız bal, süzülmüş bal; **~kraft** *f oh. pl fiz.* mərkəzdənqaçan qüvvə.
schléudern I *vt* atmaq, qımcırlamaq, tolazlamaq, tullamaq; **II** *vi:* **mit einer Ware ~** malı dəyər-dəyməzinə satmaq.
Schléuder || preis *m* dəyərindən aşağı qiymət; **~pumpe** *f tex.* mərkəzdənqaçan nasos; **~ware** *f* aşağı qiymətlə satılan mal.
schléunig *a* tez; təxirəsalınmaz, tələsik; gözlənilməz.
Schléunigkeit *f* **1.** tezlik, yeyinlik; cəldlik; **2.** gözlənilməzlik, anilik.
schléunigst *adv* mümkün qədər tez, təxirə salınmadan.
Schléuse *f* (11) şlüz.
Schléusen || wehr *n* şlüzlü bənd.
schlich: schleichen *felinin impf'i.*
Schlich *m* (1) **1.** *məd.* şlik; **2.** baca, deşik; **3.** hiylə, kələk; *pl* intriqa, fitnə; **hinter j-s ~e kommen*** kiminsə niyyətinin üstünü açmaq.
schlicht *a* sadə, təvazökar.
schlíchten *vt* **1.** *tex.* hamarlamaq, hamarlayıb düzəltmək; **2.** işi yoluna qoymaq; mübahisəli məsələni həll etmək; razılaşdırmaq.
Schlíchtheit *f oh. pl* sadəlik, təvazökarlıq.
Schlícht || hobel *m* uzun rəndə.
Schlíchtung *f* (10) yoluna qoyma, həll etmə (*mübahisə, münaqişə*).
Schlích || watt *n* lilli dayaz yer.
schlief: schlafen *felinin impf'i.*
schlíeßen* I *vt* **1.** bağlamaq; örtmək; çırpmaq (*qapını*); qapamaq; **2.** bitirmək, tamamlamaq, başa çatdırmaq; **3.** nəticə çıxarmaq; **was ~ Sie daraus?** siz bundan nə nəticə çıxarırsınız? **II** *vi* **1.** tamamlanmaq, başa çatdırılmaq / gəlmək; **2.** bağlanmaq; **3.** nəticə çıxarmaq, qənaətə gəlmək; **daraus kann man ~, daß** ...bundan o nəticəyə gəlmək olar ki ...; **III sich ~** bağlanmaq.
sichlíeßlich I *a* qəti, son; **II** *adv* axır ki, nəhayət.
Schlíeß || muskel *m, f anat.* sfinkter (*deşiyi bağlayan və ya daraldan halqavari əzələ*).
Schlíeßung *f* (10) **1.** son, qapanış (*iclas* və s.); **2.** bağlama, bağlanma (*müqavilə*).
schlíff: schleifen *felinin impf'i.*
Schlíff *m* **1.** uc, tiyə, ağız; **2.** cila, pardaq, pardaqlıq; **3.** xəmir, çiy yer (*çörəkdə*); ◊ **hiermit hast du ~ gebacken** *dan.* bundan bir şey çıxmaz.
schlimm I *a* **1.** pis, xarab; **2.** xəstə (*bədən üzvü*); **ich habe einen ~en Finger** barmağım ağrıyır; **II** *adv* pas, xarab.
schlímmsten || falls *adv* bəd ayaqda, bədəbəddə.
Schlíng || beschwerde *f tib.* boğazda ağrı; çətin udqunma; **~bewegung** *f* udqunma.
Schlínge *f* (11) **1.** ilgək, ilmə, kəmənd; **2.** tələ, duzaq, tor; **den Arm in der ~ tragen*** qolu boyundan asmaq.
Schlíngel *m* (6) nadinc, dəcəl.
schlíngelhaft *a* dəcəl, nadinc.
schlíngen* *vt* **1.** sarımaq, dolamaq; toxumaq, hörmək; **2.** dolanmaq, sarılmaq (*boynuna*) **3.** acgözlüklə udmaq.
Schlíng || gewachs *n*, **~pflanze** *f* lina (*sarmaşan bitki*); **~rabe** *m zool.* qarabatdaq.
Schlípper || milch *f oh. pl* qatıq.
schlíppern *vi* **(s)** turşumaq, çürümək (*süd*).

Schlips *m* (1) qalstuk; **j-n am ~ kriegen** *dan.* kiminsə yaxasından yapışmaq; **j-n tüchtig auf den ~ treten*** *dan.* kimisə əməllicə təhqir etmək; **das haut einen auf den ~!** *dan.* belə şey eşidilməyib!

Schlítten *m* (7) xizək; kirşə, narta (*şimalda it və ya maral qoşulan kirşə*); **~ fahren*** xizəkdə sürüşmək; ◊ **unter den ~ kommen*** çətin vəziyyətə düşmək.

Schlúder || arbeit *f* başdansovdu iş.

schlúd(e)rig *a* səliqəsiz, diqqətsiz.

schlúdern *vi* pis / səliqəsiz işləmək.

Schlúmmer *m* -s, *oh. pl* mürgü.

Schlúmmer || lied *n* lay-lay.

schlúmmer || los *a* yuxusuz.

shlúmmern *vi* mürgüləmək, yatmaq.

Schlund *m* (1*) **1.** udlaq, hülqum; ağız, cəhənnəm (*heyvanlarda*); **2.** *məc.* dərin uçu-

schmächtig *a* cansız; cılız; zəif; çox zəif, çox kövrək.

schmách || voll *a* biabırçı, rüsvayçı, bədnam.

schmáckhaft *a* dadlı, ləzzətli; **j-m etw. ~ machen** *məc.* nəyisə kim üçünsə münasib şəklə salmaq.

schmáddern *vt dan.* kirləndirmək, çirkləndirmək, bulamaq.

schmécken I *vt* dadına baxmaq; **II** *vi* (*mach D*) dadı olmaq; xoşa gəlmək; **das schmeckt gut** bu dadlıdır.

Schmécker *m* (6) **1.** şirniyyat sevən, dadlı şey sevən; **2.** dequstator.

Schmeichelei *f* (10) yaltaqlıq.

schméichelhaft *a* **1.** tərifli, yaxşı; **2.** yaltaq.

Schméichel || katze *f* mehriban; yaltaq; *məc.*

schmírgeln *vt* sumbata ilə təmizləmək, cilalandırmaq.
schmíß: schmeißen *felinin impf*'i.
Schmíß *m* (1) **1.** çapıq, yara yeri; **2.** *dan.* vüsət, geniş miqyas.
schmíssig *a dan.* parlaq; vüsətlə.
Schmítz *m* (1) yüngül zərbə.
Schmítze *f* (11) **1.** qamçının ucu; **2.** zolaq, şırım.
schmítzen *vt* qamçılamaq.
Schmöker *n* (6) **1.** çox papiros çəkən adam; **2.** bulvar romanı.
schmökern *vi* **1.** papiros çəkmək; **2.** kitab həvəskarı olmaq.
schmóllen *vi* (*mit D*) qaşqabağını sallamaq (*kimə*sə); *dan.* dodağını sallamaq.
schmolz: schmelzen *felinin impf*'i.
Schmór || braten *m* pörtülmüş (*buğda bişmiş*) mal əti.
schmóren I *vt* pörtlətmək, buğda bişirmək (*əti*); **II** *vi* pörtləmək, buğda bişmək.
Schmu *m* -s, *oh. pl:* **~ machen 1.** *dan.* işi örtbasdır etmək; **2.** aldatmaq.
schmuck *a* gözəl geyinmiş, yaraşıqlı, qəşəng.
Schmuck *m* (1) **1.** bəzək; geyim, paltar; **2.** daş-qaş, qızıl-gümüş; zinət.
schmücken I *vt* bəzəmək; geyindirmək, geyindirib-kecindirmək; **II sich ~** bəzənmək, geyinib-kecinmək; ◊ **sich mit fremden Federn ~** *məc.* başqa dona girmək.
schmúck || los *a* bəzəksiz.
Schmúck || sachen *pl* daş-qaş; bəzək şeyləri.
Schmúddel *m* -s, *oh. pl dan.* **1.** palçıq, zığ; **2.** pinti adam.
schmúddeln *vt* çirkləndirmək.
Schmúggel *m* -s, *oh. pl,* **Schmuggelei** *f* (10) qaçaqmalçılıq.
schmúggeln I *vt* bir şeyi sərhəddən xəlvəti keçirmək; **II** *vi* qaçaqmalçılıqla məşğul olmaq.
Schmúggler *m* (6), **~in** *f* (12) qaçaqmalçı (*kişi, qadın*).
schmúnzeln *vt* qımışmaq, gülümsəmək.
Schmus *m* -es, *oh. pl dan.* **1.** cəfəngiyat, uydurma; **2.** yaltaqlıq.
schmúsen *vi dan.* **1.** cəfəngiyat danışmaq, boş-boş danışmaq; **2.** yaltaqlanmaq.
Schmutz *m* -es, *oh. pl* **1.** çirk, kir; zibil; **2.** nəmişlik, rütubətli hava.
schmútzen *vi* çirklənmək.
Schmútz || fink(e) *m* pinti.
schmútzig *a* **1.** çirkli, kirli; **~ werden, sich ~ machen** çirklənmək, kirlənmək; **2.** pis, nalayiq, yaramaz, murdar.
Schnábel *m* (6*) dimdik; burun; *dan.* ağız; ◊ **den ~ halten*** *dan.* dilini saxlamaq; **rede doch, wie dir der ~ gewachsen ist!** *dan.* bacardığın kimi danış.
schnäbeln (sich) *dan.* öpüşmək.
Schnábel || tier *n zool.* ördəkburun.
schnácken *vi* boş-boş danışmaq; zarafat etmək.
Schnáke *f* (11) **1.** mız-mızı; hünü; **2.** zarafat.
Schnálle *f* (11) toqqa.
schnállen *vt* toqqanı bağlamaq.
schnálzen *vi* çırtma vurmaq, şıqqıldatmaq (*dillə, barmaqlarla*).
schnapp! I *int* çırt!, şaqq!; **II** *adv* birdən.
schnáppen I *vi* **1.** (*s*) bağlanmaq, vurulmaq (*cəftə*); **2.** (*nach D*) tutmaq, yapışmaq (*nədənsə*); ◊ **(nach) Luft ~** çətinliklə nəfəs almaq; **jetzt hat's (aber) geschnappt!** *dan.* daha bəsdir!, daha yetər!; **II** *vt* qapmaq, qamarlamaq.
Schnápp || sack *m* yol çantası.
Schnaps *m* (1*) araq.
schnárchen *vi* xoruldamaq.
Schnarcherei *f* (10) xorultu.
Schnárre *f* (11) şaxşax, şıxşıx.
schnárren *vi* **1.** çatırdamaq, şıqqıldamaq, cırıldamaq; **2.** r və l səslərini düzgün tələffüz eləməmək.
Schnatterei *f* (10) **1.** qığıldama, qağıldama; **2.** *dan.* cəfəngiyat, boş söz.
schnáttern *vi* **1.** qığıldamaq, qağıldamaq; **2.** *məc.* boş-boş danışmaq, qeybət etmək.
schnáuben* 1. *vi* fısıldamaq; fınxırmaq; xoruldamaq; **2.** *vt* **(sich)** (*D*) **die Nase ~** burnunu silmək; **3.** *vi* **(vor) Rache ~** *məc.* intiqam həsrəti ilə yaşamaq.
schnáufen *vi* ağır nəfəs almaq; fınxırmaq (*heyvan*).
Schnáufer *m* (6): **er hat keinen ~ gemacht** *dan.* o, yorğunluğunu almadı; **bis zum letzten ~** *dan.* son nəfəsinə kimi.
Schnáuz || bart *m* **1.** bığ; **2.** bığlı/lopabığ adam.
schnáuz || bärtig *a* **1.** bığlı, lopabığ; **2.** *məc.* kobud, sərt.
Schnáuz || bärtigkeit *f* (10) *məc.* kobudluq, sərtlik.
Schnáuze *f* (11) **1.** üz, sifət, burun (*heyvanlarda*); **2.** damarın ucu; **3.** *tex.* nov, genağız boru; ◊ **wir haben die ~ voll** *dan.* canımız boğazımıza yığılıb, zara gəlmişik; **halt die ~** *kob.* yum ağzını!, mumla!; **eine große ~ haben** öyünmək; dili uzun olmaq.
schnáuzen *vi dan.* kiminsə üstünə qışqırmaq.
Schnáuzer *m* -s, - **1.** bax: **Schnauzbart; 2.** şnauser (*it cinsi*).
schnáuzig *a* kobud, sərt.
Schnécke *f* (11) **1.** ilbiz; **2.** *tik.* buruq; **3.** *tex.* sonsuz vint.
Schnécken || antrieb *m tex.* sonsuz vint ötürücüsü; **~haus** *n* ilbiz çanağı; **mit der ~post** *f* tısbağa yerişi ilə; **~rad** *n tex.* sonsuz vintli çarx.
Schnee *m* -s, *oh. pl* qar; ◊ **und wenn der ganze ~ verbrennt, die Asche bleibt uns doch** yer-göy dağılsa da, bizə bir şey qalacaq; **Eier zu ~ schlagen*** yumurta çalmaq.
Schnée || ball *m* qartopu; **~decke** *f* qarla örtülmə; qar yorğanı; **~fall** *m* bərk qar yağma; **~flocke** *f* qar dənəsi; **~gestöber** *n* boran, çovğun; **~glöckchen** *n* xəccəgülü, novruzgülü; **~grenze** *f oh. pl coğr.* qar xətti, qar sərhəd; **~haufen** *m* qar yığını, qar kosası; **~huhn** *n* ağ kəklik.
schneéig *a* **1.** qarlı, qarla örtülmüş; **2.** ağappaq.
Schnée || könig *m:* **er freut sich wie ein ~** o, şadlığından şıllaq atır.
schnée || los *a* qarsız.
Schnée || mann (*pl* **-männer**) qar adam; **~pflug** *m* qartəmizləyən; **~schuh** *m* **1.** çəkmə (*ayaqqabı*); **2.** ayaq xizəyi; **~sturm** *m* boran; **~treiben** *n* boran, çovğun.
schnée || weiß *a* dümağ, qar kimi ağ.
Schnée || wittchen *n* (7) qar gəlini.
Schneid *m* -(e)s, *oh. pl* duruş; qıvraqlıq; zahiri bəzək.
Schnéide *f* (11) tiyə, ağız, dil; *tex. av.* kəsik, kəsik yer; ◊ **es steht auf des Messers ~** bu, tükdən asılıdır.
Schnéide || bohnen *pl* qılaflı paxla; **~messer** *n* kəsər, kəski; **~mühle** *f* taxta-şalban zavodu.
schnéiden* I *vt* **1.** kəsmək, doğramaq; **2.** qırxmaq (*saç*); **3.** tutmaq (*dırnağı*);

4. *riyaz.* ikiyə bölmək; ◊ **Gesichter ~** ağızburunu əymək, üz-gözünü büzüşdürmək; **Faxen ~** özünü əzmək, əzilib-büzülmək; **j-m die Kur ~** kiməsə qulluq göstərmək; **II sich ~ 1.** kəsib yaralamaq (*özünün bir yerini*); ◊ **er hat sich ins eigene Fleisch geschnitten** o öz-özünü cəzalandırıb; **2.** səhv etmək; **3.** *riyaz.* kəsişmək; **III** *vimp:* **es schneidet mir im Leibe** qarnımda sancı var; **das schneidet mir ins Herz** *məc.* bu mənə çox təsir edir.

schnéidend *a* **1.** iti; **2.** kəskin; şiddətli.

Schnéider *m* (6) dərzi; ◊ **frieren* wie ein ~** bərk üşümək.

Schneideréi *f* (10) dərzilik.

Schnéiderin *f* (12) dərzi qadın.

schnéidern *vi* dərzilik etmək, tikmək.

Schnéide || zahn *m* **1.** *anat.* kəsici diş; **2.** *tex.* mişarın dişi.

schnéidig *a* qoçaq, igid.

schnéien I *vimp:* **es schneit** qar yağır; **II** *vi* (*s*): **er ist mit ins Haus geschneit** *məc.* o gözlənilmədən gəlib çıxdı.

Schnéise *f* (11) **1.** cığır; **2.** tələ.

schnell I *a* tez, cəld, tələsik, sürətli; **II** *adv* tez, cəld, tələsərək.

Schnéll || läufer *m* iti yeriyən; *köhn.* çapar, qasid.

Schnélle *f* (11) **1.** *oh. pl* yeyinlik, sürət; **2.** qıjov, çayın iti axan yeri.

schnéllen I *vt* **1.** atmaq, tullamaq, tolazlamaq; **2.** (*um A*) aldatmaq (*nədəsə*); **II** *vi* (*s*) **1.** yerindən sıçramaq, dik atılmaq; **in die Höhe ~** yuxarı atılmaq; **2.** yaylanmaq; **3.: mit den Fingern ~** barmaqlarını şaqqıldatmaq.

Schnéll || feuer *n harb.* sıx / sürətli atəş.

Schnéllfeuer || geschütz *n harb.* tez atan top.

schnéll || füßig *a* itiayaq, qaçağan, ayaqdan zirək.

Schnélligkeit *f* (10) tezlik, sürət.

Schnéll || post *f* təcili poçt; **~presse** *f mətb.* silindrik təzyiqlə çap edən maşın; **~schreibekunst** *f* stenoqrafiya; **~sieder** *m* suqaynadan (*cihaz*); **~waage** *f* yaylı əl tərəzisi; **~zug** *m* sürət qatarı.

schnéll || züngig *a dan.* itidilli, dildən pərgar.

Schnépfe *f* (11) *zool.* cüllüt.

schnéuzen (sich) burnunu silmək.

Schnick || schnack *m* **-s,** *oh. pl* boş şey, cəfəngiyat.

schniegeln *vt* bəzəmək, geyindirib-kecindirmək.

Schníppchen *n* (7) *dan.* şıqqılti, çırtma; **j-m ein ~ schlagen*** kimisə dolamaq.

schníppeln *vt* doğramaq, tikə-tikə etmək.

schníppisch *a* coşqun, həvəs; həyasız.

Schnitt *m* (1) **1.** kəsik, çapıq, yarıq; **2.** kənar, qıraq (*kitabda*); **3.** ülgü, əndazə, biçim; **4.** dilim, fal; **5.** *riyaz.* kəsik.

Schnítte *f* (11) dilim, fal, parça.

Schnítter *m* (6) biçinçi.

Schnítt || holz *n* mişarlanmış taxta-şalban.

schnítttig *a* axarlı, sürüşkən (*maşının* və s. forması).

schnítt || reif *a* biçin üçün yetişmiş.

Schnítt || kante *f* kənar, qıraq (*kitabda*); **~muster** *n* ülgü, əndazə; **~waren** *pl* manufaktura malları; **~wunde** *f* kəsik yarası.

Schnítz || arbeit *f* oyma (kəsmə) işi.

Schnítzel *n* (6), *m* (6) **1.** kəsik, tikə; yonqar; **2.** *n* şnitsel (*qızardılmış dana əti*).

schnítzeln *vt* xırda-xırda kəsmək, doğramaq.

schnítzen *vt* kəsmək, naxış açmaq (*ağacda*); ◊ **er ist aus hartem Holz geschnitzt** o çox iradəli adamdır.

Schnítzer *m* (6) **1.** naxışaçan (*ağac üzərində*); **2.** səhv.

Schnitzeréi *f* (10) oyma, naxış (*ağac üzərində*), naxışlama.

schnob: schnauben *felinin impf*'i.

schnódd(e)rig *a* sırtıq; dəcəl, şuluq.

schnöd(e) *a* **1.** etinasız, saymazyana; təhqiredici; **2.** mənfur, nifrətəlayiq; **schnöder Undank** yaxşılığa yamanlıq.

Schnödigkeit *f* (10), **Schnödheit** *f* (10) **1.** etinasızlıq; **2.** alçaqlıq, əclaflıq.

Schnörkel *m* (6) **1.** quyruq (*imzada, hərfdə*); **2.** buruq, qıvrım (*saçda*); **3.** bəzək-düzək.

schnörkeln *vi* quyruq qoymaq (*hərfdə, imzada*).

schnórren *vi* dilənçilik etmək.

Schnúckelchen *n* (7*) quzu.

schnüffeln *vi* **1.** qoxulamaq, iyləmək, imsiləmək; **2.** *məc.* casusluq etmək, izləyib xəbər

tutmaq, güdmək; **überall herum ~** burnunu hər yerə soxmaq.

schnúllen *vi* sormaq.

Schnúller *m* (6) əmzik.

schnúpfen *vi* iyləmək, qoxulamaq (*tütün* və s.).

Schnúpfen *m* **-s,** *oh. pl* zökəm, tumov.

Schnúpfen || fieber *n* qrip.

Schnúpf || tabak burunotu; **~tuch** *n* (*pl* **-tücher**) əl yaylığı.

schnúppe *adv:* **das ist mir ~!** *dan.* mənim üçün bunun heç bir fərqi yoxdur!

Schnúppe *f* (11) **1.** yanıq (*şamda*); **2.** axan ulduz.

schnúppern *vi* bax: **schnüffeln.**

Schnur I *f* (10, 3) **1.** kəndir, qaytan, bağ, ip; **2. eine ~ Perlen** bir sap mirvari; ◊ **über die ~ hauen*** həddini aşmaq; **3.** filiz damarı; **II** *f* gəlin (*ərin atasına münasibətdə*).

Schnürchen *n* (7): ◊ **es gaht alles wie am ~** *məc.* hər şey yağ kimi gedir; **j-n am ~ haben** kimisə əlində saxlamaq; etw. **[seine Aufgabe] am ~ hersagen** (öz dərsini) əzbərdən bilmək.

schnüren I *vt* qaytanlamaq, qaytanla bağlamaq, düyünləmək; **sein Bündel ~** *məc.* düyünçəsini bağlamaq, yola hazırlaşmaq; **II sich ~** qaytanlanmaq, bağlanmaq, belinə qayış bağlamaq; **das schnürt einem das Herz zusammen** bu adamın ürəyini yandırır.

schnúr || geráde *a* dümdüz.

Schnür || leibchen *n* korset (*bədəni düz saxlamaq üçün enli kəmər*).

Schnúrr || bart *m* bığ.

Schnúrre *f* (11) **1.** gülməli hekayə; sayıqlama; **2.** şaxşax, şıxşıx.

schnúrren *vi* vızıldamaq; miyoldamaq (*pişik*).

Schnür || riemen *m* qaytan, ensiz qayış.

schnúrrig *a* gülməli, məzəli, əyləndirici.

Schnúrr || pfeiferei *f* bəzək-düzək, oyun-oyuncaq.

Schnür || schuh *m* qaytanlı çəkmə; **~senkel** *m* çəkmə qaytanı; **~stiefel** *m* qaytanlı uzunboğaz çəkmə.

schnúr || strácks *adv* **1.** birbaşa; **2.** o dəqiqə, təxirə salınmadan.

schob: schieben *felinin impf*'i.

Schóber *m* (6) taya (*ot*); qalaq (*taxıl*).

schóbern *vt* taya vurmaq, taya yığmaq.

Schock I *m* (1) əsəbilik; ürəkkeçmə; şok.

Schock II *n* (2) 60 ədəd.

schócken *vt* itiləmək.

Schöffe *m* (9) *hüq.* məhkəmə iclasçısı.

Schöffen || gericht *n hüq.* şəfrenlər məhkəməsi.

Schokoláde *f* (10) şokolad.

Schólle *f* (11) **1.** qaya (*iri daş və ya buz parçası*); bir parça torpaq (*yer*); **an der ~ kleben** *məc.* torpağa bağlı olmaq; **2.** buz parçası, buz kütləsi; **3.** *zool.* kambala, qalxan balığı.

schon *adv* artıq; **~ gut!** yaxşı!; **das ~, aber...** bu doğrudur ancaq ...; **wenn ~, denn ~!** 1) ... etmək; lazımdır; 2) əgər belədirsə, belə də olsun; **er wird ~ kommen*** o yəqin ki, gələr; **~ um ihn zu überzeugen** ən azı onu inandırmaq üçün; **das ist ~ wahr, aber ...** doğrudur, ancaq ...

schön I *a* gözəl, qəşəng, zərif; **~e Literatur** bədii ədəbiyyat; **die ~ en Künste** incəsənət; **ein ~ es Stück Geld** baha; bir xeyli pul; **~e Augen machen** naz etmək; **manch ~es Mal** dəfələrlə; **II** *adv* çox yaxşı, çox gözəl; **~!** yaxşı!, razıyam!; **das wäre noch ~ er!** elə bu qalmışdı!; **danke ~!** çox sağ olun, minnətdaram!; **bitte ~!** buyurun!; **Sie haben ~ lachen** nə vecinizə.

Schöne I *n* **-n** *oh. pl* gözəllik.

Schöne II *f* (11) gözəl qız (*qadın*); dilbər.

schónen I *vt* qorumaq, gözləmək, muğayat olmaq; **II sich ~** qorunmaq, özünü gözləmək.

Schóner I *m* (6) *dəniz.* şxuna (*iki və ya üç dorlu yelkənli gəmi*).

Schóner II *m* (6) üzlük, örtü.

Schönheit *f* (10) **1.** gözəllik; **2.** gözəl qız (*qadın*).

Schönheits || fehler *m* cismani qüsur, cismani eyib; **~mittel** *n* kosmetik maddə.

schön || reden *vi* yaltaqlanmaq.

Schón || revier *n* qoruq, qoruq yeri.

Schönschreib || kunst *f oh. pl* **~schrift** *f oh. pl* kalliqrafiya, xəttatlıq.

schön || tun* *vi* yaltaqlanmaq; **mit j-m ~** kiməsə yaltaqlanmaq.

Schónung *f* (10) **1.** aman, rəhm; ehtiyat, ehtiyatlılıq; **mit ~** ehtiyatla; **2.** qoruq (*meşə*).

schónungs || los *a* rəhmsiz, amansız.

Schón || zeit *f oh. pl* ov etmək üçün qadağan olunmuş vaxt.

Schopf *m* (1*) **1.** kəkil, cıqqa; **2.** təpə (*başda*); ◊ **die Gelegenheit beim ~e fassen** fürsəti fövtə verməmək, fürsətdən istifadə etmək.

Schöpf || brunnen *m* quyu; **~eimer** *m* badya, çəlləк, vedrə.

schöpfen *vt* çıxartmaq (*su*); ◊ **Atem ~** nəfəsini dərmək; **Mut ~** ürəklənmək, ruhlanmaq; **Verdacht ~** şübhələnmək, şübhə altına almaq.

Schöpfer I *m* (6), **~in** *f* (12) yaradıcı; müəllif (*kişi, qadın*).

Schöpfer II *m* (6) çömçə, çalov.

schöpferisch *a* yaradıcı.

Schöpf || kelle *f*, **~löffel** *m* çömçə, çalov.

Schöpfung *f* (10) **1.** əsər; yaradıcılıq məhsulu; **2.** xəlq olunmuş.

Schöpf || werk *n oh. pl tex.* yerqazan maşın; ekskavator.

Schóppen *m* (7) parç.

Schöpsen || braten *m*, **~fleisch** *n* qoyun əti (*qızardılmış*).

schor: scheren *felinin impf*'i.

Schorf *m* (1) köz, qabıq (*yarada*).

schórfig *a* qasnaq bağlamış; qotur.

Schorle || mórle *n* -s, -s qazlı su ilə qarışdırılmış çaxır.

Schórn || stein *m* buxarı; **das kannst du in den ~ schreiben*!** üstündən qələm çək! yaz buza!

Schórnstein || feger *m* buxarıtəmizləyən, qurumçu.

schoß: schießen *felinin impf*'i.

Schoß I *m* (1, 1*) *pl* (*həmç.* **Schossen/Schösser**) zoğ, cavan budaq (*ağacda*).

Schoß II *m* (1*) **1.** ətək, kənar (*paltarda*); **2.: auf dem ~e sitzen*** qucaqda oturmaq; **die Hä**

Schott *n* (2), **Schótte I** *f* (11) *dəniz.* su keçirməyən arakəsmə (*divar*); **Schotten dicht!** arakəsmələri bağlayın!

Schótte II *m* (9) şotlandiyalı.

Schótter *m* -s, *oh. pl* **1.** çınqıl, qırma daş, xırda çay daşı; **2.** *d.y.* ballast (*şpalları bərkitmək üçün onların arasına tökülən çınqıl və qum*).

schóttern *vt* çınqıl tökmək; ballastlamaq.

schóttisch *a* şotland (*sif.*).

schraffieren *vt* ştrixləmək, cizgiləmək.

schräg I *a* qıyqac, çəp; maili, yatıq; **II** *adv* çəpinə, qıyqacı; maili; **den Hut ~ aufsetzen** papağını yan qoymaq.

Schräge *f* (11) əyri xətt, çəp xətt, diaqonal.

schräg || über *adv* çəpinə.

Schräm || maschine *f məd.* qazma maşını.

Schrámme *f* (11) çapıq, kəsik.

schrámmig *a* cırmaqlanmış, zolaq-zolaq kəsilmiş.

Schrank *m* (1*) şkaf, dolab.

Schránke *f* (11) **1.** çəpər, alçaq divar; **2.** şlaqbaum; **~ n errichten** çəpər çəkmək (*həmç. məc.*); **3.** sərhəd, həddi, hüdud; **das übersteigt alle ~n** *məc.* bu lap həddini aşır; **sich in ~n halten*** bitərəf qalmaq; **sich in den [innerhalb der] ~n des Gesetzes halten*** qanundan kənara çıxmamaq; ◊ **für j-n [etw]. in die ~n treten*** kiminsə, nəyinsə tərəfini saxlamaq.

schränken *vt* **1.** çarpazlamaq (*qolları*); **2.** diş açmaq (*mişarda*).

schránken || los *I a* **1.** ölçüsüz; ucsuz-bucaqsız; nəhayətsiz; **2.** saxlanmaz, qabağı alınmaz; **II** *adv* şiddətli.

Schránze *m* (9), *f* (11) yaltaq (*kişi, qadın*).

schránzen *vi* yaltaqlıq etmək.

Schrápe *f* (11) ərsin, kürəkcik.

Schrápsel *n* (6) tör-töküntü, sıyrıntı.

schräuben* *vt* **1.** vintləmək, burub bərkitmək; **2.** artırmaq, qaldırmaq (*vergini, qiyməti*).

Schráuben || dampfer *m* vintli paroxod; **~flieger** *m av.* helikopter, avtojir (*düz xətlə qalxıb-enən təyyarə*); **~flügel** *m dəniz, av.* vintin qanadı; **~flugzeug** *n* vertolyot; **~gang** *m tex.* yiv yolu; **~mutter** *f* (*pl* **~muttern**) qayka; **~schlüssel** *m tex.* qayka açarı; **~zieher** *m* vintaçan, vintburan.

Schráub || stock *m tex.* məngənə.

Schréber || garten *m* balaca bostan.

Schreck *m* -(e)s, *oh. pl* qorxu; **einen ~ bekommen*** qorxmaq; **j-m einen ~ einjagen** kimisə qorxutmaq.

Schrécke *f* (11) *zool.* şala, cırcırama; çəyirtkə.

Schrécken *m* -s, *oh. pl* dəhşət, qorxu.

schrécken *vt* **1.** qorxutmaq; **2.** *tex.* tez soyutmaq; **Eier ~** bişmiş yumurtanın üstünə soyuq su tökmək.

schréckens || bleich *a* qorxudan rəngi qaçmış.

Schréckens || botschaft *f* dəhşətli xəbər; **~herrschaft** *f oh. pl* terrorçuluq; **~nachricht** *f* pis xəbər; **~tat** *f* dəhşətli cinayət.

Schréck || gespenst *n* xəyal, qarabasma.

schrécklich *a* dəhşətli, qorxunc.

Schréck || mittel *n* hədə-qorxu; uyuq, qorxuluq.

Schrécknis *n* (3*) dəhşət.

Schréck || pistole *f* puçaq (*probka atan uşaq tapançası*); **~schuß** *m* **1.** xəbərdarlıq atəşi (*havaya atma*); **2.** yalançı həyəcan.

Schrei *m* (1) qışqırmaq; fəryad, nalə; **der letzte ~ der Mode** ən yeni dəbli paltar.

Shréib || art *f* **1.** üslub; **2.** orfoqrafiya.

schréiben* **I** *vt* yazmaq; etw. **ins reine ~** nəyinsə üzünü köçürmək; etw. **ins**

Schréiber *m* (6) yazan; *köhn.* mirzə, köçürdən.

schréib || faul *a:* **~ sein** məktub yazmağa tənbəllik etmək.

Schréib || fehler *m* səhv (*yazıda*); **~lehrer** *m* hüsnxət müəllimi; **~maschine** *f* yazı maşınası; **~papier** *n* yazı kağızı; **~schrift** *f* kursiv şrift; **~tisch** *m* yazı masası; **~waren** *pl*, **~zeug** *n* yazı ləvazimatı.

schréien* *vi* qışqırmaq; **sich heiser ~** səsi batana qədər qışqırmaq; ◊ **der Schnee schreit** qar xışıldayır.

schréiend *a* **1.** *məc.* qanqaraldıcı; biabırçı; **2.** diqqəti cəlb edən, gözəçarpan (*rəng, paltar*).

Schréier *m* (6) qışqırıqçı.

Schréi || hals *m dan.* qışqırıqçı.

Schrein *m* (1) **1.** şkaf, dolab; **2.** yeşik, sandıq.

Schréiner *m* (6) xarrat.

schreinern *vi* xarratlıq etmək.

schréiten* *vi* (*s*) **1.** addımlamaq; **vorwärts ~** irəli addımlamaq; **über** etw. (*A*) **~** nəyinsə üstündən adlayıb keçmək; **2.** (*zu D*) başlamaq, girişmək (*nəyəsə*).

schrie: schreien *felinin impf*'i.

schrieb: schreiben *felinin impf*'i.

Schrift *f* (10) **1.** xətt; **2.** şrift; hərflər; **3.** rəsmi kağız, ərizə; **4.** əsər; **5.** üst yazısı.

Schrift || art *f mətb.* şrift növü; **~denkmal** *n* yazılı abidə; **~deuter** *m* (6) qrafoloq (*qrafologiya müəllimi*); **~deutsch** *a* alman ədəbi dili; **~führer** *m*, **~in** *f* katib, kargüzar (*kişi, qadın*); **~leiter** *m* redaktor; **~leitung** *f* redaksiya.

schriftlich *a* yazılı; **das kann ich ~ geben*** mən buna qol çəkməyə hazıram.

Schrift || probe *f* xətt nümunəsi; **~sachverständige** *m* (9) qrafoloq (*xətt mütəxəssisi*); **~satz** *m mətb.* yığım; **~setzer** *m mətb.* mü-

müit auf ihn // liegt bei ihm bu onun günahıdır.

Schúld || **bekenntnis** *n* suç etirafı.

schúldig || **bekennen** *a* təqsirkar, günahkar, suçlu; ~bewußt *a* (öz) suçunu/ günahını/ təqsirini başa düşən.

Schúld || **brief** *m* bax: Schuldschein.

schúlden *vi* borclu olmaq.

schúlden || **frei** *a* borcsuz.

Schúlden || **last** *f* borcun ağırlığı; ~tilgung *f* borcu ödəmə.

schúldig *a* 1. borclu; ~ sein borclu olmaq (*pul*); was sind wir ~? biz nə qədər verməliyik? ~ sein etw. zu tun* nəyisə etməyə borclu olmaq; darauf blieb er mir die Antwort ~ bu haqda o mənə heç bir cavab vermədi; keine Antwort ~ bleiben* söz üçün məsəl qalmamaq; sie bleiben* einander nichts ~ onlar bir-birindən geridə qalmır; 2. lazımi; die ~e Achtung zollen lazımi hörmət göstərmək; 3. suçlu; sich ~ bekennen* özünü suçlu saymaq.

Schúldige *m, f* (9*) təqsirkar, günahkar (*kişi, qadın*).

Schúldigkeit *f oh. pl* borc, vəzifə; er hat seine ~ getan o öz borcunu yerinə yetirdi.

schúldlos *a* təqsirsiz, günahsız, suçsuz.

Schúldner *m* (6), **-in** *f* (12) borclu (*kişi, qadın*).

Schúld || **schein** *m* iltizamnamə (*alınan pulun müqabilində*).

Schúle *f* (11) 1. məktəb; höhere ~ orta məktəb; heute ist keine ~ bu gün dərs yoxdur; 0 aus der ~ schwatzen hər bansı bir sirri açmaq, aləmə yaymaq; 2. *məc.* cərəyan (*elmdə*).

schúlen I *vt* 1. öyrətmək; təlim vermək, tərbiyə etmək; 2. məşq keçmək; ein Pferd ~ ati boğmaq, atın xamlığını almaq; II sich ~ ixtisas dərəcəsi təyin edilmək.

schúl || **entlassen** *a* məktəbi bitirmiş; ~entwachsen *a* məktəb yaşından çıxmış.

Schüler *m* (6), **-in** *f* (12) şagird, məktəbli (*oğlan, qız*).

schülerhaft I *a məc.* şagird; II *adv* şagirdyana.

Schúl || **ferien** *f* məktəb bayramı; ~ferien *pl* məktəb tətili; ~flug *m* təlim uçuşu; ~flugzeug *n* təlim uçağı.

schúl || **frei** *a* dərsdən azad.

Schúl || **freund** *m* məktəb yoldaşı; ~geld *n* təhsil pulu; ~jahr *n* tədris ili; ~junge *m* məktəbli, şagird; ~kamerad *m* məktəb yoldaşı; ~meister *m* 1. sinif rəhbəri; 2. *məc.* pedant, xırdaçı.

schúlmeistern *vt* nəsihət vermək; təlim vermək.

Schúl || **ordnung** *f oh. pl* 1. məktəb nizam-intizamı; 2. məktəb nizamnaməsi; ~pflicht *f oh. pl* icbari təhsil.

schúl || **pflichtig** *a* məktəbyaşlı; ~es Kind məktəbyaşlı uşaq.

Schúl || **plan** tədris planı; ~sachen *pl* tədris levazimatı; ~schiff *n* təlim gəmisi.

Schúh|er *f* (11) çiyin; ~ an ~ çiyin-çiyinə (*həmç. məc.*); 0 j-m die kalte ~ zeigen kimisə qovmaq, ayağını kəsmək (*bir yerdən*); kimsəsə soyuq üz / sifət göstərmək; etw. auf die leichte ~ nehmen* nəyəsə ciddi yanaşmamaq.

Schúlter || **blatt** *n anat.* kürək.

schúltern *vi hərb.* tüfəngi çiynə almaq.

Schúlung *f* (10) 1. təlim; tədris; 2. dərs; kurs; 3. tərbiyə; 4. öyrənmə.

Schúl || **unterricht** *m* məktəb təlimi; ~vorstand *m* məktəb müdiriyyəti; ~wesen *n oh. pl* məktəb işi.

Schúl || **zeit** *f oh. pl* 1. tədris vaxtı, məktəb vaxtı; 2. tədris illəri; ~zwang *m* icbari təhsil.

schúmmeln *vi* 1. aldatmaq; 2. köçürtmək (*dərsdə bir-birindən*).

Schúmmer *m* (6) toran, qaş qaralan vaxt.

schúmmern *vimp* qaranlıqlaşmaq; es schummert qaş qaralır.

Schund *m* -(e)s, *oh. pl* 1. zir-zibil;, cırcındır, tullantı; 2. xaltura.

Schúnd || **literatur** *f* vulqar / bayağı ədəbiyyat; ~roman *m* vulqar roman.

Schúppe *f* (11) 1. pulcuq (axca); göz (*yarada*); es fiel mir wie ~n von den Augen *məc.* elə bil gözlərimi açdılar; 2. *pl* kepək (*başda*).

schúppen I *vt* balıq təmizləmək; II sich ~ qabıq qoymaq, qabığı soyulmaq.

Schúppen *m* (7) 1. talvar, çardaq; 2. qaraj; anqar.

schúppig *a* pulcuqlu, axçalı.

Schur *f* (10) **1.** qoyun qırxımı; **2.** qırxım zamanı alınan yun.
Schür || eisen *n* odçəkən, atəşkeş, maşa.
schüren *vt* **1.** kömürü qarışdırmaq; **das Feuer ~** alışdırmaq; **2.** *məc.* qızışdırmaq.
schürfen I *vi geol.* kəşfiyyat aparmaq, mədən yataqlarını öyrənmək; **II** *vt* sıyırmaq (*dərini*).
schürigeln *vt:* **j-n ~** *dan.* kimisə təngə gətirmək, kimləsə öcəşmək.
Schürke *m* (9) yaramaz, fırıldaqçı, dələduz.
Schüster || draht *m oh. pl* mumlu sap, çəkmə ipi.
Schusteréi *f oh. pl* çəkməçilik sənəti.
Schüster || junge *m* çəkməçi şəyirdi.
schústern *vi* **1.** çəkməçilik etmək; **2.** pis işləmək.
Schúte *f* (11) şalanda (*dibi yastı barja*).
Schutt *m* -(e)s, *oh. pl* **1.** zibil; **2.** qırma daş.
Schütt || boden *m* taxıl anbarı; **~damm** *m* qum təpəsi.
Schútte *f* (11) dərz.

schútz || los *a* müdafiəsiz, arxasız, köməksiz.
Schútz || mann *m* (*pl* **-männer / -leute**) polis; **~marke** *f* fabrik nişanı; **~umschlag** *m* **1.** sarğı, üz, qabıq; **2.** *mətb.* üzlük, cild üzlüyü; **~vorrichtung** *f tex.* qoruyucu mexanizm (*tərtibat*); **~wehr** *f* **1.** bənd, sədd; **2.** *oh. pl məc.* sipər, dalda; dayaq, istinadgah; **~zoll** *m iqt.* himayəedici gömrük.
Schwábe I *m* (9) şvab (*xalq*).
Schwábe II *f* (11) mətbəx böcəyi.
Schwäb[illegible]

ruğu; **2.** uzunquyruq kəpənək; **3.** quş quyruğu; **4.** bənd (*taxtaları, tirləri bir-birinə bənd etmək üçün*); **5.** *zaraf.* frak (*geyim*).
Schwall *m* (1) sel, axın; **ein ~ von Worten** söz axını.
schwamm: schwimmen *felinin impf'i.*
Schwamm *m* (1*) süngər; ◊ **~ d(a)rüber!** *dan.* bunu ataq!, bunu yaddan çıxaraq!
schwámmig *a* məsaməli, deşik-deşik, gözgöz.

schwer I *a* **1.** ağır; **2.** çətin; əziyyətli, əzablı; **3.** yoğun; kök; tünd (*tütün, çaxır*); ◊ **das hat ~es Geld gekostet** bu, baha başa gəldi; **~er Kampf** ağır döyüş; **~e See** coşqun dəniz; **eine ~e Menge** həddən artıq çox; **II** *adv* ağır, çətin; çətinliklə; **~ werden** ağırlaşmaq; **~ beleidigen** bərk toxunmaq, xətrinə dəymək, pərt etmək; **sie liegt ~ darnieder** onun xəstəliyi təhlükəlidir; **j-m das Herz ~ machen** kiməsə dərd vermək.

schwér || atmig *a* çətinliklə nəfəs alan; **~beladen** *a* **1.** ağır yüklü; **2.** *məc.* məzlum, məhkum, əzilmiş; **~bewaffnet** *a* ağır silahlanmış; **~blütig** *a* melanxolik, qəm gətirən.

Schwére *f* (11) ağırlıq; çəki; **Gesetz der ~** *fiz.* cazibə qanunu.

Schwerenót *f inv. dan.* lənətə gəlmiş.

schwér || fallen* *vi* (*s*): **es fällt mir schwer** mənə ağır / çətin gəlir, bu mənim üçün çətindir.

Schwér || fälligkeit *f oh. pl* yöndəmsizlik; astagəllik.

schwér || flüssig *a tex.* qatı, qəliz.

Schwér || gewicht *n* **1.: das ~ auf** etw. **legen** əsas diqqəti nəyəsə yönəltmək; **sein ganzes persönliches ~ in die Waagschale** [illegible]

gend *a* **1.** ağır çəkili; **2.** *məc.* tutarlı, əsaslı, inandırıcı, sanballı.

Schwéster *f* (11) **1.** bacı; **2.** şəfqət bacısı; xəstə baxıcısı (*qadın*).

Schwéster || kind *n* bacı uşağı; **~mann** *m* (*pl* **-männer**) yeznə; **~schiff** *n* eynitipli gəmi; **~sohn** *m* bacıoğlu; **~tochter** *f* bacıqızı.

schwieg: schweigen *felinin impf*'i.

Schwíeger 1. *m* (6) qayınata; **2.** *f* (11) qayınana.

Schwíeger || eltern *pl* kişinin/arvadın ata-anası; **~ mutter** *f* qayınana; **~sohn** *m* kürəkən; **~tochter** *f* gəlin; **~vater** *m* qayınata.

Schwíele *f* (11) qabar.

schwíelig *a* qabarlı.

schwíemeln *vi* (*h, s*) **1.** baş gicəllənmək; **2.** *dan.* avara-avara gəzmək, veyllənmək.

schwíerig I *a* çətin, ağır; çətin həll olunan (*məsələ*); **ein ~er Mensch** *məc.* ağırxasiyyət adam; **~ machen** çətinləşdirmək; **~ finden*** çətinlik çəkmək; **II** *adv* çətin, ağır.

Schwíerigkeit *f* (10) çətinlik; manea, əngəl.

Schwímm || anstalt *f* üzmə yeri, üzərgə (*dənizdə, çayda*); üzgüçülük məktəbi; **~anzug** *m* çimmə paltarı, geyçim; **~bad** *n* bax: **Schwimmanstalt; ~blase** *f* üzgü qurşağı; **~dock** *n dəniz.* üzən dok (*gəmi təmir olunan yer*).

Schwindeléi *f* (10) yalan, hiylə, aldatma, fırıldaq.

schwíndel || erregend *a* başgicəldici, başgicəlləndirən.

schwíndelhaft *a* **1.** başgicəldici, başgicəlləndirən; **2.** fırıldaqçı, hiyləgər, dələduz.

schwíndeln I *vimp:* **mir schwindelt** başım gicəlir; **II** *vi* fırıldaqçılıq etmək, adam aldatmaq.

schwínden* *vi* (*s*) **1.** azalmaq; yox olmaq; yığılmaq, girmək (*parça* və s.); **2.** qurumaq, quruyub kiçilmək; ◊ **die Sinne ~ mir** huşumu itirirəm.

Schwíndler *m* (6), **~in** *f* (12) dələduz, fırıldaqçı, yalançı, hiyləgər (*kişi, qadın*).

Schwínd || sucht *f oh. pl* vərəm xəstəliyi; **galoppierende ~** çox tez inkişaf edən vərəm.

Schwínge *f* (11) **1.** iri lələk (*quşlarda*); *pl* qanadlar; ◊ **die ~n über j-n breiten** kimisə öz qanadı / qanadları altına almaq; **die ~n entfalten** qanad açmaq; **2.** *tex.* lifdidən maşın; *k.t.* sovurucu maşın.

Schwíngel *m* (6) *idm.* idman atı, əşşək (*üstündən tullanmaq üçün*).

schwíngen* I *vt* **1.** oynatmaq, tərpətmək; ◊ **eine Rede ~** *məc.* nitq söyləmək; **das Tanzbein ~** rəqs etmək, başı oynamağa

schwoll: schwellen *felinin impf*'i.

schwor bax: **schwur.**

schwören* *vi* (*bei D*) and içmək (*nəyəsə*).

schwúchten *vi* kef çəkmək, vaxtını əyyaşlıqda / kefdə keçirmək.

schwül *a* boğanaq, bürkülü; dilxor.

Schwüle *f oh. pl* **1.** bürkü; **2.** *məc.* ruhdan düşmə, dilxorluq, pərtlik.

Schwulität *f* (10): **in ~en kommen* / geraten*** çətin vəziyyətə düşmək.

Schwulst 1. *f* (3) şiş; **2.** *m* (1*) təmtəraq, dəbdəbə, ibarəlilik.

schwúlstig, schwülstig *a* təmtəraqlı, dəbdəbəli, ibarəli.

Schwund *m* -(e)s, *f oh. pl* **1.** itki, yoxolma; **2.** *tib.* atrofiya (*həyat qabiliyyətini itirmə*); **3.** *tex.* quruma nəticəsində azalma; **4.** *rad.* səsin azalması.

Schwúnd || erscheinung *f rad.* fediŋ; **~stufe** *f dilç.* eliziya, səsdüşmə.

Schwung *m* (1*) **1.** çalma (*qanad*), yuxarıya qalxma; genişlik; ◊ **j-n in ~ bringen*** kimisə hərəkətə gətirmək; **die Sache kommt in ~** iş yoluna düşür; **2.** *məc.* ruh yüksəkliyi; **~brett** *n* tramplin; **~feder** *f* iri qanad (*quşlarda*); **~kraft** *f oh. pl* **1.** *fiz.* mərkəzdənqaçma qüvvəsi; **2.** ruh yüksəkliyi; **~rad** *n tex.* nazimcarx.

sechs || húndert *num* altı yüz.
séchs || mal *adv* altıqat, altı dəfə; **~malig** *a* altı dəfə təkrar edilən, altı dəfə artıq.
Sechs || táge || woche *f* altıgünlük həftə.
sechstausend *num* altı min.
Séchstel *n* (6) altıdabir.

Sée || leute *pl* dənizçilər.
séelisch *a* psixi; ruhi.
Sée || löwe *m* dəniz şiri.
Sée || luftstreitkräfte *pl* hərbi-dəniz və hava qüvvələri; **~macht** *f* dəniz dövləti; **~mann** *m* (*pl* **-männer/-leute**) dənizçi; **~möve** *f*

gəldiyini gördüm; **~ lassen** göstərmək; **sich** (*A*) **~ lassen*** görünmək; **sich** (*A*) **nach j-m fast blind ~, sich** (*D*) **die Augen aus dem Kopfe ~** gözləməkdən gözünün kökü saralmaq; **sich** (*A*) **satt ~ an** (*D*) nəyəsə doyunca baxmaq; **er läßt sich** (*D*)

séiden *a* ipək, ipəkdən.
séiden || artig *a* ipəyəoxşar, ipək kimi.
Séiden || bau *m oh. pl* ipəkçilik; **~papier** *n* papiros kağızı; **~raupe** *f*, **~spinner** *n* barama qurdu; **~spinnerèi** *f* ipəkəyirmə fabriki, ipəkəyirmə; **~stoff** *m* ipək parça.

seine) onun; özünün (*mübtədanı ifadə edən şəxsə məxsus*); II *pron pers* er, es'in *G*'i.
Sein *n* -s, *oh pl* varlıq, mövcudluq.
Séine *m, f, n* (9*): die ~n onunkular, onun ailəsi / yaxın adamları; ich bin ganz der ~ mən ona tam sadiqəm.
séiner bax: **sein II.**
séiner || seits *adv* onun tərəfindən; **~zeit** *adv* öz dövründə, öz vaxtında, vaxtilə.
séinet || halben, ~wegen, ~willen *adv* ona görə, onun xatirinə.
séinige *pron. poss:* **der ~ [die ~, das ~, die ~n]** onunku; özününkü; **die Seinigen** onunkular, onun qohumları; **das Seinige** onun əmlakı / var-dövləti; **das Seinige tun*** mümkün olan hər bir şeyi etmək.
seit I *prp* (*D*) ... dan/dən; **~ gestern** dünəndən; **~ wann?** nə vaxtdan?; **~ zwei Jahren** iki ildən bəri; **~ kurzem** bu yaxınlarda; II *cj* o vaxtdan bəri.
seit || dém I *adv* o vaxtdan; II *cj* o vaxtdan bəri.
Séite *f* (11) 1. tərəf; böyür, yan; **von der ~ (her)** yandan, yan tərəfdən; **~ an ~** yan-yana; **an jemandes ~ gehen* / j-m zur ~ gehen*** 1) kiməsə yanaşı getmək / yerimək; 2) kiməsə dəstəkləmək; **ihm kann nichts an die ~ gestellt werden** ona bərabər ola bilməz; **sich auf die ~ legen** böyrü üstə uzanmaq, yanını yerə vermək; **sich auf die ~ machen** aradan çıxmaq, əkilmək; **die Hände in die ~n stemmen** əllərini belinə qoymaq; **j-m zur ~ stehen*** kiməsə kömək etmək; **sich vor Lachen die ~n halten*** gülməkdən ölmək, gülməkdən axıb getmək; 2. səhifə; 3. tərəf (*çəkişmədə, vuruşmada və s.*); **auf j-s ~ sein** kiminsə tərəfində olmaq; **auf j-s ~ treten*** kiminsə tərəfinə keçmək; ◊ **j-n auf die ~ schaffen*** kiməsə aradan götürmək.
séiten *adv* (*G*): **von ~** yandan, kənardan; **auf ~** ... yandan, kənarda.
Séiten || abweichung *f* yana meyillənmə; *av.* derivasiya; **~ansicht** *f* profil, nəyinsə, kiminsə yandan görünüşü; **~ blick** *m* 1. yana baxma; 2. işarə, eyham; **~gasse** *f* dönqə; **~gewehr** *n* süngü; **das ~ aufpflanzen** süngünü taxmaq; **~hieb** *m* 1. yandan zərbə; 2. işarə, eyham.
séitens *prp* (*G*) yandan.
Séiten || schiff *n tikin.* yanaxı / köndələn tağ; **~sprung** *m* 1. yana sıçrama; 2. kənara çıxma; ◊ **~sprünge machen** eşqbazlıq etmək; **~stiche** *pl tib.* sancı (*bədənin yan tərəflərində*); **~überschrift** *f mətb.* kolon-titul (*səhifə başlığı*); **~weg** *m* yan tərəfə gedən yol; dolama yol; **~wege gehen*** nəyisə gizlində etmək.
seit || hér *adv* o vaxtdan bəri.
séitlich I *a* yan, yandan, köndələn; II *adv* yandan, yan tərəfdən.
séit || wärts *adv* kənara; yana; yandan, böyürdən.
Sekrétär *m* (1) 1. katib; 2. yazı masası.
Sekretariát *n* (1) 1. katiblik; 2. katibliyin işçiləri.
Sekt *m* (1) şampan şərabı.
Sékte *f* (11) sekta, təriqət, məzhəb; kütlədən ayrılmış bir qrup adam.
Sektíerer *m* (6) sektant (1. *təriqətçi*; 2. *məc. sektantlığa mail olan*).
Sektión *f* (10) 1. seksiya, bölmə; 2. meyiti yarma.
Séktor *m* -s, **-tóren** sektor, bölmə.
Sekúnda *f* ~, **-den** Almaniyada bəzi orta məktəblərin altıncı və yeddinci sinifləri.
Sekundáner *m* (6) altıncı və yeddinci sinif şagirdi.
sekundär *a* ikinci; törəmə; ikinci dərəcəli.
Sekúnde *f* (11) saniyə, an; **in einer ~ bin ich wieder da** bu dəqiqə qayıdıram.
sekundíeren *vi* 1. *mus.* müşayiət etmək, birlikdə çalmaq; 2. sekundant olmaq (*duelda*).
selb *pron* 1. bax: **selbst; zur ~ en Stunde** həmin saatda; 2.: **~e** bax: **derselb(ig)e.**
selb || ánder *adv* ikilikdə.
sélber *pron* özü; **ich ~** mən özüm.
sélbig *a* həminki, həmin o, eyni; **in ~ er Stunde** həmin saatda.
selbst I *pron* özü; **von ~** öz-özlüyündə, öz-özündən; II *adv* hətta; **~ seine Freunde** hətta onun öz yoldaşları.
Selbst *n inf* özü, ferd.
Sélbst || achtung *f oh. pl* özünə hörmət.
sélb || ständig *a* müstəqil; ayrı, tək.
Sélb || ständigkeit *f oh. pl* müstəqillik, muxtariyyət.

Sélbst || anschluß (fernsprech) ámt *n* avtomat telefon stansiyası.
Sélbst || aufopferung *f* fədakarlıq, özünü qurban vermə; **~auslösung** *f tex.* avtomatik parçalanma; **~behauptung** *f* özünütəsdiq; **~beherrschung** *f oh. pl* özünə sahib olma; özünü ələ alma; **~bestäubung** *f bot.* özözünə tozlanma; **~bestimmung** *f* öz müqəddəratını təyinetmə; **~bestimmungs || recht** *n oh. pl* öz müqəddəratını təyinetmə hüququ; **~betrug** *m* özünü aldatma.
sélbst || bewußt *a* özünə güvənən; lovğa, təkəbbürlü.
Sélbst || bewußtsein *n oh. pl* özünə qürrələnmə, özünə güvənmə; **~biographie** *f* avtobioqrafiya; **~entzündung** *f tex.* öz-özünə alovlanma.
sélbst || gefällig *a* özünü bəyənən, özündən razı.
sélbst || gemacht *a* əldə hazırlanmış.
Sélbst || gespräch *n* monoloq; **~herrschaft** *f* mütləqiyyət; **~herrscher** *m* hökmdar, padşah; **~hilfe** *f oh. pl* qarşılıqlı yardım, özünə yardım; **~kosten || preis** *m* maya dəyəri; **~kritik** *f* özünütənqid.
Selbst || laut *m dilç.* sait; **~liebe** *f oh. pl* xudbinlik, özünüsevmə; **~lob** *n* özünüöymə, lovğalanma, öyünmə.
sélbst || los *a* tamahsız; qərəzsiz; fədakar.
Sélbst || mord *m* özünüöldürmə, intihar; **~mord begehen*** özünü öldürmək; **~mörder** *m*, **~in** *f* özünü öldürən, intihar edən (*kişi, qadın*).
sélbst || redend I *a* aydın, aşkar; II *adv* əlbəttə, söz yox, şübhəsiz.
Sélbst || sicherheit *f* özünə güvənmə.
Sélbst || sucht *f oh. pl* xudpəsəndlik, xudbinlik; özünüsevmə.
sélbst || süchtig *a* xudbin, öz mənafeyini güdən.
sélbst || tätig *a* 1. özfəaliyyət; 2. *tex.* avtomatik işləyən.
Sélbst || täuschung *f oh. pl* özünüaldatma; **~überhebung** *f* lovğalıq, təkəbbür; **~unterricht** *m* təkbaşına təlim; **Leitfaden für den ~** öz-özünə təhsil almaq üçün dərs kitabı.
sélbst || verblendet *a* özünə vurulmuş, özünə vurğun.
sélbst || vergessen *a* özünü unudan, fədakar.
Sélbst || verleugnung *f oh. pl* fədakarlıq, candankeçmə.
sélbst || verständlich I *a* aydın, aşkar; II *adv* öz-özlüyündə, əlbəttə.
Sélbst || verteidigung *f* özünümüdafiə; **~vertrauen** *n oh. pl* özünəinam; **~verwaltung** *f* muxtariyyət; özünüidarə üsulu; **~zucht** *f oh. pl* özünütərbiyə.
sélbst || zufrieden *a* özündən razı.
Sélbst || zweck *m oh. pl* məqsəd.
Selcherei *f* (10) kolbasa dükanı.
Selén *n oh. pl kim.* selen.
sélig *a* 1. xoşbəxt, şən; 2. rəhmətlik, mərhum.
Séligkeit *f oh. pl* xoşbəxtlik, səadət.
Sellerie *m* -s, -s, *f* (11) *bot.* kərəviz.
sélten I *a* nadir, seyrək, tək-tük; II *adv* nadir halda, az tapılan; **nicht ~** çox vaxt, tez-tez; **~ gut** çox yaxşı; **Sie machen sich sehr ~** siz çox az görünürsünüz.
Séltenheit *f* (10) nadirlik, az tapılan şey.
Sélter(s)wasser *n* mineral su, mədən suyu.
séltsam *a* qəribə, əcaib; qeyri-adi.
séltsamer || weise *adv* qəribə tərzdə, qəribə də olsa.
Séltsamkeit *f* (10) qəribəlik, qəribə hal.
Semántik *f oh. pl dilç.* semantika.
Semaphór *n* (2), *m* (1) semafor.
Seméster *n* (6) semestr, yarım il (*tədrisdə*).
Semikólon *n* -s, -s və **-kola** *qram.* nöqtəli vergül.
Seminár *n* (2) 1. seminariya (*məktəb*); 2. seminar (*ali məktəbdə məşğələ*).
Sémmel *f* (11) bulka, kökə; ◊ **wie warme ~n abgehen*** dərhal satılmaq.
Senát *m* (1) senat.
Sénd || bote *m* elçi; nümayəndə; çapar, qasid.
Sénde || apparat *m* radioverici cihaz, radiotötürücü.
sénden* *həmç. zəif təsrifli; vt* 1. göndərmək, yollamaq; 2. radio ilə (*xəbər*) vermək.
Sénder *m* (6) 1. göndərən, yollayan; 2. radiotötürücü; radio stansiyası.
Sénde || raum *m* radio studiyası; **~spiel** *n* radiopyes; **~station** *f* radio verilişləri stansiyası.
Séndung *f* (10) 1. göndərilmə; 2. radioveriliş; 3. tapşırıq.

Sequéster *n* (1) sekvestr (*qadağan etmə*).
sequestíeren *vt hüq.* sekvestr qoymaq.
Seráll *n* -s, -s hərəmxana.
sérbisch *a* serb, serbcə.
Serenáde *f* (11) serenada (*mahnı*).
Sergeant ['-ʒant] *m* (8) serjant.
Série *f* (11) seriya.
seriös *a* ciddi.
serös *a tib.* seroz, zərdablı.
Serpentíne *f* (11) **1.** əyri xətt; əyri yol (*dağ yolu*); **2.** dövr; addım (*vintdə*).
Sérum *n* -s, **Séren / Séra** *tib.* zərdab, serum.
servíeren *vt* süfrə açmaq.
Serviette *f* (11) salfet.
servíl *a* yaltaq.
Sérvus! [-vus] *int avstr.* salam! salamat qal!, xudahafiz!
Séssel *m* yumşaq kətil, kreslo.
séßhaft *a* oturaq.
Séßhaftigkeit *f* (10) oturaqlıq, daimi yaşayış yeri.
Sétz || **ei** *n* nümru (*qayğanaq*).
sétzen I *vt* **1.** (*an A*) qoymaq (*harayasa*); oturtmaq; **2.** *tex.* soba tikmək / quraşdırmaq; **3.** *mətb.* yığmaq (*şrifti*); **4.:** **ein Gedícht in Músik ~** şerə musiqi bəstələmək; **j-n auf die Straße ~** *məc.* kimisə küçəyə atmaq; **j-n an die Luft ~, j-m den Stuhl vor die Tür ~** kimisə evdən qovmaq; **ans Land ~** quruya çıxarmaq, düşürmək (*gəmidən*); **sich** (*D*) **etw. in den Kopf ~** nəyisə beyninə yeritmək; **sich** (*D*) **ein Ziel ~** qarşısına məqsəd qoymaq; **j-m den roten Hahn aufs Dach ~** *məc.* kiminsə evinə od vurmaq; **j-n auf freien Fuß ~** kimisə azadlığı buraxmaq; **große Hoffnungen auf etw. ~** nəyəsə böyük ümidlər bəsləmək; **etw. aufs Spiel ~** risk etmək, təhlükə altına qoymaq; **in Bewegung ~** hərəkətə gətirmək, işə salmaq; **in Umlauf ~** istifadəyə vermək; **die Flagge ~** bayrağı qaldırmaq; **~ wir den Fall, daß ...** fərz edək ki...; **II** *vi* (*s*); **das Pferd setzt über den Graben** at xəndəyin üstündən hoppanır; **III sich ~ 1.** oturmaq; **2.** çəkmək; **sich aufs hohe Roß ~** özünü öymək, lovğalanmaq; **sich auf die Hinterfüße ~** tərslik etmək; şahə qalxmaq; **in Freiheit ~** azadlığa buraxmaq; **sich mit j-m in Verbíndung ~** kimləsə əlaqəyə girmək; **IV** *vimp:* **es setzt Hiebe** *dan.* cəza olacaq, yaxşı kötək olacaq.
Sétzer *m* (6), **~in** *f* (12) *mətb.* mürəttib, yığıcı (*kişi, qadın*).
Sétz || kasten *m mətb.* yığıcı kassa.
Sétzling *m* (1) qələm, şitil.
Sétz || waage *f* taras, vaterpas.
Séuche *f* (11) yoluxucu xəstəlik, epidemiya.
séufzen *vi* (*über A*) ah çəkmək; **schwer ~** ağır nəfəs almaq; inildəmək, ah-uf etmək.
Séufzer *m* (6) ah-vay; köksünü ötürmə.
Séxta *f* birinci sinif (*bəzi alman məktəblərində*).
sexuéll *a* cinsi, cinsəl, şəhvani.
sezíeren *vt anat.* yarmaq; **eine Leiche ~** meyit yarmaq.
Shawl ['ʃa:l] *m* (1) (*pl həmç.* **-s**) şal, şərf.
Sibírien *n* (-s) *coğr.* Sibir.
sibírisch *a* Sibir (*sif.*).
Sibírier *m* (6); **~in** *f* (12) sibirli (*kişi, qadın*).
sich *pron refl A* özünü; *D* özünə; *fellərdə çox vaxt felin qayıdış fel olmasını göstərir:* **~ beziehen*** *auf A* münasibət göstərmək; **~ waschen** yuyunmaq; **er ist nicht bei ~** o özündə deyil; **das Ding an ~** *fəls.* şey özündə; **das Ding für ~** *fəls.* şey özü üçün; **an und für ~** öz-özündən; **es hat nichts auf ~** bunun heç bir əhəmiyyəti yoxdur; **es macht ~** pis deyil, dözmək olar.
Síchel *f* (11) oraq.
síchel || förmig *a* oraqvari.
sícheln *vt* oraqla biçmək.
sícher I *a* (*vor D*) təhlükəsiz; möhkəm; inamlı, etibarlı; **einer Person [Sache] ~ sein** kimsə, nəyəsə əmin olmaq; **wir sind des Sieges ~** biz qələbəyə əminik; **II** *adv* yəqin, hökmən; möhkəm, doğru; **ganz ~** mütləq, lap yəqin; **ich bin meines Lebens nicht ~** həyatım təhlükəlidir; **wir wollen ganz ~ geh(e)n*** məqsədimizə əmin olmaq istəyirik; **j-n ~ machen** kimisə əmin etmək, kimdəsə inam oyatmaq.
Sícherheit *f* (10) **1.** təhlükəsizlik; **2.** etibarlılıq; **3.** inam, etimad; **4.** zəmanət; **mit ~** yəqin, mütləq; **sich** (*A*) **in ~ bringen*** xilas olmaq, canını qurtarmaq.
sícherheits || halber *adv* **1.** düzlük xatirinə; **2.** təhlükəsizlik xatirinə.
Sícherheits || maßregel *f* ehtiyat tədbir; **~nadel** *f* sancaq (*ingilis*); **~rat** *m* təhlükəsizlik şurası (BMT); **~schloß** *n* avtomatik qıfıl; **~ventil** *n tex.* qoruyucu klapan; **~vorrichtung** *f* qoruyucu qurğu.
sícherlich *adv* yəqin, yəqin ki, əlbəttə, şübhəsiz.
síchern I *vt* təmin etmək (*gegen A, vor D*); müdafiə etmək, qorumaq, mühafizə etmək (*kimdənsə, nədənsə*); **laden* und ~** doldurmaq və qoruyucu ayağa çəkmək (*silahı*); **II sich ~** kiminsə razılığını almaq.
sícher || stellen *vt* təmin etmək.
Sícherung *f* (10) **1.** zəmanət; mühafizə; qoruma; **2.** *hərb.* qoruyucu tətiyi çəkmə.
Sicht *f oh. pl* **1.** görünüş; mənzərə; **auf ~** təqdim olunarkən; **in ~** göz qabağında; **außer ~** görünməyən; **2.: kurze [lange] ~** *tic.* qısa (uzun) müddət.
síchtbar *a* görünən, aşkar; göz qabağında olan; **~ sein** görünmək; **~ werden** göstərilmək, aşkara çıxmaq.
Síchtbarkeit *f* görünmə, zühur, aşkar olma.
Síchtbar || werden *n* -s, *oh. pl* görünmə, zahir olma.
síchten *vt* **1.** eləmək, xəlbirləmək; **2.** yoxlamaq, seçib ayırmaq; **3.** qəfildən (birdən) görmək; **4.** gözdən keçirmək.
síchtlich I *a* görünən, aşkar, aydın, zahiri; açıq; **II** *adv* görünür, görünür ki, ehtimal ki ...; **er war ~ erfreut** o açıqdan-açığa sevinirdi (*über A*).
Sícht || vermerk *m* viza; **~weite** *f* görüş dairəsi.
síckern *vi* (*s, h*) damcılamaq, sızmaq, sızıb keçmək.
sie *pron pers* **1.** (*G* **ihrer**, *D* **ihr**, *A* **sie**) o (*təkdə qadın cinsində*); **2.** (*G* **ihrer**, *D* **ihnen**, *A* **sie**) onlar.
Sie *pron pers* (*G* **ihrer**, *D* **ihnen**, *A* **sie**) onlar.
Sie *pron pres* (*G* **Iher**, *D* **Ihnen**, *A* **Sie**) Siz (*nəzakət formasında*); **das steife ~** rəsmən Siz; **j-n Sie nennen*** kimləsə Sizlə danışmaq.
Sie *f* (11) dişi quş.
Sieb *n* (2) ələk; xəlbir, *tex.* kəm, iri xəlbir, şadara; ◊ **Wasser mit einem ~ schöpfen** xəlbirlə su daşımaq.

síeb || artig *a* xəlbirə oxşar.
síeben I *vt* **1.** ələmək, xəlbirləmək; **2.** süzmək, süzgəcdən keçirmək. **síeben II** *num* yeddi: **es waren unser ~ biz** yeddi nəfər idik; **halb ~** (*zaar*) yeddinin yarısı; **nach ~ sekkizə işləyirəm**; **es geht auf ~ sekkizə işləyir**; **0 ein Buch mit ~ Siegeln** *məc.* əlçatmaz şey.
Sieben *f* (10) yeddi; yeddilik; **0 die Bösen ~** *dan.* kinli qadın; **die ~ gerade sein lassen*** nəyəsə barmaqarası baxmaq.
Síeben || eck *n* yeddibucaqlı əşya.
sieben || eckig *a* yeddibucaqlı.
siebenerléi *a inv* yeddi cür, yeddi növ.
sieben || fach, ~fältig *a* yeddi dəfə artıq, yeddiqat.
sieben || húndert *num* yeddi yüz.
sieben || jährig *a* yeddiyaşlı, yeddiillik.
sieben || mal *adv* yeddi dəfə.
Síeben || sachen *pl* bütün varidat (*ev şeyləri*); **seine ~ packen** *məc.* şələ-küləsini yığışdırmaq.
sieben || táusend *num* yeddi min.
Síebentel *n* (6) yeddidəbir.
síebente *num* yeddinci.
síeben (und)einhalb *num* yeddi yarım.
síebzehn *num* on yeddi.
siebzig *num* yetmiş; **die ~er Jahre** yetmişinci illər.
Siebziger *m* (6) yetmiş-səksən yaşlarında kişi.
síebzig || jährig *a* yetmiş yaşlı.
siebzigste *num* yetmişinci.
siech *a* arıq; sısqa, tez-tez xəstələnən; **~ werden** azarlamaq, arıqlamaq.
síechen *vi* azarlamaq, xəstələnmək.
Síede || grad *m* qaynama dərəcəsi.
síede || héiß *a* qaynar.
Síede || hitze *f* qaynama dərəcəsi.
Siedelél *f* (10) sakin olma, köçmə.
síeden* **I** *vt* bişirmək, qaynatmaq; **II** *vi* bişmək, qaynamaq.
síedend *a* qaynayan, qaynar; **~es Wasser** qaynar su.
Síedler *m* (6), **~in** *f* (12) ilk mühacir (*kişi, qadın*).
Síede || punkt *m oh. pl fiz.* qaynama nöqtəsi.
Siedlung *f* (10), **Siedlungs || anlage** *f* qəsəbə; koloniya.

Síeg *m* (1) qələbə, zəfər; **einen ~ davontragen*** qələbə çalmaq.
Síegel *n* (6) möhür.
Síegel || lack *m* surğuc.
siegeln *vt* möhürləmək; bağlamaq (*konvert*); möhür basmaq.
siegen *vi* (*über A*) qələbə çalmaq, qalib gəlmək (*üzərə*); **über den Feind ~** düşmən qalib gəlmək.
Sieger *m* (6), **~in** *f* (12) qalib, müzəffər (*kişi, qadın*).
síeges || bewußt *a* qələbəyə əmin / arxayın, qələbəinamlı.
Síeges || bogen *m* zəfər tağı, alaqapı; **~lauf** *m oh. pl* tentənəli yürüş; **~zeichen** *n* trofey, qənimət; **~zug** *m* qələbə yürüşü.
síeg || gewohnt *a* qələbəyə adət etmiş.
sieghaft, siegreich *a* müzəffər, qalibiyyətli.
Siel *m* (1), *n* (2) kiçik şlüz; kanal, nov.
Síele *f* (11) boyun qayışı; şley (*qoşqu qayışı*).
Siésta *f* **-, -sten/-s** günorta istirahəti; nahardan sonra yatma; **~ halten*** istirahət etmək.
siezen *vt* və **sich ~** kimləsə "Siz"lə danışmaq, Sizləşmək.
Sígel *n* (6) ixtisar edilmə işarəsi (*stenoqrafiyada*).
Signál *n* (2) siqnal, işarə.
Signál || anlage *f* siqnalizasiyalı qurğu.
Signalement [-'mã:] *n* **-s, -s** əlamət, nişanə.
Signál || flagge *f* siqnal bayrağı; **~geschoß** *n hərb.* siqnal mərmisi; **~horn** *n* siqnal şeypuru; *dəniz.* sirena.
signalisíeren *vt* **1.** siqnal vermək; **2.** xəbər vermək; xəbərdarlıq etmək.
signíeren *vt* **1.** qol çəkmək, imzalamaq; **2.** göstərmək, nişanlamaq.
Sílbe *f* (11) heca; **keine ~** heç bir səs-soraq.
Síl|ben || messung *f ədəb.* prosodiya/hecaların tələffüz üsulu; **~trennung** *f* heca bölgüsü, hecalara ayırma.
Silber *n* **-s,** *oh. pl* gümüş.
sílber || artig *a* gümüş; **~farben, ~farbig** *a* gümüşü, gümüşrəngli.
Sílber || fuchs *n oh. pl* qonur tülkü; **~geld** *n oh. pl* gümüş pul; **~gerät** *n*, **~geschirr** *n* gümüş qab-qacaq.
sílberig *a* gümüşü, gümüş kimi parlaq.

Sílber || münze *f* gümüş pul.
sílbern *a* gümüş, gümüşdən.
Sílber || pappel *f* ağcaqovaq; **~währung** *f* gümüş valyuta.
silbern *a* gümüş, gümüş kimi parlaq; ağ; **~e Hochzeit** gümüş toy.
Silber || zeug *n oh. pl* gümüş şeyi.
Silhouétte [zilu'ɛtə] *f* (11) silüet.
Silí|kat *n* **-s, -e** *k.t.* silikat.
Silo || futter *n k.t.* silos, silos yem.
Silvéster *n* **-s** Silvester (*yeni il bayramı axşamı*).
símpel *a* sadə, adi.
Símpel *m* (6) *dan.* sadədil, safdil (*adil*).
Sims *m* (1), *n* (2) karniz; pərvaz.
Simmulánt *a* (8), **~in** *f* (12) simulyant, riyakar (*kişi, qadın*).
simulíeren *vt* yalandan özünü oxşatmaq.
simultán *a* **1.** eyni zamanda olan, bir vaxtda olan; **2.** ümumi; **3.** sinxron.
Simultán || übersetzung *f* sinxron tərcümə.
Sinfoníe *f* (11) simfoniya.
síngen* *vt* oxumaq (*nəğmə*); **davon kann er ein Lied ~** bunun nə demək olduğunu o bilir; **ein Kind in den Schlaf ~** uşağa laylay çalmaq; **~ und sagen** nəql etmək.
síngend **I** *a* oxuyan; **II** *adv* oxuyaraq.
Síng || sang *m oh. pl* monoton oxuma; **~spiel** *n* musiqili komediya; **~stunde** *f* nəğmə dərsi.
Singular *m* (1) *qram.* tək hal.
singulär *a* tək-tək, az təsadüf edilən.
sínken* *vi* (*s*) düşmək; enmək, alçalmaq; batmaq, girmək (*suya* və s.); **den Mut ~ lassen*** ruhdan düşmək; **die Sonne sinkt** gün batır.
Sínken *n* **-s,** *oh. pl* düşmə, batma, sallanma.
Sinn *m* (1) **1.** duyğu, hiss; **die fünf ~e** beş duyğu; **Aus den Augen, aus dem ~** *ata. söz.* ≡ Gözdən uzaq, könüldən uzaq; **2.** məna, əhəmiyyət; **dem ~e nach** mənasına görə; **das hat keinen ~** bunun mənası yoxdur; **3.** şüur; başa düşmə; meyil, həvəs (*für A*) **er hat ~ für Musik** o, musiqiyə qabildir; **eines ~es sein** həmfikir olmaq; **im ~e haben ...** nəyinsə niyyətində / fikrində olmaq; **ist er bei ~en?** onun ağlı başındadır? **in den ~ kommen*** fikrə/ağla gəlmək; **ohne ~ und Verstand** mənasız; **seine sieben ~e nicht beisammen haben** ağlı başında olmamaq; **das liegt nicht in seinem ~** bu onun xoşuna gələn deyil.
Sínn || bild *n* rəmz, simvol; alleqoriya.
sínnen* *vi* (*h, s*) **1.** fikirləşmək, düşünmək; **2.** (*auf A*) düşünüb tapmaq; qərarlaşdırmaq (*nəyisə*); **er sann auf Böses** o, bədxah (*pis*) düşünür; **~täuschung** *f* aldatma hissi.
Sínn || gehalt *m* ideya tərkibi.
sínn || gemäß *a, adv* mənasına görə.
sínnig *a* ağıllı, dərin düşünən; fikirli.
sínnlich *a* duyulan, hiss edilən.
Sínnlichkeit *f oh. pl* hissiyyat, duyğu.
sínn || los *a* əhəmiyyətsiz, mənasız; **~reich** *a* mənalı.
Sínn || spruch *m* kəlam, hakimanə söz.
sínn || verwandt *a* mənaca qohum; **~verwandtes Wort** *dilç.* sinonim; **~verwirrend** *a* ağılçaşdıran, sarsıdıcı; **~widrig** *a* mənasız.
Síntflut *f oh. pl* **1.** tufan (*dini əfsanələrdə*); **2.** daşqın, sel; beşəri daşqın (*Nuh peyğəmbərin zamanında dünyanın su altında qalması*).
Sínus *m* **-, -/-se** *riyaz.* sinus.
Síppe *f* (11), **Sippschaft** *f* (10) **1.** cins, qohum; dəstə (*mənfi mənada*); quldur dəstəsi; **2.** dəstə, güruh.
Siréne *f* (11) **1.** sirena (*qədim yunan əsatirində dəniz pərisi; afət*); **2.** *məc.* gözəl, dilbər, canalan; **3.** *tex.* fit, siqnal.
sistíeren *vt* **1.** kəsmək, dayandırmaq; **2.** tutmaq, həbs etmək; **3.** məhkəməyə çağırmaq.
Sítte *f* (11) adət, ənənə, gələnək; **~n und Bräuche** adət-ənənələr; **so ist es bei uns ~** bizdə adət belədir; **ein Mensch von guten ~n** yaxşı tərbiyə almış adam, gələnəkli insan.

Sítten || geschichte *f* adətlər / gələnəklər tarixi; **~lehre** *f oh. pl* etika.
sítten || los *a* axlaqsız, ədəbsiz.
Síttich *m* (1) *zool.* tutuquşu.
síttig *a* nəzakətli, tərbiyəli.
síttlich *a* **1.** axlaqi; **2.** adətəuyğun, gələnəksəl.
Síttlichkeit *f oh. pl* axlaq, ədəb qaydaları.
síttsam *a* yaxşı axlaqlı, təmkinli.
Situatión *f* (10) vəziyyət, şərait; **die ~ erfassen** vəziyyəti anlamaq; **der ~ gewachsen sein** qoyulmuş tələblərin öhdəsindən gəlmək.
Sitz *m* (1) **1.** yer; oturma; stul; **sich (*A*) von den ~en erheben*** yerindən qalxmaq, durmaq; **2.** yaşayış yeri; **3.** iqamətgah qərargah.
sítzen* *vi* (*h, bəzən s*) **1.** oturmaq, yerləşmək; **über einer Arbeit ~** bir iş üzərində işləmək; **fest im Sattel ~** yəhərdə möhkəm oturmaq (*həmç. məc.*); **zu [bei] Tisch ~** nahar üçün masaya əyləşmək, süfrəyə əyləşmək; **(wie) auf glühenden Kohlen ~** *məc.* iynə üstündə oturmaq; **in der Patsche ~** *məc.* işi baş tutmamaq, əngələ düşmək; **2.** iclas etmək; **das Kollegium sitzt heute nicht** bu gün kollegiyanın iclası yoxdur; **3.** həbsdə oturmaq; **er sitzt schon lange** o çoxdan tutulub; **4.** olmaq; **5.** yaraşmaq, bədəninə uyğun gəlmək (*D*); **der Hieb sitzt** zərbə yerinə düşdü!; **das hat gesessen!** *dan.* lap yerinə düşdü!; **auf dem Trockenen ~** qəpik-quruşsuz qalmaq; çətin vəziyyətdə olmaq.
sítzen || bleiben* *vi* (*s*) **1.** ikinci ilə qalmaq (*sinifdə, kursda*); **2.** evdə qalmaq, özünə
skandieren *vt* aydın və intonasiya ilə oxumaq, təqti etmək (*şeri*).
Skelétt *n* (2) skelet.
Sképsis *f oh. pl* şəkkaklıq; şübhə.
Ski *m* (4) *idm.* ayaq xizəyi.
Skízze *f* (11) eskiz; **flüchtige ~** ötəri eskiz.
skizzíeren *vt* eskizini çəkmək.
Skláve [-və-] *m* (9) qul.
Skláven || arbeit *f oh. pl* qul əməyi; **~aufstand** *m tar.* qullar üsyanı; **~besitzer** *m* quldar; **~gesellschaft** *f* quldarlıq quruluşu; **~halter** *m* (6) bax: **Sklavenbesitzer**; **~handel** *m* qul alveri; **~sinn** *m oh. pl* dizçökmə, alçalma, yaltaqlıq.
Skláventum *n* -s, *oh. pl* qulluq, köləlik.
Sklaveréi *f* (10) köləlik.
Sklávin *f* (12) qul, kölə (*qız*).
sklávisch *a* **1.** qul, kölə; **2.** yaltaq, alçaqcasına.
Skorbút *m tib.* sinqa, skorbut (*vitaminsizlik nəticəsində diş ətində əmələ gələn xəstəlik*).
Skorpión *m* (1) əqrəb.
skrofulös *a tib.* xənazirli, sıracalı.
Skrúpel *m* (6) şübhə.
skrúpel || los I *a* insafsız, rəhmsiz; II *adv* utanmadan.
skrupulös *a* səliqəli, diqqətli, hər şeylə maraqlanan; son dərəcə dəqiq / düz.
Skulptúr *f* (10) **1.** heykəltəraşlıq; **2.** heykəl.
Sláwe *m* (9) slavyan (*kişi*).
Sláwin *f* (12) slavyan (*qadın*).
sláwisch *a* slavyan (*sif.*).
Slowáke *m* (9) slovak.
slowákisch *a* slovak (*sif.*).
Smarágd *m* (1) zümrüd.
so I *adv* belə, beləliklə; **~!, ja ~!, ach ~!**

auf den ~n sein *dan.* kimisə daban-dabana izləmək.
Sóckel *m* (6) **1.** *arxit.* kürsü; köşə; **2.** *tex.* sokol (*elektrik lampasının patrona taxılan metal hissəsi*).
Sócken || halter *m* (6) corabbağı (*kişilərdə*).
Sóda *f* -, -s soda.
so || dánn *cj* və *adv* sonra; o zaman, ondan sonra.
Sód || brennen *n tib.* mədə qıcqırması, qıcqırma.
so || ében *adv* indicə, bu saat; **~erschienen** yeni çıxmış (*kitab haqqında*).
Sófa *n* -s, -s divan, yumşaq taxt.
soférn *cj* nə /o qədər ki...; **~ er fleißig gearbeitet hat ...** nə / o qədər ki, o yaxşı işləyib ...
soff: saufen *felinin impf*'i.
sofórt *adv* o saat, o dəqiqə, həmin dəqiqə.
sog: saugen *felinin impf*'i.
sogár *adv* hətta.
sógenannt *a* üzdəniraq, qondarma.
sogéich *adv* bax: **sofórt.**
Sóhle *f* (11) **1.** pəncə, ayağın altı; pəncə (*ayaqqabıda*); ◊ **es brennt ihm unter den Sohlen** *məc.* onun vəziyyəti pisdir, onun işləri yaxşı deyil; **sich auf die ~n machen** yola düşmək; daban almaq, götürülmək; **2.** *tex.* özül, dib; **3.** *məd.* şaxtada quyunun mərtəbəsi.
söhlen *vt* daban vurmaq, altlıq salmaq.
Sohn *m* (1) oğul; **der verlorene ~** naxələf oğul.
soláng(e) *cj* nə qədər ki ...
Sól || bad *n* duzlu suda çimmə.
Söldling *m* (1), **Söldner** *m* (6) muzdlu əsgər.
solidárisch *a* həmrəy, həmfikir.
Solidarität *f* (10) həmrəylik.
solid(e) mötəbər, abırlı, hörmətli; möhkəm, əsaslı.
Solist *m* (8), **~in** *f* (12) *mus.* solist (*kişi, qadın*).
Soll *n* -(s), -(s) **1.** *tic.* debet, mədaxil; **(das) ~ und (das) Haben** mədaxil və məxaric; **2.** plan tapşırığı.
sóllen* *vi* **1.** *modal feldir, mütləq olmayan məcburluq bildirir;* **ich soll** gərək edəm; **du hättest es sagen ~** gərək bunu deyəydin; **2.** (*sualda*) **was soll ich Ihnen sagen?** daha Sizə nə deyim?; **3.** *güman, mümkünlük bildirir;* **sollte das wahr sein?** yəni bu doğrudur?; **wenn es regnen sollte** yağış yağmalı olsaydı; **man sollte meinen** düşünmək olardı ki ...; **was soll das?** bu nə deməkdir?; **er soll in Berlin sein** gərək ki, o, Berlində olsun.
Söller *n* (1) balkon, vışka.
Sólo || sänger *m*, **Solo || spieler** *m* solo oxuyan / çalan.
solvent [-'vɛnt] *a iqt.* ödəmə / alıcılıq qabiliyyəti olan.
somit *cj* belə, beləliklə.
Sómmer *m* (6) yay; **des ~s, im ~** yayda; **das ist wie ~ und Winter** bunlar bir-birinin əksinə olan şeylərdir.
Sómmer || aufenthalt *m*, **~frische** *f* (11) yaylaq; yay istirahəti; **~frischler** *m* (6) yaylağa gələn, yaylaqçı.
Sómmer || gast *m* yaylağa gələn, yaylaqçı; **~saat** *f* yazlıq səpin; **~wohnung** *f* yaylaq.
Somnambúle *m* (9), *f* (10) lunatik, somnam-

Sónder || korrespondént *m* xüsusi müxbir.
sónderlich I *a* bax: **sónderbar; II** *adv:* **nicht ~** o qədər də yox.
Sónderling *m* (1) **1.** qəribə adam, qəraibəcaib adam; **2.** adamayovuşmaz.
sóndern I *cj* lakin, ancaq, amma, həm də; **nicht ich, ~ du** mən yox, sən; **das ist nicht nur schön, ~ auch nützlich** bu nəinki yaxşıdır, həm də lazımlıdır / yararlıdır.
sóndern II *vt* ayırmaq, seçmək; çeşidləmək, növlərə ayırmaq.
Sónder || nummer *f* xüsusi nömrə, buraxılış (*qəzetdə*).
sónders *adv:* ◊ **samt und ~** hamısı bir yerdə, müstəsnasız.
Sónder || stellung *f* xüsusi vəziyyət.
Sónderung *f* (10) **1.** ayırma; **2.** əlaqəsizlik

ata. söz. ≡ Yol həmişə bostan kənarından düşməz.
sónntags *adv* bazar günləri; **~ und feiertags** bayram günləri.
sónn || verbrannt *a* günəşdən yanmış / qaralmış.
sonór *a* səsli, cingiltili; sonorlu.
sonst *adv* **1.** yoxsa, özgə cürə, başqa cürə; **wer ~ als er** ondan başqa kim; **2.** əvvəl, qabaq; **3.** ondan başqa, yenə, daha; **~ noch etw.?** bir də, bir şey də?; **~ nichts** daha heç bir şey; **4.** lakin, amma, bununla belə; **5.** adətən; **mehr als ~** həmişəkindən artıq; **wie ~** həmişəki kimi; **er denkt, er ist ~ wer** o özünü çox böyük adam sayır, o elə bilir ki, yer üzünün allahıdır.

sosó *int* və *adv* birtəhər, güc-bəla ilə; **es steht damit ~** iş yaxşı deyil, işin vəziyyəti pisdir.
Sóße *f* (11) sous.
sott: sieden *felinin impf'i.*
Sóundso *m* -s, -s filan-filankəs.
sóundsovíel *adv* bu qədər, o qədər; **der ~te Paragraph** filan paraqraf; **am Soundsovielten des Monats** bu ayın filanında.
soupíeren [-zu-] *vi* şam etmək.
Souveränität *f* [zuvə-] (10) *siy.* suverenlik, müstəqillik.
sovíel I *adv* o qədər, bu qədər; **~mal** bu qədər; **~ für heute** bu günə kifayətdir; **Ihr Schweigen bedeutet ~ wie eine Zusage** susmağınız razılıq əlamətidir; **doppelt ~**

Spalt *m* (1) yarıq, çatdaq; yarğan.
Spálte *f* (11) **1.** bax: **Spalt; 2.** *mətb.* sütun (*yazıda, qəzetdə*).
spált || bar *a* parçalanan; hissələrə ayrılan (*atom* və s.).
spálten I *vt* doğramaq, yarmaq (*odun*) (*həmç. məc.*); ◊ **Haare ~** xırdaçı olmaq; **II sich 1.** ayrılmaq, çatlamaq, parçalanmaq; **2.** *məc.* ayrılmaq, parçalanmaq.
Spáltung *f* (10) *siy.* təfriqə, nifaq, ikitirəlik.
Span *m* (1*) **1.** talaşa, yonqar; **2.** düşmənçilik; ◊ **nicht ein ~** heç bir şey; **Wo man Holz haut, fallen Späne!** *ata söz.* ≡ Ağac olan yerdə budaq sınar, Od yanan yerdən tüstü çıxar; **mach keine Späne!** *dan.* uzatma, özünü naza qoyma!; **das geht über**

qalsın; **weder Mühe noch Geld ~** zəhmətinə, puluna heyfi gəlmək.
Spárer *m* (6) **1.** əmanətçi; **2.** qənaətkar adam.
Spárgel *m* (6) quşqonmaz, mərəçüyüd, qulançar (*bitki*).
Spár || gelder *pl* qənaət, qənaət edilib yığılmış pul; **~groschen** *pl* qənaət, dar gün üçün yığılmış pul; **~kasse** *f* əmanət kassası.
spärlich *a* yoxsul, kasıb; az, nadir.
spársam *a* qənaətcil, qənaətkar.
Spársamkeit *f oh. pl* qənaətcillik.
Spártakus *m* **1.** *tar.* Spartak; **2.** bax: **Spartakusbund.**
Spártakus || bund *m siy.* "Spartak cəmiyyəti" (*1916-1918-ci illərdə Almaniyada*).
Spárte *f* (11) **1.** elm sahəsi; müəssisə şöbəsi və i.a. **2.** *idm.* idman növü; idman seksiyası.
Spaß *m* (1*) zarafat, əyləncə, əyləndirmə; **zum ~** zarafatla; **ohne ~, ~ beiseite** zarafatsız, zarafat bir yana; **sich mit j-m einen ~ erlauben** kimləsə pis zarafat etmək; **das macht mir ~** bu mənə ləzzət verir; **seinen ~ haben** *mit / an etw.* bir şeydən həzz almaq; **viel ~!** damağınız çağ olsun!
spáßen *vi* zarafat etmək; **ohne zu ~** ciddi, doğrudan-doğruya, gerçəkdən; **du spaßest wohl?** deyəsən zarafat edirsən?; **mit ihm ist nicht zu ~** onunla zarafat etmək / hənəkləşmək olmaz.
Spaßerél *f* (10) zarafat, hənək.
spáßhaft, spáßig *a* zarafatcıl, əyləncəli, gülməli.
Spáß || macher *m*, **~vogel** *m* zarafatcıl / lağlağı adam.
spät I *a* gec, gecikmiş; **zu ~er Stunde** gec vaxtda; **in ~er Nacht** gecə yarıdan keçmiş; **II** *adv* **zu ~ kommen*** gec gəlmək; gecikmək; **wie ~ ist es?** saat neçədir?; **früh und ~** bütün günü.
Spátel *m* (6) *tib.* qaşıq, ərsin.
Spáten *m* (7) bel, kürək.
später I *a* gec, daha gec; **II** *adv* gec, sonra; **früher oder ~** gec-tez bir vaxt.
späterhín *adv* gələcəkdə, sonralar, nəticədə.
spätestens *adv* ... gec olmayaraq, ən geci.
Spät || herbst *m* payızın sonu; **~nachmittag** *m* axşamüstü; **~sommer** *m* yayın sonu.
Spatz *m* (8) sərçə; ◊ **die ~en pfeifen es von allen Dächern** bunu hamı bilir, bu haqda aləm danışır; **er hat ~en im Kopf** o çox lovğalanır.
spazíeren *vi* (*s*) (*çox vaxt:* **~gehen***) gəzmək, gəzməyə getmək.
Spazíer || fahrt *f* gəzmə, gəzinti (*miniklə*); **~gang** *m* gəzinti, ayaq səyri; **~gänger** *m* (6) gəzən, seyrə çıxan adam; **~ritt** *m* atda gəzmə; **~stock** *m* əsa, çəlik.
Specht *m* (1) ağacdələn (*quş*).
Speck *m* (1) donuz piyi; ◊ **wie die Made im ~ sitzen*** ≡ yağ-bal içində üzmək; **den ~ spicken** ≡ şitini çıxarmaq, həddini aşmaq, ağ eləmək.
Spéck || hals *m* boynuyoğun.
spéckig *a* yağlı, piyli; **dreckig und ~** çox çirkli.
spedíeren *vt* göndərmək (*mal*).
Spediteur [tØ:r] *m* (1) ekspeditor.
Speditión *f* (10) **1.** ekspedisiya; **2.** ekspedisiya idarəsi.
Speer *m* (1) mizraq, cida.
Spéiche *f* (11) **1.** mil (*çarxda*); ◊ **j-m in die ~n fallen** ≡ kiməsə mane olmaq; **greife mit in die ~n!** kömək et!; **2.** *anat.* mil sümüyü.
Spéichel *m* -s, *oh. pl* tüpürcək, ağız suyu.
Spéichel || lecker *m* (6) yaltaq.
Spéicher *m* (6) anbar.
spéichern *vt* anbara yığmaq; *elek.* yığmaq, toplamaq.
spéien* *vt* tüpürmək; püskürmək; **Blut ~** qan qusmaq; ◊ **Gift und Galle ~** qəzəblənmək (*über A*).
Spéise *f* (11) **1.** yemək, xörək; **2.** *tikin.* söndürülmüş əhəng.
Spéise || anstalt *f*, **~halle** *f* yeməkxana; **~kammer** *f* anbar; **~karte** *f* menyu (*yemək siyahısı*).
spéisen I *vi* **1.** yemək; **2.** xörək yemək, nahar etmək; **zu Mittag ~** nahar etmək; **zu Abend ~** şam etmək, axşam yeməyi yemək; **II** *vt* **1.** yedizdirmək, qidalandırmaq; **2.** *tex.* təchiz etmək; ◊ **wünsche wohl zu ~!** nuş olsun.
Spéise || röhre *f anat.* qida borusu.
Spéise || saal *m* yeməkxana; **~wagen** *m* vaqon-restoran; **~zimmer** *n* yemək otağı.
Speísung *f* (10) **1.** yeməmə; **2.** *tex.* təchiz.
Spektakel *m* (6) **1.** qalmaqal, qışqırıq, dava; **großen ~ machen** hay-küy salmaq; **2.** *m* tamaşa; **3.** *n* teatr tamaşası.

spektrál *a fiz.* spektral.
Spelt *m* (1) *bot.* pərinc (*buğda növü*).
Spend *f* (11) vermə, bağışlama, ianə (*für A*).
spénden *vt* **1.** ianə etmək; **2. j-m Lob ~** kimisə tərifləmək.
Spénder *m* (6), **~in** *f* (12) kömək edən, ianə verən (*kişi, qadın*).
spendíeren *vt* **1.** qonaq etmək; **2.** bağışlamaq.
Spandíer || hosen *pl:* **die ~ anhaben*** *dan.* sağa-sola xərcləmək.
Spéngler *m* (6) dənəkçi.
Spérber *m* (6) kərkincək (*quş*).
Spérling *m* (1) sərçə; ◊ **Ein ~ in der Hand ist besser als eine Taube auf dem Dach** *ata. söz.* ≡ Soğan olsun, nəğd olsun; Sabahkı quyruqdan bugünkü bağır-öfgə yaxşıdır.
spérrangelwéit *adv* taybatay (*açıq*).
Spérr || baum *m* şlaqbaum; çəpər.
Spérre *f* (11) **1.** hasar, çəpər; **2.** *hərb.* mühasirə, dövrəyə alma; **3.** blokada; **~ über die Einfuhr und Ausfuhr** *iqt.* idxalat və ixracat qadağandır (*über A*); **4.** lokaut.
spérren I *vt* **1.** hasar / çəpər çəkmək; *hərb.* barrikada qurmaq; mühasirəyə almaq; **2.** bağlamaq; **ins Gefängnis ~** həbsə salmaq; **3.** *mətb.* seyrək yığmaq; **4.** qadağan etmək; kəsmək; **das Gas ~** qazı kəsmək; **den Strom ~** *elek.* işığı kəsmək; **II sich ~** (*gegen A*) əleyhinə çıxmaq (*nəyinsə*); tərslik etmək, inad etmək.
Spérr || gut *n d.y.* ağır yük; **~holz** *n* **1.** *tex.* söykəkə; **2.** faner.
Spérrung *f* (10) **1.** hasar, çəpər; **2.** *iqt.* qadağa; **3.** *hərb.* qoruyucu çaxmaq.
Spérr || zoll *m iqt.* yasaqlayıcı gömrük (*vergi*); **~zone** *f* yasaq zona.
Spésen *pl tic.* xərc, məsarif.
spésen || frei *a tic.* pulsuz, havayı; xərcsiz; franko.
speziál *a* xüsusi.
Speziál || fach *n* ixtisas.
spezialisíeren (sich) (*für A*) ixtisaslaşmaq.
Spezialität *f* (10) ixtisas.
speziéll *a* xüsusi, məxsusi.
Spézies *f inv* **1.** *biol.* növ; **2. die vier ~** *riyaz.* dörd əməliyyat.
spezífisch *a* spesifik, özümlü, xüsusi; **~es Gewicht** *fiz.* xüsusi çəki.
spezifizíeren *vt* özümlü xassələrini göstərmək; müfəssəl göstərmək.
Sphäre *f* (11) **1.** *astr.* fəza (*göy boşluğu*); **2.** *riyaz.* kürə, şar; **3.** *məc.* fəaliyyət dairəsi; mühit.
sphärisch *a astr., riyaz.* kürəvi, sferik, kürəşəkilli.
Sphínx *f* (10) sfinks.
spícken *vt* **1.** içini / arasını piylə doldurmaq; **2.** *məc.* cibini doldurmaq (*varlanmaq*); **3.** *dan.* şparqalkadan istifadə etmək (*məktəbdə*).
spie: speien *felinin impf*'i.
Spíegel *m* (6) **1.** güzgü; reflektor; **j-m den ~ vorhalten*** kiməsə öz eybini göstərmək; **das wird er sich nicht hinter den ~ stecken** o bununla öyünməz; **2.** mayelərin səthi; **3.** *hərb.* hədəf almacığı; **4.** periskop; **5.** rəsmi paltarların yaxasına vurulmuş nişan.
Spíegel || bild *n* əks.
spíegel || blank *a* tərtəmiz, güzgü kimi parlaq.
Spíegel || eier *pl* nümru (*qayğanaq*); **~fechter** *m* gözdən pərdə asan.
spíegel || glatt *a* güzgü kimi hamar.
spíegeln I *vi* **1.** parıldamaq, işıldamaq; **2.** işığı əks etdirmək; **II** *vt* əks etdirmək, göstərmək; **III sich ~** əks olunmaq, şəkli düşmək.
Spíeg(e)lung *f* (10) əksetdirmə.
Spiel *n* (2) **1.** oyun; ◊ **ein leichtes ~ mit j-m haben** kiminsə asanlıqla öhdəsindən gəlmək; **die Hand im ~e haben** (*bei D*) nəzdə əli olmaq; **das ~ verloren geben*** təslim olmaq; **lassen Sie mich bei dieser Sache aus dem ~** məni bu işə cəlb etməyin; **2.** zarafat; **3.:** ein **~ Karten** bir dəstə oyun kartı; **4.** *tex.* ara, aralıq, deşik.
Spíel || ball *m* **1.** top, şar; **2.** *məc.* oyuncaq.
Spíel || dose *f* musiqiçalan qutu; **~film** *m* bədii film.
spíelen *vt, vi* **1.** oynamaq; **2.** *tea.* rolu ifa etmək; **eine Rolle ~** *məc.* 1) rol oynamaq; 2) hiylə işlətmək, yalandan özünü göstərmək; ◊ **j-m einen Streich ~** kimisə ələ salmaq; **die Handlung spielt in Hamburg** hadisə Hamburqda vaqe olur; **j-m** etw. **aus der Tasche ~** kiminsə cibindən nə isə çıxartmaq; etw. **~ lassen*** işə salmaq.

spíelend *adv* çalaraq; *məc.* asan.
Spíeler *m* (6) oyunçu, oynayan.
Spielerei *f* (10) oyun, əylənco.
Spíel || feld *n tdm.* oyun meydançası; **~fläche** *f tea.* səhnə; **~folge** *f tea.* tamaşa proqramı;

spirál || förmig *a* spiralvari.
Spirituosen *pl* spirtli içkilər.
Spíritus *m* -, -/-se spirt.
Spital *n* (5), **Spíttel** *n* (6), *m* (6) xəstəxana, hospital (*hərbi xəstəxana*).

Spontaneität *f* (10) qeyri-iradilik, qeyri-şüurluluq; herkilik.
Spóren *pl* mahmız.
Sporn *m*, -(e)s, **Spóren** 1. mahmız; 2. *oh. pl* stimul, təkan.

sprách || fertig *a* bax: **sprachgewandt.**
Sprách || fertigkeit *f* (10) natiqlik istedadı, gözəl və aydın danışma qabiliyyəti; **~forscher** *m* dilçi, dilşünas; **~forschung** *f* dilçilik, dilşünaslıq; **~führer** *m* danışıq kitabı

qəti hökm çıxartmaq; kiməsə iş kəsmək; **2.** *hərb.* qərargah.

stabil *a* sabit, möhkəm, davamlı; **ein ~er Bursche** *dan.* möhkəm / mətanətli oğlan.

Stabilisierung *f* (10) möhkəmlənmə, daimiləşmə, sabitləşmə.

Stabilität *f oh. pl* möhkəmlik, sabitlik.

stach: stechen *felinin impf'i.*

Stachel *m* (13) **1.** iynə, neştər; dil (*ilanda*); **2.** tikan; milçə, mil; **3.** stimul; ◊ **wider den ~ lecken** nəyəsə zidd getmək.

Stáchel || beere *f* moruq; **~ draht** *m* tikanlı məftil.

stáchel || förmig *a* tikanvari.

stách(e)lig *a* **1.** tikanlı; **2.** *məc.* acı, kəskin, zəhərli.

stácheln *vt* **1.** sancmaq, vurmaq, çalmaq; **2.** vadar etmək, həvəs oyatmaq; **3.** acıqlandırmaq, sancmaq, acılamaq.

Stáchel || schwein *n* **1.** tirəndaz (*oxlu kirpi*); **2.** *məc., dan.* üzü tüklü adam.

Stádion *n* stadion.

Stádium *n* -s, **-ien** mərhələ, pillə, dərəcə; dövr.

Stadt *f* (3) şəhər; **außerhalb der ~** şəhər kənarında.

Stádt || amt *n* **1.** vəzifə (*bələdiyyə idarəsində*); **2.** bələdiyyə idarəsi; **~auswahl** *f idm.* bir şəhərin yığma komandası; **~bahn** *f* şəhər dəmiryolu.

stádt || bekannt *a* şəhərdə məşhur; məşhur, hamıya məlum/olan.

Stádt || bewohner *m* şəhər sakini; **~bezirk** *m* şəhər rayonu.

Städtchen *n* (7) kiçik şəhər.

Städter *m* (6), **-in** *f* (12) şəhərli (*kişi, qadın*).

Stádt || gebiet *n* şəhər ərazisi.

städtisch *a* şəhərli, məhəllə, bələdiyyə (*sif.*).

stádt || kundig *a* şəhərlə tanış, şəhərə bələd.

Stádt || rat *m* **1.** bələdiyyə idarəsi; **2.** bələdiyyə müşaviri; **~teil** *m* şəhərin bir hissəsi; məhəllə.

Stafétte *f* (11) estafet (*qaçış yarışı*).

Stáffel *f* (11) **1.** pillə, pilləli yer, çıxıntı; **2.** *hərb.* eşelon; *av.* eskadrilya.

stáffeln *vt* **1.** pillə-pillə yerləşdirmək; şahmat üsulu ilə yerləşdirmək; **2.** *hərb.* eşelonlaşdırmaq.

stahl: stehlen *felinin impf'i.*

Stahl *m* (1, 1*) **1.** polad; **2.** kəski, tiyə.

Stáhl || blech *n* polad təbəqə; **~eisen** *n* döymə çuqun.

stählen **I** *vt* möhkəmlətmək, bərkitmək (*həmç. məc.*); **II sich ~** *məc.* bərkimək, möhkəmlənmək.

stählern *a* polad, poladdan hazırlanmış.

Stáhl || feder *f* **1.** polad pero; **2.** polad yay; **~gießer** *m* (6) poladəridən; **~gießerei** *f* poladtökmə emalatxanası.

stáhl || hart *a* polad kimi möhkəm.

Stáhl || helm *m* polad dəbilqə, polad papaq; **~hütte** *f* poladtökən/poladəridən zavod; **~kammer** *f* seyf.

Stählung *f* (10) bərkimə, möhkəmlik.

Stáhl || werk *n* bax: **Stáhlhütte.**

stak: stecken *felinin impf'i.*

Stakét *n* (2) taxta hasar.

Stakét(en) || zaun *m* bax: **Stakét.**

Stall *m* (1*) pəyə, tövlə; **einen ~ ausmisten** tövləni təmizləmək; *məc.* dolaşıq işi yoluna qoymaq.

Stáll || hase *m dan.* adadovşanı; **~bursche** *m*, **~knecht** *m* mehtər, atabaxan; **~mist** *m* peyin.

Stállung *f* (10) tövlə; budaq (*tövlədə bir heyvan üçün yer*).

Stamm *m* (1*) **1.** gövdə, kök (*bitkidə*); **2.** tayfa, qəbilə; **3.** *hərb.* kadr; **4.** *qram.* söz kökü.

Stámm || baum *m* nəsil şəcərəsi, nəsil tarixi; **~buch** *n* **1.** xatirə kitabı (*evin dostlarının və qonaqlarının öz xatirələrini yazması üçün ev kitabı*); ◊ **das ihm ins ~!** Qoy unutmasın!; **2.** şəcərə kitabı.

stámmeln *vi* **I** kəkələmək, pəltəkləmək; dili dolaşmaq; **II** *vt* burnunun altında danışmaq; **er stammelte ein Paar Worte** o hıqqanahıqqana bir-iki kəlmə danışdı.

stámmen *vi* törəmək; əmələ gəlmək, filan əsilli olmaq.

Stámm || gast *m* daimi müştəri; **~halter** *m* nəsli davam etdirən.

stämmig *a* möhkəm, möhkəm köklü (*ağac*); güclü, yekəpər.

Stámm || kapital *n iqt.* güclü sərmayə.

Stámmler *m* (6), **~in** *f* (12) kəkə, pəltək (*kişi, qadın*).

Stámm || sitz *m* **1.** daimi yaşama yeri; **2.** *tea.* daimi yer (*abunə ilə*); **~vater** *m* ulubaba, əcdad.

stámm || verwandt *a* **1.** həmqəbilə; **2.** *qram.* bir kökdən.

Stámm || wort *n* (*pl* **-wörter**) *qram.* söz kökü; **~vokal** *m dilç.* kökdə duran sait.

Stampf || beton *m tex.* döyəclənmiş beton.

stámpfen **I** *vt* döymək, əzmək; döyüb bərkitmək; **mit den Füßen ~** ağır-ağır addımlamaq; **II** *vi dəniz.* baş vurmaq (*gəmi*), uzununa yırğalanmaq.

Stand *m* (1*) **1.** hal, vəziyyət; **einen schweren ~ haben** çətin vəziyyətdə olmaq; **gut im / in gutem ~e sein** yaxşı vəziyyətdə olmaq; **2.** büdkə, köşk; **3.** səviyyə; məzənnə (*aksiyada*); **4.** *tar.* silk, təbəqə; **5.** burdaq.

Standárte *f* (11) bayraq.

Stánd || bild *n* heykəl.

Ständchen *n* (7) serenada (*sevgi mahnısı*).

Ständer *m* (6) **1.** dayaq, dirək; **2.** piştaxta.

Standes || amt *n* kəbin evi; **~beamte** *m* kəbin evinin işçisi (*kişi*).

ständes || gemäß *a* adına / silkinə layiq, vəzifəsinə / rütbəsinə münasib.

Stánd || gericht *n* hərbi-səhra məhkəməsi.

ständhaft *a* möhkəm, davamlı; sarsılmaz, mətin.

Standhaftigkeit *f* (10) möhkəmlik, davamlılıq; sarsılmazlıq, mətinlik; inad, tərslik.

stand || halten* *vi* (*D*) möhkəm dayanmaq, müqavimət göstərmək (*nəyəsə*).

ständig *a* daimi.

Stánd || nummer *f* şifr (*kitabxanalarda qeyd işarəsi*); **~ort** *m* dayanacaq yeri, duracaq; yerləşmə yeri; **~platz** *m* bax: **Stándort; ~punkt** *m* **1.** mövqe, yerləşmə; **2.** nöqteyi-nəzər, baxım; **einen ~ vertreten*** hərhansı bir fikirdə olmaq; **j-m gründlich den ~ klarmachen** kiməsə hərəkətinin yanlış olmasını aydınlaşdırmaq.

Stánge *f* (11) **1.** paya; **2. j-m die ~ halten*** 1) kiminsə tərəfini saxlamaq; 2) kiməsə (*nədəsə*) güzəştə getməmək; **bei der ~ bleiben*** axıra qədər möhkəm durmaq; ◊ **eine ~ angeben*** *dan.* öyünmək; **eine ~ Geld kosten** *dan.* baha başa gəlmək; **3.** *məc.* uzundraz, nataraz (*adam*); **4.** *dəniz.* ştok (*lövbər qolu*).

Stángen || eisen *n tex.* zol dəmir; **~pferd** *n* ortadakı at (*üçatlı qoşquda*).

stank: stinken *felinin impf'i.*

Stänker *m* (6) **1.** *zool.* porsuq; **2.** *dan.* intriqaçı, aravuruşduran.

Stänkerei *f* (10) *dan.* dalaşma, höcətləşmə, intriqa.

stänk(e)rig *a* **1.** üfunətli, qoxumuş; **2.** *dan.* deyingən, davakar; intriqaçı, aravuruşduran.

stänkern *vi* **1.** iylənmək; **2.** *dan.* çəkişmək, intriqa yaratmaq.

Stánze I *f* (11) *ədəb.* stans (*tam qitə və ya beytlərdən ibarət şeir*).

Stánze II *f* (11) *tex.* ştamp (*maşın hissələri və s. qayırmaq üçün metal qəlib və ya alət*).

stánzen *vt tex.* sikkələmək, kəsmək (*pul*); ştamplamaq.

Stápel *m* (6) **1.** *dəniz.* stapel (*tərsanələrdə üzərində gəmi qayırılıb suya salınmış yer, mail körpü*); **vom ~ laufen lassen*** suya salmaq (*gəmini*); ◊ **eine Rede vom [von] ~ lassen*** ehtirasla nitq söyləmək; **2.** anbar, yığım yeri; **3.** qalaq, yığın; **ein ~ Bücher** bir qalaq kitab, bir qucaq kitab.

stápeln *vt* qalaqlamaq, qalaq vurmaq.

Stápel || platz *m* anbar; **~ware** *f* kütləvi istehlak malı.

Stápfe *f* (11) ayaq izi.

stápfen *vi* (*s*) ağır-ağır addımlamaq.

Star I *m* (1, 8) sığırçın.

Star II *m* (1) *tib.* katarakt, **grauer ~** ağ (*göz qarasına düşən ağ ləkə*); **j-m den ~ stechen*** 1) *tib.* kataraktı kəsmək; 2) *məc.* kiminsə gözünü açmaq.

Star III [st-] *m* -s, -s məşhur artist, ulduz.

starb: sterben *felinin impf'i.*

stár || blind *a* katarakt xəstəliyinə tutulmuş.

stark **I** *a* qüvvətli, güclü; möhkəm; qüdrətli; dolğun, şişman, tosqun; ◊ **das ist ein ~es Stück** bu həyasızlıqdır; **II** *adv* güclü, şiddətli, daha, olduqca, çox; **~ beschäftigt sein** çox məşğul olmaq, çox işi olmaq; **es regnet ~** bərk yağış yağır; **20 Mann ~** 20 adamdan ibarət; ◊ **es geht ~ auf zehn (Uhr)** saat ona az qalır; **wie ~ ist die Auflage dieses Buches?** bu kitabın tirajı nə qədərdir?

Stärke *f oh. pl* **1.** qüvvə; möhkəmlik, davamlılıq; qalınlıq, yoğunluq; **Mathematik ist seine ~** o, riyaziyyatdan qüvvətlidir; **2.** miqdar, say; **3.** nişasta (*kraxmal*).

Stärke || blau *n* lilə; **~mehl** *n oh. pl* nişasta, kraxmal.

stärken I *vt* **1.** möhkəmləndirmək, şiddətləndirmək; **2.** nişastalamaq, kraxmallamaq; **II sich ~** qarnını doydurmaq; *dan.* artıq içmək.

Stärke || sirup *m* patka.

stark || knochig *a* irisümüklü (*adam*).

Stark || strom *m elek.* yüksək gərginlik, cərəyan.

Stärkung *f* (10) **1.** möhkəmlətmə; bərkitmə; qüvvətləndirmə; **2.** *tib.* qüvvətləndirici vasitə (*dərman*).

starr *a* **1.** hərəkətsiz; dikilmiş, zillənmiş (*baxış*); **2.** donmuş, keyimiş (*soyuqdan*); *məc.* donmuş, mat qalmış (*təəccübdən, qorxudan*); **3.** bərk; **4.** tərs, inadcıl; **er hat einen ~en Nacken** o, tərs adamdır.

stárren *vi* **1.** diqqətlə baxmaq; **2.** donub qalmaq; **3.** (*von D*) örtülmək; bulanmaq (*nəyəsə*); **seine Kleider ~ vor Schmutz** onun paltarı tamam batmışdı / bulanmışdı.

Stárrheit *f* (10) **1.** diqqətlilik, diqqət (*baxış*); **2.** donma, donub qalma, hərəkətsizlilik; **3.** dərin təəccüb; **4.** qəddarlıq, amansızlıq; **5.** möhkəmlik, sarsılmazlıq, tərslik.

Stárr || kopf *m* tərs adam.

stárr || köpfig *a* tərs, inad.

Stárr || köpfigkeit *f* (10) tərslik, inadcıllıq.

Stárr || krampf *m oh. pl tib.* tetanus (*yoluxucu xəstəlik*).

stárr || sinnig *a* bax

Statións || chef *m* **1.** stansiya rəisi; **2.** *hərb.* dəniz dairə komandanı; **~vorsteher** *m* stansiya rəisi.

statisch *a* kəhkir.

statístisch *a* statistik.

Statív *n* (2) ştativ, altlıq.

statt *prp* (*G*) ... yerinə, ... əvəzinə; **~ meiner** mənim əvəzimə / yerimə; **~ seines Bruders** öz qardaşının əvəzinə; **II** *cj* (*inf* + **zu** *ilə*) ... etmək əvəzinə; **~ zu arbeiten, unterhält er sich** işləmək əvəzinə danışır, o işi qoyub söhbət edir.

Statt: *j-n* **an Kindes ~ annehmen*** övladlığa götürmək; **an meiner ~** mənim yerimə.

Stätte *f* (11) **1.** yer; sığınacaq; **2.** əsas, mərkəz.

státt || finden* *vi* olmaq; baş tutmaq.

státthaft *a* yolverilən, mümkün ola bilən; münasib.

Státt || halter *m* (6) canişin, sərdar, vali.

státtlich *a* qamətli, boylu-buxunlu; böyük, əhəmiyyətli.

Státue *f* (11) heykəl.

Statúr *f* (10) bədən, qamət, boy.

Statút *n* (13) nizamnamə, əsasnamə.

statutárisch, statúten || mäßig *a* nizamnaməyə uyğun.

Stau *m* (1) **1.** su səthinin qalxması (*bənd naticəsində*); **im ~ sein** qalxmaq (*su*); **2.** tıxac (*küçə hərəkətində*).

Stáu || anlage *f* bənd; sututar.

Staub *m* -(e)s, *oh. pl* **1.** toz; **2.** heç, fani şey; ◊ **~ aufwirbeln** hay-küy qaldırmaq; **sich aus dem ~e machen** əkilmək, sürüşquluya dəm vermək.

stáub || dicht *a* tozkeçirməz.

stáuben I *vi* tozlanmaq; **II** *vimp:* **es staubt**

3. *dan.* oğurlamaq; **4.** *məc.* kimisə məzəmmət etmək.

Stáu || damm *m* bənd.

Stáude *f* (11) **1.** kolcuq; **2.** baş (*kələm*).

stáuen I *vt* bənd çəkmək, qabağını kəsmək (*suyun*); **II sich ~ 1.** hərəkətsiz qalmaq; **2.** yığılmaq, toplanmaq.

stáunen *vi* (*über A*) heyrətlənmək, təəccüblənmək (*nəyəsə*).

stáunens || wert *a* təəccüblü, heyrətləndirici.

Stáupe *f* (11) yoluxucu xəstəlik.

Stáu || see *m* iri su anbarı.

Stáuung *f* (10) **1.** *dəniz.* gəminin yük vasitəsi ilə tarazlaşdırılması; **2.** su səthinin qalxması; **3.** durğunluq, süstlük.

Stáu || wasser *n* bəndə alınmış su; **~wehr** *n* dayaqlı bənd.

Stéch || apfel *m bot.* dəli bənk.

stéchen* **I** *vt* **1.** sancmaq; vurmaq, çalmaq; ◊ **ihn sticht der Hafer** onun arpası artıq düşüb, şadlığına şitlik edir, şadlığına şıllaq atır; **2.** kəsmək; **Schweine ~** donuz kəsmək; **3.** *tex.* oymaq, naxışlamaq; **4.: eine Kontrólluhr ~** yoxlayıcı saatda vaxtı qeyd etmək; **II** *vi* **1.** (*h*): **die Sonne sticht** günəş yandırır; **2.** (*s*): **in See ~** *məc.* açıq dənizə çıxmaq; **in die Augen ~** gözə çarpmaq; ◊ **das ist nicht gehauen und nicht gestochen** bu heç nəyə yaramaz; **in ein Wespennest ~** gizli işin üstünü açmaq.

Stéch || fliege *f zool.* payız milçəyi; **~heber** *m* (6) pipet, damcıtökən; sifon; **~uhr** *f* yoxlayıcı saat.

Stéck || brief *m* həbs haqqında əmr.

stéck || brieflich *a:* **j-n ~ verfolgen** kiminsə həbsi barədə sərəncam vermək.

stécken || bleiben* *vi* (*s*) **1.** ilişib qalmaq; **2.** *məc.* dili dolaşmaq, duruxa-duruxa danışmaq.

Stécken || pferd *n* **1.** taxta at; **2.** *məc.* kiminsə sevdiyi və ya bildiyi sahə, kiminsə at oynatdığı sahə.

Stécker *m* (6) *elek.* işıq çəngəli.

Stéckling *m* (1) *bot.* ting; gövdəcik, saplaq.

Stéck || nadel *f* sancaq; ◊ **j-n [etw.] wie eine ~ suchen** ≡ kimisə, nəyisə bərk axtarmaq; **~rübe** *f bot.* şalğam.

Steg *m* (1) **1.** cığır (*yol*); **2.** dar körpü.

Stég || reif *m* -(e)s, *oh. pl:* **aus dem ~** hazırlıqsız, sinədən.

Stéh || bierhalle *f* bar (*ayaqüstü restoran*), pivəxana.

stéh(e)n* *vi* (*s*) durmaq; olmaq; **auf eigenen Füßen ~** *məc.* müstəqil olmaq; **mir standen die Haare zu Berge** *məc.* tüklərim biz-biz oldu; **ich weiß nicht, wo mir der Kopf steht** başımı itirmişəm; **der Hafer steht gut** yulaf yaxşı cücərib / boy atıb; **j-m zur Verfügung ~** kiminsə ixtiyarında / sərəncamında olmaq; **j-m nahe ~** kiməsə yaxın olmaq / yaxınlıq etmək; **für etw. ~** nəyəsə cavabdeh olmaq; **j-m im Wege ~** kiməsə əngəl törətmək, mane olmaq; **in Arbeit ~** işləmək; **wie geht's, wie steht's** işlər necədir?, **wie steht es?** (*mit D, um A*) işlər nə haldadır / vəziyyətdədir; **seinen Mann ~** *məc.* adını batırmamaq; **j-m Rede und Antwort ~** kiməsə cavab vermək; **im Begriffe ~** niyyət etmək, nəyinsə niyyətində olmaq; **das Kleid steht dir gut** paltar sənə yaxşı yaraşır; **sich gut ~** yaxşı mədaxili ol-

stéhen || lassen* *vt* tərpətmək; atıb getmək; ◊ **alles stehen- und liegenlassen** altını altında, üstünü üstündə qoyub getmək.

Stéh || kragen *m* dik yaxalıq; **~lampe** *f* **1.** masa çırağı; **2.** torşer.

stéhlen* **I** *vt* oğurlamaq; **das kann mir gestohlen bleiben*** 1) mənim buna ehtiyacım yoxdur; 2) bu məni maraqlandırmır; **II sich ~ : sich aus dem Hause ~** evdən xəlvətcə çıxıb getmək / əkilmək.

Stéhler *m* (6) bax: **Dieb.**

stehn *vi* (*s*) bax: **stéhen.**

Stéh || platz *m* ayaqüstü yer (*teatrda* və s.).

steif *a* **1.** bərk; tarım, gərgin, sərt; **~ werden** taxtaya dönmək, keyimək, donub qalmaq; **2.** qurumuş, donmuş, keyləşmiş; **3.** *məc.* inadkar, inadcıl; **4.** kobud; **5.** ifrat dərəcədə ciddi, rəsmiyyətcil; ◊ etw. **~ und fest behaupten** dediyinin üstündə durmaq, dediyindən dönməmək; **halten Sie die Ohren ~!** ayıq olun!, sayıq olun! **~er Hals** *tib.* qatmış boyun.

stéifen *vt* tarımlamaq, nişastaya salmaq, kraxmallamaq.

Stéif || leinen *n*, **~leinwand** *f* müşəmbə.

Steig *m* (1) cığır.

Stéig || bügel *m* üzəngi.

Stéige *f* (11) çıxma, doğma.

stéigen* *vi* **(s) 1.** qalxmaq, çıxmaq; yüksəlmək, ucalmaq; enmək; **die Schamröte stieg ihm ins Gesicht** utandığından onun üzü qızardı; ◊ **j-m aufs Dach ~** kimisə danlamaq, cəzalandırmaq; **2.** minmək (*ata, qatara*); **3.** şahə qalxmaq (*at*); **4.** artmaq, çoxalmaq (*su*).

stéigern *vt* **1.** qaldırmaq, artırmaq (*qiyməti*); **2.** qüvvətləndirmək, gücləndirmək; **3.** *qram.* dərəcəyə yüksəltmək, dərəcələndirmək; işlətmək.

Stéigerung *f* (10) **1.** qalxma, yüksəlmə; şiddətlənmə; gücləndirmə; **2.** *qram.* dərəcələnmə.

Stéigerungs || stufe *f qram.* dərəcə.

Stéigung *f* (10) yoxuş.

steil *a* dik, sıldırım; yalçın.

Stéile *f* (11) diklik.

Stein *m* (1) **1.** daş; ◊ **der ~ kommt ins Rollen** iş artıq yoluna düşüb, iş irəliləyir; **wie ein Tropfen auf einen heißen ~** ≡ dənizdə bir damla kimi; **keinen ~ auf dem andern lassen*** daşı-daş üstündə qoymamaq; **der ~ der Weisen** iksir; **über Stock und ~** çaparaq, cəld; **bei j-m einen ~ im Brett haben** *dan.* kiminsə yanında hörməti olmaq; **~ und Bein schwören*** and içərək inandırmaq; **j--m ~e in den Weg legen** kimisə əngəl törətmək; **2.** çəyirdək (*meyvədə*); **3.** dama daşı (*oyunda*).

Stéin || adler *m* berkut (*qartal cinsindən yırtıcı quş*).

stéin || ält *a* çox qoca, pirani; çox qədim.

Stéin || arbeiter *m* bənna; **~bock** *m* **1.** *tikin.* hündür skamya (*daşdan*); **2.** *astr.* oğlaq; **~boden** *m* **1.** daşlıq yer; **2.** daş döşəmə; **~bruch** *m* daş karxanası; **~druck** *m* (*pl* **drucke**) *mətb.* litoqrafiya (*daş basması*); **~drucker** *m* litoqraf.

stéinern *a* daşdan, daş (*sif.*); saxsı.

Stéin || frucht *f* çəyirdəkli meyvə; **~gut** *n oh. pl* fayans, saxsı.

stéin || hart *a* daş kimi, bərk.

Stéin || hauer *m* (6) daşyonan.

stéinig *a* daşlıq (*sif.*), daşlı.

stéinigen *vt* daşlamaq, daş-qalaq etmək.

Stéin || kohle *f* daş kömür.

Stéinkohlen || lager *n* daş kömür yatağı.

Stéin || metz *m* bax: **Steinhauer.**

Stéin || öl *n* neft; **~pflaster** *n* daş döşəmə (*küçədə*); **~pilz** *m* ağ göbələk; **~platte** *f* lay, tava daşı, sal daş.

stéin || reich *a* daşlı.

stein || réich *a* həddindən artıq varlı, zəngin.

Stéin || salz *n* daş duz; **~schlag** *m* çınqıl; **~schleifer** *m* təraş ustası, təraşçı; **~schneider** *m* daş üzərinə yazan, həkkak; **~schrift** *f* daş üzərində yazı; **~setzer** *m* bənna; **~zeit** *f oh. pl* daş dövrü.

Steiß *m* (1) dal, arxa, geri; büzdüm (*quşda*).

Stéiß || bein *n anat.* büzdüm.

stéllbar *a* tərpənən, hərəkət edən.

Stéll || dich || ein *n* (-s), **- dan.** görüş.

Stélle *f* (11) **1.** yer; **2.** *məc.* vəzifə, iş; **an ~** təcili yerindəcə; **an Ort und ~ sein** təyin olunmuş yerdə olmaq; **nicht von der ~ kommen*** yerində qalmaq, yerindən tərpənməmək; **3.** büro; məntəqə; **4.** *mus.* pasaj; **5.** *məc.* sitat.

stéllen **I** *vt* (*an A*) qoymaq; yanına qoymaq; **eine Frage ~** sual vermək; **eine Frage zur Debatte ~** hansısa məsələni müzakirəyə qoymaq; **einen Antrag ~** təklif irəli sürmək; **j-n auf die Probe ~** kimisə sınamaq; **j-n in den Schatten ~** kimisə ötmək, keçmək; ◊ etw. **in Abrede ~** nəyisə inkar etmək; **j-n zur Rede ~** kimdənsə cavab istəmək; **II sich ~ 1.** (*D*) durmaq, olmaq (*kiminsə qarşısında*); **sich j-m in den Weg ~** kimisə əngəl olmaq; **sich auf eigene Füße ~** müstəqil yaşamağa başlamaq; **sich auf die Hinterbeine ~** müqavimət göstərmək; **2.** yalandan özünü göstərmək, özünü ... vurmaq; **sich krank ~** özünü xəstəliyə vurmaq.

stéllen || los *a* işsiz.

stéllen || weise *adv* qismən, bəzi yerlərdə.

Stéll || macher *m* (6) araba ustası.

Stéllung *f* (10) **1.** vəziyyət; duruş; mövqe; **2.** vəzifə, qulluq; **in ~ gehen*** işə girmək; **3.** *məc.* nöqteyi-nəzər, baxım; **~ nehmen*** (*zu D*) öz mövqeyini müəyyən etmək; **für** etw. (*A*) **~ nehmen*** hər hansı bir baxışı müdafiə etmək; **gegen** etw. (*A*) **~ nehmen*** nəyinsə əleyhinə çıxmaq; **4.** *hərb.* mövqe; **rückwärtige ~** arxa mövqe; **die ~ beziehen*** *hərb.* mövqe tutmaq.

Stéllung || nahme *f oh. pl* (*bir şeyə*) münasibət; nöqteyi-nəzər.

Stéllungs || bezirk *m hərb.* çağırış dairəsi.

stéllungs || los *a* işsiz.

stéll || vertretend *a* əvəz edən; vəzifəni müvəqqəti ifa edən.

Stéll || vertreter *m* müavin.

Stéll || vorrichtung *f tex.* yerləşdirmə mexanizmi.

Stélz || bein *n* bax: **Stélzfuß.**

Stélze *f* (11) ağacayaq, tayaq.

Stélz || fuß *m* ağacayaq.

Stémm || eisen *n tex.* iskənə.

stémmen **I** *vt* **1.** *tex.* oymaq, dəlmək (*iskənə ilə*); **2.** dayaq vurmaq; **die Arme in die Seiten ~** əllərini belinə vurmaq; **II sich ~** (*gegen A*) dirənmək; söykənmək, dirsəklənmək.

Stémpel *m* (6) **1.** ştempel, möhür; damğa; **2.** *tex.* ştamp; dəstəcik (*həvəngdə*); piston; **3.** *bot.* dişicik, genisey (*bitkidə*).

Stémpel || marke *f* gerbli marka.

stémpeln **I** *vt* möhürləmək; damğa vurmaq; **j-n zum Lüngner ~** kimisə yalançı damğası vurmaq; **II** *vi* (*s*): **~gehen*** əmək birjasında qeyd olunmaq; işsiz qalmaq.

Stémpel || stelle *f* əmək birjası.

Sténgel *m* (6) gövdə; saplaq; ◊ **fall nicht vom ~!** *zaraf.* yıxılma ha!, heyrətlənmə ha!

stenographiéren *vt* stenoqrafiya etmək.

Stenotypístin *f* (12) stenoqrafist (*qadın*).

Stépp || decke *f* yorğan (*sırıqlı*).

Stéppe *f* (11) səhra.

stéppen *vt* sırımaq, sırıqlamaq.

Stépp || naht *f* tikiş yeri; **~stich** *m* tikiş arası.

Stérbe || bett *n* ölüm yatağı; **~gewand** *n*, **~kleid** *n* kəfən.

stérben* *vi* (*s*) (*an D, durch A, für A*) ölmək (*nədənsə, nəyin uğrundasa*); **eines natürlichen Todes ~** öz əcəli ilə ölmək; ◊ **er stirbt nicht an Herzdrücken** *dan.* o öz fikrini gizlətmir.

Stérben *n* -s, *oh. pl* ölüm; tələfat, qırğın (*mal-qara*); **das große ~** taun xəstəliyi; **im ~ liegen*** ölüm ayağında olmaq; **es geht um Leben und ~** ölüm-dirim məsələsi həll olunur; **es war zum ~ langweilig** həddindən artıq cansıxıcı idi.

stérbens || krank *a* ölüm halında olan; **~langweilig** *a* həddindən artıq darıxdırıcı / cansıxıcı.

Stérbens || wort *n*, **~wörtchen** *n*: **kein ~ wort / ~wörtchen** heç bir söz, bir kəlmə də.

stérblich *a* ölümcül.

Stérblichkeit *f oh. pl* ölmə, ölənlərin sayı.

steríl *a* **1.** sonsuz, uşağı olmayan; **2.** *tib.* steril.

Stern **I** *m* (1) ulduz; **der achtzackige ~** səkkizguşəli ulduz.

Stern II *m* (1) *dəniz.* gəminin dal tərəfi.

Stérn || bild *n astr.* bürc (*ulduzlar topası*); **~blume** *f bot.* astra (*çiçək*).

stérn || förmig *a* ulduzvari.

stérn || klar *a*: **eine ~e Nacht** ulduzlu gecə, aydınlıq gecə.

Stérn || kunde *f oh. pl* astronomiya.

stérn || los *a* ulduzsuz.

Stérn || schnuppe *f* axan ulduz; **~warte** *f* rəsədxana.

Sterz *m* (1), **Stérze** *f* (11) **1.** büzdüm (*quşda*); **2.** kotanın dəstəyi, tutacaq.

Stick || arbalet/box: Stickerib.

Stick·er (1), s. dasta, sap/ô. etw. (Akk) mit Stempelwerk ~ sapromaq; sec. dikdörtlük bir

stil || kalem/ vt 1. dayanmaq, (*mixaib*); 2. dözüb nikil eşşmaq.

Stimm·ung f (10) 1. *mus.* köklema, ezlama, qume; 2) *sec.* ahval-ruhiyye; guter ~

maq; **hier entliche ~**

si; **~zettel**

əkan ver-

ylənmək,

ínkfaul.

bəl.

chlagen*

ir şey dü-
~ bieten*

anat. alın
f tib. alın

stóck || finster *a* zülmət, qaranlıq.
Stóck || fisch *m* **1.** treska (*balıq*); **2.** *dan. məc.* axmaq, gic.
stóckig *a* kiflənmiş; üfunətli, iylənmiş; **~e Zähne** çürük dişlər.
Stóck || schnupfen *m tib.* xroniki zökəm / tumov.
stóck || stéif *a* dümdüz; **~táub** *a* tamamilə kar.
Stóckung *f* (10) dayanma, tutulma; tıxanma, ilişik.
Stóck || werk *n* mərtəbə; yarus.
Stóck || zahn *m* azı diş.
Stoff *m* (1) **1.** *fəls.* materiya; maddə; cisim; substansiya; **2.** material; parça; **3.** *məc.* şey, əşya, mövzu; **den ~ beherrschen** işini bilmək; **4.: der edle ~** *zaraf.* çaxır.
stóffhaltig *a* maddi, cismi.
stófflich *a* bax: **stóffhaltig.**
Stóff || name *m qram.* maddə adları bildirən isim; **~wechsel** *m oh. pl fiz.* maddələr mübadiləsi; **~wort** *n* bax: **Stóffname.**
stöhnen *vi* inildəmək; zarımaq.

Stópfen II *n* **-s,** *oh. pl* **1.** gözəmə, yamama; **2.** tıxama, basma; **3.** *dan.* yedirtmə, içirtmə və *s.*
Stópf || garn *n* yamaq sapı; **~mittel** *n tib.* qanınbağlayan dərman; **~nadel** *f* gözək iynəsi.
stopp! *int* **1.** dur!, dayan!, saxla!, tərpənmə!; **2.** nöqtə (*teleqramda*).
Stóppel *f* (11) **1.** biçilmiş əkin yeri, kövşən; **2.** *dan.* cod tük (*qırxılmamış üzdə*).
stóppeln *vt* başaq etmək.
Stóppel || werk *n* kompilyasiya (*müstəqil tədqiqat aparılmadan başqalarının əsərlərindən istifadə yolu ilə düzəldilən əsər*).
stóppen I *vt* **1.** dayandırmaq, saxlamaq; **II** *vi* vaxtı qeyd etmək (*saniyəölçən vasitəsilə*); dayanmaq, dayandırılmaq, saxlanmaq.
Stópp || uhr *f* saniyəölçən.
Stöpsel *m* (6) **1.** tıxac; **2.** *məc. zaraf.* koppuş, pompuş.
stöpseln *vt* bağlamaq (*tıxacla*).
Stör I *m* (1) nərə balığı.
Stör II *f oh. pl* sifarişçinin evində işləmə; **in / auf die ~ gehen*, auf die ~ kommen***

Stóß || dämpfer *m tex.* amortizator, bufer.
Stoßel *m* (6) dəstə; toxac, döyəc.
